# Həmrəylik Günü və Yeni iliniz mübarək!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 275 (30969) 31 dekabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Respublikası 50 milyonluq soydaşımızın Vətənidir



Bizim xaricdə yaşayan böyük ailəmiz vardır, bu, azərbaycanlılardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Bizi fərqləndirən əlamət ondan ibarətdir ki, harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq.

Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi!

Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni illə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial media hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir.**




## Süni intellekt – möcüzələrə əlçatanlıq



Səhifə ⇨ 10

## Azərbaycan gəncliyinin dünya sorağı



Səhifə ⇨ 14

## Azərbaycanın bəşəri idealları



Səhifə ⇨ 13

## Zəfərlər dövrünün iqtisadi yüksəlişi



Səhifə ⇨ 18

## “Kərkicahan, biz də qayıtdıq!”



Səhifə ⇨ 19

# Gələn ilin dövlət büdcəsi və davamlı inkişafın hədəfləri

## *İlin xərclər toplusu 41 milyard manat olacaq*



**Prezident İlham Əliyev Milli Məclisin dekabrın 9-da qəbul etdiyi “2026-cı il dövlət büdcəsi haqqında” qanunu 29 dekabr 2025-ci il tarixində imzalayaraq təsdiqləyib. Bu qanun 2026-cı il yanvarın 1-dən qüvvəyə minir. Yeni dövlət büdcəsi gələn il üçün ölkənin əsas maliyyə göstəricilərini müəyyən edir və əvvəlki illə müqayisədə, artan gəlir və xərc həcmlərini özündə ehtiva edir.**

**(ardı 17-ci səhifədə)**

## Azərbaycan illər ayrıcında

Səhifə ⇨ 11



# Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2026-cı ildə Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin 900 illiyi tamam olur.

Əcəmi Naxçıvani orta əsrlər Azərbaycan memarlığına yeni istiqamət vermiş və dövrün memarlıq üslubuna zəriflik, dinamiklik gətirmiş böyük sənətkardır. Onun fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutan qüdrətli Atabəylər dövlətinin paytaxtı, Yaxın Şərqin mədəniyyət, elm, ticarət və sənət mərkəzlərindən biri Naxçıvan şəhəri ilə bağlı olmuşdur. Əcəmi Naxçıvaninin yaradıcılığı XII əsr Azərbaycan mədəni-ictimai fikrinin yüksəlişinin aydın təzahürlərindəndir. Naxçıvan şəhərindəki ehtişamlı abidələrdən Əcəmi dühasının məhsulu olan Möminə xatun məqbərəsi və Yusif ibn Küseyir türbəsi İslam aləminin şah əsərləri sırasında layiqli yer tutur. Bu monumental tikililər öz incə kompozisiyası və estetik mükəmməlliyi ilə seçilən, misilsiz gözəlliyə malik ölməz sənət inciləridir. Əcəminin parlaq irsi məktəb rolunu oynamış, sonrakı əsrlərdə də Azərbaycan və Yaxın Şərq ölkələrinin memarlığına güclü təsir göstərmişdir.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə keçirilmişdir. Qüdrətli memarın 900 illiyinin UNESCO çərçivəsində qeyd olunan yubileylər siyahısına daxil edilməsi bütövlükdə Azərbaycan xalqının çoxəsrlik mədəniyyətinin zənginliklərinin beynəlxalq miqyasda daha geniş tanıdılmasında mühüm addımdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, orta əsrlər Azərbaycan memarlıq sənətinin inkişafında dərin və silinməz iz qoymuş böyük memar Əcəmi Naxçıvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan memarlığının görkəmli siması Əcəmi Naxçıvaninin 900 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 dekabr 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 304-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 940 (Cild I) ilə təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nın 2.1.6-cı yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.7-ci yarımbənd əlavə edilsin:

"2.1.7. Qanunun 17.3-cü maddəsinə uyğun olaraq, binaların enerji effektivliyi üzrə pasportlaşdırılması.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 dekabr 2025-ci il**

# R.N.Musabəyovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rasim Nəsrəddin oğlu Musabəyov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 dekabr 2025-ci il**

# H.S.Zeynalovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Həsən Sultan oğlu Zeynalov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 dekabr 2025-ci il**

# Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsinin rəisi

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Sosial sahələrin maliyyəsi şöbəsinin müdiri

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru

"Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin İdarə Heyətinin üzvü

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin İdarə Heyətinin üzvü.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 dekabr 2025-ci il**

# Milli Məclisin payız sessiyasının sonuncu iclası

*Parlamentdə illik hesabat dinlənildi, qanun layihələrinə əlavə və dəyişikliklər təsdiqləndi*

**Dünən spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının sonuncu plenar iclası keçirildi. Sahibə Qafarova parlamentin 2025-ci il ərzində fəaliyyəti barədə ətraflı məlumat verdi. Bildirildi ki, il ərzində Milli Məclisin 38 plenar iclası keçirilib, 181 qanun və 33 qərar qəbul edilib. Payız sessiyası dövründə 16 iclas baş tutub, 86 qanun və qərar layihəsinə baxılıb.**



Qəbul edilən sənədlər sırasında 2026-cı ilin dövlət büdcəsi və büdcə zərfi, "Qaz təchizatı haqqında", "İstilik təchizatı haqqında", "Dövlət xidmətləri haqqında", "Azərbaycan Respublikasının daxili qoşunları haqqında", "Xüsusi icra məmurları haqqında" qanunlar xüsusi yer tutub. Sessiya ərzində Milli Məclisdə 8 dinləmə, 3 ictimai müzakirə, 1 genişləndirilmiş iclas və 5 konfrans keçirilib. Parlamentlə Prezident Administrasiyası və hökumət strukturları arasında müntəzəm əməkdaşlığın qanunvericilik fəaliyyətinin keyfiyyətinə müsbət təsir göstərdiyi vurğulanıb.

Spiker qeyd etdi ki, il ərzində 17 ölkəyə 4 rəsmi və 15 işgüzar səfər həyata keçirib. Parlament nümayəndə heyətləri 15 beynəlxalq təşkilatın tədbirlərində iştirak edib, 94 deputat 49 ölkəyə 201 səfər reallaşdırıb. Bu müddətdə 61 ölkə və 20 beynəlxalq təşkilatdan 165 nümayəndə heyəti, ümumilikdə, 1283 xarici qonaq Milli Məclisdə qəbul olunub. Parlament beynəlxalq təşkilatların xətti ilə 10 tədbirə ev sahibliyi edib. Gürcüstan, BƏƏ və Özbəkistan parlamentləri ilə əməkdaşlığa dair memorandum və yol xəritələrinin, eləcə də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə bir sıra beynəlxalq qurumlar arasında əməkdaşlıq sənədlərinin imzalandığı bildirilib.

Dekabrın 8-də Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfrans keçirildiyini nəzərə çatdıran S.Qafarova, eyni zamanda, bəzi beynəlxalq qurumların və xarici dövlətlərin Azərbaycanın suverenliyinə yönəlmiş addımlarına etiraz olaraq parlamentin müvafiq bəyanatlar qəbul etdiyini bildirdi. İl ərzində Milli Məclis 3 minə yaxın vətəndaşı qəbul edib, 22 mindən çox müraciətə baxıb.

Spiker "Konstitusiya və Suverenlik İli" çərçivəsində görülən işlər barədə də məlumat verdi. Onun sözlərinə görə, il ərzində Milli Məclisin təşkilatçılığı ilə, o cümlədən "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda xüsusi iclas daxil olmaqla, ümumilikdə, 18 tədbir keçirilib. Konstitusiyanın 30 illiyinə həsr olunmuş beynəlxalq parlament konfransında 20-yə yaxın ölkədən nümayəndə heyətləri, 8 ölkənin parlament sədrləri və sədr müavinləri, 7 beynəlxalq təşkilatın təmsilçiləri olmaqla 100-dən çox qonaq iştirak edib.

Son olaraq Sahibə Qafarova bildirdi ki, Azərbaycan xalqı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qeyd edəcək. Bu münasibətlə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya Milli Məclis adından təbrik məktubunun ünvanlanması təklif edildi. Təklif alqışlarla qarşılandı.

Daha sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin müraciəti səsləndirildi. Müraciəti deputat Zaur Şükürov oxudu. Müraciətdə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli birlik ideologiyasının Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirildiyi, diasporun gücləndirilməsi, soydaşlarımızın hüquq və milli kimliyinin qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən olduğu vurğulanıb. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası milli həmrəyliyin təntənəsi kimi qiymətləndirilib.

Daha sonra deputatlar gündəlikdə olan məsələlərin müzakirəsinə keçdilər. İlk olaraq "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiqinə dair qanun layihəsi müzakirəyə çıxarıldı. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rizvan Nəbiyev layihəni təqdim etdi. Layihəyə əsasən, 2025-ci il oktyabrın 15-də Kampala şəhərində imzalanmış saziş diplomatik pasport sahiblərinin rəsmi səfərlərinin sadələşdirilməsini və diplomatik münasibətlərin genişləndirilməsini nəzərdə tutur. Sazişə uyğun olaraq tərəflərin diplomatik pasport sahibləri qarşı tərəfin ərazisinə vizasız daxil ola, çıxa və tranzit keçə, 180 gün ərzində 90 gündən artıq olmayan müddətdə qala biləcəklər. Qanun layihəsi müzakirələrdən sonra bir oxunuşda qəbul edildi. Ardınca "Azərbaycan Respublikası Hökuməti ilə Uqanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiqinə dair qanun layihəsi də səsverməyə çıxarılaraq qəbul olundu.

Milli Məclis Şuşa şəhəri ərazisində minatəmizləmə fəaliyyətinin aparılması qaydalarına dair dəyişiklikləri də təsdiqlədi. "Minatəmizləmə fəaliyyəti haqqında" qanuna edilən dəyişikliklərə əsasən, minatəmizləmə zamanı tarixi və arxeoloji əhəmiyyət kəsb edən abidə aşkar edildikdə işlər dərhal dayandırılmalı və bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verilməlidir. İşlərin davam etdirilməsi barədə qərar həmin qurum tərəfindən qəbul olunacaq. Sənəd müzakirələrdən sonra bir oxunuşda qəbul edildi. Müzakirələr zamanı deputat Siyavuş Novruzov qanunun icrası ilə bağlı çıxış edərək Ermənistanın mina xəritələrini təqdim etməməsinin minatəmizləmə prosesini ciddi şəkildə ləngitdiyini bildirdi. O qeyd etdi ki, indiyədək mina partlayışları nəticəsində 400-dən artıq Azərbaycan vətəndaşı həlak olub və ya xəsarət alıb, təqdim edilən mina xəritələrinin yalnız, təxminən, 25 faizi mövcuddur və onların etibarlılığı şübhəlidir. Deputat, həmçinin minatəmizləmə ilə məşğul olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinin, əlavə vergi güzəştlərinin tətbiqinin və dəymiş ziyanın ödənilməsi mexanizmlərinin təkmilləşdirilməsinin zəruri olduğunu vurğuladı.

Daha sonra üçüncü oxunuş üçün nəzərdə tutulan digər 11 qanun layihəsi müvafiq komitələr tərəfindən təqdim edildi. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında", həmçinin Vergi, Əmək, Cinayət, Cəzaların İcrası məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələri müvafiq komitələr tərəfindən təqdim edilərək səsverməyə çıxarıldı və qəbul edildi.

Bununla da MM-in payız sessiyasının sonuncu plenar iclası sona çatdı.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident.**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə xoşbəxtlik və möhkəm cansağlığı arzulayırıq.

Sizin uzaqgörən rəhbərliyiniz, Azərbaycan dövlətinin inkişafı uğrunda yorulmaz fəaliyyətiniz və milli dəyərlərimizin qorunmasına verdiyiniz misilsiz töhfələr hər zaman xalqımızın qürur mənbəyidir.

"Caucasus Arena" İdman Assosiasiyası və "Qabal" İnkişaf, Təhsil Mərkəzi olaraq biz gənclərin sağlam inkişafını, təhsilini və milli-mənəvi dəyərlərimizin qorunmasını əsas məqsədimiz hesab edirik. Gənclərin sağlam həyat tərzi, təhsil və idman sahələrində inkişafına kömək etməklə Sizin bu istiqamətdə siyasətinizi dəstəkləməyə çalışırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan bütün sahələrdə inkişaf edir, gənclər sağlam, vətənpərvər ruhda böyüyürlər, milli-mənəvi dəyərlərimiz qorunur və gələcək nəsillərə çatdırılır.

Sizə və ailənizə xoşbəxtlik, uzun ömür, rifah, fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik.

**Hörmətlə,**

***Yavər MƏMMƏDOV,***
***Gürcüstanda fəaliyyət göstərən "Caucasus Arena" İdman Assosiasiyasının və "Qabal" İnkişaf, Təhsil Mərkəzinin rəhbəri***

# Vahid amallara çağırış

## *Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin müraciəti*

**Milli Məclis dekabrın 30-da keçirilmiş plenar iclasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə müraciət qəbul edib.**

**Müraciəti təqdim edirik:**

"Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Azərbaycan xalqının övladlarını vahid amallar naminə birləşməyə səsləyən həmrəylik günü ərəfəsində hər birinizi hörmətlə salamlayırıq.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 34 il öncə başlanmış mənəvi bütövləşmə prosesi xalqımızın milli mənlik şüuruna və tarixi köklərə bağlılığından güc almışdır. Ulu Öndər milli birlik ideologiyasının möhkəm əsaslarını yaratmış, azərbaycanlıların həmrəyliyinə strateji əhəmiyyət vermiş və Azərbaycançılıq məfkurəsini dövlət siyasətinin önəmli bir amilinə çevirmişdir.

Ötən 22 ildə həmin kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl davam etdirilmişdir. Dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsinə, diaspor təşkilatlarının imkanlarının genişləndirilməsinə və beynəlxalq aləmdə rolunun artırılmasına, harada yaşamasından asılı olmayaraq, soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına dinc qayıdışına dəstək verilməsi xalqımızın birlik və həmrəyliyinin güclənməsinə xidmət edir.

Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulmasını, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını təmin etmiş İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı Azərbaycan Respublikasının güclü bir dövlət olduğunu, Azərbaycan xalqının öz sözünü qəbul etdirə bilən mütəşəkkil bir qüvvə kimi formalaşdığını və daim öz dövlətini dəstəklədiyini nümayiş etdirmişdir.

Zəngin mədəniyyətin və tükənməz yaradıcılıq enerjisinin daşıyıcısı olan Azərbaycan xalqı bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr vermişdir. Şərqin bir sıra qüdrətli dövlətləri xalqımızın istedad və zəkasının gücü ilə qurulmuşdur.

Bugünkü müstəqil Azərbaycan dövləti xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. Hər bir soydaşımız və həmvətənimiz bilir ki, ona arxa duran, şərəf və ləyaqətini qorumağa hazır olan milli dövləti vardır. Odur ki, dünyanın müxtəlif qitələrində məskən salmış soydaşlarımız tarixi Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Azərbaycanın Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilməsi, geniş bir bölgədə söz sahibi olması ilə fəxr edirlər.

Onlar yaşadıqları ölkələrdə fəal vətəndaş mövqeyi tutaraq Azərbaycanın milli maraqlarını dəstəkləyirlər. Soydaşlarımızın və həmvətənlərimizin fəaliyyəti Azərbaycan haqqında obyektiv təsəvvürün formalaşmasına, onun nüfuzunun yüksəlməsinə və xarici dövlətlər ilə humanitar, mədəni və ictimai əlaqələrinin genişlənməsinə kömək göstərir.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Ötən dövrdə əldə edilmiş uğurlar Azərbaycan dövlətinin və cəmiyyətinin müasir çağırışlara lazımınca cavab verməyə və davamlı olaraq irəliyə getməyə qadir olduğunu göstərir. Eyni zamanda, müasir inkişaf mərhələsi daha genişmiqyaslı vəzifələrin yerinə yetirilməsi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanın bütün potensialının üzə çıxarılaraq dünyaya daha yaxından tanıdılması, xalqımızın qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, hər sahədə bir-birinə dəstək olmaqdır. Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi milli amallarımızın gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!".

***XQ***

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi, habelə "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi yaradılsın.

2. "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur).*

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirən və icra göstəricilərini təhlil edən, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olan qurumdur.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bir ay müddətində:

4.1.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi işçilərinin say həddini müəyyən etsin;

4.1.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin maddi-texniki təminatı məsələlərinin həlli və saxlanılma xərclərinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 119, № 8, maddələr 751, 774) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 6-cı hissədə "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə I – "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturu" üzrə:

5.2.1. 2-ci hissədə "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

5.2.2. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi;";

5.2.3. 7-ci hissəyə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin;

5.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə II – "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

5.3.1. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra – Nazirlik) maliyyə, büdcə, audit, vergi, gömrük, dövlət rüsumu və digər büdcə daxilolmaları sahəsində dövlət siyasətini hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, dövlət və icmal büdcələrin layihələrini hazırlayan və dövlət büdcəsinin kassa icrasını təmin edən, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət siyasətinin və tənzimləməsinin, habelə dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının vəsaitlərindən, dövlət zəmanəti ilə alınan və dövlət büdcəsinin vəsaiti hesabına verilən kreditlərdən, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən, həmçinin dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitlərindən (bundan sonra – dövlət vəsaiti) istifadə və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri sahəsində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.";

5.3.2. 3-cü hissədə "icra hakimiyyəti orqanları" sözləri "dövlət orqanları (qurumları)" sözləri ilə, "və qeyri-hökumət təşkilatları ilə" sözləri ", beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

5.3.3. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.";

5.3.4. 5-ci hissəyə "fəaliyyəti" sözündən sonra ", habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin hissədə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda" sözləri ilə əvəz edilsin;

5.3.5. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. Azərbaycan Respublikasının maliyyə, büdcə, vergi, gömrük, dövlət rüsumu dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları sahəsində dövlət siyasətini işləyib hazırlamaq və həyata keçirilməsini aidiyyəti dövlət orqanlarının və digər təşkilatların iştirakı ilə təmin etmək;

7.2. Nazirliyin fəaliyyət sahəsində dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

7.3. dövlət və icmal büdcələrin layihələrinin normativ hüquqi aktlara uyğun olaraq hazırlanmasını və dövlət büdcəsinin icrasını təmin etmək;

7.4. dövlət vəsaitinin təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təşkil etmək;

7.5. dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsini və dövlət zəmanətinin verilməsini təşkil etmək, dövlət borclanma siyasətini işləyib hazırlamaq və həyata keçirilməsini təmin etmək;

7.6. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqinin, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqinin həyata keçirilməsini və icra göstəricilərinin təhlil edilməsini təşkil etmək;

7.7. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində dövlət siyasətini hazırlamaq və fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilməsi üçün tədbirlər görmək;

7.8. Azərbaycan Respublikasında audit fəaliyyəti sahəsində dövlət siyasətini hazırlamaq və həyata keçirilməsi ilə bağlı təkliflər vermək, dövlət orqanlarında (qurumlarında), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə daxili audit qurumlarının fəaliyyətinin əlaqələndirilməsini və vahid metodoloji bazasının yaradılmasını təşkil etmək;

7.9. ölkə iqtisadiyyatına xarici və daxili kreditlərin cəlb edilməsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək;

7.10. büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları, dövlət xəzinədarlığı, dövlət maliyyə nəzarəti, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində normativ hüquqi aktlarla və bu Əsasnamə ilə Nazirliyin fəaliyyət dairəsinə aid edilmiş digər məsələlər üzrə normayaratma fəaliyyətini həyata keçirmək;

7.11. Nazirliyin fəaliyyət sahəsinin inkişafını təmin etmək;

7.12. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.";

5.3.6. 8-ci hissə üzrə:

5.3.6.1. 8.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.2. maliyyə, büdcə, vergi, gömrük, dövlət rüsumu, mühasibat uçotu, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, dövlət maliyyə nəzarəti və audit fəaliyyəti, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları sahəsində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;";

5.3.6.2. 8.3-cü bənddən "və gömrük" sözləri çıxarılsın;

5.3.6.3. 8.4-cü bənddən "hər il növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini hazırlayıb qanunvericilikdə nəzərdə tutulmuş qaydada təqdim etmək," sözləri çıxarılsın;

5.3.6.4. aşağıdakı məzmunda 8.4-1-ci, 8.5-1-ci və 8.5-2-ci bəndlər əlavə edilsin:

"8.4-1. növbəti büdcə ili üzrə dövlət büdcəsi və icmal büdcə ilə bağlı "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sənədləri, o cümlədən büdcə qaydasının parametrlərini hazırlamaq və həmin Qanunla müəyyən edilmiş qaydada təqdim etmək;";

"8.5-1. ortamüddətli xərclər çərçivəsinin, proqram və nəticə əsaslı büdcə mexanizminin tətbiqi və fiskal risklərin idarə edilməsi üçün zəruri tədbirlər görmək;

8.5-2. ortamüddətli xərclər çərçivəsini, o cümlədən ortamüddətli büdcə çərçivəsini, habelə sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının ötən il üzrə icrasına dair monitorinqin nəticələrini hazırlamaq və bununla bağlı normativ hüquqi aktlarla Nazirliyə həvalə olunmuş digər vəzifələrin icrasını təmin etmək;";

5.3.6.5. 8.6-cı bəndə üçüncü halda "vəsaitləri" sözündən sonra ", dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti" sözləri əlavə edilsin;

5.3.6.6. 8.7-ci bənddə "Nazirliyin Dövlət Xəzinədarlığı" sözləri "Nazirlik yanında Dövlət Xəzinədarlıq" sözləri ilə, "maliyyələşən təşkilatların sifarişinə və məxaric cədvəllərinə" sözləri "maliyyə vəsaiti alan təşkilatların sifarişinə" sözləri ilə əvəz edilsin;

5.3.6.7. aşağıdakı məzmunda 8.7-1 – 8.7-4-cü bəndlər əlavə edilsin:

"8.7-1. dövlət büdcəsinə bütün daxilolmalar və ödəmələr, büdcədənkənar haqlar (ödənişlər), büdcədənkənar dövlət fondları (Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri, əməliyyat xərcləri, beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitinin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla), məqsədli büdcə fondları, dövlət büdcəsi kəsirinin bağlanması üçün dövlət borcalmaları üzrə əməliyyatları (Azərbaycan Respublikası adından imzalanmış kredit müqavilələrinin şərtləri nəzərə alınmaqla) və digər dövlət maliyyə əməliyyatlarını Nazirlik yanında Dövlət Xəzinədarlıq Agentliyi vasitəsilə həyata keçirmək;

8.7-2. dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsini təmin etmək və bu müqavilələrin elektron qaydada bağlanılmasını təşkil etmək;

8.7-3. dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatlara dövlət büdcəsindən ayrılan vəsaitdən istifadənin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların Nazirlik yanında Dövlət Xəzinədarlıq Agentliyi vasitəsilə ünvanlı icra edilməsini təşkil etmək;

8.7-4. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesablarına çıxış imkanı əldə etmək;";

5.3.6.8. 8.8-ci bəndə birinci halda "dövlət" sözündən əvvəl "dövlət investisiya siyasətinin, dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları ilə birlikdə təmin etmək, həmçinin" sözləri, "proqramlarının" sözündən sonra ", strategiyalarının" sözü əlavə edilsin;

5.3.6.9. aşağıdakı məzmunda 8.8-1-ci bənd əlavə edilsin:

"8.8-1. dövlət orqanının (qurumunun) tabeliyində yaradılan publik hüquqi şəxslər istisna olmaqla, dövlət adından yaradılan digər publik hüquqi şəxslərlə dövlət sifarişi ilə dövlət büdcəsi hesabına təyinatlı tədbirlərin həyata keçirilməsi üçün məqsədli vəsaitlərin ödənilməsinə dair müqavilə bağlamaq;";

5.3.6.10. 8.9-cu bənddə "zərurət" sözü "dövlət büdcəsinin icrası prosesində dövlət büdcəsinə yenidən baxılma və xərclərə sekvestr tətbiq olunması zərurəti" sözləri ilə, "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.11. 8.10-cu bənddə "büdcə" sözü "dövlət büdcəsi" sözləri ilə, "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.3.6.12. 8.11-ci bənddə "ayrılan vəsaitlərdən" sözləri ", büdcədənkənar dövlət fondlarından ayrılan vəsaitlərdən, həmçinin dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitindən, dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kreditlərdən" sözləri ilə əvəz olunsun və həmin bənddən "əməliyyatlar üzrə" və "maliyyə orqanları ilə razılaşdırılmış qaydada" sözləri çıxarılsın;

5.3.6.13. aşağıdakı məzmunda 8.11-1-ci bənd əlavə edilsin:

"8.11-1. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələrinin və digər infrastruktur layihələrinin, o cümlədən onların ehtimal olunan dəyərinin, layihə-smeta sənədlərinin və texniki-iqtisadi əsaslandırmalarının ilkin maliyyə ekspertizasını aparmaq, habelə həmin layihələr üzrə işlərin icrasına və ayrılan vəsaitdən səmərəli və təyinatı üzrə istifadə olunmasına nəzarət etmək məqsədilə dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsini təmin etmək;";

5.3.6.14. 8.13-cü bənddə "büdcəsinin mərkəzləşdirilmiş xərclərindən" sözləri "büdcəsindən" sözü ilə əvəz edilsin;

5.3.6.15. aşağıdakı məzmunda 8.13-1-ci bənd əlavə edilsin:

"8.13-1. dövlət büdcəsindən maliyyələşən təşkilatlarda əməyin ödənişi, sosial ödənişlər və dövlət icbari şəxsi sığortası üzrə xərclərin büdcə ili ərzində çatışmayan hissəsinin qarşılanması məqsədilə həmin təşkilatın təsdiq olunmuş büdcə ayırmaları həddində funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında müvafiq dəyişiklikləri həyata keçirmək;";

5.3.6.16. 8.14-cü bəndə "dövlət" sözündən əvvəl "bu Əsasnamənin 8.13-1-ci bəndində göstərilən hallar istisna olmaqla," sözləri əlavə edilsin;

5.3.6.17. 8.16-cı bənddə "büdcə gəlirlərinin proqnozlaşdırılmasını və ona metodiki rəhbərliyi" sözləri "dövlət büdcəsinin və icmal büdcənin gəlirlərinin proqnozlaşdırılmasını, ona metodiki rəhbərliyi və koordinasiyanı" sözləri ilə əvəz edilsin;

5.3.6.18. 8.17-ci bəndə "rüsumlarının" sözündən sonra ", gömrük ödənişlərinin" sözləri əlavə edilsin;

5.3.6.19. aşağıdakı məzmunda 8.17-1 – 8.17-4-cü bəndlər əlavə edilsin:

"8.17-1. vergi və gömrük sahəsində güzəşt və azadolmalara dair məlumatların mərkəzləşdirilmiş elektron reyestrini aparmaq, onların dövlət büdcəsinin gəlirlərinə təsirini və səmərəliliyini qiymətləndirmək və qiymətləndirmənin nəticəsinə uyğun təkliflər vermək;

8.17-2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilmiş inzibati cərimələrin dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarına köçürülən hissəsinə dair məlumatları təhlil etmək və həmin məlumatların düzgünlüyünə nəzarətin həyata keçirilməsini təmin etmək;

8.17-3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarət etmək;

8.17-4. dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaiti üzrə gəlir və xərclərinin proqnozlaşdırılmasını, bununla bağlı smetanın tərtibi və təsdiqi üçün zəruri tədbirlər görmək;";

5.3.6.20. 8.18-ci bənddə "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz olunsun və həmin bəndə "etmək" sözündən sonra ", həmçinin ciddi hesabat blanklarının istifadəsinə nəzarəti həyata keçirmək" sözləri əlavə edilsin;

5.3.6.21. 8.21-ci bənddə "Respublikasının" sözündən sonra "enerji balansının və" sözləri əlavə edilsin;

5.3.6.22. 8.22-ci bənddə "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin;

5.3.6.23. aşağıdakı məzmunda 8.23-1 – 8.23-3-cü bəndlər əlavə edilsin:

"8.23-1. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirmək və icra göstəricilərini təhlil edərək nəticələri barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etmək;

8.23-2. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin xalis mənfəətindən dövlət büdcəsinə dividendlərin ödənilməsinə nəzarəti həyata keçirmək;

8.23-3. iri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları üzrə Komissiyanın Katibliyinin funksiyalarını həyata keçirmək;";

5.3.6.24. 8.24-cü bənd aşağıdakı redaksiyada verilsin:

"8.24. dövlət vəsaitinin əldə edilməsi və təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təmin etmək;";

5.3.6.25. 8.25-ci bənddən "yerli maliyyə orqanlarının" sözləri çıxarılsın və həmin bənddə "Agent-bankların" sözü "müvəkkil bankların" sözləri ilə əvəz edilsin;

5.3.6.26. 8.26-cı bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə, "qərarlarına və hüquq mühafizə orqanlarının müraciətlərinə əsasən idarə, müəssisə və təşkilatlarda, məqsədli büdcə və büdcədənkənar dövlət fondlarında təftiş və yoxlamalar" sözləri ", prokurorluq və istintaq orqanlarının qərarlarına əsasən dövlət orqanlarında (qurumlarında), büdcədənkənar dövlət fondlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə dövlət maliyyə nəzarəti tədbirlərini" sözləri ilə əvəz edilsin;

5.3.6.27. aşağıdakı məzmunda 8.26-1-ci bənd əlavə edilsin:

"8.26-1. dövlət maliyyə nəzarəti tədbirləri zamanı dövlət vəsaitindən istifadə ilə bağlı aşkar olunan artıq və əsassız ödənişlərin izlənilməsi məqsədilə onun uçotunun aparılmasını, həmin vəsaitin ilkin mənbəyinə bərpa olunmasına nəzarəti təmin etmək;";

5.3.6.28. 8.27-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.27. Nazirliyin fəaliyyət sahələrində, o cümlədən dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlər görmək;";

5.3.6.29. aşağıdakı məzmunda 8.27-1-ci bənd əlavə edilsin:

"8.27-1. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət orqanının funksiyalarını həyata keçirmək;";

5.3.6.30. 8.30-cu bənddə ikinci halda "etmək" sözündən sonra ", o cümlədən dövlət borcuna və dövlət zəmanəti üzrə yaranmış borca xidmət göstərmək" sözləri əlavə edilsin;

5.3.6.31. 8.31-ci bəndə "məbləğinin" sözündən sonra ", habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"na uyğun olaraq" sözləri əlavə edilsin;

5.3.6.32. 8.31-1-ci bəndə "dövlətə" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"na uyğun olaraq," sözləri əlavə edilsin;

5.3.6.33. 8.31-2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.31-2. dövlət borcu və dövlət zəmanətləri ilə bağlı müqavilələrin hazırlanmasında iştirak etmək, Azərbaycan Respublikası adından borcun alınması və zəmanət verilməsi, dövlət borcunun vaxtında ödənilməsi və ölkə daxilində dövlət qiymətli kağızları bazarının inkişafı barədə təkliflər vermək;";

5.3.6.34. 8.33-cü bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.35. 8.34-cü bəndə birinci halda "dövlət" sözündən əvvəl "dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün tələb olunan vəsaitin həcmi barədə təkliflər vermək və" sözləri əlavə edilsin;

5.3.6.36. 8.37-ci bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.37. 8.38-ci bənddə "gömrük-tarif" sözləri "sığorta" sözü ilə əvəz edilsin;

5.3.6.38. aşağıdakı məzmunda 8.38-1-ci bənd əlavə edilsin:

"8.38-1. dövlət büdcəsinin gəlir və xərclərinə təsir edən normativ hüquqi akt layihələrinin, habelə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaitindən istifadəni nəzərdə tutan hüquqi akt layihələrinin maliyyə ekspertizasını həyata keçirmək və onlara müvafiq rəy vermək;";

5.3.6.39. 8.39-cu bənddən ", dövlət büdcəsindən maliyyələşən qurumların strukturunun, əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsinə və ştat vahidlərinin müəyyən edilməsinə" sözləri çıxarılsın;

5.3.6.40. aşağıdakı məzmunda 8.40-1-ci bənd əlavə edilsin:

"8.40-1. Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin proqnozlaşdırılması, iqtisadiyyatın dövlət tənzimləməsi, onun inkişaf istiqamətləri barədə təkliflər vermək;";

5.3.6.41. 8.41-ci bənddən "büdcəsinin" sözü çıxarılsın;

5.3.6.42. 8.42-ci bənddə "maliyyə (maliyyə-kredit)" sözləri "və regional maliyyə institutları (maliyyə-kredit təşkilatları)" sözləri ilə, "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin;

5.3.6.43. 8.43-cü bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə, "maliyyə-kredit təşkilatları" sözləri "və regional maliyyə institutları (maliyyə-kredit təşkilatları)" sözləri ilə əvəz edilsin;

5.3.6.44. 8.45-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.45. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların strukturu, ştat vahidləri və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirmək, fəaliyyət istiqamətlərinə uyğun olaraq həmin təşkilatlarda əməkhaqlarının düzgün tətbiqinə nəzarət etmək, habelə ştat cədvəlləri və boş (vakant) ştatları barədə məlumatları təhlil etməklə, onların strukturunun təkmilləşdirilməsi, ştat vahidlərinin müəyyən edilməsi və əməkhaqqı sistemlərinin optimallaşdırılması ilə bağlı təkliflər vermək;";

5.3.6.45. 8.46-cı bənd ləğv edilsin;

5.3.6.46. 8.47-ci bənddə "dövlət idarə, müəssisə və təşkilatlarının, o cümlədən" sözləri "dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların," sözləri ilə əvəz edilsin;

5.3.6.47. aşağıdakı məzmunda 8.49-2-ci və 8.49-3-cü bəndlər əlavə edilsin:

"8.49-2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu subyektləri tərəfindən Nazirliyə təqdim edilən maliyyə hesabatları üzrə vahid məlumat bazasını formalaşdırmaq, həmçinin büdcə təşkilatları tərəfindən mühasibat uçotunun elektron formada aparılmasını təşkil etmək;

8.49-3. elektron ciddi hesabat blanklarının vahid reyestrini formalaşdırmaq, aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiya edilməklə həmin blankların real vaxt rejimində izlənilməsini təmin etmək;";

5.3.6.48. 8.50-ci bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.49. 8.51-ci bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.3.6.50. 8.52-ci bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.51. 8.53-cü bənddə "büdcə" sözü "dövlət büdcəsi" sözləri ilə, "normativ tənzimləməni" sözləri "normayaratma fəaliyyətini" sözləri ilə əvəz edilsin;

5.3.6.52. 8.54-cü və 8.55-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"8.54. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, müvafiq olaraq lisenziya və icazə vermək, lisenziyanın və icazənin şərtlərinə riayət olunmasına nəzarət etmək, lisenziya və icazə verən orqanın digər səlahiyyətlərini həyata keçirmək, Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı lisenziya və icazə verilməsinə rəy (razılıq) vermək, habelə normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada digər hüquqmüəyyənedici sənədlər vermək;

8.55. Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş banklar istisna edilməklə, nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan banklarda və bank olmayan kredit təşkilatlarında ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlərin həllində normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada dövlətin adından iştirak etmək, onlardan rüblük hesabatlar almaq və fəaliyyətləri barədə təkliflər hazırlamaq;";

5.3.6.53. aşağıdakı məzmunda 8.55-1-ci bənd əlavə edilsin:

***(ardı 4-cü səhifədə)***

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

*(əvvəli 3-cü səhifədə)*

"8.55-1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarından, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərindən illik maliyyə hesabatlarının, həmçinin həmin təşkilatların qəbul etdiyi ianələr haqqında məlumatların alınmasını təmin etmək;";

5.3.6.54. 8.57-ci bənd ləğv edilsin;

5.3.6.55. 8.58-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.58. Nazirliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;";

5.3.6.56. aşağıdakı məzmunda 8.58-1-ci və 8.58-2-ci bəndlər əlavə edilsin:

"8.58-1. Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

8.58-2. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirliyin fəaliyyət sahəsi üzrə korrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərini və həmin risklərə uyğun olaraq hədəfləri müəyyən etmək, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görmək;";

5.3.6.57. 8.59-cu bəndə "Azərbaycan" sözündən əvvəl "Nazirliyin fəaliyyət sahəsi üzrə" sözləri əlavə olunsun və həmin bənddən "öz səlahiyyətləri daxilində" sözləri çıxarılsın;

5.3.6.58. 8.60-cı bənddə "öz səlahiyyətləri daxilində" sözləri "Nazirliyin fəaliyyət sahəsi üzrə" sözləri ilə əvəz edilsin;

5.3.6.59. aşağıdakı məzmunda 8.60-1-ci bənd əlavə edilsin:

"8.60-1. Nazirlik sistemində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi işini təşkil etmək;";

5.3.6.60. 8.61-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.61. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;";

5.3.6.61. aşağıdakı məzmunda 8.61-1-ci bənd əlavə edilsin:

"8.61-1. Nazirliyin informasiya sistemlərinin fəaliyyətinin təşkilini, idarə olunmasını və təkmilləşdirilməsini təmin etmək, eləcə də onların bütün aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası və real vaxt rejimində məlumatlara çıxışı üçün tədbirlər görmək;";

5.3.6.62. 8.62-ci bənddə "internet saytının" sözləri "rəsmi internet informasiya ehtiyatının" sözləri ilə, "qanunvericiliklə" sözü "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə" sözləri ilə, "saytda" sözü "internet informasiya ehtiyatında" sözləri ilə, "yeniləşdirilməsini" sözü "yenilənməsini" sözü ilə əvəz edilsin;

5.3.6.63. 8.63-cü bənd aşağıdakı redaksiyada verilsin:

"8.63. Nazirliyin Aparatının strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə, o cümlədən vəzifələrini yerinə yetirmək üçün ayrılan büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;";

5.3.6.64. 8.64-cü bənd ləğv edilsin;

5.3.6.65. 8.66-cı bənddən "qanunvericiliyə uyğun olaraq" sözləri çıxarılsın;

5.3.6.66. aşağıdakı məzmunda 8.66-1-ci bənd əlavə edilsin:

"8.66-1. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;";

5.3.6.67. 8.68-ci bənddə "büdcə vəsaitləri" sözləri "dövlət büdcəsi vəsaitindən, fəaliyyət istiqamətləri üzrə əldə edilən büdcədənkənar vəsaitdən" sözləri ilə, "olunması üçün tədbirlər görmək və ona nəzarət" sözləri "olunmasını təmin" sözləri ilə əvəz edilsin;

5.3.6.68. aşağıdakı məzmunda 8.68-1 – 8.68-5-ci bəndlər əlavə edilsin:

"8.68-1. Nazirlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək, habelə Nazirliyin strukturuna daxil olan qurumlarda və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasına nəzarəti həyata keçirmək;

8.68-2. Nazirlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

8.68-3. inzibati icraata dair fəaliyyətini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydaları daxilində və prinsiplər əsasında həyata keçirmək;

8.68-4. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirlik yanında İctimai Şura yaradılmasını təmin etmək;

8.68-5. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, səfərbərlik hazırlığı və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak etmək;";

5.3.6.69. 8.69-cu bənd aşağıdakı redaksiyada verilsin:

"8.69. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

5.3.7. 9-cu hissə üzrə:

5.3.7.1. 9.1-ci bənddə "mövcud qanunvericiliklə" sözləri "normativ hüquqi aktlarla" sözləri ilə əvəz olunsun, həmin bənddən "zərurət yarandıqda" sözləri çıxarılsın və həmin bəndə "bələdiyyələrdən" sözündən sonra ", məqsədli büdcə" sözləri əlavə edilsin;

5.3.7.2. aşağıdakı məzmunda 9.1-1-ci bənd əlavə edilsin:

"9.1-1. dövlət büdcəsinin gəlirlərini təmin edən dövlət orqanlarından və sorğu əsasında büdcə təşkilatlarından növbəti il və sonrakı üç il üçün büdcə-vergi siyasətinin əsas istiqamətlərinə dair təklifləri və büdcə qaydasının hesablanması üçün tələb olunan məlumatları almaq;";

5.3.7.3. 9.2-ci bənddə "yardımları" sözü "vəsaiti" sözü ilə əvəz olunsun və həmin bəndə "vəsaitlərdən" sözündən sonra ", dövlət adından yaradılan publik hüquqi şəxslərə münasibətdə isə həmçinin onların fəaliyyətindən əldə olunan vəsaitdən" sözləri əlavə edilsin;

5.3.7.4. aşağıdakı məzmunda 9.2-1-ci bənd əlavə edilsin:

"9.2-1. dövlət büdcəsi xərclərinin proqram təsnifatına daxil olan sektorlar üzrə strateji və büdcə planlarını (o cümlədən mövcud və davam edən tədbirlərə və yeni siyasət təşəbbüslərinə dair büdcə sifarişlərini), habelə bu planların icrasına dair monitorinq məlumatlarını və izahatları həmin sektorlarda fəaliyyəti olan təşkilatlardan, o cümlədən sektorlar üzrə aparıcı qurumlardan almaq;";

5.3.7.5. 9.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.3. dövlət vəsaitinin təyinatı üzrə xərclənməməsi halları aşkar olunduqda, kredit resursundan artıq xərcə yol verildikdə, əvvəl ayrılmış vəsaitin xərclənməsinə dair hesabatların vaxtında və düzgün təqdim edilmədiyi hallarda pozuntuya yol vermiş təşkilatların və onların tabe olduqları orqanların (qurumların) rəhbərlərini xəbərdar etməklə həmin təşkilatların dövlət büdcəsindən maliyyələşdirilməsini (müdafiə olunan xərclər istisna olmaqla) məhdudlaşdırmaq və artıq ödənilmiş və ya təyinatı üzrə istifadə olunmamış vəsaiti normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada dövlət büdcəsinə bərpa etdirmək və bu məqsədlə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat almaq;";

5.3.7.6. 9.4-cü bənd ləğv edilsin;

5.3.7.7. 9.5-ci bənddə "mədaxil hissəsini" sözləri "və icmal büdcənin gəlirlərini" sözləri ilə əvəz edilsin;

5.3.7.8. aşağıdakı məzmunda 9.6-1-ci bənd əlavə edilsin:

"9.6-1. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdən və dövlət adından yaradılan publik hüquqi şəxslərdən rüblük olaraq maliyyə fəaliyyətinə dair məlumatları, habelə illik və ortamüddətli dövr üzrə büdcə layihələrini və proqnoz göstəricilərini almaq;";

5.3.7.9. 9.10-cu bənddən "aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət büdcəsi gəlirlərinin artırılması imkanlarının araşdırılması məqsədilə" sözləri, "və bu təhlil" sözləri çıxarılsın, həmin bənddə "müəssisələrin" sözü "və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin" sözləri ilə, "müəssisələrdən" sözü "hüquqi şəxslərdən" sözləri ilə əvəz olunsun və həmin bəndə "almaq" sözündən sonra ", habelə onların fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək" sözləri əlavə edilsin;

5.3.7.10. 9.11-ci bənd ləğv edilsin;

5.3.7.11. 9.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.12. Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidməti vasitəsilə dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirildiyi nəzarət obyektlərində malların (iş və xidmətlərin) satın alınmasının qanuniliyinin dəqiqləşdirilməsi üçün vəsaitin ödənildiyi digər təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə müəyyən edilmiş qaydada maliyyə nəzarəti obyektinin vəsaitinin xərclənməsi barədə sənədlərin qarşılıqlı yoxlanılmasını aparmaq;";

5.3.7.12. 9.13-cü bənddə "nəzarət yoxlamalarının" sözləri "dövlət maliyyə nəzarəti tədbirlərinin" sözləri ilə əvəz edilsin;

5.3.7.13. 9.14-cü bəndə "maliyyə" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin və həmin bənddən "üçün hüquq-mühafizə, prokurorluq və məhkəmə orqanlarına təqdimatlar vermək" sözləri çıxarılsın;

5.3.7.14. 9.15-ci bənd ləğv edilsin;

5.3.7.15. 9.16-cı bənddə "örtülməsinə" sözü "bağlanmasına" sözü ilə əvəz edilsin;

5.3.7.16. 9.18-ci bənddə "maliyyə-kredit təşkilatları" sözləri "və regional maliyyə institutları (maliyyə-kredit təşkilatları)" sözləri ilə əvəz edilsin;

5.3.7.17. 9.20-ci və 9.21-ci bəndlər ləğv edilsin;

5.3.7.18. 9.23-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.23. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;";

5.3.7.19. aşağıdakı məzmunda 9.23-1-ci bənd əlavə edilsin:

"9.23-1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;";

5.3.7.20. 9.24-cü bənddə "maliyyə siyasətinin həyata keçirilməsi zamanı" sözləri "Nazirliyin fəaliyyət sahəsi üzrə" sözləri ilə əvəz edilsin;

5.3.7.21. aşağıdakı məzmunda 9.24-1-ci bənd əlavə edilsin:

"9.24-1. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;";

5.3.7.22. 9.25-ci bənddə "müvafiq sahə üzrə dövlət" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına)" sözləri ilə əvəz edilsin;

5.3.7.23. 9.26 – 9.28-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.26. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

9.27. Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

9.28. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;";

5.3.7.24. aşağıdakı məzmunda 9.28-1-ci bənd əlavə edilsin:

"9.28-1. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar və ya strukturu daxilində bölmələr (idarə, şöbə) yaratmaq, yenidən təşkil və ləğv etmək, həmçinin strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;";

5.3.7.25. 9.29-cu bənd aşağıdakı redaksiyada verilsin:

"9.29. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;";

5.3.7.26. aşağıdakı məzmunda 9.31-1-ci bənd əlavə edilsin:

"9.31-1. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

5.3.7.27. 9.32-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.32. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

5.3.8. 12-ci hissə ləğv edilsin;

5.3.9. 13-cü hissədə "tərkibi" sözü "həddi" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Nazirliyin strukturunu Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.";

5.3.10. 14-cü hissə aşağıdakı redaksiyada verilsin:

"14. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən nazir rəhbərlik edir. Nazir Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

5.3.11. 15-ci hissədə "üç" sözü "dörd" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Nazirin birinci müavini və müavinləri onlara nazirin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

5.3.12. 16-cı və 17-ci hissələr ləğv edilsin;

5.3.13. 18-ci hissə üzrə:

5.3.13.1. birinci abzas, 18.2-ci və 18.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"18. Nazir:";

"18.2. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu (bu Əsasnamənin 18.12-ci bəndi nəzərə alınmaqla), ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

18.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir;";

5.3.13.2. aşağıdakı məzmunda 18.3-1-ci və 18.3-2-ci bəndlər əlavə edilsin:

"18.3-1. bu Əsasnamənin 21-1-ci hissəsində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

18.3-2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin strukturuna daxil olan qurumların əsasnamələrini və strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini təsdiq üçün təqdim edir;";

5.3.13.3. 18.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"18.4. Nazirliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin formalaşdırılması ilə bağlı təkliflər verir;";

5.3.13.4. 18.5-ci bənd ləğv edilsin;

5.3.13.5. 18.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"18.7. Nazirliyin Aparatının işçilərini, yerli (regional) orqanlarının inzibati vəzifə tutan dövlət qulluqçularını, Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi şəxslər istisna olmaqla) rəhbərlərini və onların müavinlərini, struktur bölmələrinin və regional orqanlarının rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;";

5.3.13.6. aşağıdakı məzmunda 18.7-1-ci və 18.7-2-ci bəndlər əlavə edilsin:

"18.7-1. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların bu Əsasnamənin 18.7-ci bəndində nəzərdə tutulmayan digər işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə, habelə onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə razılıq verir;

18.7-2. Nazirliyin Aparatının işçilərinə və onun strukturuna daxil olan qurumların bu Əsasnamənin 18.7-ci bəndində nəzərdə tutulan işçilərinə müvafiq ixtisas dərəcələri verir, həmçinin xüsusi fərqlənmiş işçilərə, o cümlədən Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət təltifləri ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;";

5.3.13.7. 18.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"18.8. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul olunmuş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;";

5.3.13.8. 18.9-cu bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.13.9. 18.10-cu bənddə "hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatları ilə" sözləri "orqanları (qurumları) ilə, hüquqi və fiziki şəxslərlə, habelə beynəlxalq təşkilatlarla" sözləri ilə, "danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq müqavilələri, sazişləri və protokolları" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq danışıqlar aparır və müvafiq beynəlxalq sənədləri" sözləri ilə əvəz edilsin;

5.3.13.10. 18.11-ci bənddə "tərkibi" sözü "həddi" sözü ilə əvəz edilsin;

5.3.13.11. 18.12 – 18.16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"18.12. dövlət büdcəsindən ayrılmış vəsait və işçilərin müəyyən olunmuş say həddi daxilində Nazirliyin Aparatının struktur bölmələrini, yerli (regional) bölmələrini və Nazirliyin strukturuna daxil olan qurumların struktur bölmələrini (müvafiq strukturların Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildiyi hallar istisna olmaqla) yaradır və ləğv edir;

18.13. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür, o cümlədən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarədaxili qaydada verilməsi mexanizmini, həmçinin bu məlumatların qəbul edilməsi və araşdırılması, maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması məsələləri üzrə konfidensial məsləhət verilməsi və korrupsiya risklərinin idarə edilməsi üçün bir və ya bir neçə səlahiyyətli struktur bölməsini (şəxsi) müəyyən edir;

18.14. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyindəki qurumların göstərdiyi xidmətlərdən (gördüyü işlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

18.15. Nazirliyin Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

18.16. normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.";

5.3.14. aşağıdakı məzmunda 18-1-ci və 18-2-ci hissələr əlavə edilsin:

"18-1. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

18-2. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.";

5.3.15. 21-ci hissədən "onlar haqqında" sözləri çıxarılsın;

5.3.16. aşağıdakı məzmunda 21-1-ci hissə əlavə edilsin:

"21-1. Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

21-1.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

21-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

21-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

21-1.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

21-1.5. bu Əsasnamənin 21-1.1—21-1.4-cü bəndlərinə uyğun olaraq Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.";

5.3.17. 23-cü hissə ləğv edilsin;

5.3.18. 25-ci və 27-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"25. Nazirliyin kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.";

"27. Nazirliyin fəaliyyət sahəsində elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Nazirlikdə ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.";

5.3.19. aşağıdakı məzmunda 28-ci hissə əlavə edilsin:

"28. Nazirlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.9-cu bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.";

5.4. həmin Fərmanla təsdiq edilmiş Əlavə III – "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnamə" üzrə:

5.4.1. adında "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

5.4.2. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi (bundan sonra – Agentlik) dövlət büdcəsinin kassa icrasını həyata keçirən və həmin maliyyə əməliyyatlarının uçotunu aparan, büdcə təşkilatlarının satın aldığı mal, iş və xidmətlərə görə yaranan kreditor borclarını ödəyən, Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə edilməsi, bu vəsaitlərin daxil olması və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti həyata keçirən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.";

5.4.3. 3-cü hissə ləğv edilsin;

5.4.4. 4-cü hissədə "bilavasitə və öz səlahiyyətləri çərçivəsində mərkəzi, yerli icra hakimiyyəti və" sözləri "digər dövlət orqanları (qurumları)," sözləri ilə, "habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə" sözləri ", beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

5.4.5. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.";

5.4.6. 6-cı hissəyə "fəaliyyəti" sözündən sonra ", habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin hissədə "və qanunvericiliklə" sözləri ", normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda" sözləri ilə əvəz edilsin;

5.4.7. 8-ci hissə üzrə:

5.4.7.1. 8.1-ci bənddən "qəbul etdiyi" sözləri çıxarılsın;

5.4.7.2. aşağıdakı məzmunda 8.3-1-ci bənd əlavə edilsin:

"8.3-1. dövlət xəzinədarlığındakı xəzinə hesabları üzrə xəzinə əməliyyatlarını həyata keçirir;";

5.4.7.3. 8.4-cü bənddə "qanunvericiliklə" sözü "Azərbaycan Respublikası Prezidentinin aktları ilə" sözləri ilə əvəz edilsin;

5.4.8. 9-cu hissə üzrə:

5.4.8.1. 9.3-cü bəndə "daxilolmalar" sözündən sonra "və ödəmələr" sözləri əlavə olunsun və həmin bənddə "dövlət təminatı ilə alınmış kreditlər üzrə maliyyə əməliyyatlarını" sözləri "dövlət borcalmaları üzrə əməliyyatları (Azərbaycan Respublikası adından imzalanmış kredit müqavilələrinin şərtləri nəzərə alınmaqla)" sözləri ilə, "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.4.8.2. aşağıdakı məzmunda 9.3-1-ci və 9.3-2-ci bəndlər əlavə edilsin:

"9.3-1. dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatlara dövlət büdcəsindən ayrılan vəsaitdən istifadənin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların dövlət xəzinədarlığı vasitəsilə ünvanlı icra edilməsini təmin etmək;

9.3-2. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesablarına çıxış imkanı əldə etmək;";

5.4.8.3. 9.5-ci bənddə "mərkəzləşdirilmiş xərclər üzrə nəzərdə tutulmuş resurslardan" sözləri "maliyyə resurslarından" sözləri ilə əvəz edilsin;

5.4.8.4. 9.6-cı bənddən birinci halda "büdcə" sözü çıxarılsın;

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

*(əvvəli 4-cü səhifədə)*

5.4.8.5. 9.8-ci bənddə "maliyyələşən təşkilatların sifarişi və məxaric cədvəllərinə" sözləri "maliyyə vəsaiti alan təşkilatların sifarişinə" sözləri ilə əvəz edilsin;

5.4.8.6. 9.9-cu bənddə "örtülməsi" sözü "bağlanması" sözü ilə əvəz edilsin;

5.4.8.7. 9.10-cu bənddə "dövlət büdcəsindən maliyyələşən bütün idarə, müəssisə və" sözləri "dövlət orqanları (qurumları), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər" sözləri ilə əvəz edilsin;

5.4.8.8. 9.13-cü bənddə "rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturlarında və regional (zona) xəzinədarlıq orqanlarında" sözləri "Agentliyin strukturuna daxil olan qurumlarda" sözləri ilə, "mövcud qanunvericiliyə" sözləri "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin və həmin bənddən "mövcud kredit resursu və" sözləri çıxarılsın;

5.4.8.9. 9.16-cı bənddə "rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturları və regional (zona) xəzinədarlıq orqanları" sözləri "Agentliyin strukturuna daxil olan qurumlar" sözləri ilə əvəz edilsin;

5.4.8.10. 9.17-ci bənddən "qanunvericiliyə uyğun olaraq" sözləri çıxarılsın;

5.4.8.11. aşağıdakı məzmunda 9.17-1 – 9.17-4-cü bəndlər əlavə edilsin:

"9.17-1. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək;

9.17-2. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin etmək;

9.17-3. Agentliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

9.17-4. Agentliyin fəaliyyət sahəsində dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;";

5.4.8.12. 9.18-ci bənd ləğv edilsin;

5.4.8.13. aşağıdakı məzmunda 9.18-1-ci bənd əlavə edilsin:

"9.18-1. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;";

5.4.8.14. 9.19-cu bəndə "tərəfindən" sözündən sonra "satın" sözü əlavə edilsin və həmin bənddən "xəzinə hesab kitablarında" sözləri çıxarılsın;

5.4.8.15. 9.20-ci bənddə "normativ tənzimləmənin" sözləri "normayaratma fəaliyyətinin" sözləri ilə, "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.4.8.16. aşağıdakı məzmunda 9.20-1-ci və 9.20-2-ci bəndlər əlavə edilsin:

"9.20-1. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

9.20-2. Agentlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;";

5.4.8.17. 9.21-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.21. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

5.4.9. 10-cu hissə üzrə:

5.4.9.1. birinci abzasa "Agentlik" sözündən əvvəl "Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün" sözləri əlavə olunsun və həmin abzasdan "öz vəzifələrini yerinə yetirmək üçün" sözləri çıxarılsın;

5.4.9.2. 10.1-ci bənddə "mərkəzləşdirilmiş xərclərin" sözləri "dövlət büdcəsinin" sözləri ilə əvəz olunsun və həmin bəndə "sənədləri" sözündən sonra "və məlumatları" sözləri əlavə edilsin;

5.4.9.3. 10.2-ci bənddə "nazirlik, komitə, şirkət, baş idarə və idarələrdən" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

5.4.9.4. 10.3-cü bənddən "rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturlarının və regional (zona) xəzinədarlıq orqanlarının" sözləri çıxarılsın və həmin bənddə "Agent-Banklarda" sözləri "müvəkkil banklarda" sözləri ilə əvəz edilsin;

5.4.9.5. 10.4-cü bənddə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.4.9.6. 10.5-ci bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə, "məhkəmə qərarlarına və hüquq-mühafizə orqanlarının müraciətlərinə əsasən idarə, müəssisə və təşkilatlarda aparılan təftiş və yoxlamalarda" sözləri "dövlət orqanlarında (qurumlarında), büdcədənkənar dövlət fondlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə aparılan maliyyə nəzarəti tədbirlərində" sözləri ilə əvəz edilsin;

5.4.9.7. 10.6-cı bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.4.9.8. 10.7-ci bənddə "maliyyə yardımları alan digər" sözləri "dotasiya, subsidiya, subvensiya və digər maliyyə vəsaiti alan" sözləri ilə əvəz olunsun və həmin bəndə "vəsaitlərdən" sözündən sonra ", dövlət adından yaradılan publik hüquqi şəxslərə münasibətdə isə – həmçinin onların fəaliyyətindən əldə olunan vəsaitdən" sözləri əlavə edilsin;

5.4.9.9. aşağıdakı məzmunda 10.7-1-ci bənd əlavə edilsin:

"10.7-1. fəaliyyət sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;";

5.4.9.10. 10.8-ci bənddə "fəaliyyət göstərdiyi sahə üzrə dövlət" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına)" sözləri ilə əvəz edilsin;

5.4.9.11. 10.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"10.9. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;";

5.4.9.12. aşağıdakı məzmunda 10.9-1-ci bənd əlavə edilsin:

"10.9-1. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;";

5.4.9.13. 10.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"10.10. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;";

5.4.9.14. aşağıdakı məzmunda 10.10-1 – 10.10-4-cü bəndlər əlavə edilsin:

"10.10-1. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

10.10-2. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

10.10-3. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

10.10-4. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;";

5.4.9.15. 10.11-ci bənddə "fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş" sözləri "Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

5.4.10. 11-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin direktoru Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

5.4.11. 12-ci hissə ləğv edilsin;

5.4.12. 13-cü hissədə "iki" sözü "dörd" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentlik direktorunun müavinləri onlara Agentlik direktorunun həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

5.4.13. 14-cü hissə üzrə:

5.4.13.1. aşağıdakı məzmunda 14.1-1-ci bənd əlavə edilsin:

"14.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;";

5.4.13.2. 14.2-ci bənddə "regional (zona) xəzinədarlıq orqanlarının" sözləri "onun strukturuna daxil olan qurumların" sözləri ilə, "və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edilmək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri ", ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində xərclər smetasını təsdiq edilmək üçün Nazirliyə" sözləri ilə əvəz edilsin və həmin bəndə "edir" sözündən sonra ", habelə Agentliyin struktur bölmələrinin və strukturuna daxil olan qurumların əsasnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq edir" sözləri əlavə edilsin;

5.4.13.3. 14.3-cü bəndə birinci halda "rəhbərləri" sözündən sonra ", onların müavinləri" sözləri, "olmaqla," sözündən sonra "Nazirliyin razılığı ilə" sözləri əlavə olunsun və həmin bənddə "regional (zona) orqanlarının" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

5.4.13.4. 14.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"14.4. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentlik işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

5.4.13.5. 14.5-ci bənd ləğv edilsin;

5.4.13.6. aşağıdakı məzmunda 14.5-1-ci bənd əlavə edilsin:

"14.5-1. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;";

5.4.13.7. 14.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"14.6. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;";

5.4.13.8. aşağıdakı məzmunda 14.6-1 – 14.6-5-ci bəndlər əlavə edilsin:

"14.6-1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;

14.6-2. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini, o cümlədən hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim edir;

14.6-3. Nazirliyin iş planında və qərarlarında, Azərbaycan Respublikası maliyyə nazirinin əmr, sərəncam və göstərişlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

14.6-4. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

14.6-5. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi, habelə həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şuranın yaradılması barədə Nazirliyə təkliflər verir.";

5.4.13.9. 14.7-ci bənddə "bütün dövlət orqanları" sözləri "dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin və həmin bənddən "vəkalətnaməsiz" sözü çıxarılsın;

5.4.13.10. 14.8-ci bənddə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.4.13.11. 14.9-cu bənddə "Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.4.14. aşağıdakı məzmunda 15-ci və 16-cı hissələr əlavə edilsin:

"15. Agentliyin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

16. Agentliyin strukturuna daxil olan qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.";

5.5. həmin Fərmanla təsdiq edilmiş Əlavə V – "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti haqqında Əsasnamə" üzrə:

5.5.1. 1 – 4-cü hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti (bundan sonra – Xidmət) dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının vəsaitinin, dövlət zəmanəti ilə alınan və dövlət büdcəsinin vəsaiti hesabına verilən kreditlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitinin, habelə dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitinin (bundan sonra – dövlət vəsaiti) əldə edilməsi və təyinatı üzrə məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və öz adı əks olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.";

5.5.2. 5-ci hissəyə "xərcləri" sözündən sonra "və fəaliyyəti, habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin hissədə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda" sözləri ilə əvəz edilsin;

5.5.3. 7-ci, 8-ci və 9-cu hissələr aşağıdakı redaksiyada verilsin:

"7. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. dövlət vəsaitinin əldə edilməsi və təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarəti tədbirlərini (bundan sonra – nəzarət tədbirləri) həyata keçirmək;

7.2. dövlət orqanlarında (qurumlarında), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə daxili nəzarəti həyata keçirən daxili audit qurumlarının fəaliyyətinin vahid metodoloji baza əsasında uyğunlaşdırılmasını təmin etmək;

7.3. Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin həyata keçirilməsi işinə metodiki rəhbərlik etmək, bu sahənin inkişafı üçün mütəmadi olaraq tədbirlər görmək və normayaratma fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;

7.4. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.";

"8. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

8.1. dövlət vəsaitinin əldə edilməsi və təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə nəzarət tədbirlərini yerinə yetirmək;

8.2. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin gəlir və xərclərinin, əmlak və öhdəliklərinin idarə edilməsinin normativ hüquqi aktların tələblərinə uyğunluğunun, qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsi məqsədilə nəzarət tədbirlərini yerinə yetirmək;

8.3. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələri və digər infrastruktur layihələr üzrə işlərin icrasına nəzarət etmək;

8.4. məhkəmə, prokurorluq və istintaq orqanlarının qərarlarına əsasən dövlət orqanlarında (qurumlarında), büdcədənkənar dövlət fondlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə nəzarət tədbirlərini həyata keçirmək;

8.5. həyata keçirilən nəzarət tədbirləri nəticəsində cinayət əlamətləri aşkar etdikdə, Nazirlik tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlərin görülməsi üçün nəzarət tədbirinin materiallarını Nazirliyə təqdim etmək;

8.6. təşkilatlarda mühasibat uçotunun aparılması işləri mövcud normativ hüquqi aktların tələblərinə cavab vermədikdə mühasibat uçotunun aparılması işlərinin bərpa edilməsini və sonradan nəzarət tədbirinin həyata keçirilməsi üçün bu barədə məlumatların verilməsini həmin təşkilatdan tələb etmək;

8.7. nəzarət tədbirləri nəticəsində aşkar olunmuş pozuntuların aradan qaldırılması və gələcəkdə belə hallara yol verilməməsi məqsədilə, habelə pozuntulara yol verilməsində təqsiri olan vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi üçün nəzarət tədbirlərinin həyata keçirildiyi təşkilatlara və ya onların tabe olduğu orqanlara (qurumlara) təqdimatlar vermək;

8.8. nəzarət tədbirlərinin nəticələri üzrə aşkar olunan pozuntuların aradan qaldırılmasına və bununla əlaqədar verilmiş tövsiyələrin və təqdimatların yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

8.9. nəzarət tədbirləri zamanı dövlət vəsaitindən istifadə ilə bağlı aşkar olunan artıq və əsassız ödənişlərin izlənilməsi məqsədilə onların uçotunu aparmaq, həmin vəsaitin ilkin mənbəyinə bərpa olunmasına nəzarət etmək;

8.10. nəzarət tədbirləri nəticəsində aşkar edilmiş hüquq pozuntularını mütəmadi olaraq təhlil etmək və onların aradan qaldırılması barədə təkliflər vermək;

8.11. həyata keçirilən nəzarət tədbirləri nəticəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun tədbirlər görmək;

8.12. aparılmış nəzarət tədbirlərinə və nəticələrinə dair məlumatları ildə iki dəfədən az olmayaraq ictimaiyyətə təqdim etmək;

8.13. dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə müvafiq il üçün iş planı hazırlamaq və Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

8.14. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.15. dövlət maliyyə nəzarəti fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək və müvafiq normayaratma fəaliyyətinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər təqdim etmək;

8.16. dövlət orqanlarında (qurumlarında), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə daxili audit qurumlarının fəaliyyətinin əlaqələndirilməsini və beynəlxalq daxili audit standartlarına uyğun vahid metodoloji bazasını təmin etmək, daxili audit qurumlarından fəaliyyəti barədə illik hesabatlar almaq;

8.17. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət orqanının funksiyalarının həyata keçirilməsində iştirak etmək;

8.18. öz fəaliyyətini Nazirliyin digər struktur bölmələri ilə əlaqələndirmək;

8.19. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

8.20. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək;

8.21. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

8.22. Xidmətin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

8.23. Xidmətin fəaliyyət sahəsində dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

8.24. Xidmətdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

8.25. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Xidmətin fəaliyyətində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

8.26. Xidmətdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

8.27. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

"9. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün Xidmət aşağıdakı hüquqlara malikdir:

9.1. nəzarət tədbiri həyata keçirilən təşkilatlardan və həmin təşkilatlarla maliyyə-təsərrüfat əlaqəsində olan müəssisələrdən nəzarət tədbirinin aparılması üçün zəruri olan sənədləri, məlumatları, hesabatları, arayışları və izahatları almaq, habelə həmin təşkilatların və digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinə maneəsiz çıxış əldə etmək;

9.2. dövlət maliyyə nəzarəti sahəsində beynəlxalq təcrübənin və beynəlxalq səviyyədə qəbul edilmiş audit standartlarının tətbiqi üçün Nazirliyə təkliflər vermək;

9.3. fəaliyyət sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

9.4. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

9.5. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

9.6. plandankənar nəzarət tədbirlərini həyata keçirmək;

9.7. nəzarət tədbirləri zamanı dövlət vəsaitindən istifadə ilə bağlı aşkar olunan artıq və əsassız ödənişlərin ilkin mənbəyinə bərpa olunması barədə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumatlar almaq;

9.8. nəzarət tədbirləri aparılan təşkilatlardan inventarizasiyasının aparılmasını tələb etmək, zərurət yarandıqda bilavasitə inventarizasiyanı həyata keçirmək;

9.9. nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı zərurət yarandığı hallarda sınaqların, ekspertizaların, analizlərin və müvafiq qiymətləndirmələrin, habelə elmi tədqiqatların aparılması üçün aidiyyəti təşkilatlara sifarişlər vermək;

9.10. nəzarət tədbirlərinə qarşılıqlı razılıq əsasında dövlət orqanlarının (qurumlarının) nümayəndələrini cəlb etmək;

9.11. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

9.12. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

9.13. sənədlərin saxtalaşdırılması, təhrif edilməsi və başqa yollarla mənimsəmə halları aşkar edilərsə, müvafiq qaydada rəsmiləşdirilməklə həmin sənədləri nəzarət obyektindən götürmək;

9.14. nəzarət obyektləri üzrə risklərin qiymətləndirilməsi nəticəsində həyata keçiriləcək nəzarət tədbirlərinin metodunu və mövzusunu müəyyən etmək;

9.15. nəzarət tədbiri həyata keçirilən təşkilatlardan bunun üçün lazımı şərait yaradılmasını, habelə müvafiq otaqla, texniki avadanlıqla və ləvazimatla, digər zəruri vasitələrlə təmin olunmasını tələb etmək;

9.16. nəzarət tədbirlərinin həyata keçirildiyi nəzarət obyektlərində malların (iş və xidmətlərin) satın alınmasının qanuniliyinin dəqiqləşdirilməsi üçün vəsaitin ödənildiyi digər təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə müəyyən edilmiş qaydada maliyyə nəzarəti obyektinin vəsaitinin xərclənməsi barədə sənədlərin qarşılıqlı yoxlanılmasını aparmaq;

9.17. məhkəmə, prokurorluq və istintaq orqanlarına göndərilən yoxlama materialları üzrə qəbul edilmiş qərarlardan normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada yuxarı orqanlara şikayət etmək;

9.18. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

9.19. nəzarət tədbirlərinin planlaşdırılması, aparılması və hesabatlılığı ilə əlaqədar informasiya texnologiyalarının tətbiqi imkanlarını mütəmadi olaraq araşdırmaq və tətbiq etmək;

9.20. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

9.21. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

9.22. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

9.23. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

5.5.4. 10-cu hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmətin rəisi Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

5.5.5. 11-ci hissə ləğv edilsin;

5.5.6. 12-ci hissədə "iki" sözü "dörd" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmət rəisinin müavinləri onlara Xidmət rəisinin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

5.5.7. 13-cü hissə üzrə:

5.5.7.1. aşağıdakı məzmunda 13.1-1-ci bənd əlavə edilsin:

"13.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Xidmətin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;";

5.5.7.2. 13.2-ci bənddə "regional orqanlarının" sözləri "onun strukturuna daxil olan qurumların" sözləri ilə, "və xərclər smetasını təsdiq edilmək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri ", ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində xərclər smetasını təsdiq edilmək üçün Nazirliyə" sözləri ilə əvəz olunsun və həmin bəndə "edir" sözündən sonra ", habelə Xidmətin struktur bölmələrinin və strukturuna daxil olan qurumların əsasnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq edir" sözləri əlavə edilsin;

5.5.7.3. 13.3-cü bəndə birinci halda "rəhbərləri" sözündən sonra ", onların müavinləri" sözləri, "olmaqla," sözündən sonra "Nazirliyin razılığı ilə" sözləri əlavə olunsun və həmin bənddə "regional orqanlarının" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

*(ardı 6-cı səhifədə)*

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*(əvvəli 5-ci səhifədə)*

5.5.7.4. 13.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"13.4. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Xidmətin işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;";

5.5.7.5. 13.5-ci bənddə "regional orqanlarının" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

5.5.7.6. 13.6-cı bənd ləğv edilsin;

5.5.7.7. 13.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"13.7. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;";

5.5.7.8. aşağıdakı məzmunda 13.7-1 – 13.7-5-ci bəndlər əlavə edilsin:

"13.7-1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;

13.7-2. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini, o cümlədən hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim edir;

13.7-3. Nazirliyin iş planında və qərarlarında, Azərbaycan Respublikası maliyyə nazirinin əmr, sərəncam və göstərişlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

13.7-4. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

13.7-5. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi, habelə həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şuranın yaradılması barədə Nazirliyə təkliflər verir;";

5.5.7.9. 13.8-ci bənddə "bütün dövlət orqanları" sözləri "dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin və həmin bənddən "vəkalətnaməsiz" sözü çıxarılsın;

5.5.7.10. 13.9-cu bənddə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.5.7.11. aşağıdakı məzmunda 13.9-1-ci bənd əlavə edilsin:

"13.9-1. Xidmətin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;";

5.5.7.12. 13.10-cu bənddə "Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.5.8. aşağıdakı məzmunda 14-cü və 15-ci hissələr əlavə edilsin:

"14. Xidmətin rəisi öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

15. Xidmətin strukturuna daxil olan qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.".

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1587 (Cild I); 2025, № 8, maddə 751) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci hissə üzrə:

6.1.1. 1.2-ci bənddə "Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Əsasnaməni" sözləri "bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri ilə əvəz edilsin;

6.1.2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.";

6.1.3. 1.4-cü bəndə "təsviri" sözündən sonra ", Nazirliyin" sözü, "möhürü," sözündən sonra "kargüzarlıq xidmətinin gerbsiz möhürü," sözləri əlavə edilsin;

6.1.4. 1.5-ci bəndə "fəaliyyəti" sözündən sonra ", habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin bənddə "və qanunla nəzərdə tutulmuş" sözləri ", normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

6.2. 2.0.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.0.7-ci yarımbənd əlavə edilsin:

"2.0.7. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.";

6.3. 3-cü hissə üzrə:

6.3.1. 3.0.32-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.32. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;";

6.3.2. 3.0.33-cü yarımbənddən "strukturunun və" sözləri çıxarılsın və "ilə bağlı" sözləri "istiqamətində" sözü ilə əvəz edilsin;

6.3.3. 3.0.34-cü yarımbəndə "fəaliyyəti" sözündən əvvəl "öz" sözü əlavə olunsun və həmin yarımbənddə "internet saytının yaradılmasını," sözləri "rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və" sözləri ilə əvəz edilsin;

6.3.4. aşağıdakı məzmunda 3.0.34-1-ci yarımbənd əlavə edilsin:

"3.0.34-1. Agentliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;";

6.3.5. 3.0.35-ci yarımbənddə "reallaşdırılmasında" sözü "həyata keçirilməsində" sözləri ilə əvəz edilsin;

6.3.6. 3.0.37-ci yarımbəndə "fəaliyyəti" sözündən əvvəl "Agentliyin" sözü əlavə edilsin;

6.3.7. 3.0.38-ci yarımbəndə "kargüzarlıq" sözündən sonra ", rəqəmsal sənəd dövriyyəsi" sözləri əlavə edilsin;

6.3.8. aşağıdakı məzmunda 3.0.38-1-ci yarımbənd əlavə edilsin:

"3.0.38-1. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;";

6.4. 4-cü hissə üzrə:

6.4.1. 4.0.8-ci, 4.0.10-cu, 4.0.12-ci və 4.0.13-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.0.8. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək";

"4.0.10. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;";

"4.0.12. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.13. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;";

6.4.2. 4.0.14-cü bənd ləğv edilsin;

6.4.3. 4.0.16-cı və 4.0.18-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.0.16. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;";

"4.0.18. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;";

6.4.4. aşağıdakı məzmunda 4.0.18-1-ci və 4.0.19-1-ci yarımbəndlər əlavə edilsin:

"4.0.18-1. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

"4.0.19-1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;";

6.5. 5-ci hissə üzrə:

6.5.1. 5.1-ci bənddə "Maliyyə nazirinin vəzifəyə təyin etdiyi və vəzifədən azad etdiyi" sözləri "maliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin direktoru Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

6.5.2. 5.2-ci bənd ləğv edilsin;

6.5.3. 5.3-cü bənddə "Maliyyə nazirinin vəzifəyə təyin və vəzifədən azad etdiyi iki" sözləri "maliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentlik direktorunun müavinləri onlara Agentlik direktorunun həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

6.5.4. 5.4-cü bənd ləğv edilsin;

6.5.5. 5.5-ci bənd üzrə:

6.5.5.1. 5.5.3-cü yarımbənddə "cədvəlini və" sözləri "cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində" sözləri ilə, "təsdiq olunmaq üçün Nazirliyə təqdim" sözləri "Nazirliklə razılaşdırmaqla təsdiq" sözləri ilə əvəz olunsun, həmin yarımbəndə "habelə" sözündən sonra "Agentliyin" sözü əlavə edilsin;

6.5.5.2. 5.5.4-cü yarımbənddən "onların," sözü çıxarılsın və həmin yarımbəndə "şəxslərinin" sözündən sonra "səlahiyyətlərini müəyyənləşdirir və" sözləri əlavə edilsin;

6.5.5.3. 5.5.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.5.5. Agentlik direktorunun müavinləri və Agentliyin struktur bölmələrinin rəhbərləri, onların müavinləri istisna olmaqla, Nazirliyin razılığı ilə Agentliyin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;";

6.5.5.4. aşağıdakı məzmunda 5.5.5-1-ci yarımbənd əlavə edilsin:

"5.5.5-1. işçilərin peşə hazırlığının, o cümlədən əlavə təhsilinin təmin edilməsi üçün müvafiq tədbirlər görür;";

6.5.5.5. 5.5.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.5.6. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;";

6.5.5.6. aşağıdakı məzmunda 5.5.11-1-ci yarımbənd əlavə edilsin:

"5.5.11-1. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;";

6.5.5.7. 5.5.12-ci yarımbənddə "vəsait" sözü "ayrılmış vəsaitin" sözləri ilə, "və mükafatların" sözləri ", mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin" sözləri ilə əvəz edilsin;

6.5.5.8. 5.5.13-cü yarımbənddə "elmi-texniki şuranın" sözləri "Elmi-Texniki Şuranın" sözləri ilə, həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.5.14-cü və 5.5.15-ci yarımbəndlər əlavə edilsin:

"5.5.14. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.5.15. normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.";

6.5.6. aşağıdakı məzmunda 5.6-cı bənd əlavə edilsin:

"5.6. Agentliyin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 dekabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi haqqında Əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi (bundan sonra – Agentlik) dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət müəssisələri) illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirən və icra göstəricilərini təhlil edən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və öz adı əks olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti, normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. dövlət müəssisələrinin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirmək və icra göstəricilərini təhlil etmək;

2.1.2. dövlət müəssisələrinin xalis mənfəətindən dövlət büdcəsinə dividendlərin ödənilməsinə nəzarəti həyata keçirmək;

2.1.3. dövlət müəssisələrinin maliyyə və digər risklərini müəyyən etmək və bu risklərin dövlət maliyyəsinə təsiri potensialını qiymətləndirmək, dövlət müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təkmilləşdirilməsində iştirak etmək;

2.1.4. dövlət müəssisələrinə dövlət büdcəsindən ayrılan vəsait üzrə büdcə proqnozunun tərtibində iştirak etmək;

2.1.5. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. dövlət müəssisələrindən onların maliyyə vəziyyətinə və maliyyə fəaliyyətinə dair rüblük məlumatları, habelə illik və ortamüddətli dövr üzrə büdcə layihələrini və proqnoz göstəricilərini, həmçinin təsdiq edilmiş büdcələrini almaq;

3.1.2. dövlət müəssisələrindən əldə edilən hesabat və məlumatlar əsasında onların illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini və icra göstəricilərinin təhlilini aparmaq;

3.1.3. dövlət müəssisələrinin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinə Nazirliklə razılaşdırmaqla rəy vermək;

3.1.4. dövlət müəssisələrinin illik və ortamüddətli dövr üzrə gəlir və xərclərinin optimallaşdırılması məqsədilə təhlillər aparmaq və dövlət müəssisələrinin ortamüddətli dövr üzrə səmərəlilik göstəricilərinin, habelə dövlət müəssisələrinin biznes və inkişaf strategiyaları üzrə hədəf göstəricilərinin müəyyən edilməsi üçün Nazirliyə təkliflər təqdim etmək və bu hədəflərin icrasını izləmək;

3.1.5. dövlət müəssisələrinin xərclərinin funksional və iqtisadi təsnifat üzrə göstəricilərini təhlil etmək;

3.1.6. dövlət müəssisələrinin ayrı-ayrılıqda, tabe olduğu qurumlar üzrə və icmal olaraq maliyyə və səmərəlilik göstəricilərinin, o cümlədən maliyyə-iqtisadi sağlamlığının cari vəziyyətini və dinamikasını ölçmək;

3.1.7. risk əsaslı analiz və monitorinq məqsədilə erkən xəbərdarlıq testləri hazırlamaq, dövlət müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətini risk əsaslı təhlil etmək və risk səviyyələrini müəyyən etmək;

3.1.8. beynəlxalq təşkilatların qabaqcıl təcrübəsi nəzərə alınmaqla, dövlət müəssisələrində stress-testlər aparılması və digər qiymətləndirmə alətlərinin tətbiqi yolu ilə dövlət müəssisələrinin ayrı-ayrılıqda, tabe olduqları qurumlar üzrə və icmal olaraq fiskal riskləri müəyyən etmək;

3.1.9. dövlət müəssisələrində aşkarlanmış fiskal risklərin digər müəssisələrə, həmçinin dövlət maliyyəsinə, o cümlədən dövlət büdcəsinə və dövlət borcuna mümkün təsirini, habelə həmin risklərin digər müəssisələrdə yaranma potensialını qiymətləndirmək;

3.1.10. dövlət müəssisələrinin fiskal risklərinə dair illik hesabatlar hazırlamaq;

3.1.11. dövlət müəssisələrinin fəaliyyətinin onların idarəetmə siyasəti çərçivəsində tətbiq olunan qaydalara və normativlərə uyğunluğu ilə bağlı təhlillər aparmaq;

3.1.12. dövlət müəssisələrinin dövlət büdcəsinin proqnoz və icrası ilə bağlı fəaliyyətinə dair müvafiq tədbirlər görülməsi istiqamətində Nazirliyə təkliflər vermək;

3.1.13. dövlət müəssisələrinin dividendləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak etmək, o cümlədən bununla əlaqədar təhlillər aparmaq;

3.1.14. dövlət müəssisələri tərəfindən təqdim ediləcək illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqi, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili ilə bağlı dövri məlumat və hesabatların forma və məzmunu barədə Nazirliyə təkliflər təqdim etmək;

3.1.15. dövlət müəssisələrinin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqi, habelə gəlir və xərc smetalarının rüblük olaraq icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili, habelə bu məqsədlə müəyyən edilmiş büdcə və maliyyə göstəriciləri barədə məlumat bazasının formalaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.16. hər il növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri hazırlanarkən dövlət müəssisələri tərəfindən dövlət büdcəsinə ödəniləcək dividendlərin və dövlət büdcəsindən dövlət müəssisələrinə ayrılacaq vəsaitin (o cümlədən subsidiyaların, dövlət sifarişi ilə təyinatlı tədbirlərin həyata keçirilməsi üçün ödənilən məqsədli vəsaitin və s.) həcminin müəyyən edilməsi ilə bağlı Nazirliyə təkliflər təqdim etmək;

3.1.17. dövlət müəssisələrində mühasibat uçotunun aparılmasının "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunluğuna nəzarət etmək;

3.1.18. dövlət müəssisələrinin bölüşdürülmüş xalis mənfəətinin icrasını izləmək və dividendlərin müəyyən edilmiş müddətdə dövlət büdcəsinə ödənilməsinə nəzarət etmək;

3.1.19. dövlət müəssisələrinin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqinin, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqinin və icra göstəricilərinin təhlilinin nəticələri əsasında dövlət müəssisələrinin maliyyə sağlamlığının cari vəziyyəti və dinamikası barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək məlumatla bağlı Nazirliyə təkliflər təqdim etmək;

3.1.20. öz fəaliyyətini Nazirliyin digər struktur bölmələri ilə əlaqələndirmək;

3.1.21. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.22. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək;

3.1.23. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.24. Agentliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.25. Agentliyin fəaliyyət sahəsində dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.26. Agentliyə ayrılan büdcə vəsaitindən, fəaliyyət istiqamətləri üzrə əldə olunan büdcədənkənar vəsaitdən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadəni təmin etmək;

3.1.27. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.28. Agentlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.29. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

3.1.30. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.31. icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

3.1.32. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. dövlət müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən səmərəliliyin və mənfəətliliyin artırılması ilə bağlı Nazirliyə təkliflər vermək;

4.1.2. dövlət müəssisələri ilə onların fiskal risklərinin idarə edilməsi və azaldılması istiqamətində Nazirliklə razılaşdırmaqla müzakirələr aparmaq;

4.1.3. dövlət müəssisələri tərəfindən Agentliyə təqdim edilməli olan hesabat və məlumatların vaxtında və düzgün təqdim edilməsinin təmini üçün bildirişlər vermək və onların tabe olduğu dövlət orqanlarına (qurumlarına) məlumat vermək;

4.1.4. dövlət müəssisələrinin maliyyə-təsərrüfat fəaliyyətinin təkmilləşdirilməsi, büdcə tərtibi ilə bağlı onlara tövsiyə vermək, habelə hesabatlılığı ilə bağlı metodiki dəstək göstərmək;

4.1.5. fəaliyyət sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.6. fəaliyyət sahəsi ilə əlaqədar müqavilələr bağlamaq, onların yerinə yetirilməsinə nəzarət etmək, fəaliyyətinə dair analitik materiallar hazırlamaq, aidiyyəti üzrə təkliflər təqdim etmək;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.8. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.9. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

4.1.10. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

4.1.11. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

4.1.12. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

4.1.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.14. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

4.1.15. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının maliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.2. Agentliyin direktorunun Azərbaycan Respublikasının maliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır. Agentliyin direktorunun müavinləri onlara Agentliyin direktorunun həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.3. Agentliyin direktoru:

5.3.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.3.3. dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.3.4. müəyyən edilmiş əməyin ödənilməsi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir, habelə Agentliyin struktur bölmələrinin əsasnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.3.5. Agentliyin direktorunun müavinləri və Agentliyin struktur bölmələrinin rəhbərləri, onların müavinləri istisna olmaqla, Nazirliyin razılığı ilə Agentliyin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.3.6. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;

5.3.7. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini, o cümlədən hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim edir;

5.3.8. Nazirliyin iş planında və qərarlarında, Azərbaycan Respublikası maliyyə nazirinin əmr, sərəncam və göstərişlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.3.9. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.3.10. digər mənbələrdən daxil olan vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.3.11. Agentliyin fəaliyyəti barədə Nazirliyə mütəmadi olaraq hesabat verir;

5.3.12. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;

5.3.13. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentlik işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

5.3.14. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi, habelə həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şuranın yaradılması barədə Nazirliyə təkliflər verir;

5.3.15. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.3.16. normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.4. Agentliyin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

# Milli Həmrəylik: dövlətçiliyin birlik fəlsəfəsi



## I MƏQALƏ

### 1989-cu ilin qışı: Naxçıvandan dünyaya verilən mesajlar

Özünü çox güclü və yenilməz sayan dünyanın bir sıra imperialist dairələri inanmırdılar ki, 300 illik dağıdıcılıqdan sonra azərbaycanlılar özlərini toparlaya bilsinlər. Qırğınlar, deportasiyalar, siyasi aldatmalar, dövlətçiliyi məhvetmə cəhdləri, ən vəhşi terror üsulları, mədəniyyətə, mənəviyyata, əxlaqa, birgəyaşam formalarına olan dağıdıcı münasibət xəritədən "Güney Azərbaycan", "Qərbi Azərbaycan", "Zəngəzur", "Türküstan" və başqa tarixi terminləri silsə də, milyonların qəlbində olan dövlətçiliyə inamı silkələyə bilmədi.

Onlar bizim torpaqlar üzərində yeni dövlətlər yaratdılar. Mədəniyyətimizə, demoqrafik və milli kimliyimizə, toponimlərimizə, dilimizə qəsdlər etdilər, lakin ruhumuzun "kimliyinə" yaxın belə düşə bilmədilər! Əsrlərin zülmünü yaşadı Azərbaycan. Ancaq "azərbaycanlılığını" kimsəyə vermədi! Ölkəni parçaladılar – iki fərqli siyasi, dini, sosial-mədəni mühitdə yaşadı bir millət.

Ərazisinin bir qismində yadlara "dövlət" qondardılar. Rahat nəfəs aldılar ki, azərbaycanlıların dövlət işi bitdi! 1918-1920-ci illərdə bizim müstəqil dövlət amalımıza vurduqları zərbəni əbədi qalibiyyət xülyası ilə şüurlarının bir küncünə atdılar. 1989-cu ilə kimi qondarma dövlətin ərazisini bizim torpaqlar hesabına 29 min kvadratkilometrə çatdırmaqla güman etdilər ki, müstəqil Azərbaycanın bir də meydana gəlməsinin yolunu birdəfəlik bağladılar!

Ancaq tarix həmişə sübut etmişdir ki, türklər sürprizləri yalnız sevmirlər, həm də onu reallaşdırırlar. 1989-cu ildə Naxçıvandan türklər dünyaya elə mesaj verdilər ki, ən güclüləri belə şoka düşdülər! Əsrlərlə bir-birində ayırdıqları "bir ürəyin iki parçası" tarixi qərarını bəyan etdi – 1989-cu il dekabrın 31-də 100 min naxçıvanlı əsrlərlə davam edən "həsrət divarını" aradan qaldırdı! Elliklə sərhəd dirəklərini sökdü! Bunun həqiqi adı "Sərhəd Hərəkatı" idi!

Cəmi iki il sonra bu Hərəkat siyasi-hüquqi qiymətini aldı: "1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan" etdi. Və həmin il "dekabrın 25-də... Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul" etdi!

Bu, çox qısa xronologiyadır, "Sərhəd Hərəkatı"nın fəlsəfi, tarixi, coğrafi, siyasi və geosiyasi anlamında okeanın bir damlasıdır. Çünki həmin fədakar əməldən sonra öncə Naxçıvan, sonra isə Güneyli-Quzeyli Azərbaycan "qaynadı"! Müstəqillik, həmrəylik, dövlət quruculuğu, yeni birlik axtarışları azərbaycanlıların həyatlarında daha coşqulu yer tutdu. Tarixin bu cür dönəmlərində hər bir qövm üçün birliyini təmin etmək formulu strateji xarakter alır. Çünki meydana gələn coşqunluq düzgün yönləndirilməyəndə cəmiyyət dağıla bilir, özü-özünü "içindən yeyir". Güclü etnos enerjisi özünü məhv edir, yəni "öz odunda özü yanır"!

"Sərhəd Hərəkatı"nın tarixi mesajı müasir dövrdə dünyaya azərbaycanlıların həmrəylik nümunəsinin formalaşmağa başladığını ehtiva edirdi! Yəni azərbaycanlılar nəinki bədbinləşmişlər, əksinə, təcrübə göstərəcəkdi ki, dünyanın hər bir xalqı üçün nümunə ola biləcək birlik fəlsəfəsini yaratmışlar! Xalqın, liderlərin müdrikliyi ilə millətin cəsarəti, şücaəti, səbri, təmkini və qeyrəti ilə!

Azərbaycanlıların həmrəyliyinin bünövrəsində yalnız və yalnız fəzilətliliyə dayanan azadlıqsevərlik, Vətənsevərlik və dövlət qurmaq aşiqliyi dəyərləridir! Onun ilk enerjisini sərhədləri sürətlə və inamla sökən naxçıvanlıların gözlərindəki ataş və ürəklərindəki Vətən sevgisi sayəsində bütün dünya duydu və indi də unutmur! Bu tezisdən azərbaycanlıların həmrəyliyi fəlsəfəsinin bütün məna çalarlarına çıxış etmək olar.

### Milli həmrəyliyin memarı – ümummilli lider Heydər Əliyev

Tarixi faktdır ki, Naxçıvandan kükrəyən həmrəylik enerjisinin indiki mərhələdə stimullaşdırıcı gücü və onu dövlətçiliyə yönəldən lideri ulu öndər Heydər Əliyev olmuşdur. Ümummilli Lider, sözün həqiqi mənasında, bu coşqulu emosional fonu çox təlatümlü olan "birlik dalğası" prosesini dövlətqurucu məcraya istiqamətləndirmişdir. Bütün rəsmi və hüquqi təsbiti birbaşa Heydər Əliyevin ideyaları əsasında bitkinləşmişdir. Nəticədə müasir Azərbaycanda azərbaycanlıların həmrəyliyi nümunəsi rəsmi təsbitini tapmışdır. Memarı Heydər Əliyevdir.

Ulu öndər siyasi, ideoloji, mənəvi və dövləti baxımdan həmrəyliyin Azərbaycan modelini müasir sivil dünyanın bütün tələblərinə uyğun qaydada sistemləşdirmişdir. 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi simvollaşdırılması da tamamilə Heydər Əliyevin "əsəridir".

Azərbaycançılıq və multikulturalizm Ümummilli liderin hazırladığı fəaliyyət platformasında əyaniləşdi və konkret müsbət praktiki nəticələr verdi. Həmrəyliyin mənaca və feili əhatə dairələri genişlənərək müasir azərbaycanlı şüurunda bütün dünyanı əhatə etdi. İndi harada yaşamalarından asılı olmayaraq azərbaycanlılar həmrəyliyi, ümumiyyətlə, qövm kimi mövcudolmanın əsas şərtlərindən biri olaraq təsəvvür edirlər. Real həyatda həmrəliyin bu yolu asan olmamışdır – neçə-neçə maneələri toplum olaraq aşmaq lazım gəlmişdir. Bu prosesdə də aparıcı rol Ulu öndərə və 2003-cü ildən sonra Prezident İlham Əliyevə məxsusdur!

1993-2003-cü illər mərhələsində azərbaycanlıların həmrəyliyi anlayışları ölkə hüdudlarını aşaraq yaradılan diasporlar vasitəsilə qlobal miqyasa proyeksiya edilmişdir. Həmin dönəmdə həmrəyliyin əsas ideyası və feili hədəfi ərazi bütövlüyünün təmini zərurəti ilə bağlı olmuşdur.

Azərbaycanlıların həmrəyliyini ərazi bütövlüyünün təmini məqsədi kontekstində yaratmaq ideyası dahiyanə idi. Çünki bu, həmin mərhələ üçün Azərbaycan dövləti və cəmiyyətini birləşdirə biləcək başlıca istiqamət idi. Lakin həmin möhtəşəm həmrəylik modelinin reallaşması üçün səmərəli fəaliyyət mexanizmi gərəkdi. Bu mexanizm müasir Azərbaycan dövlətçiliyində çox mühüm yer tutan həmrəyliklə milli ideyanın qarşılıqlı əlaqəsində formalaşdı. Məsələnin bu aspekti üzərində bir qədər geniş dayanmaq lazımdır.

### Sosial-siyasi və ideoloji həmrəylik

Hər bir tarixi mərhələdə millətin strateji məqsədinə çatmasının əsas mexanizmi olmalıdır. Keçən əsrin son onilliyində müstəqil dövlətin qurulmasında xalqı vahid amal uğrunda mübarizəyə apara biləcək həmrəylik mexanizmi zərurət olaraq qarşıya çıxmışdı. Məsələ onunla bağlı idi ki, sosial və ideoloji həmrəylik siyasi həmrəyliklə tamamlanmalı idi. Eyni zamanda, həmrəyliyin bu üç aspektinin vəhdətini təmin edə biləcək ideya faktoru gərəkdi. Onun ideoloji əsası hazırlanmışdı – azərbaycançılıq və multikulturalizm. Cəmiyyəti praktiki olaraq həmin çərçivədə irəli aparan ideya əyani nəticə verməli idi. Ulu öndər bu işin öhdəsindən məharətlə gəldi. Elə bir feili mexanizmin konseptual obrazını yaratdı ki, Azərbaycan dövlət və cəmiyyət olaraq onu həmrəyliyin başlıca motivəedici faktoru kimi tam qəbul etdi. Bu, insanların milli ideyanın reallaşması ətrafında birləşməsini tələb edirdi.

Bununla Azərbaycanda həmrəylik məsələsi cəmiyyət və dövlətin maraqları fonunda milli ideyanın həyata keçməsi vasitəsilə konkret məzmun almağa başladı. Bu elə əsaslı addım idi ki, cəmiyyətin birləşməsi sayəsində qələbəni təmin edəcəkdi və faktiki olaraq, daha ümumi miqyasda həmrəyliyin formalaşmasını stimullaşdıracaqdı.

Deməli, avtomatik olaraq, sosial-siyasi və ideoloji həmrəylik sintez halında milli ideyanın reallaşmasının bazası rolunu oynamağa başladı. Azərbaycan Respublikasının 1993-cü ildən bu yana topladığı təcrübə Ulu öndərin bu addımının tamamilə uğurlu olduğunu sübut edir. Hər bir sahədə müşahidə edilən dəyişikliklər bunu sübut edən faktlarla zəngindir. Nümunə kimi yeni Konstitusiyanın qəbul edilməsini və multikulturalizmin ciddi olaraq azərbaycançılıq çərçivəsində inkişaf etdirilməsini göstərə bilərik. Buna görə də multikulturalizm artıq 2003-cü ildə Azərbaycanda bütöv vətəndaş cəmiyyətinin formalaşmasını dəqiq istiqamətə yönəltmişdi. Onun hüquqi əsasını isə Konstitusiya təmin edirdi.

Bunların sayəsində Azərbaycan 2003-cü ildə həmrəyliyin milli ideyada yeri və rolunu tam müəyyən etməyə imkan yaratdı. Milli ideya Azərbaycan xalqının həmrəyliyinə söykənərək cəmiyyətin ərazi bütövlüyünü təmin etmək uğrunda birləşməsinə geniş imkanlar açdı. Bu bağlılıqda Azərbaycan Prezidenti nitqlərində xüsusi vurğulayır ki, Vətən müharibəsində vuruşan gənclər əsasən XXI əsrdə dünyaya gələnlərdirlər. Deməli, cəmiyyətdə faktiki olaraq, obrazlı desək, "gənclərin həmrəyliyi və birliyi" modeli formalaşmışdır.

Dövlət başçısının 2024-cü ildə andiçmə mərasimində ifadə etdiyi aşağıdakı fikirlər bunu təsdiq edir. Ölkə rəhbəri demişdir: "...elə gənc nəsil yetişib ki, Vətən uğrunda, torpaq uğrunda, milli ləyaqət uğrunda ölümə getməyə hazırdır və ölümə də gedirdilər bizim gənclərimiz... Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır...

...Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır...

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir...".

Bunlardan həmrəylik kontekstində çox maraqlı bir konseptual qənaət əldə edə bilərik.

### Azərbaycanın mənəvi bütövlüyü

Azərbaycanlıların həmrəyliyi birbaşa dövlətçilik şüuru ilə bağlıdır. Bu anlamda sosial və siyasi həmrəylik mənaca bir-birini tamamlayır. Sosial həmrəyliyi azərbaycanlılar dövlət uğrunda mübarizə aparmaq üçün əvəzolunmaz kollektiv fəaliyyət modeli kimi qəbul edirlər. Qədimdən Azərbaycan dövlətçiliyinin təməli xalqın birliyi olmuşdur. Buna görə də təsadüfi deyildir ki, müasir Azərbaycan Respublikasının Konstitusiyasında xalq suverenliyi dövlət suverenliyinin təməlində dayanır.

"Sərhəd Hərəkatı" həm də vurğulanan xüsusiyyətə görə azərbaycanlıların həmrəyliyinin təkanverici və istiqamətləndirici faktorudur. 300 illik ayrılıq bu səbəbdən xalqı mənəvi, əxlaqi siyasi və ideya aspektlərində bölə bilmədi. Siyasi coğrafiya azərbaycanlıları "o taylı, bu taylı" etdi, ərazinin bir qismi başqa dövlətlərdə qaldı, digər qism üzərində yadlara dövlət qurdular. Lakin tarixi birlik formasının dayanıqlılığı və dövlətçilik şüuru bütün maneələri aşmağa imkan verdi. 1989-cu ilin son ayında azərbaycanlıları Azərbaycanın parçalanmış coğrafiyasını ideyaları, niyyətləri və yaratdıqları hərəkatla "mənəvi birləşdirdilər". Bu, müstəqilliyin möhkəm ideya və emosional təməli oldu.

Eyni zamanda, həmrəyliyin müasir nümunəsi, ümumiyyətlə, azərbaycanlıların birgəyaşam fəlsəfəsində bütün dünyanı əhatə edən "hüdudların" yer aldığını bir daha meydana çıxardı. İndi azərbaycanlı dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, onun dövləti olan Azərbaycan Respublikasının hüquqi qoruması altındadır. Yəni müstəqil Azərbaycan dövləti hər bir azərbaycanlının hüququnun təmin edilməsinə müvəkkildir. Bu barədə Prezident İlham Əliyev ən mötəbər tədbirlərdə açıq və aydın bəhs etmişdir.

2025-ci ilin noyabrında AMEA-nın 80 illiyinə həsr edilmiş yubiley tədbirində Azərbaycan Prezidenti vurğuladığımız kontekstdə bəyan etmişdir: "Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq".

Azərbaycan liderinin vurğulanan fikirləri ölkədə faktiki olaraq həmrəyliyin yeni səviyyəyə yüksəldiyini və miqyasının yeniləndiyini göstərir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Azərbaycan və Küveyt Baş nazirlərinin dialoqu



**Dekabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Küveyt Dövlətinin Baş naziri Əhməd Abdullah əl-Əhməd əl-Sabah arasında telefon danışığı olub.**

Nazirlər Kabinetindən bildiriblər ki, Küveytin Baş nazirinin təşəbbüsü ilə baş tutmuş telefon danışığı əsnasında Azərbaycan-Küveyt münasibətlərinin dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında bir çox sahələrdə inkişaf etdiyi vurğulanıb.

Hökumət başçıları iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərini müzakirə ediblər, qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran bir sıra aktual məsələləri nəzərdən keçiriblər.

***XQ***

# Daşkənddə həmrəylik şənliyi



**Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı münasibətilə "Mədəniyyət gücümüzdür – həmrəylik birliyimizdir" adlı bayram tədbiri keçirilib.**

Mərkəzin direktoru Akif Marifli Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün milli birliyimizin və həmrəyliyimizin bariz ifadəsi olduğunu qeyd edib.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev iştirakçıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə təbrik edib. Səfir öz çıxışında deyib ki, ölkələrimiz arasında humanitar və mədəni təşəbbüslər xalqlarımız arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində mühüm rol oynayır.

Konsert proqramında Azərbaycanın tanınmış xanəndəsi Rəvan Qaçayev və gənc müğənni Ülkər Abdullayeva çıxış ediblər. Onların ifasında Vətənə, dostluq və həmrəyliyə həsr olunmuş mahnılar səslənib. AMM-nin nəzdindəki "Xarı bülbül" teatr truppası Azərbaycan klassik musiqili komediyalarından səhnələr, "Qarabağ Zəfəri" rəqs ansamblının üzvləri isə milli rəqslərimizi təqdim ediblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Ruben Vardanyanın məhkəməsi təxirə salınıb

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə dekabrın 30-na təyin olunmuş məhkəmə prosesi qeyri-müəyyən müddətədək təxirə salınıb.**



Buna səbəb həmin cinayət işi üzrə hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət məhkəmə heyətinin (ehtiyat hakim Günel Səmədova) digər iş (15 nəfər Ermənistan vətəndaşının barəsində cinayət işi) üzrə məhkəmə iclasında müşavirəyə getməsidir.

Beləliklə, R.Vardanyanın barəsində cinayət işi üzrə növbəti məhkəmə iclası məhkəmə heyəti müşavirədən qayıdandan sonra keçiriləcək.

***XQ***

# Heydər Əliyevin həmrəylik ideyası və diaspor strategiyası



**Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, soydaşlarımızın bir qismi öz yurdlarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Nəticə olaraq azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar.**

Onlar dünyanın bir çox ölkələrində – Rusiyada, Ukraynada, Mərkəzi Asiya və Baltikyanı ölkələrdə, Avropada, Amerikada məskunlaşmış, Şərq ölkələrində iri Azərbaycan icmaları yaratmışlar. Öz doğma yurdunda yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış soydaşlarımızla həmişə maraqlanmış, onlarla əlaqələr yaratmaq arzusu ilə yaşamışlar. Lakin tərkibində olduğumuz keçmiş Sovet dövlətinin qadağaları bu arzunun həyata keçirilməsinə imkan verməmişdir. Sovet rejiminin zəifləməyə başladığı 80-ci illərin sonlarında Azərbaycan xalqı öz soydaşları ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü əsasında dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Sonra bu bayramın bütün ölkədə rəsmi qeyd edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi. Beləliklə, 1991-ci ildən etibarən Azərbaycanda hamımız üçün əziz bir bayram olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təntənə ilə qeyd olunmağa başladı.

Müstəqilliyin ilk illərində yaranmış mövcud ictimai-siyasi şəraitə uyğun olaraq Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması və onları ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi idi. Məhz ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə ikinci dəfə qayıtmasından sonra ölkəmizin diasporla bağlı vahid dövlət strategiyası müəyyənləşdi və diaspor quruculuğu Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Lakin həmin vaxt azərbaycanlıların təşkilatlanması məsələsi, ilk növbədə, ideoloji və tarixi əhəmiyyət daşıyan problem olaraq qalırdı. Onun həllinə nail olmaq üçün isə Azərbaycan dövlətinin ideya-siyasi təməlini yaratmaq, iqtisadi qüdrətinə və siyasi nüfuzuna güclü inam formalaşdırmaq tələb olunurdu. Ümummilli lider Heydər Əliyev də bu ideyanın həyata keçirilməsi prosesinə məhz həmin amilləri nəzərə almaqla başlamışdır. Azərbaycan dövlətinin tarixi ənənələrinin formalaşması, onun siyasi əsaslarının mükəmməl bir ideoloji sistemin tərkib hissəsi kimi təsbit olunması milli dövlətçilik təfəkkürünün meydana gəlməsində müstəsna rol oynamışdır.

Bu baxımdan Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ilin avqust ayında ABŞ-da işgüzar səfərdə olarkən bütün dünya azərbaycanlılarına müraciəti böyük əhəmiyyət kəsb edir: "Əgər sən azərbaycanlısansa bilməlisən: dünya azərbaycanlılarının bir tarixi Vətəni var – Azərbaycan, dünya azərbaycanlılarının bir müstəqil dövləti var – Azərbaycan, Dünya azərbaycanlıları öz tarixi vətənlərini, müstəqil dövlətlərini müqəddəs hesab etməli, onun ətrafında birləşməlidirlər". Həmin il Prezidentin İcra Aparatında xaricdə yaşayan azərbaycanlılarla iş üzrə xüsusi bölmə yaradıldı. Bununla da xaricdə yaşayan Azərbaycan diasporunun təşkilatlanması prosesi başladı və ümummilli lider Heydər Əliyevin diqqəti, qayğısı nəticəsində davam etdi. Beləliklə, Amerikada, Avropada və Asiya qitəsində de-fakto yaşayan azərbaycanlılar öz təşkilatlarını yaratmaqla yanaşı həm də de-yure fəaliyyətə başladılar.

Dövlət başçısı Heydər Əliyev xarici ölkələrə işgüzar səfərləri zamanı diaspor nümayəndələri ilə görüşlərində daim Azərbaycan diasporunun formalaşmasını, təşkilatlanmasını bildirir və öz tövsiyələrini verirdi. Azərbaycan Prezidentinin nitqindəki tövsiyə və tapşırıqlar Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etməklə yanaşı, dünya azərbaycanlılarının birliyinin konseptual əsaslarının milli dövlətçilik ideologiyası müstəvisində formalaşmasının tarixi-siyasi əhəmiyyətini daha dəqiq qiymətləndirmək imkanı yaratmışdır.

Ulu öndərin bu istiqamətdə başlatdığı iş elə ilk günlərdən müsbət nəticələrini göstərdi. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın respublikamızla əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il 23 may tarixli xüsusi sərəncam imzalamışdır. Sərəncamda qeyd edilmişdi: "Xaricdə yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirilsin".

Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə dünya azərbaycanlılarının həmrəyliyi və birliyi naminə böyük bir prosesin başlanğıcı kimi daxil olmuşdur. I qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumdan, habelə elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur. Qurultayda Prezident Heydər Əliyev geniş məzmunlu nitqində təkcə milli birliyə necə nail olmağın yolunu deyil, eyni zamanda, onu qorumağın yollarını da göstərmişdir: "Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimiz də ayrı-ayrı ölkələrdə olan Azərbaycan icmaları arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir".

Qurultayda Azərbaycan diasporu - Azərbaycan Respublikası əlaqələri, dünya azərbaycanlılarının həmrəyliyi, soydaşlarımızın qüvvə və diqqətinin Azərbaycana yönəlməsi kimi vacib problemlərin həm nəzəri, həm də əməli tərəfləri ilə bağlı bu kimi məsələlər müzakirə edilmiş və bunların bir çoxu öz həllini tapmışdı. Qurultay Ulu öndərin dünya azərbaycanlılarının birləşdirmək ideyasının reallığa çevrilməsi üçün əsl mərhələ oldu. Qurultayda milli birliyimiz, həmrəyliyimiz, dünya azərbaycanlılarının diaspor şəklində formalaşması və azərbaycançılıq ideyalarını geniş miqyasda müdafiə etmələri üçün strateji proqram müəyyən edildi.

Dünya Azərbaycanlılarının I Qurultayının mühüm nəticələrindən biri də Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması oldu ki, həmin qurumun səlahiyyətlərinə də dünya azərbaycanlılarının təşkilatlanması və milli-mənəvi dəyərlərin qorunub saxlanılması daxildir. Bundan başqa, dünya azərbaycanlılarının birliyi, həmrəyliyi, onların yaşadığı ölkələrdə və bütün dünyada güclü və monolit bir qüvvə kimi çıxış etmələrinə, öz milli və vətəndaş haqlarını daha dolğun qorumalarına da əhəmiyyətli təsir göstərdi. Dünya Azərbaycanlılarının I Qurultayı soydaşlarımızın təşkilatlanması prosesində əhəmiyyətli dönüş yaradaraq, Azərbaycan diaspor tarixində yeni mərhələnin başlanğıcını qoydu.

Dünya Azərbaycanlılarının I Qurultayından sonra xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin güclənməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Ona görə də dövlət dəstəyi sayəsində diaspor fəaliyyətini sistemli şəkildə inkişaf etdirmək məqsədilə 2002-ci ildə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Yeni yaradılan bu qurum çox keçmədən azərbaycanlıların dünya ölkələrində mövcud olan icmaları ilə əlaqələrin gücləndirilməsinə əhəmiyyətli töhfələr verməyə başladı.

Azərbaycan diasporunun fəaliyyətinin yeni istiqamətlərini müəyyənləşdirmək, bu fəaliyyəti daha da inkişaf etdirmək məqsədilə Prezident İlham Əliyevin Sərəncamı ilə keçirilən dünya azərbaycanlılarının növbəti qurultayları və digər müxtəlif tədbirlər də xüsusi tarixi əhəmiyyət kəsb etmişdi. Xüsusilə 2020-ci il sentyabrın 27-də Vətən müharibəsində (II Qarabağ müharibəsi) dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı milli həmrəylik nümayiş etdirdi. 44 günlük Vətən müharibəsində qazanılmış Zəfərdə, dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin rolu danılmazdır. Azərbaycan diasporu Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasında və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında özünəməxsus fəaliyyət göstərdi. 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatının müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərməsi bu fəaliyyətin yalnız bir hissəsidir. Prezident İlham Əliyev dünyada yaşayan azərbaycanlıların bu istiqamətdə göstərdikləri fəaliyyəti barədə demişdir: "Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri qələbəmizə layiqli töhfə olmuşdur". Dünya Azərbaycanlılarının 2022-ci il aprel ayının 22-də növbəti V qurultayı Azərbaycanın tarixi Zəfərinin sevincini yaşadığı vaxta təsadüf etdi. Ötən qurultaylardan fərqli olaraq tədbirin keçirildiyi məkan işğaldan azad edilmiş Azərbaycanın mədəniyyət şəhəri olan Şuşada baş tutdu. Onu da qeyd edək ki, dünya azərbaycanlıları işğal altında olan bu ərazilərin azadlığı üçün 30 il həmrəylik nümayiş etdirərək əllərindən gələni etmişdilər. Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq qurultaya dəvət alan soydaşlarımız ilk dəfə olaraq 30 il arzusunda olduğu Qarabağda toplaşdılar. Dünya azərbaycanlılarının Şuşada bir araya gəlməsinin böyük tarixi, siyasi və mənəvi əhəmiyyəti oldu. Çünki Azərbaycan qalib ölkədir və diaspor fəaliyyəti qələbəmizin daha da möhkəmlənməsi istiqamətində Prezident İlham Əliyevin apardığı siyasi kursuna uyğun formalaşdırılıb.

Beləliklə, milli dövlətçilik düşüncəsi artıq XX əsrin sonları, XXI əsrin əvvəllərində vahid ideoloji konsepsiya kimi özünü təsdiq etməyə başladı. Ulu öndərin müəllifi olduğu dünya azərbaycanlılarının birləşdirilməsi və həmrəy olması məhz bu ideologiyaya əsaslanırdı. Heydər Əliyevin böyük fədakarlıq bahasına ayağa qaldırdığı Azərbaycan dövləti, qısa vaxt ərzində bütün dünya azərbaycanlılarının tarixi və siyasi istinadgahına, dayaq nöqtəsinə çevrilmişdir. Ölkəmizdə diaspor quruculuğu və soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi, həmrəyliyi, yəni dünya azərbaycanlılarının təşkilatlanması məhz onun adı ilə bağlıdır. Nəhayət, deyə bilərik ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan diasporunun mənəvi birliyi son illər daha da möhkəmlənmiş, Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək zirvəyə çatmışdır. Bütün bunlar Azərbaycan diasporunun yeni mərhələdə inkişafına xüsusi stimul verir.

***Mahir İBRAHİMOV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru, dosent***

# Qalib xalqın öyünclü səsi

## *Dünya bizi eşidir və qəbul edir*

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuz 2020-ci ldə tariximizin yeni mərhələsini formalaşdırdı. 2025-ci il isə Azərbaycan tarixinə İkinci Qarabağ müharibəsində qazanılan Zəfərin 5 illiyi kimi daxil oldu.**



Zəfərin 5 illiyi dünya azərbaycanlıları üçün də qürur, birlik və milli həmrəyliyin daha yüksək olduğu il kimi yadda qaldı. Bu il Azərbaycan diasporu fəallığı və səmərəli fəaliyyəti ilə diqqət çəkdi. Həyata keçirilən layihələr çoxistiqamətli və davamlıdır. Zənnimizcə, bəzi fakt və rəqəmləri səsləndirməklə ümumi mənzərəni aydın təsəvvür etmək olar. Xaricdəki Azərbaycan icmaları Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Zəfərin 5 illiyi münasibətilə dünyanın 35 ölkəsinin 81 şəhərində 100-ə yaxın tədbir təşkil edib. Bu tədbirlərdə təkcə azərbaycanlılar deyil, həm də ölkəmizi sevən xaricilər iştirak edib.

Soydaşlarımız hər zaman olduğu kimi, bu il də qlobal informasiya məkanında güclü aktor olmağı bacarıb, necə deyərlər, informasiya müharibəsinin əsgərləri kimi yorulmadan çalışıblar. Hazırda dünya azərbaycanlılarını birləşdirən 15 Koordinasiya Şurası fəaliyyət göstərir. 20 ölkədə 31 Azərbaycan Evi açılıb. Koordinasiya Şuraları, Azərbaycan Evləri və yüzlərlə digər diaspor təşkilatları 2025-ci ildə də öz işlərini sistemli və ardıcıl şəkildə davam etdiriblər.

Diasporla İş üzrə Dövlət Komitəsi 2025-ci ildə də Diaspor Gənclərinin Yay Düşərgələri, Diaspor Gənclərinin Qış Düşərgələri, Qardaşlaşmış Qarabağ Məktəbləri, Liderliyin İnkişafı, Diaspor Gəncləri Şəbəkəsi, 1+1 Gənclər Proqramı, E-akademiya, Beyinqazanma, Diaspor Könüllüləri və digər mühüm layihələri uğurla davam etdirib. Komitə, həmçinin xarici ölkələrdə ixtisaslaşmış forumlar təşkil edib. Türkdilli Dövlətlərin Gənclərinin Forumu, Xaricdəki Azərbaycanlı Alimlərin Forumu, Xaricdəki Azərbaycanlı Həkimlərin Forumu, Xaricdəki Azərbaycanlı Mühəndislərin Forumu, Xaricdəki Azərbaycanlı Tələbələrin Forumu, Xaricdəki Mədəniyyət Xadimlərinin Forumu buna misaldır. Bu layihələrin həyata keçirilməsində Azərbaycan diasporu xüsusi fəallıq nümayiş etdirib.

2025-ci ildə xarici ölkələrin dünyaca məşhur meydanlarında Azərbaycanın Dövlət Bayrağı qaldırılıb, ən böyük salonlarda Zəfərimizin şərəfinə bayram konsertləri təşkil olunub. Zəfərin 5 illiyi və 9 noyabr – Dövlət Bayrağı Günü münasibətilə təşkil olunan bayraqqaldırma mərasimləri, maarifləndirici aksiyalar, konsertlər, konfranslar, kitab təqdimatları, festivallar, film nümayişləri, yarış və yürüşlər xaricdə yaşayan soydaşlarımızla yanaşı yerli ictimaiyyətin də diqqətini cəlb edib. Onların məlumatlandırılmasında əvəzsiz rol oynayıb. Azərbaycanın xaricdəki "yumşaq gücü" bu tədbirlərlə mədəniyyət diplomatiyasına, ictimai diplomatiyaya böyük töhfələr verib.

***

2025-ci il həm də xaricdəki azərbaycanlıların şəbəkələşməsi yolunda atılan addımların intensivliyi ilə diqqət çəkib. Xarici ölkələrdə keçirilən tədbirlərlə bağlı tendensiya say etibarilə ilə də müsbət məqamlarla yadda qalıb. Xatırladaq ki, 2025-ci ildə komitə rəhbərliyi və əməkdaşları xarici ölkələrə ümumilikdə 97 səfər edib, Azərbaycan icmaları və həmin ölkələrin rəsmi qurumlarının rəhbər şəxsləri ilə görüşüblər.

Yaddaqalan məqamlardan biri də Corc Vaşinqton, Mayami, İllinoys, Kolumbiya, Qlazqo, İnha, Qars Qafqaz Universiteti və bir sıra digər nüfuzlu ali təhsil ocaqlarında azərbaycanlı və xarici tələbələrin, müəllim və professorların iştirakı ilə forum və panel müzakirələrin təşkil olunmasıdır. Diasporla İş üzrə Dövlət Komitəsi xarici ölkələrdəki diplomatik nümayəndəliklər, prezidentin xüsusi nümayəndəlikləri, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Qarabağ Dirçəliş Fondu, şəhid ailələri və qazilərlə işləyən bir sıra təşkilatlarla əməkdaşlıq çərçivəsində layihələr həyata keçirib. Suverenliyimizin simvolu olan Xankəndi şəhəri dünya azərbaycanlı gənclərinin və ölkəmizi sevən xaricilərin iştirakı ilə Diaspor Gənclərinin VI Yay Düşərgəsinə evsahibliyi edib.

Komitənin mühüm layihələrindən biri xaricdəki həftəsonu Azərbaycan məktəbləridir. Hazırda 24 ölkədə 90-dan çox həftəsonu Azərbaycan məktəbi var. Həmin məktəblər, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə xarici ölkələrdə yaradılan "Qarabağ" adlı onlayn həftəsonu Azərbaycan məktəbləri bu il də uğurla fəaliyyətini davam etdirib. Komitə minlərlə azərbaycanlı uşaq və gəncin, eyni zamanda, xaricilərin təhsil aldığı həftəsonu Azərbaycan məktəblərini lazım olan bütün vəsaitlə təmin edib. Qeyd edək ki, xarici ölkələrdəki 31 Azərbaycan Evinin hər birində həftəsonu məktəbi var.

Diasporla İş üzrə Dövlət Komitəsi diaspor təşkilatlarının milli dilli onlayn təhsil platformasını hazırlayaraq istifadəyə verib. Platforma dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı uşaqları və müəllimləri vahid onlayn tədris proqramı ətrafında birləşdirir.

2025-ci il həm də Diasporla İş üzrə Dövlət Komitəsinin beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi ilə yadda qalıb. Komitə rəhbərliyi beynəlxalq əməkdaşlığın inkişafı məqsədilə müxtəlif xarici ölkələrdə onlarca görüş keçirib. Görüşlər bir sıra ölkələrin oxşar qurumları ilə müqavilə və memorandumların imzalanması ilə nəticələnib.

Son bir ildə Azərbaycan Diasporuna Dəstək Fondu 33 layihəyə dəstək göstərib. Fondun vəsaiti hesabına müxtəlif adda kitablar çap olunub, disklər hazırlanıb, xaricdə konsert proqramları təşkil olunub. Bununla yanaşı, Azərbaycan Diasporuna Dəstək Fondu xaricdə dünyasını dəyişən bir sıra soydaşlarımızın cənazələrinin ölkəmizə gətirilməsini də təşkil edib. 2025-ci ildə müxtəlif sahələri təmsil edən xaricilərin komitənin xətti ilə Qarabağa səfərləri davam edib. Bu il soydaşlarımızın diaspor fəaliyyətində xidmətlərə görə Azərbaycan Respublikasının medalı ilə təltif olunmaları da təqdirəlayiq hal sayılmalıdır. 2025-ci ildə komitənin və Azərbaycan diasporunun fəaliyyəti ilə bağlı 1600 xəbərin press-relizi hazırlanaraq onların komitənin rəsmi internet saytı olan diaspora.gov.az saytında və yüzdən çox media orqanında yayımı təşkil edilib. Diasporla İş üzrə Dövlət Komitəsinin "YouTube" kanalı olan Diaspor TV və Diaspor FM səkkiz ildir fəaliyyətdədir və 2025-ci ildə də işlərini uğurla davam etdirib. Diaspor TV və Diaspor FM-in bazasında 4500-ə yaxın video və audiomaterial var. Dünya azərbaycanlılarının həyat və fəaliyyətindən bəhs edən və bu günə kimi 40 ölkədə çəkilişləri aparılan "Vətən uzaqda deyil" proqramının 200-ə yaxın buraxılışı hazırlanaraq yayımı təmin olunub. Veriliş Diaspor TV ilə İctimai TV-nin ortaq layihəsidir və ayda iki dəfə İTV-nin efirində yayımlanır.

Azərbaycan diasporunun fəaliyyəti onu göstərir ki, diasporumuz həqiqətən də qlobal informasiya məkanının güclü aktoruna çevrilmək yolundadır. Saat fərqlərini nəzərə alsaq dünyanın hər yerində, hər dəqiqə oyaq olan azərbaycanlılar var. Bu da o deməkdir ki, qəlbi Ana Vətənlə döyünən insanların Azərbaycan düşüncəsi, Azərbaycan sevgisi hər an diri, hər zaman oyaqdır.

***Səxavət HƏMİD***
***XQ***

# Sülh diplomatiyasında Zirvə ili



**2025-ci il Azərbaycanın xarici siyasəti üçün ölkəmizin beynəlxalq mövqeyində keyfiyyət dəyişikliyinin baş verdiyi, əvvəlki dövrün bağlanaraq daha mürəkkəb və çoxölçülü fazaya keçidin rəsmiləşdiyi il kimi tarixə düşdü.**

Bakı bu il özünü qlobal sistemin dəyişən konfiqurasiyasını düzgün oxuyan və bu dəyişiklikləri milli maraqlarına uyğun şəkildə yönləndirə bilən rasional siyasi mərkəz kimi təqdim etdi. Beynəlxalq münasibətlərdə klassik bloklaşmaların zəifləndiyi, güc mərkəzləri arasında rəqabətin sərtləşdiyi bir şəraitdə Azərbaycan emosional seçimlərdən uzaq, praqmatik və hesablanmış xəttə üstünlük verdi. Nəticədə, ölkə 2025-ci ildə proseslərin gedişinə təsir göstərən aktor statusunu möhkəmləndirdi.

Məhz bu strateji xəttin kulminasiya nöqtəsi 8 avqust 2025-ci ildə Vaşinqtonda baş verdi. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə paraflanan üçtərəfli sənəd regional sülh arxitekturasında ilk dəfə olaraq niyyətlərin konkret institusional çərçivəyə keçirildiyi məqam idi. Vaşinqton görüşü sülh anlayışını siyasi iradə, vasitəçilik və qarşılıqlı öhdəliklərin balansı üzərində qurulan real mexanizmə çevirdi.

Görüşdə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə tərəflər arasında Birgə Bəyannamə imzalandı ki, bu sənəd Cənubi Qafqazda uzun müddət davam edən münaqişəyə birdəfəlik son qoydu. Analitik baxımdan bu, regional stabilliyin və sülhün institusional təminatına çevrilmiş real diplomatik nailiyyət idi.

Sənədin icrası həm də ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasını şərtləndirdi ki, bu da uzun illər davam edən vasitəçilik mexanizmlərinin artıq Azərbaycan təşəbbüsü və real region kontekstində yenidən qurulmasına imkan yaratdı. Digər mühüm nəticə Zəngəzur dəhlizi – TRİPP layihəsi ilə bağlı razılaşmanın əldə olunması idi. Bununla da Azərbaycanın nəqliyyat və tranzit strategiyasında yeni imkanlar açıldı və regional inteqrasiyanı sürətləndirdi.

Vaşinqton görüşü Azərbaycan–ABŞ münasibətlərində də yeni bir mərhələnin başlanğıcını qoydu. Prezident Trampın təşəbbüsü ilə 907-ci düzəliş aradan qaldırıldı, bu da Azərbaycanın ABŞ-la iqtisadi, enerji və müdafiə sahələrində strateji əməkdaşlıq imkanlarını genişləndirdi. 2023-cü ilin sentyabrında Qarabağdakı separatçı rejimin süqutundan sonra Bayden administrasiyasının əvvəlki münasibətlərin davam etməyəcəyini bəyan etməsi və 907-ci düzəliş çərçivəsində sanksiyaları bərpa etməsi Azərbaycan–ABŞ münasibətlərində böhran yaratmışdı. Vaşinqton görüşü bu gərginliyi aradan qaldırdı və ölkəmizə qarşı qərəzli mövqenin regional sülh prosesində rol almasına mane olan bütün maneələri aşdı.

Niyə məhz Vaşinqtonda baş verən bu hadisə 2025-ci ilin ən böyük diplomatik uğuru, Azərbaycanın xarici siyasətinin Zirvəsi kimi dəyərləndirilməlidir? Çünki həmin gün bir neçə strateji xətt eyni nöqtədə kəsişdi. Hər şeydən əvvəl, Azərbaycan illərdir ardıcıl şəkildə yürüdüyü prinsipial xəttə sadiq qaldığını bir daha nümayiş etdirdi. Söhbət güc yolu ilə formalaşmış yeni reallıqların mərhələli şəkildə diplomatik və hüquqi müstəviyə daşınmasından gedir. 2020-ci ildən sonra əldə edilən hərbi-siyasi üstünlük zamanla sənədlərə, razılaşmalara və beynəlxalq diskursa çevrildi. Vaşinqtonda paraflanan sənəd bu zəncirin növbəti həlqəsi idi – burada artıq diplomatiya faktlara uyğunlaşırdı, faktlar diplomatiyaya yox.

Eyni zamanda, ABŞ faktorunun yenidən prosesin mərkəzinə çəkilməsi Bakının balanslı xarici siyasət kursunun real nəticə verdiyini göstərdi. Azərbaycan bu illər ərzində nə regional təcrid yolunu seçdi, nə də hansısa güc mərkəzinin orbitinə daxil oldu. Əksinə, çoxqütblü dünyanın açdığı imkanlardan istifadə edərək Vaşinqton, Ankara, Moskva, Brüssel və Pekin arasında çevik manevr imkanlarını qorudu. Tramp administrasiyasının vasitəçilik təşəbbüsü, əslində, Vaşinqton üçün aydın mesaj idi: Cənubi Qafqazda dayanıqlı sülh Bakının iştirakı olmadan mümkün deyil.

8 avqust sənədini dəyərli edən digər mühüm məqam onun iddialarında gizlənir. Sənəd sülhə aparan yolun başlanğıcı kimi təqdim olunurdu. Paraflanan müddəalar tərəfləri dərhal sərt hüquqi çərçivəyə salmaqdan daha çox, siyasi iradəni açıq şəkildə ortaya qoyurdu. Diplomatik praktikada isə çox zaman ən çətin mərhələ məhz bu mərhələdir: razılaşmaq yox, razılaşmağa hazır olduğunu rəsmiləşdirmək.

Vaşinqtonda paraflanan razılaşma uzun illər ərzində mərhələli şəkildə qurulmuş və ardıcıl olaraq möhkəmləndirilmiş strateji xəttin məntiqi davamı idi. Belə bir xəttin arxasında bütöv bir dövlət düşüncəsi dayanırdı. Enerji diplomatiyası vasitəsilə Avropanın enerji təhlükəsizliyində mühüm mövqe qazanılması, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat-logistika dəhlizlərinin funksional hala gətirilməsi, regional inteqrasiya formatlarında fəal iştirak Azərbaycanın diplomatik manevr imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi. Proseslərin mərkəzində isə dəyişməyən bir prinsip vardı: suveren qərarvermə qabiliyyətinin heç bir mərhələdə güzəştə gedilməməsi.

Bu il ərzində ölkəmiz Mərkəzi Asiya ilə münasibətlərini keyfiyyətcə yeniləyərək, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə bu platformaya tamhüquqlu üzv kimi qoşuldu. Prezident İlham Əliyevin çıxışı göstərdi ki, Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında münasibətlər yalnız ortaq tarixi və mədəni irs üzərində deyil, həm də strateji tərəfdaşlıq xarakterinə malik yeni dinamikayla qurulur. Bununla da, Azərbaycan regional nəqliyyat və tranzit layihələrində, xüsusilə Orta Dəhlizdə oynadığı rolu möhkəmləndirdi. İnfrastrukturun modernləşdirilməsi, gömrük prosedurlarının sinxronlaşdırılması və rəqəmsallaşdırılması, yükdaşımaların həcminin artırılması və iqtisadi dayanıqlılığın gücləndirilməsi bu platformanın real funksionallığını göstərir.

İlin əvvəlində həyata keçirilən yüksək səviyyəli görüşlər Azərbaycan diplomatiyasının çevikliyini və çoxvektorlu xarici siyasətini nümayiş etdirdi. İlin ikinci rübündə Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri isə Azərbaycanın Asiya xəttində strateji mövqeyini gücləndirdi. Çin Prezidenti Si Cinpin ilə enerji, ticarət, nəqliyyat, rəqəmsal texnologiyalar, elm və təhsil sahələrini əhatə edən sənədlərin imzalanması, xüsusilə hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat Bakı–Pekin əməkdaşlığının real institusional çərçivəyə malik olduğunu göstərdi.

2025-ci il Azərbaycan üçün regional inteqrasiya və çoxvektorlu diplomatiya baxımından xüsusi əhəmiyyət kəsb etdi. May ayında Prezident İlham Əliyev bir sıra beynəlxalq zirvələrdə iştirak edərək ölkənin strateji təşəbbüskarlığını nümayiş etdirdi. Mayın 16-da Tirana şəhərində keçirilən Avropa Siyasi Birliyinin 6-cı Zirvə toplantısında Azərbaycan qlobal siyasi gündəmdə aktiv rol oynadı.

Daha sonra, mayın 21-də Türk Dövlətləri Təşkilatının Budapeştdə baş tutan qeyri-rəsmi Zirvə görüşü Azərbaycanın TDT çərçivəsində regional liderliyini və təşkilatın institusional inkişafını gücləndirmə istiqamətində atdığı strateji addımları nümayiş etdirdi. Görüşdə Prezident İlham Əliyev Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan prezidentləri ilə birgə bəyannamə imzalayaraq təşkilatın əməkdaşlıq mexanizmlərini dərinləşdirdi.

Bu mərhələdə qaçılmaz olaraq daha fundamental bir sual ortaya çıxır: Azərbaycan üçün bu diplomatik uğurun əsas strateji dərsi nədən ibarət oldu? Müasir beynəlxalq münasibətlər sistemində güc anlayışı artıq yalnız hərbi potensialla ölçülmür. Güc – düzgün zamanlamadır, tərəfdaş seçimində praqmatizmdir və uzunmüddətli diplomatik ardıcıllıqdır. 2025-ci ildə Azərbaycan emosional bəyanatlardan və maksimalist ritorikadan uzaq duraraq səssiz, lakin dəqiqliklə hesablanmış addımlarla regional sülh diskursunun mərkəzinə doğru irəlilədi.



İlin sonunda aydın şəkildə görünür ki, Bakı sülh prosesində "platforma" rolunu mənimsəməyə başlayır. Qarşıda hələ mürəkkəb danışıqlar, texniki detallarla dolu mərhələlər və siyasi risklər qalır. Ancaq əsas məsələ artıq həll olunub: sülh ideyası deklarativ çağırış olmaqdan çıxaraq konkret diplomatik trayektoriyaya çevrilib.

Məhz bu kontekstdə 2025-ci il Azərbaycan xarici siyasət tarixində ayrıca yer tutacaq. Bu il Bakı sübut etdi ki, müasir beynəlxalq sistemdə qalib mövqeyə sahib olmaq üçün güclü olmaq kifayət etmir. Əsas məsələ həmin gücü doğru zamanda, doğru masada və optimal vasitəçilik formatları çərçivəsində ifadə etmək bacarığıdır. 8 avqust Vaşinqton görüşü bu siyasi fəlsəfənin və diplomatik yanaşmanın simvoluna çevrildi.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

---

*Mənəvi bütövlük*

# "Biz azərbaycanlılarıq!"

## *Milli birliyin təşəkkülü və qlobal addımları*

**Həmrəylik anlayışına qədim zamanlarda belə rast gəlmək mümkündür. O cümlədən bəşər tarixinin ən qədim yazılı dastanı olan "Gilqameş" dastanında da. "Güc birlikdədir" ideyasını aşılayan dastanın baş qəhrəmanı Gilqameş nə qədər güclü olsa da, tək olanda natamamdır. Amma onun qəhrəmanlığı Enkidu ilə qarşılaşdığı zaman əhəmiyyət kəsb etməyə başlayır. Onların dostluğu insanın öz varlığını başqasında tapması, gücünü paylaşmaqla böyütməsi, qorxularını birlikdə aşmasının təcəssümünə çevrilir. Dastanın ən kədərli epizodlarından olan Enkidunun ölümü isə birliyin dağılmasına işarədir. Çünki məhz həmin andan etibarən Gilqameş ölümsüzlük axtarışına çıxır və anlayır ki, fərdi ölümsüzlük mümkün deyil, insanı yaşadan birlikdir, həmrəylikdir.**

Min illərdən gələn ideya bu gün də eyni olaraq qalır. Zaman dəyişib, coğrafiyalar genişlənib, xalqlar dünyaya səpələnsə də, mif, dastan və müqəddəs mətnlərdəki birlik ideyası həmişə xilasedici qüvvə kimi xatırlanır. Azərbaycan xalqının tarixi də bu baxımdan istisna deyil. Minilliklər boyu bu torpaqda formalaşan ictimai münasibətlərdə el birliyi, qan bağları və ortaq məsuliyyət əsas rol oynayıb. Xalqımız üçün "el" anlayışı həm də mənəvi sığınacaq mənasına gəlir. Tarixin ağır dövrlərində – müharibələrdə, işğallarda, deportasiyalarda məhz el birliyi bir çox faciələrin qarşısını alıb. Ona görə də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü planetin müxtəlif guşələrinə səpələnmiş soydaşlarımızı mənəvi cəhətdən bir araya gətirən milli qürur və birlik rəmzinə çevrilib.

**ARAYIŞ:** Hazırda dünyanın 70-dən çox ölkəsində ümumilikdə 50 milyondan çox azərbaycanlı yaşayır. Təkcə qonşu İranda təxminən 30 milyon etnik azərbaycanlının yaşadığı bildirilir. Məhz bu reallıq 31 Dekabr – Həmrəylik Gününü geniş Azərbaycan diasporunu vahid milli kimlik və ortaq Vətən sevgisi ətrafında birləşdirən xüsusi bayrama çevirib. Əlamətdar günün rəsmi status alması isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi çıxış edən Heydər Əliyev dünya azərbaycanlılarının birliyinin tarixi zərurətini əsas götürərək, 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəyliyi və Birlik Günü elan etdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildən etibarən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ölkə miqyasında dövlət bayramı kimi qeyd olunmağa başlandı. 1993-cü ildə isə Prezident Heydər Əliyevin imzaladığı fərmanla bu tarix qeyri-iş günü elan edilərək dövlət bayramı statusu qazandı.

Əfsuslar olsuun ki, tarixi proseslərin, müharibələrin, inqilabların, imperiya parçalanmalarının və məcburi miqrasiyaların nəticəsində Azərbaycan xalqının böyük bir hissəsi uzun illərdir Vətəndən kənarda yaşayır. 31 dekabr tarixi ayrılıqların yaratdığı mənəvi parçalanmanı aradan qaldıran, xalqın bölünmüş hissələrini ruhən birləşdirən simvolik gündür. Hətta etnik mənsubiyyətcə azərbaycanlı olmayan, lakin Azərbaycanda doğulub boya-başa çatmış insanlar belə bu həmrəylik ənənəsinə qoşularaq özlərini bu torpağa bağlı hiss edirlər. Bu gün vətənə bağlılıq və azərbaycançılıq ideyası dünyanın dörd bir tərəfində yaşayan azərbaycanlıları vahid amal ətrafında birləşdirən əsas dəyərə çevrilib.

Bir məqamı da xatırladaq ki, uzun müddət diaspor anlayışı coğrafi reallıq kimi qəbul olunurdu. Xaricdə yaşayan azərbaycanlılar, sadəcə, say etibarilə mövcud idi. Lakin müasir dövrdə bu anlayış köklü şəkildə dəyişib. Hazırda diaspor milli maraqların beynəlxalq müstəvidə ifadəçisi, informasiya müharibəsinin ön cəbhəsində dayanan gücə çevrilib. Xüsusilə son onilliklərdə Azərbaycan həqiqətlərinin



dünyaya çatdırılmasında, işğal faktlarının ifşasında, mədəni irsin qorunmasında dünya azərbaycanlılarının həmrəy fəaliyyəti həlledici rol oynayıb. Proses bir daha təsdiqləyib ki, həmrəylik, həm də strateji üstünlükdür. Xatırladaq ki, Azərbaycan xalqı XX əsrin sonu və XXI əsrin əvvəllərində ağır sınaqlardan keçib. Torpaqların işğalı, yüz minlərlə insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, informasiya manipulyasiyaları milli həmrəyliyin vacibliyini daha kəskin göstərirdi. Həmin dövrdə dünya azərbaycanlılarının vahid mövqedən çıxış etməsi milli mübarizənin ayrılmaz hissəsinə çevrildi. Bu həmrəylik İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbədən sonra öz aktuallığını qoruyub saxladı. Daha dəqiq desək, əldə olunan tarixi nailiyyətlər həmrəylik anlayışına yeni məna qazandırdı. Bu gün həmrəylik özünü işğaldan azad edilmiş ərazilərin bərpa prosesində, mənəvi dirçəlişdə büruzə verir.

Xarici ölkələrdə yaşayan azərbaycanlı diaspor icmaları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü müxtəlif formatlarda və geniş miqyasda qeyd edirlər. Bu cür tədbirlər diaspor üçün milli mədəniyyətimizin tanıdılması və yerli ictimaiyyətlə səmimi əlaqələrin qurulması baxımından mühüm platforma rolunu oynayır. Məhz birgə təşəbbüslər sayəsində Həmrəylik Gününün əsas mahiyyəti – birlik, mənəvi yaxınlıq və milli həmrəyliyə sədaqət icmalar arasında daha dərindən hiss olunur. Avropa ölkələrində yaşayan azərbaycanlılar da Həmrəylik Gününü xüsusi coşqu və fəallıqla qeyd edirlər. Həmin tədbirlər çərçivəsində icma üzvləri bir araya gələrək Azərbaycan tarixi, milli kimliyi və müasir reallıqları barədə təqdimatları dinləyir, milli musiqi və rəqs nümunələrinə tamaşa edirlər. Şübhəsiz, əsas məqsəd diaspor üzvləri arasında həmrəyliyi gücləndirmək və yaşadıqları ölkədə Azərbaycanı layiqincə təmsil etməkdir. Eyni yanaşma ABŞ-da fəaliyyət göstərən diaspor təşkilatları üçün də xarakterikdir. Amerika qitəsində yaşayan soydaşlarımız Həmrəylik Gününü həm rəmzi məna daşıyan, həm də praktiki baxımdan milli birliyi möhkəmləndirən önəmli tarix kimi dəyərləndirir və bu günü müxtəlif təşəbbüslərlə qeyd edirlər. ABŞ-ın müxtəlif şəhərlərində fəaliyyət göstərən azərbaycanlıların icmaları bu əlamətdar gün münasibətilə Azərbaycan bayrağı altında bir araya gələrək toplantılar keçirir, mədəni gecələr, musiqi və ədəbi-bədii proqramlar təşkil edirlər. Eyni zamanda, gənclər üçün maarifləndirici görüşlər və milli kimliyə dair müzakirələr tədbirlərin əsas leytmotivinə çevrilir. Son illər rəqəmsal imkanların genişlənməsi ilə Həmrəylik Gününün qeyd olunması yeni format qazanıb. Sosial şəbəkələr üzərindən birgə təbrik mesajları, videoçarxlar və onlayn tədbirlərə tez-tez rast gəlinir. Dünyanın dörd bir yanında yaşayan soydaşlarımız virtual platformalar vasitəsilə bir-birini təbrik edir, mənəvi yaxınlıq və həmrəylik nümayiş etdirirlər.

Yazımızı əvvəldə nümunə gətirdimiz "Gilqameş" dastanı ilə bitiririk. Qənaətimizə görə, bu dastanla Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü arasında çoxəsrlik məsafə olsa da, ideya eynidir. Bəli, insan tək olanda fanidir. Azərbaycan xalqının gücü məhz faniliyi devirmək, həmrəy olmaq bacarığındadır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Süni intellekt – möcüzələrə əlçatanlıq

## *Virtual dünyanın mahiyyəti və informasiya inqilabı*

**Süni intellekt cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən strateji fəaliyyət sahəsinə çevrilib. XX əsrin ortalarından etibarən əsası qoyulan bu elm sahəsi bu gün dövlət idarəçiliyindən iqtisadiyyata, ictimai münasibətlərdən kommunikasiya modellərinə qədər geniş müstəvidə tətbiq imkanı qazanıb. Məhz bu baxımdan "əlindəki fənərin haraya və necə işıq salması?" sualı süni intellekt ətrafında aparılan müzakirələrin əsas fəlsəfi və praktiki xəttini təşkil edir.**



Bu mövzu ətrafında redaksiyamızda keçirilən dəyirmi masa müzakirəsi süni intellektin müasir zamanda rolunun düzgün istiqamətləndirilməsi, ictimai faydaya xidmət etməsi və strateji məqsədlər naminə tətbiqi kimi məsələlərdən bəhs etdi. Müzakirə zamanı süni intellektin imkanları ilə yanaşı, onun məsuliyyətli istifadəsi, kommunikasiya və ictimai institutlarla, biznes qurumları və texnoloji nəhənglərlə sıx əlaqəsi xüsusi vurğulandı.

Redaksiyamızın qonağı, **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Elmir Vəlizadə** süni intellekt mövzusuna daha geniş, strateji və konseptual baxış bucağından yanaşaraq bu texnologiyanın hansı istiqamətlərdə və hansı məqsədlər üçün istifadə edilməsinin həlledici əhəmiyyət daşıdığını qeyd etdi. Onunla söhbətimiz texnologiyanın özü deyil, hansı dəyərlərə, ictimai prioritetlərə xidmət etməsi məsələsi üzərində quruldu.

Təqdim etdiyimiz müsahibədə Elmir Vəlizadə süni intellektin inkişafına və tətbiqinə bu gün Azərbaycanda formalaşan yanaşmalar, dövlət–cəmiyyət kommunikasiya modelində oynaya biləcəyi rol və gələcəyə dair strateji baxışlarını bölüşür. Bu baxışlar isə süni intellektin düşünülmüş və məqsədyönlü şəkildə istifadə edildikdə cəmiyyətə real dəyər qatan mexanizm olduğunu ön plana çıxarır.

***– Azərbaycanda süni intellekt üzrə milli strategiyanın hazırlanmasını zəruri edən səbəblər nələr idi? Yəni bu strategiyanın yaradılmasını zərurətə çevirən səbəblər nədir?***

– Əslində, səbəblər ondan ibarətdir ki, bütün dünyada hazırda süni intellekt rəqəmsal transformasiyanın, rəqəmsal inkişafın, hətta daha geniş götürsək, hər hansı bir ölkənin hərtərəfli inkişafının tərkib hissəsi kimi qəbul olunur. Bütün dünya ölkələrində belədir. 2025-ci ildə demək olar ki, bir çox ölkə bu istiqamətdə addımlarını atıb. Prezident İlham Əliyev mart ayında "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası", dekabr ayında "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün təsdiq edib. Bunlar ölkəmizdə süni intellekt sahəsində ilk strateji sənədlər olduğuna görə bu strategiyalar, müəyyən mənada, inkişafın təməlini yaratmaq məqsədi daşıyır. Ancaq güman edirik ki, orada illər müəyyənləşdirildiyi üçün, növbəti mərhələdə bunun davamı da olacaq.

Birinci strategiya, ilk növbədə, müəyyən edir ki, işlərin görülməsi üçün müəyyən hüquqi çərçivəyə ehtiyac var. Yəni qanunvericiliyin hazırlanması, qanunvericiliyə uyğun aktların hazırlanması zəruridir. Digər tərəfdən, bunun tətbiqi üçün mütləq etik çərçivələrin müəyyənləşdirilməsi vacibdir. Bu strategiyada qeyd olunub ki, məsuliyyətli və etik süni intellekt prinsipləri əsasında hüquqi baza müəyyənləşməlidir. Bu sahədə kadr hazırlığı, infrastrukturun qurulması, elmi kadrların yetişdirilməsi, inkişafın davamlı olması üçün zəruri olan startapların və biznesin özünün hazırlığının həyata keçirilməsi – bütün bunların hamısı strategiyamızda qeyd olunub. Qeyd etdiyim kimi, bu artıq süni intellektin tətbiqində inkişafın növbəti mərhələsinə keçid üçün zəmin yaradır. Eyni zamanda, bu, dünyada gedən texnoloji rəqabətlə uzlaşmanın da tərkib hissəsidir. Yəni texnoloji inkişafdan geri qalmamaq, bu rəqabətdə uduzmamaq üçün Azərbaycan da indiyə qədər rəqəmsal inkişafda, rəqəmsal transformasiyada qabaqcıl olduğu kimi, bu sahədə də addımlarını atmaq əzmindədir və bunu da həyata keçirir. Bu məqamlar rəqəmsal iqtisadiyyat üzrə strategiyada öz əksini tapıb, o cümlədən süni intellektin tətbiqi ilə bağlı məsələləri əhatə edir.

***– Elmir müəllim, rəqəmsal iqtisadiyyatla bağlı Strategiyada qeyd olunub ki, GenAİ-dən istifadə vasitəsilə yaradılan iqtisadi təsirin 70 milyon manata çatdırılması hədəflənib. İlk olaraq istəyərdik bilək və anlayaq: GenAİ, yəni generativ süni intellekt deyəndə nə nəzərdə tutulur və təsirləri nə cür olacaq?***

– Aydındır. Əslində generativ süni intellektin mahiyyəti ondan ibarətdir ki, bu alət vasitəsilə yeni məhsullar hazırlamaq mümkündür. Məsələn, adi şəkildən tutmuş videoya qədər, digər məhsullara, hətta proqram təminatının kodunu yazmağa qədər generativ süni intellekt imkan yaradır. Yəni yeni məhsul ortaya çıxarmaq olur. Həm də süni intellektin indiki mərhələsində olan generativlik ondadır ki, bu süni intellekt özünü də inkişaf etdirir. O, yeni biliklər əldə etdikcə, yeni məlumatlar topladıqca öz potensialını, öz məlumat bazasını daha da təkmilləşdirir. Onun əsasında verdiyi cavablar, fəaliyyət daha da konkret, təkmil və ətraflı olur. Yəni generativ süni intellekt, əslində, adi süni intellektin növbəti inkişaf mərhələsidir ki, burada yeni-yeni məhsullar ortaya çıxır. Ona görə də cəmiyyətdə, iqtisadi sahələrdə GenAİ-dən istifadə ilə yaradılan yeni məhsullar, onların satışı, istifadəsi iqtisadi dəyərlər yarada və daha da səmərəli ola bilər.

***– 2029-cu ilə qədər Azərbaycanda rəqəmsal bazarlara çıxış əldə etmiş kiçik və orta biznes subyektlərinin sayının 200-ə çatdırılması hədəflənib. Sizcə süni intellekt startaplara nə kimi töhfə verir?***

– Bu məsələni düzgün başa düşmək lazımdır ki, burada süni intellekt birbaşa startap yaradan deyil. Söhbət ondan gedir ki, bu sahədə çalışan, süni intellektdən istifadə edən, rəqəmsal bazarlara çıxış əldə etmiş startapların, kiçik və orta biznes subyektlərin sayının 200-ə çatdırılması hədəflənir. İndi dünyada bu sahədə qlobal rəqabət mövcuddur. Böyük texnoloji kampaniyalar süni intellekt sahəsindəki startaplara ciddi vəsait yatırır və startapların formalaşmasına, inkişafına dəstək verirlər. Ancaq startapın mahiyyətində bir şey var ki, hər startap uğurlu ola bilməz. Biz burada 200 deyəndə, uğurlu startapları nəzərdə tuturuq. Son məhsula, bazarlara çıxa biləcək startapların sayı, təxminən, o qədər olmalıdır. Bu gün, faktiki olaraq, 2025-ci ildə dünyada bu sahəyə qoyulan vəsaitlər milyardları ötüb, trilyon həddinə çatır, yəni bu bazarda alınan-satılan məhsulların həcmi, bu bazara qoyulan vəsaitlər artır, böyük texnoloji kampaniyalar startaplara bu gün ciddi maliyyə yatırırlar. O cümlədən Azərbaycanda da bu sahəyə diqqət verilir. Məqsəd bundan ibarətdir ki, startaplarımızın, şirkətlərimizin süni intellekt sahəsində müəyyən həllərin, məhsulların ortaya çıxmasında töhfəsi olsun. İndiyə qədər də startap hərəkatımızın uğurlu nümunələri olub. Azərbaycan gəncləri, doğrudan da, bacarıqlıdır. Həm texnoloji baxımdan biliklərə malikdirlər, həm də biznes qabiliyyətləri yüksəkdir. Bu gün xaricdə süni intellekt sahəsində çalışan azərbaycanlılarımız var. Hazırkı mərhələdə bu işləri mütəşəkkil etmək üçün startaplara, biznesə maliyyə dəstəyinin göstərilməsi, yerli sifarişlərin verilməsi, bu sifarişlər vasitəsilə fəaliyyətin istiqamətləndirilməsi, bu sahədə fəallığın gücləndirilməsi nəzərdə tutulur. Yəni nə qədər kütləvilik olsa, "ələkdən süzülüb keçən" – yəni dayanıqlı və nəticə verən, bazara həllər, məhsullar çıxaran şirkətlərin sayı da çox ola bilər.

***– Süni intellektin tətbiq sahələri həddən artıq genişdir. Bizi maraqlandıran bir sahə də sosial-iqtisadi inkişaf məsələsidir. Yəni süni intellektin tətbiqi sosial-iqtisadi inkişafa hansı töhfələri verə bilər? Azərbaycan nümunəsində konkret hansısa sahələrin adını çəkə bilərsiniz?***

– Açığı, baxışlar ondan ibarətdir ki, bütün sahələrdə süni intellektin tətbiqi mümkündür və tətbiq də olunmalıdır. Dövlət idarəçiliyindən tutmuş, sizin qeyd etdiyiniz iqtisadi sahələrə qədər. Biznesin özündə, biznesin idarə olunmasında süni intellekt həlləri çox vacibdir. Sosial sahədə sadə bir nümunə kimi deyim: elektron hökumət portalında süni intellektin tətbiqi ona yönələ bilər ki, ümumi portaldakı hansısa xidməti axtarıb tapana qədər süni intellektə sual verəsən: "Mən şəxsiyyət vəsiqəmi necə ala bilərəm?" Süni intellekt də sənə yol göstərə bilər. Yəni xırda istiqamətləndirici həllərdən tutmuş, biznesin idarə olunmasına qədər olan daha geniş həllərə qədər tətbiq mümkündür.

Süni intellektin inkişafının növbəti mərhələsi ondan ibarətdir ki, süni intellekt hansısa fəaliyyətin icra olunmasını da həyata keçirməlidir. Düzdür, bunun müəyyən məqamları var: hər sahədə buna şərait yaratmağa ehtiyac yoxdur, çünki orada insan nəzarəti mütləq hansısa şəkildə olmalıdır. Amma elə sahələr ola bilər ki, orada süni intellektə daha çox səlahiyyət verilə bilər. Məsələn, biznesdə və ya dövlət idarəçiliyində hər hansı bir kitab və yaxud böyük bir sənəd verilirsə, süni intellekt qərar qəbulu üçün onun qısa icmalını təqdim edə bilər.

Bu, artıq dünyada gedən prosesdir. Yəni belə həllər dövlət qulluqçularının iş qabiliyyətini, təqribən, 35-40 faizə qədər artırır və onlar iş günündən daha səmərəli istifadə edə bilirlər. Biznesdə də verilən təkliflərin dəyərləndirilməsi, müqayisəsi, fərqlərinin tapılması süni intellekt tərəfindən edilə bilər. Yəni dediyim kimi, istər iqtisadiyyat sahələrində, istər sosial sahələrdə, səhiyyədə, sosial müdafiədə, təhsildə – bu həllərin hamısının tətbiqi mümkündür və nümunələri dünyada mövcuddur. Bizim də vəzifəmiz qabaqcıl təcrübələri Azərbaycana gətirmək, Azərbaycan şəraitinə uyğunlaşdırmaq və tətbiq etməkdir. Sadə bir nümunə: neft sənayesində motorların işləməsində yarana biləcək nasazlıqların qabaqcadan proqnozlaşdırılması və ya müəyyən edilməsi də süni intellektin vəzifəsi ola bilər. Bu, əgər hansısa nasazlıq hadisəsini aşkarlamağa imkan verərsə, nə qədər iqtisadi ziyanın, boşdayanmanın və digər problemlərin qarşısını almış olur.

***– Elmir müəllim, yaxın günlərdə siz Çində keçirilən Forumda iştirak etmisiniz. "BytePlus" şirkəti ilə süni intellekt sahəsində hansı perspektiv imkanlar müzakirə edilib?***

– Perspektiv, əslində, əməkdaşlıqdır. Qeyd etdiyiniz şirkətin potensialı çox böyükdür və həllərin spektri həddən artıq genişdir. Bayaq qeyd etdiyim kimi, süni intellektin inkişafının növbəti bir mərhələsi var – icra mərhələsi. Artıq onlar həmin mərhələdə müxtəlif həllər təklif edirlər. Bizim də marağımız ondan ibarətdir ki, uzunmüddətli əməkdaşlıq olsun. Bu məqsədlə səfər etmişdik və şirkətin rəhbər şəxsləri ilə uğurlu görüş də keçirildi. Görüşdə əməkdaşlığımızın davamı üçün tərəflər arasında koordinasiyanın gücləndirilməsi məqsədilə birgə işçi qrupun yaradılması barədə razılıq əldə edildi. İşçi qrup prioritet istiqamətlərin müəyyənləşdirilməsi, mümkün birgə layihələrin qiymətləndirilməsi və əməkdaşlıq üzrə praktik yol xəritəsinin formalaşdırılması məsələlərinə baxacaq. Nəticələr barədə əlavə məlumat verəcəyik.

***– Ümumiyyətlə, süni intellektin istifadəsində etik kodeks, etik məsələlər ön plana çıxır. Məsələn, süni intellektin etik çərçivələrini kim müəyyən etməlidir: dövlət, bazar, yoxsa cəmiyyət? Sizin fikriniz necədir?***

– Bu yaxınlarda bir məqalə ilə tanış oldum. Mahiyyət bundan ibarətdir ki, sosial şəbəkələrin qaydalarını bu gün həmin platformaların özü və istifadəçi müəyyən edir. Orada məsələ belə qoyulmuşdu ki, bu çərçivə əslində dövlət tərəfindən müəyyən olunmalıdır ki, bütün oyunçular ümumi yanaşmanı bilsin və həmin çərçivədə hərəkət etsin. Bu baxımdan da süni intellekt etikası çox vacib bir məqamdır: hər bir oyunçu – o cümlədən qeyd etdiyimiz startaplar, biznes sektoru, hətta dövlət qurumları – süni intellekt həllərinin tətbiqinin müsbət və mənfi məqamlarını dəyərləndirməli və ona uyğun çalışmalıdır.

Görüş ərəfəsində süni intellekt modeli ilə ünsiyyətim oldu və ona verdiyim suallardan birinə çox maraqlı cavab aldım. Süni intellekt cavabında dövlət və biznes sektorlarında həllərin tətbiqinin etikasının prinsipləri üzrə fərqlər barədə bildirdi ki, biznes sektorunda məqsəd kimi birinci yerdə mənfəət dayanır – mənfəətin artırılması və müştəri loyallığı. Amma dövlət sektorunda bu məqsəd ictimai rifah, ölkənin inkişafıdır. Yəni fərq əyanidir. Açıqlıq, yəni şəffaflıq prinsipi üzrə dövlət sektorunda alqoritmlərin açıqlığı, qərarların izah oluna bilinməsi vacibdir. Biznes sektorunda isə bu prinsip üzrə kommersiya sirri kimi elan olunan məhdudiyyətlər mövcuddur.

Bu misallardan da görünür ki, həmin etik prinsiplərdə, yanaşmalarda fərqlər mövcuddur. Amma dövlət tərəfindən müəyyənləşdirilən etik qaydalar elə olmalıdır ki, həm dövlət qurumları, həm biznes sektoru, startaplar, fərdlər, həm də istifadəçilər üçün ümumi qəbul edilən etik çərçivə və riskin qiymətləndirilməsi yanaşması formalaşsın. Digər ölkələrdə, beynəlxalq təcrübədə bunun nümunələri var, artıq 100-dən çox ölkədə belə etik çərçivələr müəyyənləşdirilib və bu istiqamətdə bizdə də müəyyən baxışlar var.

Əlavə də qeyd edək ki, süni intellekt yeni bir fenomen olduğu üçün, yeri gələndə ona olan etibarı artırmaq üçün belə etik çərçivələr lazımdır.

***– Süni intellekt iş yerlərini alır, ya yaradır?***

– Əslində, bu müəyyən qədər sual doğuran bir məsələdir. Mən deyərdim ki, kim süni intellektdən bəhrələnəcəksə, o iş yerində daha qabiliyyətli olacaq, daha uğurlu olacaq. Kim istifadə etməyəcəksə, o artıq tələblərə uyğun gəlmədiyinə görə başqa işə keçməyə məcbur qala bilər. O baxımdan ortaya məsələ çıxır ki, süni intellekt görülən işə necə dəstək ola bilər. Kim nə qədər tez süni intellektlə işləməyə başlasa, öz işində istifadə etsə, o insan üçün problem azalır. Başqa bir məqamı da qeyd etmək istərdim. Xarici mətbuatda belə xəbərlər keçir ki, bəzi şirkətlərdə süni intellekti tətbiq etməklə müəyyən qədər insanları ixtisar edirlər. Lakin biz artıq əks–proses barədə də məlumatlara rast gəlirik. İşdən azad edilmiş həmin insanların bəzilərini yenidən işə qaytarılırlar. Bu isə o deməkdir ki, bəzi hallarda süni intellektin tətbiqi heç də insanı tam şəkildə əvəz edə bilmir. Ona görə ki, insan potensialı, insan qabiliyyəti tam şəkildə süni intellektə xas deyil. Yəni insan fərd, şəxsiyyət olaraq daha yüksək imkanlara və dəyərlərə malikdir. Ancaq süni intellektdən istifadə etmək bu gün hər bir iş yerində zərurətə çevrilib. Necə ki, əvvəllər qələm istifadə edirdik, sonra kompüter və kompüter proqramları istifadə etdik, indi də süni intellekt texnologiyası istifadə olunacaq.

***– Texniki kadrlar məsələsində xarici potensialı cəlb etməliyik, yoxsa kimlərdənsə daha çox öyrənməliyik? Və ya planlar dedikdə, həmin planı kim hazırlamalıdır?***

– İndiyə qədər ölkəmizdə bu sahədə fəaliyyətimiz adətən belə olub ki, ilkin olaraq qabaqcıl təcrübə öyrənilib və onun necə tətbiq oluna biləcəyi müəyyənləşdirilib. Ancaq bu mərhələdə xarici məsləhətçi şirkətləri də cəlb olunub, lakin qərarvermə səlahiyyəti bizim özümüzdə olub. Biz özümüz inkişaf perspektivlərimizə uyğun olan istiqamətləri müəyyənləşdirmişik və müvafiq qərarlar qəbul edilib, daha sonra isə icra edilib. Qeyd etdiyimiz sahədə və məsələlərdə də, əlbəttə ki, yerli kadrlara, yerli məhsul istehsalına əsaslanmaq istəyirik, çünki bu davamlı inkişaf üçün çox vacibdir. Bu potensial özümüzdə olmalıdır. Hətta texnologiyaların özündə, infrastrukturun özündə belə artıq bir çox ölkələrdə müstəqil, yəni suveren infrastruktur anlayışına keçir, ölkənin milli potensialının yaradılmasına baxılır. Məsələn, hər hansı data mərkəzi qururuqsa, bu, özümüzdə olmalı, Azərbaycanda yerləşməlidir, ancaq bu data mərkəz regional xidmətlər göstərə də bilər, yəni biz regional xidmət mərkəzinə çevrilmə imkanını da nəzərdə tuturuq.

Bunun təmini üçün yerli potensialımız olmalıdır və qabaqcıl beynəlxalq təcrübəyə əsaslanaraq öz addımlarımızı atmalıyıq. Cənab Prezident İlham Əliyevin çox önəmli bir sözü var ki, biz qabaqcıl texnologiyaları tətbiq edənlərin sırasında olmalıyıq və onlardan yalnız 1 addım geridə ola bilərik ki, rəqabətə davamlı olaq. Yəni biz qabaqcıllar sırasında olmalıyıq. Ölkəmizin iqtisadi potensialı, kadr potensialı, elmi potensialı, həm də texniki potensialı yüksəkdir. Ən əsası isə inkişaf üçün aydın baxış, siyasi iradə və sabitlik mövcuddur. Bütün bunlar bizə imkan verir ki, inkişafımız və digər ölkələrlə əməkdaşlığımız da geniş olsun.

Məsələn, bizim artıq Çinlə, ABŞ-la, Qazaxıstanla imzalanmış ikitərəfli sazişlərdə süni intellekt və informasiya texnologiyaları əməkdaşlıq sahəsi kimi qeyd olunur. Biz bu əməkdaşlığa da hazırıq və bunda maraqlıyıq. Ölkələr arasında təcrübə mübadiləsi, kadr mübadiləsi, yeni kadrların yetişdirilməsi olduqca vacib məsələdir. Bizim, həmçinin böyük texnoloji şirkətlərlə də əməkdaşımız var. Bu da bizə imkan verir ki, qabaqcıl təcrübəni öyrənək, özümüzdə tətbiq edək, kadrlarımızı yetişdirək, potensialımızı artıraq. Lazım gələrsə, xarici xidmətlərdən də istifadə mümkündür, amma bu, öz potensialımızı qurana qədər ola bilər. Odur ki, yanaşma bundan ibarətdir ki, biz daha çox milli potensialı, yerli potensialı yaratmalı və inkişaf etdirməliyik.

***– Xarici investorların süni intellekt sahəsinə cəlb edilməsi istiqamətində hansı addımları görə bilərik?***

– Bildiyiniz kimi, bu yaxınlarda ABŞ-ın texnoloji beyin mərkəzi sayılan Silikon vadisində azərbaycanlı startap icması və aparıcı texnoloji şirkətlərdə çalışan soydaşlarımızla, həmçinin aparıcı texnoloji şirkətlərlə görüşlər ölkənin milli və qlobal süni intellekt gündəmində daha fəal mövqe tutmaq niyyətinin bariz ifadəsi kimi qiymətləndirilə bilər. San-Fransiskoda baş tutan bu təmaslar, sadəcə, diaspor ilə ünsiyyət çərçivəsindən kənara çıxaraq Azərbaycanın rəqəmsal gələcəyi üçün strateji əməkdaşlıq platforması rolunu oynayır. Görüşlərdə diqqət ölkəmizdə süni intellekt ekosisteminin formalaşması və inkişafı, ona verilə biləcək töhfələrə yönəldilmişdi. Əminik ki, belə təmaslar, ən əsası da, ölkədəki inkişafa strateji baxışlar, xarici tərəfdaşlıq üzrə mövcud olan təcrübə, xüsusən də energetika və neft-qaz sahəsindəki təcrübə, ölkəmizin regional iqtisadi potensialı, çəkisi və mövqeyi, xarici investisiyaların qorunmasına şəraitin olması süni intellekt sahəsində də etibarlı əməkdaşlığa yaxşı əsas yaradır. Belə maraqların olması da müşahidə edilir.

*Müsahibəni hazırladılar:*
***Səbuhi MƏMMƏDOV,***
***Nurlan ABDALOV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Azərbaycan illər ayrıcında

## Naxçıvan

Bu gün axşam 31 Dekabr  Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə mərkəzi meydanda, Heydər Əliyev prospektində möhtəşəm Yeni il şənliyi təşkil olunacaq.



Bayram tədbiri çərçivəsində Azərbaycan Respublikasının Xalq artisti Samir Cəfərovun iştirakı ilə bayram konsert proqramı, eləcə də atəşfəşanlıq təşkil olunacaq. Bununla yanaşı, muxtar respublikanın Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Filarmoniyasının solistləri və rəqs kollektivləri maraqlı çıxışlarla kütləvi şənliklərə təntənə əhvalı gətirəcəklər.

## Gəncə



Qədim Nizami yurdunda bayram sevinclərini ən çox uşaqlar yaşayıblar.

İllərin qovuşub ayrıldığı günlərdə şəhərin aparıcı mədəniyyət ocaqları balaca sakinləri sehrli nağıllar, musiqili səhnə əsərləri və Yeni ilin işıqlı ab-havası ilə dolu tamaşalara dəvət edib. Gəncə Dövlət Milli Dram Teatrı da qapılarını uşaqların üzünə açaraq öz səhnəsində onların sevincinə sevinc qatır. Artıq uşaqların sevimli sənətkarı Abdulla Şaiqin yaradıcılığı əsasında hazırlanan "Şıltaq gəlincik" musiqili nağıl-tamaşasının nümayişi maraqla qarşılanıb. Yeni ilin ilk günlərində də davam edəcək səhnə nağılı hər gün 3 dəfə balaca tamaşaçıları öz sehrli dünyasına aparır.

Şənliklər Gəncə Dövlət Kukla Teatrında da balacaları ağuşuna almaqdadır. Teatr uşaqlar üçün xüsusi olaraq hazırlanan "Şaxta babanın ad günü" qış nağıl-tamaşası hazırlayıb. Bir neçə gündür ki, səhnəcik hər gün 4 dəfə uşaqlara təqdim edilir. Bu tamaşa yeni nəslə dostluq, xeyirxahlıq və birlik kimi milli-mənəvi dəyərlər aşılayır.

## Sumqayıt



Gənclik şəhərində də əsl bayran ab-havası var. Ümumşəhər şənliyində Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi əhəmiyyətindən, Azərbaycan xalqının milli həmrəyliyinin formalaşmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışılıb.

Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov sakinləri və qonaqları təbrik edib, onlara ən xoş arzularını çatdırıb. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində hazırda Sumqayıtın öz tarixinin çox fərəhli, yaddaşlara əbədi həkk olunan yeni günlərini yaşadığı vurğulanıb. Sonra şəhərin sosial-iqtisadi həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup şəxsə fəxri fərmanlar təqdim edilib.

Bayram şənliyində respublikanın tanınmış incəsənət ustaları rəngarəng konsert proqramı ilə çıxış ediblər.

Sumqayıtda köhnə Şərq bazarının yaxınlığında təşkil olunan "Kənddən Şəhərə" Yeni il yarmarkasında regionlardan gətirilən məhsulların daha geniş istehlakçı kütləsinə çatdırılmasına, eləcə də vətəndaşların keyfiyyətli, təbii və yerli məhsullarla təmin olunmasına şərait yaradılıb. Kənd təsərrüfatı malları ilə yanaşı, sənətkarların əl işləri, suvenirlər də satışa çıxarılıb.

Onu da deyək ki, Sumqayıt Dövlət Dram Teatrı da dekabrın 26-dan balaca sakinləri "Qış nağılı" adlı musiqili-əyləncəli proqramla sevindirir. Nağıl-tamaşa maraqlı süjet xətti, musiqi nömrələri ilə zəngindir. "Donmuş saat" adlı interaktiv şou-tamaşa da maraqla qarşılanır.

## Mingəçevir



Nur şəhərində "Heydər Əliyev Azərbaycanda Həmrəylik Gününü yaradan tarixi şəxsiyyətdir" mövzusunda görüş təşkil olunub.

Şəhər icra hakimiyyəti, YAP yerli təşkilatının keçirdiyi görüşdən öncə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək əziz xatirəsinə tükənməz ehtiram ifadə olunub.

Görüşdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı videoçarx nümayiş etdirilib. Çıxışlarda bildirilib ki, 31 dekabr Azərbaycan xalqının milli yaddaşında və siyasi tarixində xüsusi yer tutan, ideoloji, mənəvi və strateji əhəmiyyət daşıyan bir gündür. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün ideoloji-siyasi əsasları bilavasitə ümummilli lider Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideologiyası ilə bağlıdır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü milli birlik, ölkəmizə məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Azərbaycanlılar illərdir ki, bu günü böyük fəxr və qürurla qeyd edirlər.

## Lənkəran



Ölkəmizin subtropik paytaxtında da silsilə bayram tədbirləri keçirilib.

Təntənələrə bir neçə gün əvvəl Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) və "Buta Trade Company"-nin birgə təşkilatçılığı ilə böyük şənliklə start verilib. ŞİH başçısı Taleh Qaraşov, "Buta Trade Company"-nin rəhbəri Pərviz Kərimov və şəhid ailələri üzvlərinin iştirak etdikləri şənlikdə qeyd olunub ki, "Konstitusiya və Suverenlik İli" elan olunmuş 2025-ci ildə rayonda müxtəlif sahələr üzrə çoxsaylı tədbirlər keçirilib. Sosial-iqtisadi sahədə dinamik inkişaf qorunub saxlanılıb.

Şəhərin mərkəzi meydanında, Heydər Əliyev parkında rəngbərəng və gözoxşayan oyuncaqlarla bəzədilmiş bayram yolkasının ətrafı günlərdir ki, qələbəlik yaşayır. Təntənələr sakinlərin və qonaqların növbəti ildə də arzu və diləklərinin gerçəkləşəcəyinə olan inamın ifadəsinə çevrilib. Lənkəran Dövlət Dram Teatrında təqdim edilən "Sözlər və melodiyalarla Yeni il ilə" adlı əyləncəli konsert proqramı yaddaqalan olub.

## Xankəndi



Azadlığına qovuşmuş Xankəndi şəhərində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə 2 yarmarka fəaliyyətə başlayıb.

"Qış nağılı" və "Kənddən Şəhərə" adlanan bayram ovqatlı yarmarkalar hər kəsdə xoş ovqat yaradıb. Yarmarkanın keçirildiyi meydanlar Yeni il münasibətilə xüsusi işıqlarla bəzədilib, ərazi rəngarəng dekorasiyalarla bayram ab-havasına bürünüb.   Doğma yurdda sakinlərə tükənməz sevinci yerli rəhbərlik, eləcə də Kənd Təsərrüfatı Nazirliyi və qurumun tabeliyində fəaliyyət göstərən Aqrar Tədarük və Təchizat ASC bəxş edib. Fermerlər öz təsərrüfatlarının təbii və keyfiyyətli kənd təsərrüfatı məhsullarını satışa çıxarıblar.

Zəfər meydanında möhtəşəm bayram konserti isə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin dəstəyi, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə keçirilib. Konsertdə tanınmış ifaçılar və musiqiçilər çıxış ediblər. Səslənən ifalar dağlarda əks-səda verib, şəhər sakinlərinə və qonaqlara yüksək bayram ovqatı bəxş edib, mərkəzi meydanda coşqun ab-hava yaradıb. Çeşidli tədbirlər Xankəndidə ictimai-mədəni həyatı daha da canlandırıb.

Qeyd edək ki, bu gün axşam Xankəndidə bayram atəşfəşanlığı da olacaq.




## Kəlbəcər



Dağlar diyarı Kəlbəcərdə 32 ildən sonra ilk dəfə Yeni il şənliyi təşkil olunub.

Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin birgə təşkilatçılığı ilə baş tutan bayram təntənələri rayon ərazisində yaşayan ailələr və uşaqlar üçün yüksək əhval-ruhiyyəsinin yaradılmasına, həmrəyliyin və birlik hissinin gücləndirilməsinə xidmət edib.

Şəhərin 1-ci yaşayış məhəlləsində Yeni il ağacı bəzədilib, Şaxta baba və Qar qız uşaqlara hədiyyələr təqdim ediblər. Musiqi sədaları altında davam edən bayram şənliyində uşaqlar böyük sevinc yaşayıblar. Tədbirdə iştirak edə bilməyən uşaqları isə Şaxta baba evlərində ziyarət edib. Şənliklər Kəlbəcərdə bərpa və yenidənqurma prosesləri fonunda sakinlər üçün unudulmaz bayram ab-havası yaradaraq sakinlərin sosial həyatına xüsusi rəng qatıb.

## Fövqəladə Hallar Nazirliyi



Bir neçə gün əvvəl peşə bayramlarını qeyd etmiş Fövqəladə Hallar Nazirliyinin əməkdaşları  Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə məclislər keçiriblər.

Nazirliyin Mülki Müdafiə Qoşunlarının komandanlığında Bakı Şəhər Mədəniyyət Baş İdarəsindən sözlü-nəğməli qonaqların iştirakı ilə keçirilən tədbir hər kəsə unudulmaz təsir bağışlayıb. Natiqlər qeyd ediblər ki, dünya azərbaycanlılarının birliyi ideyası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik tariximizdəki ən böyük xidmətlərindən biridir. Bu günün qeyd edilməsi ölkəmizin dünya dövlətləri sırasında söz sahibinə çevrilməsinə, dünya azərbaycanlıları arasında milli birliyin daha da güclənməsi və təşkilatlanmasına təkan verib.

Həmçinin, Ulu öndərin ölkəmizin inkişafi istiqamətindəki uzaqgörən siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən söz açan natiqlər bunun sayəsində Azərbaycanın nüfuzlu dövlətə çevrilməsindən, Ümummilli liderin ən böyük arzusu, vəsiyyəti olan torpaqlarımızın işğaldan azad olunmasının tarixi əhəmiyyətindən danışıblar.

Eyni zamanda, vurğulanıb ki, "Konstitusiya və Suverenlik ili" olan 2025-ci il Azərbaycan Respublikasında hüquqi və dövlətçilik ənənələrinin daha da güclən-dirilməsi üçün bir fürsət, Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən dərk etmək və gələcək nəsillərə ötürmək üçün əhəmiyyətli bir addım olmuşdur.

Tədbirin bədii hissəsi konsert proqramı ilə davam edib.

## Nəsimi

Paytaxtın Nəsimi rayonunun hər tərəfi Yeni il bayramı münasibətilə heyrətamiz gözəlliyə bürünüb.

Küçələr və parklar parlaq işıqlar, yolkalar və digər bayram atributları ilə bəzədilib. İdarə və təşkilatlarda, uşaq bağçaları və məktəblərdə, universitetlərdə rəngarəng şənliklər keçirilib. Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı (ETİHİ) Nəsimi Rayon Komitəsinin üzv təşkilatlarında maraqlı bayram tədbirləri olub. 211



nömrəli məktəbdə düzənlənən şənlikdə ETİHİ Nəsimi Rayon Komitəsinin sədri Reyhan Ocaqova iştirakçılara ən xoş arzularını bildirib.

Bu rayonda yerləşən 1 nömrəli Körpələr evində Yeni il münasibətilə Səhiyyə Nazirliyinin dəstəyi ilə təşkil olunan "Kiçik mələklərin qış nağılı" adlı bayram şənliyi xüsusilə yaddaqalan olub. Balaca soydaşlarımız müxtəlif rəqs proqramları ilə çıxış edib, mahnılar səsləndirib, hazırlanan səhnə kompozisiyalarında fəallıq göstəriblər.

## Nizami



Şanlı bayramlar münasibətilə Nizami rayonunda şəhid və qazi övladları üçün bir neçə gün əvvəl şənlik təşkil olunmuşdu. Dünən isə YAP rayon təşkilatının xəttilə mühüm sosial aksiya keçirilib.

Rayon təşkilatının rəhbərliyi, fəalları və könüllüləri şəhid ailələrində olub, onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, bayram hədiyyələri ilə könüllərini sevindiriblər. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

## Pirallahı



Abşeron arxipelaqının ən böyük adası olan Pirallahıda, eyni adlı qəsəbədə yerləşən uşaq parkında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təntənəli bayram tədbiri yaddaqalan olub.

Qeyd edək ki, son günlərdə burada silsilə görüş və gecələr keçirilib. İntellektual oyunlar, idman yarışları, məktəblilərin əl işlərindən ibarət rəsm sərgiləri, Vətən müharibəsi iştirakçıları ilə görüşlər, ağacəkmə və humanitar aksiyalar bu qəbildən olub. Pirallahı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə baş tutan yekun tədbirində isə RİH rəhbərliyi, idarə və müəssisələrin təmsilçiləri, şəhid ailələrinin nümayəndələri və rayon ictimaiyyəti iştirak edib. Bayramsayağı bəzədilmiş qəsəbədə hamı böyük yolka ətrafında deyib-gülüb və şənlənib.

Çıxış edənlər el bayramları münasibəti ilə iştirakçıları təbrik edib, onlara qarşıdakı ildə də sevinc dolu günlər arzulayıblar. Əminlik ifadə olunub ki, dünyada yaşayan 50 milyonluq Azərbaycan xalqının nümayəndələrinin birlik və həmrəyliyi daha da güclənəcək, Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin liderliyində qalib xalqımızın möhtəşəm uğurları davam edəcək.

Rəngarəng musiqi nömrələri ilə zəngin bayramda uşaqlar Şaxta baba və Qar qızla birgə rəqs edib, şənlənib, maraqlı oyunlara qatılıblar. Sonda Şaxta baba onlara Yeni il sovqatları təqdim edib.

*Səhifəni hazırladı:*
***Ə.DOSTƏLİ***
***XQ***

*Dünyadan gələn sorağımız*

# Belarusda Azərbaycan dünyası

## *İş adamı Vasif İsmayılov bu ölkədə Vətənimizi ləyaqətlə təmsil edir*



**Belarus Respublikasının ölkəmizdə keçirdiyi tədbirlərdə, mətbuat konfranslarında vaxtaşırı iştirak edirəm. Bu ölkənin səfirliyinin əzəmətli binasını Belarusda yaşayan həmyerlimiz, iş adamı Vasif İsmayılovun "Ulu Göyçə" Məhdud Məsuliyyətli Müəssisəsinin inşa etməsi bu ünvanı xalqımız üçün bir az da diqqətçəkən edib.**

Bu günlərdə səfirlikdə keçirilən görüşdə səfir Dmitri Pineviç Belarus–Azərbaycan əlaqələrinin inkişafındakı fəaliyyətlərinə görə bir qrup şəxsə "Təşəkkürnamə" təqdim etdi. Həmyerlimiz Vasif İsmayılov da təltif olunanlar arasında idi. Onunla tanış olduq, "Xalq qəzeti" və internet televiziyası – "Xalq TV" üçün müsahibə aldıq.

Vasif Sultan oğlu İsmayılov 1 noyabr 1972-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Şəfəq kəndində doğulub, 1979-cu ildə ailəsi Bakıya köçüb. Bakıda Yasamal rayonundakı Şəfiqə Əfəndizadə adına 13 nömrəli tam orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin hüquq fakültəsində və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ali təhsil alıb. Dövlət idarəçiliyi üzrə fəlsəfə doktorudur. 2005-ci ildən Belarus Respublikasında iş adamı kimi fəaliyyət göstərir. "Ulu Göyçə" Məhdud Məsuliyyətli Müəssisəni yaradıb. Mogilyov şəhərinin fəxri vətəndaşıdır. Məşhur iş adamının "Şəfəq-88" şirkəti Minskdə və Mogilyovda çoxsaylı binalar, iş mərkəzləri inşa edib. Həmyerlimiz bütün bu fəaliyyətinə görə 2019-cu ildə Belarus Prezidentinin Fərmanı ilə "Şərəf" ordeninə layiq görülüb. Belarus–Azərbaycan Dostluq Cəmiyyətinin sədridir. Soydaşımızın həyatı ölkəmizlə də sıx bağlıdır. Azərbaycan Sambo Federasiyasının birinci vitse-prezidenti, Boks Federasiyasının vitse-prezidentidir. Vətəndən kənarda və Azərbaycandakı xidmətlərinə görə "Tərəqqi" və "Heydər Əliyevin 100 illiyi" yubiley medalları ilə təltif olunub. 2024-cü ildən Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının Belarus Respublikasındakı nümayəndəsidir. Vasif İsmayılov dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, Göyçə mahalının Şəfəq kəndini qibləgahı adlandırır. Elə buna görə də bu vətənpərvər insan Qərbi Azərbaycan İcması Qəyyumlar Şurasının üzvüdür.

***- Vasif müəllim, Belarus-Azərbaycan Dostluq Cəmiyyətinin sədri kimi adınız Belarusda qurucu, xeyriyyəçi azərbaycanlı iş adamı kimi dillər əzbəridir. Vətəndən uzaqlarda Vətən naminə çalışmaq, ad-san qazanmaq Azərbaycan adına şərəfdir, qürurverici hissdir. Necə oldu ki, taleyiniz Belarus Respublikası ilə belə möhkəm bağlandı?***

- Əvvəlcə deyim ki, harada olmağımızdan asılı olmayaraq, biz Azərbaycan dövlətinin övladlarıyıq, azərbaycanlıyıq.

1988-ci ildə bütün göyçəlilər kimi mənim də yaxınlarım, əzizlərim sonuncu nəfərinə kimi deportasiya olundu. Bu nisgil hər birimizin ürəyində yara kimi qövr edib. Amma müdriklər demiş: "Hər ümiddə bir işıq yanır". Bu mənada Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasına gəlməsi, oradakı tarixi çıxışı hər bir Qərbi azərbaycanlıda, irəvanlıda böyük inam hissi yaratdı ki, biz o torpaqlara qayıdacağıq. Əlbəttə, müdrik Prezidentimizin sülhsevər xarici siyasəti sayəsində. İndi o yerlər bizim yolumuzu gözləyir.

***– Onu da öyrəndik ki, 2025-ci ildə Belarusda "İlin adamı" mükafatına layiq görülən 12 nəfər say-seçmə nüfuzlu şəxslərin siyahısında sizin də adınız var. Təbrik edirik! Bütün bu uğurlar sizi, yəqin ki, bir qurucu iş adamı kimi daha da ruhlandırır.***

– 2005-ci ildə Belarus Respublikasına getməyə qərar verdim. Ayağımı o torpağa basan gündən hiss etdim ki, atacağım hər addımın, mövqeyimin arxasında Azərbaycan adı var və bu adın məsuliyyətini hiss edib, yaşamaq, əziyyətlərə qatlaşmaq özü elə həyat imtahanı idi. Mən belə bir ömür yaşamalı oldum. Qərib ölkədə, başqa xalqın içində bir azərbaycanlı mövqeyini ortaya qoymaq üçün sən daxilən özünü nizamlayıb hazırlamalısan. Çox əzab-əziyyətlərə qatlaşdım, amma yorulmaq nədir bilmədim. Azərbaycançılıq məfkurəsi orada keçirdiyim bütün görüşlərimdə qəlbimin çırpıntıları ilə vəhdət təşkil etdi.

Bu günə kimi hansı ali tədbirdə iştirak etməyimdən asılı olmayaraq qarşıma vəzifə qoydum ki, Vasif, sən azərbaycanlıların necə qüdrətli, zəkalı, maarifpərvər, yüksək mənəvi bağlara malik olan xalq olduğunu belaruslarla hər görüşündə sübut etməlisən. Təsəvvür edirsinizmi, Belarus Respublikasının ən ali dövlət səviyyəli tədbirlərində Azərbaycanın adı hörmətlə, izzətlə çəkilir. Mən Mogilyov şəhərinin fəxri vətəndaşıyam.

Azərbaycan Respublikasının bütün rəsmi dövlət tədbirlərində, xüsusilə bayramlarımızın tarixi günlərində: 2020-ci il Vətən müharibəsində qazandığımız 44 günlük Zəfərimizin 5 illik yubileyində – 8 noyabr tarixində, 9 noyabr Dövlət Bayrağı Günündə, 17 noyabr Milli Dirçəliş Günü, 28 may Respublika Günü, 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü, ümummilli lider Heydər Əliyevin doğum və anım günlərində Minsk şəhərinin mərkəzində yerləşən 28 mərtəbəli Belarus Milli Kitabxanasının binasının qülləsi üçrəngli Azərbaycan Bayrağına bürünür. Bu müqəddəs bayrağı Vətəndən uzaqlarda dalğalandırmaq mənim həyat mövqeyim idi və bu arzumu gerçəkləşdirdiyimə görə özümü xoşbəxt hiss edirəm.

Bu gün Belarusda yaşayan və işləyən, təhsil alan gənclər şəhərin mərkəzində yerləşən ən hündür binanın qülləsində Azərbaycan Bayrağını görəndə gücləri birə-beş artır, ürəkləri dağa dönür. Onlar bilirlər ki, uzaqlarda olsalar da, başlarının üstündə üçrəngli Azərbaycan Bayrağı dalğalanırsa, onların güclü dövləti var. Bu qüdrətli Azərbaycan dövlətinin sayılıb-seçilən oğulları qərib ölkədə belə "Azərbaycan Evi" qura biliblər. Azərbaycanı bütün dünyaya sülhsevər, mütərəqqi, kreativ dövlət kimi tanıtmaq üçün bir iş adamı kimi bacardığımı edirəmsə, deməli, qarşıma qoyduğum məqsədə çatmışam və bu müqəddəs yolun işığı, nuru əbədidir. Belarus Respublikasında Azərbaycan adına nə iş görülürsə, Vətənə bir övlad borcumun məsuliyyətin önə çəkirəm.

2017-ci ildən Belarusda "Azərbaycan Ticarət Evi"nin təsisçisiyəm. Cənab Prezident İlham Əliyevin Belarus Respublikasına səfəri zamanı buranı ziyarət etməsi qürurverici anlar idi. Həm də dövlət rəhbərimiz fəxr etdi ki, Azərbaycan adına görülən işlər yüksək səviyyədə təşkil olunub. Biz Azərbaycanda istehsal olunan mallarımızın Belarus ticarət bazarında təqdimatını edirik. Bu həm də ölkəmizi başqa bir yaşadığımız dövlətdə təmsil etməyin ən yaxşı yollarından biridir. "Azərbaycan Ticarət Evi" olaraq dövlətimizin iş adamlarının Belarus bazarında fəaliyyətlərinin genişləndirilməsi ilə aparılan planlı işlər burada həyata keçirilir.

2020-ci ildə 44 gündə qazandığımız Zəfərimiz haqqında da söz açmaq istəyirəm. Çünki biz 44 gündə itirilmiş torpaqlarımızı erməni işğalçılarından xilas etdikdən sonra dost Belarus Respublikasında da ruhən, mənən qüdrətli olmağımızı bir daha sübut etdik. Uğurlarımıza sevinən dostlara hər zaman təşəkkür edirəm. Çünki biz Azərbaycan xalqı olaraq 30 ildən sonra halal haqqımızı – Qarabağ torpaqlarımızı özümüzə qaytardıq. Uzaq ölkələrdə vüqarla gəzirik. Qalib xalqın vətəndaşı olmaqdan gözəl hisslər ola bilərmi?!

***– Belarusun ən ali mükafatına – "Şərəf" ordeninə layiq görülmüsünüz. Bu iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinə sizin töhfənizə verilən dəyərdir.***

– Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasət sayəsində Belarus respublikasında da özümüzü Azərbaycanda olduğumuz kimi rahat hiss edirik. Onu da qeyd edim ki, Belarus dövləti tam fərqli bir ölkədir. Burada biz azərbaycanlılara işləmək, qurmaq, yaratmaq üçün geniş imkanlar yaradılıb. Xüsusilə, iş adamlarına. Yeni iş yerləri açan, dövlətə mənfəət gətirən cəfakeş insanlara ən ali səviyyədə hörmət, ehtiram var. Belarus Respublikasında çalışan insanlara gördüyü işlərin müqabilində dəyər verilir və biz hər addımımızda unutmuruq ki, azərbaycanlıyıq. Belarus Respublikasında tikilən yeni tipli binalarda, iş mərkəzlərində "Ulu Göyçə"nin – azərbaycanlıların imzası var. Məhz buna görə də, 2019-cu ildə Belarusda ilk dəfə olaraq "İlin adamı" seçilərək mükafata layiq görüldüm. Həmin il "Şərəf" ordeni ilə təltif olundum. Belarus Prezidenti Aleksandr Lukaşenko mənim və komandamın əməyini yüksək qiymətləndirib. Əməyimizə dəyər verən Belarus dövlətinə minnətdarlığımızı bildiririk. Belarus-Azərbaycan Dostluq Cəmiyyətinin sədri kimi hərtərəfli əlaqələrimizin daim yüksək səviyyədə olması üçün və başlıca olaraq Belarusda azərbaycanlı adı çəkiləndə fəxarət hissi keçirməyimiz naminə bacardığım qədər dövlətimə və xalqıma xidmət etməkdən ruhlanıram.

***– Belarusda Azərbaycan diasporunun güclənməsi dövlətlərarası münasibətlərə xalq diplomatiyası dəstəyi kimi önəmlidir...***

– Əgər biz evimizdən, isti ocağımızdan ayrı düşüb, başqa bir dövlətə gediriksə, əlbəttə ki, Azərbaycan dövləti və xalqımız haqqında ən yüksək səviyyədə fikir formalaşdırmalıyıq. Bu məram hər bir azərbaycanlının mənəvi borcudur. Belarusda diasporumuzun fəaliyyəti daim bu istiqamətdə qurulub. Elə bu səbəbdəndir ki, Belarus rəhbərliyi şəxsən bir iş adamı kimi mənim fəaliyyətimi yüksək qiymətləndirib. Mən də fəxr edirəm ki, qazandığım hər uğurun arxasında Azərbaycanın adı var. Bilirsiniz, Vətən həsrətini heç bir var-dövlətlə, rahatlıqla ölçmək mümkün deyil. Mən öyünürəm ki, hər hansı bir dövlət tədbiri ilə bağlı hara müraciət ediriksə, yüksək səviyyədə qarşılanırıq. Belarus-Azərbaycan Dostluq Cəmiyyəti olaraq bütün tədbirlərimizi səfirliyimizlə birgə ən yüksək səviyyədə həyata keçiririk. Təkrar edirəm, gücümüzü qüdrətli Azərbaycan dövlətimizdən alırıq. Bütün uğurlarımıza görə cənab Prezidentimizə borcluyuq. Onun xarici siyasəti sayəsində Azərbaycan adına bütün qapılar üzümüzə açılır.

Mən ulu Göyçəmiz naminə görülən xoşməramlı işlərin, layihələrin həyata keçməsi, Vətən həsrəti ilə birləşən həmvətənlərimin görəcəyi xeyirxah əməllərin dəstəkçisi olmaqdan fəxarət hissi keçirirəm. Bircə zəng lazımdır ki, mənə desinlər ki, göyçəlilər səni gözləyir. Tərəddüd etmədən təyyarəyə minib, el-obanın çağırışına gələcəyəm. Sizə 2021-ci ildə nəşr olunan "Dədə Qorquddan Dədə Ələsgərə" adlı kitabdan qısaca bəhs etmək istəyirəm. Bu əsər Aşıq Ələsgər yaradıcılığının daha dərindən öyrənilməsi və təbliği məqsədilə bizim "Ulu Göyçə" MMM-in təşəbbüsü ilə qələmə alınıb və nəşr edilib. Bu məram yolunda zəhmətçəkən dəyərli yazarlarımıza, alimlərimizə minnətdaram. Vətənə xidmət, dövlətə və xalqa məhəbbət insanın içindən gəlməlidir. Hər bir vətəndaşın milli dəyərlərimizlə bağlı məqsədi evinin içindən, aldığı tərbiyədən başlamalıdır. Mən doğulduğum Şəfəq kəndimi, el-obamı sevirəmsə, Vətən kəlməsinin müqəddəsliyinə baş əyməliyəm. Şərəfimlə, sədaqətimlə xidmət etməyi özümə ali borc bilməliyəm.

***– 2025-ci ildə Belarusda "İlin adamı" seçilmisiniz. Bu hissləri yaşamaq özü də bir həyat eşqidir.***

– Mənim Belarus Respublikasında gördüyüm quruculuq işlərinə verilən dəyərin mükafatını almağım vətənimin, xalqımın, dövlətimin adına göstərilən etimaddır, inamdır. Bu mənada Belarus dövlətinə, onun rəhbərliyinə minnətdaram ki, bizim əməyimizə yüksək səviyyədə qiymət verilir.

***– 2025-ci ili yola salırıq. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində arzu-istəkləriniz...***

– 31 dekabr tarixi dünyanın bütün guşələrində yaşayan azərbaycanlıların həmrəylik günüdür. Bu birliyi təqvimdə əbədiləşdirən ümummilli liderimiz Heydər Əliyevin ruhu şad olsun! Bu gün Prezident İlham Əliyevin xarici siyasəti sayəsində birliyimiz daha da güclənib. Biz də dövlətimizin, xalqımızın qüdrətinə güvənərək Azərbaycandan uzaqlarda işləsək də, yaşasaq da azərbaycanlı olduğumuzun məsuliyyətini dərk edirik.

Belarus Respublikasında dövlət səviyyəsində bütün tədbirlərə dəvət alırıq. Bu o deməkdir ki, Azərbaycanın Dövlətlər, xalqlar içində çəkisi, yeri, hörməti, izzəti var. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımızı təbrik edirəm. Belarus–Azərbaycan Dostluq Cəmiyyətinin sədri kimi bu iki xalq arasında ən yüksək səviyyədə həmrəylik bağlarının əbədiləşməsi naminə bacarığımı, qabiliyyətimi var gücümlə sərf edəcəyəm.

44 gündə bizə Qələbəni yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirəm! Onların ailələri hər birimiz üçün qiymətlidir! Qazilərimizə cansağlığı, xoşbəxtlik arzulayıram! Allah uğurlarımızı bol etsin!

***– Müsahibə üçün təşəkkürümüzü bildiririk. Azərbaycanın adını uca zirvələrə qaldıran dəyərli insanları arayıb-axtarmaq, onlarla oxucularımızı tanış etmək bizim borcumuzdur. Sizə və rəhbərlik etdiyiniz şirkətin hər bir üzvünə 2026-cı ildə uğurlar arzulayırıq.***

***Söhbəti apardı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

# Bakı 2026-cı ilin pişvazına çıxıb

## *Paytaxt küçələrində Yeni il nağılı*




**Qəlbə hərarət gətirən rəngarəng işıqlar, taxta evciklər, isti şokoladın havaya yayılan ətri və bir-birindən fərqli təamlar… 2026-cı ilin addım səslərinin eşidildiyi saatlarda ölkəmizin düşünən beyni, döyünən ürəyi olan paytaxtımız nağıllar dünyasını xatırladır.**

İlin son günləri Bakıya bayram sevinci ilə bərabər, xüsusi bir istilik gətirir. Şəhərin mərkəzində göz qamaşdıran işıqlandırmalar, musiqi sədaları yeni ilin astanasında olduğumuzdan xəbər verir. Nizami küçəsi isə bu ab-havanın ən çox hiss olunduğu ünvanlarındandır. Burada təşkil olunan "Soyuq Əllər, İsti Ürək" xeyriyyə yarmarkası ailəsi və dostları ilə maraqlı, əyləncəli vaxt keçirmək istəyənlərin görüş məkanıdır. Bayram əhvali-ruhiyyəsi ilə xeyirxahlığı birləşdirən bu yarmarka paytaxtın qış günlərinə rəng qatır. Biz də yarmarkanı ziyarət edən insanların təəssüratlarını öyrənmək üçün ora üz tutduq.

Stendlər arasında hərəkət etdikcə, yarmarkanın səs-küyü, gülüşlər və bayram








musiqisi bir-birinə qarışır. Taxta evciklərin önündə dayanıb məhsulların dadına baxmaq üçün növbəyə düzülən ziyarətçilərdən birinə yaxınlaşırıq. **Orxan Məmmədli** üzündə təbəssümlə təəssüratlarını bizimlə bölüşür: "Stendlərdə təqdim olunan məhsullar həm dadlı, həm də fərqlidir və buraya daxil olan kimi bayram ab-havası hiss olunur".

Ziyarətçinin sözlərinə görə, bu il yarmarka əvvəlki illərlə müqayisədə daha rəngarəngdir: "İnsanların sayı artıb. Xüsusilə yeni stendlərin açılması tədbirə əlavə rəng qatıb. O, yarmarkanın xeyriyyə məqsədi daşımasını xüsusi vurğulayaraq bildirir ki, belə təşəbbüslərin davamlı olması həm təşkilatçılar, həm də cəmiyyət üçün müsbət nəticələr verə bilər".

Daha sonra isə qonaqlar arasından **Sevda Nuriyeva** fikirlərini bölüşür: "Şəhərimiz çox gözəl, insanlarımız qonaqpərvərdirlər. Belə yarmarkaların açılması bizləri çox sevindirir. Ailəmiz, dostlarımızla birlikdə vaxtımızı xoş keçiririk.

Bu il yarmarka mənə daha maraqlı gəldi. Əvvəlki illərlə müqayisədə ərazi xeyli genişdir, stendləri rahatlıqla gəzmək olur.

Bundan əlavə, seçim də xeyli çoxdur, hər kəs öz zövqünə uyğun nə istəsə tapa bilir. Xüsusilə hədiyyəlik məhsullar təqdim olunan stendləri bəyəndim. Belə tədbirlərin davamlı olması şəhərimizin bayram ovqatını daha da gücləndirir".

Yarmarka uşaqların da xüsusi marağına səbəb olur. Rəngarəng işıqlar, əyləncəli guşələr və hədiyyəlik stendlər balaca ziyarətçilərin sevincini ikiqat artırır. Kiçik müsahibimiz **Eyvaz Camali** də bu barədə dedi: "Şaxta baba və Qarqızla şəkil çəkdirmək xoşuma gəldi. Hər yer çox rəngarəngdi, elə bil cizgi filmindəyəm. Musiqi səslənir, hamı şəkil çəkdirir.

Əvvəl stendləri gəzdik. Hər stenddə fərqli şeylər var. Bəzi yerlərdə şirniyyatlar, bəzilərində oyuncaqlar, bəzilərində də əl ilə hazırlanmış hədiyyələr. Hər yerə baxmaq istəyirəm, çünki hamısı maraqlıdır. Mən daha çox hədiyyəlik stendləri sevdim. Orada çox gözəl oyuncaqlar, bəzək əşyaları var idi. Həm özüm, həm də dostlarım üçün hədiyyələr aldım.

Keçən il də gəlmişdim, amma bu il daha rahatdır. Yer böyükdür, rahat gəzir, stendlərə yaxınlaşa bilirik. Bu, məncə, hamı üçün yaxşıdır. Mən bu yarmarkanı çox bəyəndim. Burada olmaq mənə çox sevinc verdi. Kaş belə tədbirlər tez-tez olsun".

Şam ağacına heyrətlə tamaşa edən **Dərya Camalinin** gözləri sevincdən parlayırdı. Həyəcan və təbəssümlə fikirlərini belə ifadə etdi:

- Demək olar ki, hər gün bura gəlirəm. Valideynlərimə deyirəm ki, məni qırmızı balaca evciklər olan yerə aparın. Burada ayı, aslan, tısbağa və başqa maraqlı heyvanlar var. Hərəsi böyük, rəngarəng və yumşaq kostyumlar geyinib. Bilirəm ki, əslində bu geyimlərin içərisində insanlar var. Amma yenə də onlarla söhbət etmək, oynamaq mənə çox xoş gəlir. Bir də buranın yeməkləri ləzzətlidir. Şirniyyatlar, konfetlər, tortlar, rəngbərəng şəkərlər hamısı o qədər gözəldir ki, hansını seçəcəyimi bilmirəm.

İşıqlarla bəzənən, musiqi ilə canlanan yarmarkada iki azyaşlı uşağın əlindən tutmuş **Məlahət Abdullayeva** ilə həmsöhbət olduq: "Uşaqlardan biri vitrinlərdəki rəngli oyuncaqlara baxıb dayanır, digəri isə musiqinin ritminə uyğun hərəkət edir. Ana hər ikisini səbirlə gözləyir, gah gülümsəyir, gah da onların üst-başını düzəldir. Üzündə nə tələskənlik var, nə də yorğunluqdan şikayət: "Uşaqlar ətrafa elə maraqla baxırlar ki, sanki nağıl dünyasına düşüblər. Par-par yanan işıqlar, rəngbərəng stendlər, ətirli şirniyyatlar və əllə düzəldilmiş oyuncaqlar onların üzünə sehrli dünyanın qapısını açır. Hər şey haqqında dayanmadan suallar verir, öyrənmək istəyirlər. Mən də bir ana olaraq çalışıram ki, bu marağı düzgün istiqamətə yönəldim, onların başa düşəcəyi şəkildə, sadə və səmimi dillə izah edim. Deyirəm ki, bu yarmarkada satılan hər bir əşya, hər bir məhsul kiməsə yardım etmək, ehtiyacı olan insanların bayramını şən keçirmək üçündür.

Çünki ana kimi mənim üçün ən vacib məsələ odur ki, övladlarım paylaşmağı, xeyirxahlığı, birlik ruhunu körpəlikdən duysunlar. Bayram onlar üçün yalnız hədiyyə almaq, bəzək-düzək görmək deyil, həm də başqalarını düşünmək, yaxşılığı bölüşmək anlamına gəlsin. Çünki əsl bayram insanın daxilindəki mərhəmət işığı ilə başqalarının qəlbinə yol tapmaqdır".

Simasında sevinc əks olunan **Sürahi Aslanova** isə bildirir: "Nəvəmlə gəzirik, dekorasiyalar möhtəşəmdir, bayram havası insanın ürəyini isidir, körpələrin də sevincini görmək insanı daha xoşbəxt edir".

11 ildir ənənəvi olaraq keçirilən "Soyuq Əllər, İsti Ürək" xeyriyyə yarmarkası bu il ziyarətçilərini tamamilə fərqli bir sürprizlə qarşılayır, yarmarka ilk dəfə sirk tematikası ilə təqdim olunur. Paytaxtın mərkəzi küçələri rəngarəng personajlar, canlı şoular, musiqi və diqqətlə hazırlanmış dekorların harmoniyasından ibarət unikal əyləncə məkanına çevrilir.

Bu il yarmarkada qonaqları 60 böyük və 20 balaca dekorativ ev, üç ikimərtəbəli restoran, xüsusi hazırlanmış oyun tuneli, "xoxan" labirinti, iki foto kabinə, müxtəlif tematik fotozonalar və sirk elementləri ilə zənginləşdirilmiş tamamilə yeni konstruksiyalar qarşılayır. Hər ziyarətçi burada həm əyləncəni, həm də bayram ovqatını bir arada yaşayır.

"Soyuq Əllər, İsti Ürək" xeyriyyə yarmarkasının qapıları yanvarın 8-dək hər gün saat 11:00-dan 23:00-dək açıqdır.

***Ləman TƏHMƏZ,***
***Fidan ƏLİYEVA***
***XQ***

# Dövlətçilik idealları və milli həmrəylik

## Qlobal coğrafiyada ucalan səsimiz

**“Milli mənsubiyyət hissi xaricdə yaşayan hər kəs üçün sarsılmaz dövlətçilik qalası, dünya azərbaycanlılarının həmrəyliyi isə beynəlxalq arenada Azərbaycanın ən qüdrətli strateji resursudur”.**

Milli dövlətlərin gücü, sadəcə, iqtisadi göstəricilər və ya hərbi potensialla ölçülmür. Hazırkı qlobal rəqabət dövründə xaricdə yaşayan soydaşların təşkilatlanma səviyyəsi, milli ideologiya ətrafında sıx birləşməsi və tarixi vətənlə qurduğu mənəvi köprülər dövlətin xarici siyasətinin ən təsirli vasitələrindən hesab edilir. 31 dekabr tarixi təqvimlərdə dünya azərbaycanlılarının vahid məfkurə, ortaq dəyərlər və dövlətçilik amalı ətrafında mənəvi bütövləşməsini ifadə edir. Ümummilli lider Heydər Əliyevin uzaqgörən strateji təfəkkürü nəticəsində təsis olunmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xalqın parçalanmış taleyini mənəvi müstəvidə vahid mərkəzə bağlayan tarixi dönüş nöqtəsi sayılır. Hazırda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə siyasi xətt yeni mərhələyə qədəm qoymuşdur. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra xaricdə yaşayan həmvətənlərin milli qürur hissi daha da yüksəlmiş, Azərbaycan naminə aparılan lobbiçilik və informasiya mübarizəsi ümummilli hərəkat xarakteri almışdır.








### Türkiyə

Qardaş Türkiyə Cümhuriyyətinin İzmir şəhərində təşkil edilən mərasim milli birliyin ən parlaq təzahürlərindəndir. İzmir və Manisada təhsil alan tələbələrin iştirakı ilə baş tutan iclas milli ruhun və qardaşlıq bağlarının nə qədər sarsılmaz olduğunu sübuta yetirmişdir. Dərnək sədri Eşref Tuna iştirakçıları salamlayaraq həmrəylik gününün tarixi əhəmiyyətindən danışmış, gənclərin bu yoldakı rolunu yüksək qiymətləndirmişdir. Mərasimin əsas təşkilati yükünü üzərinə götürən tanınmış aktrisa Roza İbadova Koçamaz, təxminən, 7 saat boyunca hazırladığı maraqlı, əyləncəli və milli ruhlu bölmələrlə iştirakçılara unudulmaz anlar yaşatmışdır. Tədbirdə iştirak edən azərbaycanlı və Türk dünyasından olan tələbələr mənəvi dəstəkləri ilə gecəyə xüsusi rəng qatmışlar. Gənclər arasında milli dəyərləri əks etdirən suallarla bilik yarışmaları keçirilmiş, fərqlənən şəxslərə hədiyyələr təqdim olunmuşdur. İl ərzində dərnəyin fəaliyyətinə töhfə verən qurumlara təşəkkürnamələr verilmişdir.

### ABŞ

Amerika Birləşmiş Ştatlarının Kaliforniya ştatında keçirilən bayram tədbiri miqyası və strateji əhəmiyyəti ilə xüsusi diqqət çəkir. Örvayn şəhərində Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun dəstəyi və Kaliforniya Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan məclis 200 nəfərdən çox soydaşı, amerikalı qonaqları birləşdirmişdir. Dövlət himnlərinin uşaq xoru tərəfindən ifası milli vətənpərvərlik hisslərinin gənc nəslə aşılanmasının bariz nümunəsidir. Sevil Fərəcovanın rəhbərlik etdiyi cəmiyyətin icma quruculuğu sahəsindəki fəaliyyəti yüksək qiymətləndirilir. Səfir Xəzər İbrahim tədbirdə iştirak edərək Azərbaycan-ABŞ münasibətlərinin strateji səviyyədə inkişafından, Vaşinqtonda keçirilən mühüm 8 avqust zirvə görüşünün əhəmiyyətindən bəhs etmişdir.

### Kanada

Şimali Amerika qitəsində, Kanadanın Ottava və Monreal şəhərlərində yaşayan soydaşlarımızın iştirakı ilə keçirilən mərasim milli birliyin uzaq coğrafiyalardakı əks-sədası hesab olunur. Azərbaycanın Kanadadakı müvəqqəti işlər vəkili Ramil Hüseynli həmin əlamətdar tarixin xronologiyasından bəhs edərək 70-dən çox ölkədə məskunlaşan 50 milyondan artıq azərbaycanlının respublikamızla əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Bayram soydaşlar arasında vəhdət yaradılması işində mühüm rol oynayır. Diplomat Kanadada yaşayan icma üzvlərini tək yumruq kimi birləşməyə, Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə çatdırılması və erməni yalanlarının ifşa edilməsi istiqamətində səyləri səfərbər etməyə çağırıb.

### Fransa

Parisdə keçirilən mərasim Azərbaycanın Fransadakı səfirliyi və UNESCO yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə Mədəniyyət Mərkəzində baş tutub. Səfir Rəhman Mustafayev Fransa ilə Azərbaycan arasındakı müxtəlif sahələri əhatə edən əməkdaşlığın analizini apararaq diaspor təşkilatlarının əldə etdiyi nailiyyətlərə toxunub. Sona çatmaqda olan ilin uğurlu nəticələri gələcək fəaliyyətlər üçün etibarlı zəmin yaradır. Parisdə yaşayan soydaşların təşkilatlanma səviyyəsi və Azərbaycan mədəniyyətinin təbliği istiqamətindəki fəallığı diplomatik müstəvidə ölkəmizin mövqelərini möhkəmləndirir.

### Niderland

Niderland Krallığında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd olunması Avropanın mühüm siyasi mərkəzlərində milli ruhun yüksək səviyyədə qorunduğunu göstərir. Bu ölkədə fəaliyyət göstərən Azərbaycan icma təşkilatlarının rəhbər və üzvləri, habelə müxtəlif şəhərlərdə, əyalətlərdə məskunlaşan çoxsaylı həmvətənlər təşkil olunan mərasimdə iştirak ediblər. Azərbaycanın Niderlanddakı səfiri Məmməd Əhmədzadə çıxışında xaricdə yaşayan soydaşların tarixi vətənlə əlaqələrinin möhkəmləndirilməsinin dövlətin xarici siyasətində daim mərkəzi yer tutduğunu vurğulayıb. Diplomat ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış azərbaycançılıq ideologiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini diqqətə çatdırıb.

### Macarıstan

Avropanın mərkəzində, Macarıstanın paytaxtı Budapeştdə təşkil edilən bayram tədbiri gəncliyin enerjisi və intellektual potensialı ilə yadda qalıb. Azərbaycan-Macarıstan Məzunlar Birliyinin təşkilatçılığı, Macarıstandakı Azərbaycan Evinin dəstəyi ilə keçirilən görüşdə icma üzvləri bir araya gəlib. İbrahim Səfərli və Günay Bayramovanın çıxışlarında diaspor fəaliyyətinin müasir çağırışlara uyğun qurulması zərurəti ifadə edilib. Macarıstanda təhsil alan və çalışan azərbaycanlıların vəhdəti Avropa məkanında ölkəmizin mədəni diplomatiyasını uğurla təmsil edir. Milli “Yallı” rəqsi və ünsiyyəti gücləndirən şəbəkələşmə metodları ilə davam edən mərasim həmrəyliyin səmimi mənəviyyat olduğunu təsdiqləyib.

### Çexiya

Mərkəzi Avropanın strateji nöqtələrindən sayılan Çexiya Respublikasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi milli vəhdətin Avropa məkanındakı növbəti təzahürüdür. Azərbaycanın Çexiyadakı səfiri Yaşar Əliyev soydaşları bayram münasibətilə təbrik edərkən milli həmrəyliyin və dövlətçilik ideyalarının möhkəmləndirilməsinin xüsusi əhəmiyyətini vurğulayıb. Səfirin qeyd etdiyi kimi, həmin əlamətdar gün xalqın milli kimliyinin qorunması və diaspor fəaliyyətinin gücləndirilməsi baxımından mühüm rol oynayır.

### Küveyt

Küveyt Dövlətində yaşayan, çalışan və təhsil alan həmvətənləri özündə birləşdirən “Vətənsevər Dostluq Cəmiyyəti”nin təşkil etdiyi tədbir körfəz regionunda milli dirçəlişin güclənməsini nümayiş etdirib. Azərbaycanın istiqlaliyyət əldə etməsi dünya azərbaycanlılarının milli qürurunun inkişafına böyük təkan vermişdir. Milli dirçəlişin güclənməsinə ehtiyacın artdığı həmin dövrdə dövlət başçısının fərmanı ilə həmrəylik gününün elan edilməsi tarixi zərurətdən irəli gəlib. Küveyt ictimaiyyəti nümayəndələrinin də qatıldığı mərasimdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ətrafında yaranan sarsılmaz iradə yüksək qiymətləndirilib.

### Misir

Misir Ərəb Respublikasında təşkil edilən tədbirlər Şərq və Qərb sivilizasiyalarının kəsişməsində Azərbaycanın artan nüfuzunu bir daha təsdiqləyir. Qahirədə ölkəmizin səfirliyində icma üzvlərinin, ziyalıların və tələbələrin iştirakı ilə reallaşan mərasim həm həmrəylik gününə, həm də qarşıdan gələn təqvim ilinə həsr olunmuşdur. Qeyd olunmuşdur ki, əlamətdar gün milli vəhdətin qorunmasında və gələcək nəsillərə ötürülməsində həlledici rol oynayır. Cari ilin siyasi mənzərəsinə toxunarkən, Azərbaycan ilə Misir arasındakı əlaqələrin dinamik inkişafı xüsusi analiz edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin Misir və ABŞ rəhbərlərinin dəvəti ilə Şarm əl-Şeyxdə Qəzza zolağının müharibədən sonrakı bərpasına dair beynəlxalq sammitdə iştirakı rəsmi Bakının qlobal məsələlərdəki çəkisini göstərir.

### Hindistan

Asiya qitəsinin nəhəng dövlətlərindən sayılan Hindistanda da həmrəylik ruhu uca tutulmuşdur. Nyu-Dehli şəhərində diplomatik korpusun, icma üzvlərinin və paytaxtda səfərdə olan həmvətənlərin iştirakı ilə keçirilən mərasim milli birliyin coğrafi sərhəd tanımadığını sübut edir. Səfir Elçin Hüseynli 70-dən çox ölkədə məskunlaşan 50 milyondan artıq azərbaycanlının vahid ideoloji platformada birləşməsinin tarixi zərurət olduğunu qeyd etmişdir. Hindistandakı soydaşlarımız müstəqil, suveren və güclü Azərbaycanın maraqlarını müdafiə etməyi, milli mədəni irsi beynəlxalq müstəvidə tanıtmağı mənəvi borc hesab edirlər. Vətən müharibəsində əldə olunan tarixi Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyinə çevrilmiş, xaricdəki diaspor təşkilatlarının fəaliyyətinə yeni dinamika gətirmişdir.

Milli birlik xalqın ən böyük sərvətidir. Sözügedən sərvəti qorumaq və inkişaf etdirmək hər kəsin vətəndaşlıq borcudur. Tarixin sınaqlarından keçmiş həmrəylik ruhu bizi həmişə irəliyə aparacaq. Azərbaycanın qüdrəti onun övladlarının birliyində və həmrəyliyindədir.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Azərbaycanın bəşəri idealları

## Xalqımız gələcəyini dostlar dünyasında görür

**Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Fərhad Məmmədov yerli mediaya geniş müsahibəsində arxada qoyduğumuz 2025-ci ilin yeni tendensiyalarını, ən mühüm hadisələrini şərh edib, eləcə də qarşıdan gələn 2026-cı ildən Azərbaycanın və dünyanın gözləntilərinə nəzər yetirib.**





Müsahibənin əvvəlində Azərbaycanın Ermənistanla sülh dialoqunun sağlam məcraya yönəlməsi fonunda Rusiya ilə münasibətlərin yenidən gərginləşməsi məsələsinə toxunan Fərhad Məmmədov başa çatan ildə regionda və qlobal müstəvidə gedən proseslərə yaxından diqqət yetirdikdə bu tendensiyalar arasında müəyyən əlaqəni görmək mümkün olduğunu deyib. Bu kontekstdə Rusiya ilə münasibətlərin soyumasının əsas səbəbi kimi məlum təyyarə qəzasını xatırladan politoloq Azərbaycanın uzun müddət şimal qonşusu üçün proqnozlaşdırıla bilən ölkə olduğunu, amma qarşı tərəfin – Rusiya Fdedrasiyasının, bunun tam əksinə olaraq, gözlənilməz siyasi gedişləri ilə yadda qaldığını bildirib.

### Kremlin Cənubi Qafqaz səhvləri

Moskvanın Cənubi Qafqazla bağlı siyasətindəki geriləmələri Ukrayna müharibəsi, buraya yönəltdiyi xərclərlə əlaqələndirən ekspertlərin yanıldığını vurğulayan F.Məmmədov nəzərə çatdırıb ki, “xüsusi hərbi əməliyyatlar” başlayandan bəri iqtisadi kontekstdə Rusiyanın bölgədə mövqeyi güclənib ki, zəifləməyib. Politoloq bunu onunla izah edib ki, son dörd ildə Rusiyanın həm Ermənistan, həm Gürcüsatan, həm də Azərbaycanla ticarət dövriyyəsi artıb. Buraya Şimal–Cənub strateji marşrutunun gündəmə gəlməsi, İrana təbii qazın nəqli kimi məsələləri də əlavə edən F.Məmmədov bu gün Rusiyanın Cənubi Qafqaz bölgəsində heç bir probleminin müşahidə olunmadığını birmənalı şəkildə bildirib.

Bunun ardınca şimal qonşumuzun siyasi müstəvidə mövqeyini şərh edən politoloq bu zaman onun 2022-ci ildə Azərbaycanla imzaladığı Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməni, Ermənistan onun hərbi-siyasi müttəfiqi kimi qalmaqda davam etdiyini xatırladıb. Rusiya bu regionda nə etməyib? sualını cavablandırmağa çalışan siyasi ekspert Kremlin bəzi səhvlərə yol veridiyini açıqlayıb: “2021-ci ildə Azərbaycanla sərhəddə rus sərhədçiləri göründülər. Paşinyanın birinci işi onları ərazidən çıxarması oldu. Ardınca Zvartnos hava limanındakı, Mehridəki heyətin də xidmətinə xitam verildi. Yəni bu bölgədə itirdiklərinin əsas səbəbi Kremlin yürütdüyü yanlış siyasətinin nəticəsidir. Regionda gedən transformasiya prosesləri – Ermənistan–Azərbaycan, Ermənistan–Türkiyə münasibətlərindəki irəliləyiş və kommunikasiyaların açılması 44 günlük müharibədən sonra yaranan trendlərdir. Rusiya Azərbaycanın ərazi bütövlüyüynü və suverenliyini bərpasına son dəqiqəyə qədər müqavimət göstərdi. Bu, rəsmi Moskvanın buraxdığı ən böyük səhvidir”.

### İqtisadi maraqlar sülhü üstələməməlidir

Müsahibəsində Ukrayna cəbhəsində son vaxtlar müşahidə olunan üstünlükləri, xüsusilə Ağ Evin dolayısı ilə dəstək verməsi sayəsində Rusiyanın Mərkəzi Asiyada mövqelərini möhkəmləndirmək imkanı qazanması ilə bağlı fikirlərini açıqlayan Fərhad Məmmədov Birləşmiş Ştatların indiki məqamda Kremlin təsir dairəsini qəbul etməsi məsələsinə də toxunub: “Siyasi gündəmdə müzakirə olunan bu tezislə razılaşa bilmərəm. Ona görə ki, TRIPP layihəsinin müəllifi birbaşa ABŞ-dır. Məhz prezident Trampın şərəfinə adlandırılan bu marşrut özündə həm də Vaşinqtonla İrəvan arasında imzalanan strateji tərəfdaşlıq xartiyasını ehtiva edir. Azərbaycanla da bağlanacaq belə bir sazişin layihəsi birgə işçi qrupu tərəfindən hazırlanır. ABŞ–Mərkəzi Asiya Sammiti, Qazaxıstan və Özbəkistan liderlərinə Ağ Evdən edilən telefon zəngləri və onların “G20” formatına dəvət olunmasında məqsəd Avropanın Vaşinqtondan asılılığını artırmaqdır. Doğrudur, Avropa İttifaqı dünyanın ən varlı ölkələrini özündə birləşdirən alyansdır. Bu səbəbdən heç kim Aİ ilə əməkdaşlıqdan imtina etmir. ABŞ, sadəcə, “qoca qitə”ni özündən asılı vəziyyətə gətirəcək elementləri yaratmağa çalışır. Yəni burada korporativ maraqlardan söhbət gedir. Hətta Rusiya–Ukrayna müharibəsinə son qoymağa cəhdlər edəndə də Ağ Ev ölkənin bundan hansı faydanı götürəcəyi barədə düşünür. ABŞ-ın Rusiyanın üzərindən iqtisadi sanksiyaları götürməsi də Kremlə çox baha başa gələcək”.

### Bakının minimum və maksimum planları reallaşmalıdır

Daha sonra ABŞ–Azərbaycan münasibətlərinin perspektivləri barədə fikirlərini izləyicilərlə bölüşən Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri Fərhad Məmmədov avqust ayında Vaşinqtonda imzalanmış ikitərəfli saziş və bəyanatlarda göstərilən bütün bəndlərin həyata keçməsinin vacibliyini önə çəkib: “Əvvəlcə TRIPP layihəsi üzrə infrastuktur işlərinin reallaşdırılması gəlir. İkincisi önəmli məsələ ABŞ-la Azərbaycan arasında strateji tərəfdaşlıq xartiyasının imzalanmasıdır. İlkin razılaşmaya əsasən, bunlar hərbi-texniki, ticarət, investisiya, biotexnologiyalar, eləcə də Vaşinqtonda bəyan edilən digər istiqamətlərdir. Senatın “Azadlığa Dəstək Aktı”na 907-ci əlavənin tətbiqini Tramp bir il müddətinə saxlasa da, qanunda bu bənd qalmaqdadır. Düşünürəm ki, əgər biz maksimum və minimum planları nəzərdən keçirsək, bu zaman minimum ABŞ və Azərbaycan arasında strateji tərəfdaşlıq xartiyasının imzalanması, maksimum isə 907-ci əlavənin birdəfəlik ləğı edilməsidir. ABŞ qanunvericiliyində bu xarakterli qərarların qəbulunun nadir hallarda baş veridiyini fikirləşsək, bunun tarixi sənəd olacağını indidən söyləyə bilərik. Konqres və Senatda qanuna bu əlavənin ləğvinin əleyhinə çıxanları, ermənipərəst qüvvələri neytrallaşdırmağın yolu Ermənistanla sülh gündəliyini dərinləşdirməkdən keçir.

### Paşinyanı bəyənən və bəyənməyənlərin nisbəti

Müsahibənin sonunda Ermənistanın baş naziri Nikol Paşinyanın ictimai reytinqinin aşağı düşməsi ilə bağlı onun ünvanına müxalif düşərgədən səslənən bəyanatlara da toxunan F.Məmmədov iqtidar komandasının cavab-arqumentini dilə gətirib: “Məlum suala cavab verməkdə tərəddüd edən 60 faiz respondent, əslində, baş naziri aşkar dəstəklədiyini ifadə etməkdə çərinlik çəkib. Müxalifət isə bunun əksini deyir. Bütün sosial sorğularda iştirak edən erməni respondentləri üçün həlledici amil təhlükəsizlik məsələsi olub. Əgər Azərbaycanla sərhəddə atışma yoxdursa, deməli, Paşinyanı dəstəkləmək olar. Etiraf etməliyik ki, Paşinyanın apardığı informasiya kampaniyası sayəsində cəmiyyətin təfəkküründə hərb və sülh anlayışlarını bir-birindən ayırmağı bacarıb. Yəni deyir ki, sülhü istəyən mənim tərəfdarlarım, müharibəyə çağıranlar isə əleyhdarlarımdır. Ermənistana səfərim zamanı şəxsən müşahidə etdiyim bir incə məqamı da bura əlavə etmək istərdim. İrəvanda olduğumuz ilk gecə “Sputnik-Armeniya” bizim harada yerləşdiyimiz, sabah kimlərlə görüşəcəyimiz barədə xəbər yayımladı. Əslində, bu informasiya gizli saxlanılmalı idi. Səhərisi gün biz məlum görüşləri keçirdik, söhbətlərimiz oldu. Amma nə o məkanların qarşısında etiraz aksiyaları gördük, nə də mediada müxalif məzmunlu xəbərləri oxuduq. Bu, bir göstərici idi. Onu da deyim ki, Ermənistan mediasının böyük qismi məhz Paşinyana müxalif dairələrin nəzarətindədir. Üstəgəl, xaricdən bunlara dəstək verənlər var. Əsas sosiolji sorğular parlament seçkilərində, yeni konstitusiyaya dair referendumda keçiriləcək və biz o zaman erməni cəmiyyətinin həqiqi rəyini və seçimini görəcəyik”.

*Hazırladı:*
*İmran BƏDİRXANLI*
*XQ*

*31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür*



# Azərbaycan gəncliyinin dünya sorağı

**Dünya azərbaycanlılarının həmrəyliyi xalqımızın tarixində milli şüurun, mənəvi birliyin və azərbaycançılıq ideyasının qlobal miqyasda təcəssümüdür. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan milyonlarla azərbaycanlını eyni ideya birləşdirir.**

Son illər Azərbaycan diasporunun təşkilatlanması prosesi daha sistemli və məqsədyönlü xarakter alıb. Soydaşlarımız yaşadıqları ölkələrin ictimai-siyasi, mədəni həyatında fəal iştirak edirlər. Hazırda 6 qitədə, dünyanın bir çox ölkəsində yüzlərlə Azərbaycan icması üçrəngli bayrağımız altında fəaliyyət göstərir, milli maraqlarımızın müdafiəsində ardıcıl iş aparır. Vətənimizin hüdudlarından kənarda yaşayan, bilik və bacarıqları ilə ölkəmizi layiqincə təmsil edən həmyerlilərimizi oxucularımıza təqdim edirik.

**Seymur ƏHMƏDOV,**
**Lüksemburq Azərbaycan Dostluq Assosiasiyasının sədri:**



– Azərbaycanda başlayan elmi və peşəkar yolumu Avropada daha geniş şəkildə davam etdirdim. Təhsilimə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında başlamışam, beynəlxalq münasibətlər ixtisası üzrə bakalavr və magistr dərəcələrini uğurla başa vurmuşam. Elmi fəaliyyətimi daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda davam etdirərək siyasi elmlər namizədi dərəcəsinə yiyələnmişəm.

Lüksemburqda peşəkar fəaliyyətə 2010-cu ildən başlamışam. Bakıda yaşadığım dövrdə Lüksemburqdakı hüquq və maliyyə konsaltinq şirkətindən aldığım iş təklifi karyeramda yeni mərhələyə keçid üçün mühüm fürsət oldu. Bu qərarla Lüksemburqa köçərək peşəkar fəaliyyətimi burada davam etdirdim. Həmin şirkətdə bir müddət çalışdıqdan sonra isə öz şirkətimi quraraq fəaliyyət sahəmi daha da genişləndirdim.

Lüksemburqa ilk gəldiyim gündən etibarən məqsədim yalnız peşəkar inkişafla məhdudlaşmayıb. Eyni zamanda, Azərbaycanı yaşadığım ölkədə daha yaxından tanıtmaq, haqqında obyektiv və dolğun təsəvvür formalaşdırmaq əsas məqsədim olub. Bu istiqamətdə Azərbaycan mədəniyyətinin və milli kimliyimizin təqdim olunmasına fəal dəstək göstərərək ölkəmizi layiqincə təmsil etmişəm.

Xüsusilə vurğulamaq istərdim ki, 13 il ərzində Lüksemburqda Böyük Hersoq və Böyük Hersoginyanın himayəsi altında keçirilən "Bazar International de Luxembourg" beynəlxalq xeyriyyə tədbirində Azərbaycan stendinin rəhbəri olmuşam. Hər il 45 mindən çox ziyarətçinin qatıldığı və təxminən 60 ölkənin iştirak etdiyi bu mötəbər platformada Azərbaycan stendi vasitəsilə milli mətbəximizi, yerli məhsullarımızı, musiqimizi və incəsənət nümunələrimizi minlərlə insana təqdim edirik. Hazırda həmin təşkilatda idarə heyətinin üzvüyəm.

Bununla yanaşı, Lüksemburqda fəaliyyət göstərən Lüksemburq–Azərbaycan Dostluq Assosiasiyasının təsisçisi və sədri kimi çalışıram. Assosiasiyanın əsas məqsədi vətəndən uzaqda yaşayan soydaşlarımızın bir araya gəlməsini təmin etmək, qarşılıqlı dəstək mühitini formalaşdırmaq və icma olaraq daha güclü, təşkilatlanmış mövqedən çıxış etməkdir. Bu birliyin yaranmasına və möhkəmlənməsinə töhfə vermək mənim üçün həm böyük məsuliyyət, həm də qürur mənbəyidir.

Gələcək planlarımızın mərkəzində diaspor fəaliyyətinin daha da gücləndirilməsi, Azərbaycanın Lüksemburqda və daha geniş auditoriyalarda daha sistemli və ardıcıl şəkildə tanıdılması dayanır. Hədəfimiz soydaşlarımız arasında əlaqələrin daha da sıxlaşdırılması, həmrəyliyin gücləndirilməsi və fəaliyyətimizin uzunmüddətli, davamlı mexanizmlər üzərində qurulmasıdır. Bu istiqamətdə əsas məqsədlərimizdən biri Lüksemburqda "Azərbaycan Evi"nin yaradılması və fəaliyyətə başlamasıdır. Bu ideyanın reallaşması üçün icmamızla birgə bütün mümkün addımların atılması planlaşdırılır. İnanırıq ki, belə bir mərkəz soydaşlarımızın daha koordinasiyalı şəkildə bir araya gəlməsinə, həm də Azərbaycan mədəniyyətinin və milli kimliyimizin daha geniş miqyasda tanıdılmasına mühüm töhfə verəcək.

**Sərxan BƏDİRLİ,**
**ABŞ, Kaliforniya ştatında diaspor fəalı:**




– Orta məktəb illərində riyaziyyat olimpiadalarında iştirak edirdim və bu sahəyə marağım elə o vaxtdan yarandı. Riyaziyyat mənim üçün adi fənn deyildi, düşüncə tərzimi müəyyən edən əsas vasitə idi. Buna görə də bakalavr təhsilimi Türkiyədə Orta Doğu Texniki Universitetində aldım. Daha sonra İsveçrədə "ETH Zürich" Universitetində tətbiqi riyaziyyat üzrə magistratura təhsili keçdim. Təhsil illərində maliyyə sahəsində işləsəm də, etiraf etməliyəm ki, bu istiqamət məni tam motivasiya etmirdi. Buna görə də Bakıya qayıdıb Dövlət Neft Fondunda risk analitiki kimi fəaliyyət göstərdim. Lakin daha dinamik, daha yaradıcı və dərin elmi baza tələb edən bir sahə axtarırdım.

Riyaziyyatın ən çox dəyər qazandığı sahələrdən birinin kompüter elmləri, xüsusilə süni intellekt olduğunu anlayıb istiqamətimi dəyişməyə qərar verdim. Mən daim özünü inkişaf etdirməyə çalışıram. Bu səbəbdən mütləq bir sahədə qalmaq düşüncəsi ilə yox, maraq və potensialımı kəşf etməklə irəliləmişəm. Riyaziyyata və insan biologiyasına xüsusi marağım var. Süni intellekt isə bu iki sahəni birləşdirmək gücünə malikdir.

Elə bu motivasiya ilə 2016-cı ildə Dövlət Neft Fondundakı işimdən ayrıldım və Purdue Universitetində süni intellekt üzrə doktorantura təhsilinə başladım. ABŞ-da yaşamaq qərarım da bu akademik və peşəkar yolun davamı oldu. Əsas məqsədim süni intellekt sahəsinin ölkəmizdə inkişafına real töhfə verməkdir. Azərbaycanda çox savadlı və qabiliyyətli gənclər var. Bunu şahmatda, idmanda və digər sahələrdə dəfələrlə sübut etmişik.

Artıq 9 ildən çoxdur ABŞ-da yaşayıram. Doktorantura illərində mədəniyyətimizi, qonaqpərvərliyimizi nümayiş etdirmək şansım oldu. Xalqımızın milli adət-ənənələrindən, mətbəx mədəniyyətindən bəhs edir, ölkəmizin hər guşəsinin ecazkarlığından danışırdım.

Hazırda Kaliforniyada ölkəmi təmsil etmək mənim üçün həm məsuliyyət, həm də qürurdur. Eyni zamanda, süni intellekt sahəsində apardığımız tədqiqatlar və hazırladığımız elmi məqalələr də Azərbaycanın intellektual potensialının nümunəsidir.

**Mahirə SƏFƏRƏLİZADƏ,**
**Almaniya, Halle Universiteti Klinikasında tədqiqatçı:**



– Hazırda Almaniyada yaşayır, tibbi tədqiqatlar aparıram. Burada hüceyrə biologiyası sahəsində həm istehsalat, həm də elmi tədqiqat baxımından geniş imkanlar var. Bu səbəbdən, Almaniyada yaşamağa qərar verdim. Əvvəl çətinliklər olsa da, alman dilini öyrəndikdən sonra iş həyatına rahatlıqla alışdım.

Bu yolda ilk addımlarımı atanda gələcəyə ümidlə baxan tələbə idim. 2013-cü ildə xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində Kanadanın Toronto Universitetinin təbiət elmləri fakültəsinə qəbul oldum. Burada dərsləri maraqlarımıza uyğun şəkildə seçmək imkanımız vardı. Mən molekulyar biologiya, fiziologiya və immunologiya sahələrinə daha çox yönəlmişdim. Təhsil prosesi heç də asan deyildi. 17 yaşın təcrübəsizliyi, ingilis dilini bilsəm də, akademik mühitdə hiss olunan dil baryeri həyata yeni atılan bir gənc üçün olduqca çətin idi. Lakin bakalavr pilləsində təhsil aldığım dörd il inkişaf baxımından mühüm mərhələ oldu. Ümumiyyətlə, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə həyata keçirilən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" azərbaycanlı gənclərin bilik və bacarıqlarının üzə çıxmasına, dünyagörüşünün formalaşmasına böyük təkan verir.

Bakalavr təhsilimi tamamladıqdan sonra hüceyrə biologiyası ixtisası üzrə magistratura təhsili almaq üçün bir neçə ölkəyə müraciət etdim. Frankfurt "Goethe" Universitetinin "Goethe Goes Global" təqaüdünü aldıqdan sonra seçim etdim. Buradakı təhsil sistemi Toronto ilə müqayisədə daha praktik idi və laboratoriya işi üzərində qurulmuşdu. Hüceyrə biologiyasında tədqiqata marağım getdikcə artdığı üçün təhsilimi doktorantura pilləsində davam etdirdim. Təxminən 4-5 il ərzində işlədiyim layihə üzərində çalışdıqdan sonra müdafiə etdim və doktorluq elmi dərəcəsi aldım.

Doktoranturanı bitirdikdən sonra iş tapmaq asan olmadı, mövcud yerlər və qrantlar məhdud idi. Hazırda Halle Universiteti Klinikasında tədqiqatçı və istehsalat rəhbəri kimi çalışıram. Burada qan xərçəngi ilə mübarizə aparan pasiyentlər üçün immunoterapiya hazırlayırıq. Yəni pasiyentlərin immun hüceyrələrini götürüb genetik olaraq dəyişdirir və yenidən orqanizmə qaytarırıq. Bu hüceyrələr xərçəngi tanımaq və məhv etmək qabiliyyəti qazandığı üçün bir çox hallarda xəstələrin həyatını xilas etmək mümkün olur. Ona görə də bizim sahə həm çətin və məsuliyyətli, həm də maraqlıdır. Ümid edirəm ki, gələcəkdə yeni immunoterapiya üsulları ilə xərçənglə mübarizədə daha böyük uğurlar əldə edəcəyik.

İllər keçdikcə, anlayıram ki, Vətəndən kənarda atılan hər uğurlu addım təmsil etdiyin ölkənin beynəlxalq nüfuzunu artırır. İstər Kanadada, istərsə də Almaniyada yaşadığım müddətdə həmyerlilərimizin Azərbaycanı ləyaqətlə təmsil etdiklərinin şahidi olmuşam. Düşünürəm ki, harada yaşamağımızdan asılı olmayaraq, milli kimliyimizi unutmamaq hər birimizin mənəvi borcudur.

**Emil KƏRİMOV,**
**Belçika, "Synopsys" şirkətinin əməkdaşı:**

– Elm və texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə azərbaycanlı gənclərin beynəlxalq arenada qazandığı uğurlar gələcək nəsillərə örnəkdir. Sevinirəm ki, bu gənclərin siyahısında mən də varam. 2020-ci ildə doktorantura təhsilimi davam etdirmək üçün Belçikanın Löven Universitetinə və "IMEC" mikroelektronika üzrə tədqiqat institutuna müraciət etdim. Bakalavr təhsilimi xaricdə təhsil proqramı çərçivəsində Kanadada – Toronto Universitetində almışam. Daha sonra magistr dərəcəsi üçün Niderland Krallığına üz tutdum. Təhsillə yanaşı, tədqiqat təcrübəsi qazanmaq üçün bir



müddət Almaniyada – Fraunhofer tədqiqat institutunda çalışdım. Hər bir mərhələ həm peşəkar, həm də şəxsi inkişaf baxımından olduqca faydalı idi.

Bu ilin iyun ayında doktorluq dərəcəsini uğurla tamamladım. Elə həmin dövrdən etibarən "Synopsys" şirkətində tədqiqat və inkişaf mühəndisi kimi fəaliyyətə başladım. Hazırda əsas vəzifəm "Synopsys"in qabaqcıl texnologiyalarını IMEC-lə tərəfdaşlıq çərçivəsində həyata keçirilən tədqiqat layihələrində inkişaf etdirmək və təkmilləşdirməkdir. Bu vəzifə mənə həm akademik biliklərimi praktik sahədə tətbiq etməyə, həm də mikroelektronika sahəsində qabaqcıl innovasiyaların yaradılmasına imkan verir.

Kanada və Niderlandda təhsil aldığım illərdə Azərbaycanla bağlı müxtəlif tədbirlərdə, tələbə təşkilatlarının fəaliyyətində fəal iştirak etmişəm. Həmin dövrlər mənim üçün həm də ictimai baxımdan formalaşma mərhələsi idi. Təəssüf ki, Belçikada bu cür fəaliyyətləri eyni şəkildə davam etdirməyə imkanım olmadı. Lakin fürsət düşdükcə, şəxsi təşəbbüsümlə müxtəlif ölkələrdən olan dostlarıma və həmkarlarıma Azərbaycan mədəniyyəti, mətbəxi və dəyərləri haqqında məlumatlar verir, onları bizim zəngin irsimizlə tanış edirəm.

Mənim üçün ən vacib məsələ maraqlandığım layihələrin ardınca getmək, biliklərimi paylaşmaq və eyni zamanda ətrafımdakı savadlı insanlardan öyrənməkdir. Hesab edirəm ki, inkişaf məqsədyönlü addımlardan başlayır. Bu prinsipə sadiq qalaraq həm peşəkar, həm də şəxsi həyatımda dəyişikliklər etməyə çalışıram.

Yeni tədqiqat qrupları, təşəbbüslər və innovativ təşkilatlar cəmiyyətin təhsil, dünyagörüşü və gündəlik həyatına böyük təsir göstərir. İstərdim ki, yaxın gələcəkdə Azərbaycanda da bu potensial daha da inkişaf etdirilsin və ölkəmiz qlobal akademik-sənaye tərəfdaşlığında öz sözünü desin.

**Nəsib ALLAHVERDİYEV,**
**Almaniya, "KPMG Luxembourg" şirkətinin auditoru:**



– Bakalavr təhsilimi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində biznesin idarə edilməsi ixtisası üzrə başa vurduqdan sonra magistr təhsilimi Almaniyada almaq qərarına gəldim. Uşaqlıqdan Almaniyada təhsil almaq mənim ən böyük arzularımdan biri olub. Bir sıra nüfuzlu Almaniya universitetlərindən – Yena, Passau, Kiel və Trier qəbul alsam da, akademik mühit və ixtisas uyğunluğu baxımından Trier Universitetini seçdim. Hazırda Almaniyanın Trier şəhərində, Lüksemburqla sərhəddə yerləşən bu regionda yaşayıram.

Trier Universitetində "Master in Economics" proqramı üzrə təhsil almışam. 2023-cü ildə magistr proqramı çərçivəsində bütün imtahanları uğurla verərək tədris hissəsini tamamlamışam. Akademik biliklərimi real iş mühiti ilə birləşdirmək məqsədilə imtahanlarımı başa vurduqdan sonra peşəkar iş həyatına başladım.

Trier şəhərinin Lüksemburqla həmsərhəd olması və bu ölkənin dünyanın aparıcı maliyyə mərkəzlərindən biri kimi tanınması mənə yeni imkanlar açdı. Xüsusilə məqsədim "Big four" adlandırılan 4 aparıcı audit və konsaltinq şirkətlərindən birində təcrübə qazanmaq idi. Bu istiqamətdə göstərdiyim səylər nəticəsində 2023-cü ildə "KPMG Luxembourg" şirkətində maliyyə auditi üzrə intern vəzifəsinə qəbul olundum. Altı aylıq uğurlu təcrübə müddətindən sonra mənə tamştatlı iş təklifi edildi və junior auditor kimi peşəkar fəaliyyətə başladım. Davamlı inkişaf və göstərdiyim uğurlu nəticələr sayəsində 2025-ci ilin sentyabr ayında senior auditor vəzifəsinə yüksəldim.

Hazırda fəaliyyət göstərdiyim sahədə təcrübəmi daha da dərinləşdirərək ardıcıl şəkildə irəliləmək və menecer vəzifəsinədək yüksəlmək əsas hədəflərimdəndir. Bununla yanaşı, özümü müxtəlif istiqamətlərdə sınamaq, fərqli sənaye sahələrində də təcrübə qazanmaq niyyətindəyəm. Gələcəkdə isə Azərbaycana qayıdaraq ailəmlə birlikdə yaşamaq, əldə etdiyim beynəlxalq təcrübə və bilikləri ölkəmin inkişafı naminə tətbiq etmək istəyirəm. İqtisadi inkişafa real töhfə vermək, qazandığım bilik və bacarıqları vətənimdə dəyərə çevirmək əsas məqsədlərimdəndir. Öz ölkəmə faydalı olmaq və Azərbaycan adını hər zaman layiqincə təmsil etmək mənim üçün həm həyat prinsipi, həm də mənəvi məsuliyyətdir.

Azərbaycanı layiqincə təmsil etmək, xalqımızın tarixini, mədəniyyətini və haqq səsini qorumaq mənim üçün mənəvi borc olub. İmkan daxilində Vətənimizlə bağlı keçirilən bütün tədbirlərdə fəal iştirak edir, ölkəmizin tanıdılmasına öz töhfəmi verməyə çalışıram. Xarici həmkarlarım və dostlarımla ünsiyyətdə Azərbaycanın zəngin mədəni irsi, tarixi və müasir inkişafı barədə məlumat verir, onları tez-tez ölkəmizi yaxından tanımaq üçün Azərbaycana dəvət edirəm. Ölkəmizin adını uca tutmaq və onu beynəlxalq müstəvidə layiqincə təmsil etmək mənim üçün həm qürur, həm də məsuliyyətdir.

**İlkin SƏMƏDOV,**
**Fransa, "BPCE Group" şirkətinin əməkdaşı:**



– Vətəni təmsil etmək yalnız rəsmi platformalarda deyil, gündəlik həyatdakı davranışda, peşəkar münasibətlərdə və əldə olunan uğurlarda özünü göstərir. Bu məsuliyyət hissi məni erkən yaşlardan etibarən daha çox öyrənməyə, beynəlxalq mühitdə formalaşmağa və Azərbaycanı layiqincə tanıtmağa sövq edib. Təhsil yolum da məhz bu düşüncənin məntiqi davamı kimi formalaşıb. Orta təhsilimi Bakıda Türkiyə Diyanət Vəqfi Bakı Türk liseyində almışam.

Ali təhsilimin ilk mərhələsini isə Azərbaycan Memarlıq və İnşaat Universitetində "Tikinti iqtisadiyyatı və idarə olunması" ixtisası üzrə bakalavr dərəcəsi ilə başa vurmuşam. Daha sonra Lüksemburqda fəaliyyət göstərən EMC Luxembourg Business School-da "Maliyyə və idarəetmə nəzarəti" ixtisası üzrə ikinci bakalavr dərəcəsinə yiyələnmişəm. Akademik inkişafımı burada davam etdirərək "Maliyyə strategiyası və idarəetmə" ixtisası üzrə magistr təhsilimi uğurla tamamlamışam.

Hazırda Lüksemburqda Fransanın ikinci ən böyük bank və sığorta qruplarından biri hesab olunan "BPCE Group"un sığorta sektoruna daxil olan, əmanətlərin idarə olunması üzrə ixtisaslaşmış şirkətində texniki mühasibatlıq sahəsində fəaliyyət göstərirəm. Bu mötəbər maliyyə qurumunun tarixində ilk azərbaycanlı əməkdaş kimi yer almaq mənim üçün qürur mənbəyi və eyni zamanda böyük məsuliyyətdir. Bu etimadı doğrultmaq, peşəkar fəaliyyətimlə həm çalışdığım quruma, həm də ölkəmin adının layiqincə təmsil olunmasına töhfə vermək əsas məqsədlərimdəndir.

Yaşadığım ölkədə Vətənimi əldə etdiyim uğurlarla təmsil etməyə çalışıram. Xaricdə yaşayan azərbaycanlı olaraq bəzən elə olur ki, həmin cəmiyyətdə yeganə azərbaycanlı mən oluram. Belə hallarda insanların ölkəmə münasibətinin müsbət yöndə formalaşmasının mənim üzərimə düşən bir məsuliyyət olduğunu anlayır və bunu layiqincə yerinə yetirməyə çalışıram. Bir çox insanı ölkəmizə səfər etməyə, mədəniyyətimizi və tariximizi yaxından tanımağa təşviq etmişəm.

Dünya azərbaycanlılarının həmrəyliyi mədəni və tarixi bağlarımızı gücləndirir, həm də ölkəmizin nüfuzunu, səsini bütün dünyaya çatdırır. Birlik və qarşılıqlı dəstək, sınanmış təcrübələr göstərir ki, millətimizin gücü paylaşdığımız dəyərlərdə və xalqın gələcəyə inamındadır. Həmrəylik hər çətinliyi geridə qoyur, qazanılan uğurlar qürur mənbəyinə çevrilir...

Ürəyi Azərbaycanla döyünən müsahiblərimiz ölkəmizdən kənardakı fəaliyyətlərindən söz açmaqla yanaşı, xalqımızı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etdilər. Müasir müstəqil Azərbaycanı dünyanın hər bir ölkəsində təmsil etdiklərindən qürur duyduqlarını bildirdilər.

*Hazırladılar:*
*Mehparə ƏLİYEVA,*
*Fidan ƏLİYEVA,*
*Ləman TƏHMƏZ*
*XQ*

“Gəncə Körpü Tikinti-2” ASC – 50

# Yollara meydan açan qapıdır körpü

**Azərbaycanın müstəqillik dövrü inşaat və infrastruktur baxımından misilsiz dəyişikliklərlə yadda qalıb. Amma bu dəyişikliklərin təməli 1970-ci illərdə, sovet dönəmində atılmışdı. Elə həmin illərdə, 1975-ci ildə Azərbaycanda körpü inşaatı üzrə ixtisaslaşmış bir təşkilat – sonradan “Gəncə Körpü Tikinti-2” ASC adını alacaq müəssisə yaradıldı.**

Həmin dövrdə Azərbaycanın yol və körpü infrastrukturu bərbad vəziyyətdə idi. Bölgələrə gediş-gəliş çətin, yükdaşıma imkanları məhdud idi. Elə bu səbəbdən körpü tikintisi həm strateji, həm də sosial-mədəni önəm daşıyırdı. Hətta sovet dönəmində belə bu idarə öz intizamı, keyfiyyətə bağlılığı və “büdrəməyən kollektivi” ilə seçilirdi.





## 1975-ci ildən gələn yol

Yuxarıda qeyd etdiyimiz kimi, 1975-ci ildə sadə bir körpü tikinti idarəsi kimi fəaliyyətə başlayan bu kollektiv bu gün ölkənin mühüm strateji tikinti layihələrinin aparıcı icraçılarından biridir. 2001-ci ildən səhmdar cəmiyyətə çevrilən müəssisə özünü sübut edib, yalnız işləri ilə tanınan bir marka olub.

İllər boyu başqaları tender axtaranda onları axtarıb tapıblar. Bu, reklamla yox, işin keyfiyyəti ilə qazanılmış etibarın nəticəsidir.

Təşkilatın əsas missiyası o zamanlar Azərbaycanın müxtəlif bölgələrində avtomobil yolları və körpülərin tikintisini təmin etmək idi. Ölkədə tikinti imkanları, texniki resurslar və ixtisaslı kadr çatışmazlığı fonunda bu idarənin yaranması, bir daha təkrar edirik, strateji zərurət idi. Əslində, bu idarənin öhdəsinə düşən yük bəlkə də çoxları üçün çəkilməz görünə bilərdi. Amma dayanmaq yox, irəli getmək prinsipini rəhbər tutan kollektiv qısa müddətdə etibar qazandı, fəaliyyət dairəsini genişləndirdi və özəl sektorun daha çevik və müasir yanaşmalarını dövlət sifarişi ilə birləşdirərək müstəqil bazara daxil ola bildi.





## Texnika tikintinin vuran qoludur

Ənənəvi inşaat təfəkkürü bu günə qədər “çalxala, tök” prinsipi ilə yol getsə də, “Gəncə Körpü Tikinti-2” çoxdan bu düşüncəni arxada qoyub. Şirkətin texnika parkında 160-dan artıq müasir texnika, maşın və istehsalat sahələri var. Bu texnika təkcə sayla yox, səmərəlilik göstəricisi ilə də önə çıxır.







Çünki bugünkü inşaat sektoru yalnız fiziki zəhmətə yox, həm də texnoloji üstünlüklərə əsaslanır. “Gəncə Körpü Tikinti-2” bu sahədə hər zaman qabaqcıllardan olub. Onlar üçün keyfiyyət dəbdə olan anlayış yox, iş prinsipi olub.

Bunlardan əlavə, şirkətin texnika parkında Mercedes-Benz, Ford, Caterpillar, Komatsu, Liebherr, Casagrande, Maurer kimi dünya brendlərinin məhsulları var. Yəni həm ağır texnika, həm də dəqiq texnologiyalar baxımından “Gəncə Körpü Tikinti-2” bu gün Azərbaycanda ən tam təminatlı şirkətlərdən biridir.

Göygöl rayonunun Quşqara kəndində yerləşən zavod isə onların öz “sütun istehsal xətti”dir. Burada müxtəlif texniki göstəricilərə malik həm sabit, həm də mobil beton və asfalt istehsalı zavodları, qum-qırmadaş istehsalı qurğuları mövcuddur. Əlavə olaraq, körpü tirləri də daxil olmaqla dəmir-beton konstruksiyaları istehsalı zavodunun məhsulları sayəsində şirkət öz işini heç kimdən asılı olmadan, tam müstəqil şəkildə həyata keçirə bilir.

“Gəncə Körpü Tikinti-2” heç vaxt keçmişin köhnə alətləri ilə gələcəyə iddia etməyib. Onların texnika parkı ən müasir, beynəlxalq standartlara cavab verən texnologiyaların muzeyidir desək, səhv etmərik.

## Körpü gərək möhkəm olsun…

Şirkətin ən böyük nailiyyəti texnika və beton divarlar deyil, insanlardır. Ümumi işçi sayının mövsümi işlərlə əlaqədar 250–300 nəfər olduğu, orta aylıq əməkhaqqının 1100 manatı keçdiyi bu müəssisədə heç vaxt gecikən maaş anlayışı olmayıb. Əksinə, işçilərin sığortalanması, mütəmadi olaraq təlimlərə və sertifikatlaşdırmaya göndərilməsi, təhlükəsizlik qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılması müsbət təcrübə nümunəsi kimi göstərilə bilər.

Burada sadəcə işçi çalışmır, peşəkar formalaşır. Hər mühəndis öz layihəsini sanki sənət əsəri kimi görür, hər usta işinə ad qoyur. Bu, rəhbərlikdən gələn yanaşmanın məhsuludur. Aqibət Məmmədovun öz ifadəsi ilə desək:

“Biz o dövrün adamlarıyıq ki, betonun da, körpünün də, işçinin də qiymətini bilirik”.

Yeri gəlmişkən, bütün bu illər ərzində təşkilatın dirəklərindən biri, bəlkə də birincisi onun rəhbəri Aqibət Məmmədov olub. Bu ad, sadəcə, rəhbərliyi yox, bir məktəbi, bir ənənəni, bir sistemi təmsil edir.

İxtisasca yol-inşaat mühəndisi olan A.Məmmədov 24 yaşında bu sahəyə daxil olub. 1985-ci ildə artıq iş icraçısı, 1991-ci ildə isə 33 yaşında Gəncə şəhər 2 saylı Körpü Tikinti İdarəsinin rəisi təyin edilib. 41 illik fasiləsiz əmək fəaliyyəti ilə bu gün ölkədə nadir, bəlkə də yeganə belə sabit rəhbərlərdən biridir.

O, rəhbərlik etdiyi kollektivin uğurlarını heç vaxt şəxsi müstəviyə daşımayıb. Dəfələrlə nəhəng layihələrdən danışarkən sakitcə “biz də iştirak etmişik” deməklə kifayətlənib. Amma ölkənin su təhlükəsizliyində mühüm yer tutan “Oğuz–Qəbələ–Bakı” su kəmərinin inşasında bu kollektivin gecə-gündüz çalışdığını, sıldırım qayalıqlarda belə texnikanı işə saldığını tarix unutmur.

Aqibət Məmmədovun fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə bir neçə dəfə yüksək səviyyədə qiymətləndirilib: 2010-cu ildə “Tərəqqi” medalı, 2012-ci ildə “Əməkdar mühəndis” fəxri adı, 2018-ci ildə III dərəcəli “Əmək” ordeni, “Xudafərin” Ali Yol Mükafatı, “Müstəqil Azərbaycan naminə” fəxri diplomu…

Bu mükafatlar, əslində, bir şəxsin deyil, bir kollektivin, bir məktəbin, bir yol fəlsəfəsinin mükafatlarıdır.

## Azərbaycan xəritəsində önəmli izlər

Bu illər ərzində şirkətin adı Azərbaycanın istənilən bölgəsində eşidilib, işləri isə gözlə görünür: Yevlax rayonunda “Şorsu” kanalı üzərindəki körpü keçidi, Yenikənd–Blix avtomobil yolu, “Gəncə–Şəmkir avtomobil yolunun bərpası və yenidən qurulması” layihəsi üzrə 6 ədəd körpü keçidi, Bakı–Ələt avtomobil yolunun 22–69 kilometrlik hissəsində 7 ədəd körpü keçidi, Ziya Bünyadov və Atatürk prospektlərinin kəsişməsində yolötürücüsü, Sabunçu rayonu ərazisində dəmir yolu üzərindəki körpü, Suraxanı dairəsi yaxınlığında yol qovşağı, M.Hadi küçəsi ilə Babək prospektinin, eləcə də Mikayıl Əliyev küçəsi ilə Babək prospektinin kəsişməsində yol qovşaqları kompleksi, Kürdəmir–Ucar avtomobil yolu (KM 0+000 – KM 42+056) üzrə 3 ədəd körpü və 2 ədəd yeraltı piyada keçidi, Ələt–Masallı avtomobil yolunun (0–9 km) 1A hissəsi üzrə 2 ədəd yol qovşağı və 1 ədəd yeraltı piyada keçidi, “Yevlax–Gəncə avtomobil yolunun 4 zolaqlı səviyyədə genişləndirilməsi” layihəsi üzrə 8 ədəd körpü keçidi və 7 ədəd yol qovşağı, Gəncə dolama yolunun “Bərpası və yenidən qurulması” layihəsi üzrə 4 ədəd körpü, Bakı–Quba–Rusiya Federasiyası ödənişli avtomobil yolu layihəsi üzrə 15 ədəd körpü keçidi, ümumi uzunluğu 40 kilometr olan Gədəbəy rayonunun Kiçik Qaramurad–Cəfərli–Əyrivəng–Alnabat–Kərimli–İnəkboğan–Göyəmli–Şınıx–Göyəlli–Çobankənd–Şahdağ–Çiçəkli avtomobil yolu, Tovuz dolama yolu, Gəncə şəhərində “İmamzadə” kompleksinin yenidən qurulması, uzunluğu 50 kilometrdən çox olan Gədəbəy–Novosaratovka–Qaravəlilər avtomobil yolunun əsaslı təmiri, Ucar–Kürdəmir avtomagistralı üzərində körpülər, piyada keçidləri və suötürücü boruların tikintisi.

Bu sadalananlar yalnız tikinti layihələri deyil – yaşam tərzi, sosial rifah və milli birliyin təminatıdır.

## Strateji obyektlər

“Gəncə Körpü Tikinti-2” ASC dövlət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilib. Xüsusilə 2006–2007-ci illərdə qəbul edilmiş “Bakı Nəqliyyat Sisteminin Təkmilləşdirilməsi Proqramı” çərçivəsində şirkət strateji layihələrdə birinci sırada yer alıb. Bunu Prezident sərəncamlarının icraçı təşkilatları arasında adının dəfələrlə çəkilməsi sübut edir.

“Gəncə Körpü Tikinti-2” ASC tərəfindən Gəncə şəhəri, Əli Məmmədov küçəsində Ekoloji Park Kompleksi və onun ətrafında 14 hektar ərazidə abadlıq işləri görülüb. Ölkə Prezidentinin Gəncə şəhərinə səfərləri zamanı bir neçə dəfə həmin kompleksdə aparılan işlərlə tanışlığı, eləcə də unikallığı ilə seçilən oranjeriya binasının və istixana kompleksinin tikintisi görülən işlərə nümunədir.

Cəmiyyət Gəncə şəhərinin 2025-ci ildə keçiriləcək III MDB Oyunları ilə əlaqədar olaraq şəhərdə aparılan infrastruktur işlərində yaxından iştirak edib. Belə ki, Gəncə şəhər stadionunun daxilində və ətrafında yerləşən küçə və meydanlarda bir çox təmir-bərpa işləri aparılıb.

Eyni zamanda, iqlimə davamlı infrastruktur yanaşması – dağlıq ərazilərdə tikilən körpülərin davamlılıq testlərindən keçirilməsi, təzyiqli su kəmərlərinin inşası, torpaq sürüşməsi risklərinə qarşı görülən tədbirlər – bu kollektivin təkcə inşaat yox, risk idarəetməsi sahəsində də peşəkar olduğunu göstərir.

## Sabaha aparan yollar

Şirkətin gələcəyə baxışı bir cümlədə ifadə oluna bilər: “Keyfiyyətsiz obyekt bizlik deyil”. Bu sadə prinsip uzunmüddətli fəaliyyətin əsasını təşkil edir. Hazırda yeni nəsil mütəxəssislərin hazırlanması, beynəlxalq akkreditasiyalı laboratoriyaların yaradılması, rəqəmsal texnologiyaların tətbiqi istiqamətində işlər aparılır.

Bununla yanaşı, “Gəncə Körpü Tikinti-2” 2026 və sonrakı illərdə regionda ağır inşaat və hidrotexniki layihələrə daha geniş şəkildə daxil olmağı planlaşdırır. Şirkət artıq Cənubi Qafqazda subpodratçı yox, baş podratçı statusuna iddialıdır.

## Körpü sədləri aşır...

Onlar nəsilləri birləşdirir, mədəniyyətləri qovuşdurur, gələcəyə yol açır. “Gəncə Körpü Tikinti-2” 50 ildə təkcə yollar çəkməyib, körpülər salmayıb. O, həm də özünə inam, dövlətə sədaqət, xalqa xidmət təcrübəsi qazanıb.

Və bu gün bu kollektivə baxanda bir şey aydın olur: “Körpü salmaq, sadəcə, iş deyil, bu, missiyadır”.

“Gəncə Körpü Tikinti-2” isə bu missiyanı 50 ildir ki, şərəflə yerinə yetirir.

Daha böyük uğurlar, bu yarım əsrdə müdrikləşmiş, özünün istehsal etdiyi və işlətdiyi beton kimi bərkimiş “Gəncə Körpü Tikinti-2”! Dayaqların daim möhkəm olsun!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***





# “Qərbi Azəri”nin 20 yaşı oldu

## *Xəzərdə bu nadir platformadan 1 milyard bareldən çox neft hasil edilib*



**Azərbaycanın yeni neft strategiyasının əsasını qoymuş “Əsrin müqaviləsi” “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun geniş bir ərazini əhatə etməsi, eləcə də buradakı zənginlik səbəbindən bir neçə mərhələyə bölünüb. Bu qərar Azərbaycan hökuməti ilə beynəlxalq konsorsiumun iştirakçıları arasında əldə olunmuş razılaşmaya əsasən verilib.**

Belə bir qərarın qəbul edilməsinin digər mühüm səbəbi isə “Əsrin müqaviləsi” çərçivəsində nəzərdə tutulmuş böyük neft hasilatına başlananadək zəruri ixrac sisteminin yaradılması ilə bağlı olub. Beləliklə, 2001-ci il avqustun 30-da “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun tammiqyaslı işlənmə layihəsinin birinci mərhələsi (“Faza-1”) ilə bağlı qərar qəbul edildikdən sonra “Əsrin müqaviləsi”nin reallaşdırılmasında mühüm dövr başlanıb. 2005-ci ilin fevralında “Mərkəzi Azəri” platformasının istismara verilməsi ilə ölkəmizdə böyük neft hasilatının əsası qoyulub.

“Azəri” yatağının qərb və şərq hissələrinin işlənməyə cəlb edilməsi isə “Əsrin müqaviləsi”nin tammiqyaslı işlənmə layihəsinin ikinci mərhələsi (“Faza-2”) çərçivəsində həyata keçirilib. Bu məqsədlə 2002-ci il sentyabrın 18-də “Faza-2” layihəsi üzrə tikinti-quraşdırma işlərinə başlamağa dair qərar qəbul olunub. Layihə çərçivəsində nəzərdə tutulmuş tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün 2002-ci il oktyabrın 8-də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə podratçı təşkilatlar arasında 8 əsas müqavilə imzalanıb. 5,2 milyard dollar dəyərində qiymətləndirilən “Faza-2” layihəsi “Əsrin müqaviləsi”nin icrası çərçivəsində “İlkin neft layihəsi”ndən sonra AÇG yataqlarının tammiqyaslı işlənilməsinin növbəti mühüm mərhələsidir. Bu mərhələ “Azəri” yatağının qərb və şərq hissələrini əhatə edir.

Xatırladaq ki, “Faza-2” layihəsi çərçivəsində “Qərbi Azəri” platformasından ilk hasilat 2005-ci il dekabrın 30-da əldə olunub. Bununla da “Azəri” yatağının istismara daxil edilməsi tamamlanıb. İlk neft əvvəlcədən qazılmış 3 öncə qazma quyusunun birincisindən hasil olunaraq sualtı boru kəməri vasitəsilə 2006-cı il yanvarın 4-də Səngəçal terminalına çatdırılıb. Yeri gəlmişkən, BP şirkətinin bununla bağlı yaydığı açıqlamada “Qərbi Azəri” platformasının 20 ilinin tamam olmasını nəhəng AÇG yatağının işlənməsində əlamətdar hadisə kimi dəyərləndirilib.

AÇG-nin hasilat salnaməsində mühüm yer tutan “Qərbi Azəri” platformasından indiyədək 1 milyard bareldən (142 milyon ton) çox neft hasil edilib. Bu isə AÇG platformaları arasında “Mərkəzi Azəri”dən sonra ikinci yüksək hasilat göstəricisidir. Ümumilikdə isə, “Qərbi Azəri” 1997-ci ilin noyabrında hasilata başlamış AÇG yatağından 4,5 milyard barel ümumi neft hasilatına əhəmiyyətli töhfə verib.

Xatırladaq ki, “Qərbi Azəri” obyektlərinə 48 quyu gövdəsi olan bir hasilat, qazma və yaşayış platforması və qurudakı Səngəçal terminalına birləşdirilmiş 30 düymlük sualtı boru kəməri daxildir. Hazırda bu nəhəng dəniz platformasında, təxminən, 170 nəfər çalışır. Onların isə əksəriyyəti, o cümlədən platformanın hər iki meneceri yerli mütəxəssislərdir.

İndiyədək platformadan ümumilikdə 40 quyu və çox sayda yan lülə qazılıb. Hazırda istismarda olan 32 quyudan 24-ü hasilat quyusu, 8-i isə suvurma quyusudur.

Hazırda “Qərbi Azəri” öz fəaliyyətini təhlükəsiz və etibarlı şəkildə davam etdirir. 2025-ci ilin üçüncü rübünün sonuna platformadan gündəlik orta hasilat 76 min barel təşkil edib.

“Qərbi Azəri” platformasının meneceri Emin İbrahimov deyib: “Qərbi Azəri” ailəsi olaraq, AÇG-nin ən yüksək göstəricilərə malik qurğularından birini idarə etməkdən qürur duyuruq. 2005-ci ildə işə salınmış ilk quyularımızdan olan C-06 ilk dövrlərdə gündəlik 35 min barel neft verib. Bununla da həmin quyu dünyanın ən məhsuldar quyularının sırasına daxil edilib. C-06 quyusundan indiyədək, ümumilikdə, 80 milyon barel neft əldə olunub. Bu da istənilən neft quyusu üçün müstəsna bir nailiyyətdir. Tarixi ildönümü münasibətilə bütün “Qərbi Azəri” komandasını ürəkdən təbrik edirəm və bir daha vurğulamaq istəyirəm ki, “Qərbi Azəri” dünya səviyyəli platforma olaraq hələ gələcək onilliklər ərzində də AÇG-nin uğur hekayəsinə, eləcə də Azərbaycanın neft sənayesinə mühüm töhfələr verməkdə davam edəcək”.

Ümumilikdə, “Faza-2” layihəsinə 48 quyunun qazılması üçün nəzərdə tutulmuş 2 hasilat, qazma və yaşayış platforması, “Mərkəzi Azəri”yədək 22 düymlük, həmçinin Səngəçal terminalına qədər 30 düymlük boru kəmərləri daxildir. “Faza-2” qurğuları “Azəri” yatağı üçün dənizdə və quruda inkişaf kompleksi yaratmaq məqsədilə “Faza-1” obyektləri ilə birləşdirilib. Xatırladaq ki, bu mərhələ üçün nəzərdə tutulmuş əsas tikinti-quraşdırma işlərinə dəniz obyektlərinin inşası, istismar quyularının qazılması, sualtı boru kəmərlərinin çəkilməsi və Səngəçal terminalındakı mövcud neft qəbuletmə obyektlərinin genişləndirilməsi daxil idi. Bundan əlavə, “Azəri” yatağının qərb və şərq hissələrinin istismara daxil edilməsi üçün nəzərdə tutulmuş tikinti-quraşdırma işləri ilə paralel olaraq burada əvvəlcədən planlaşdırılmış öncəqazma proqramı da uğurla reallaşdırılıb. Müqavilə müddətində isə “Faza-2” layihəsi çərçivəsində 210 milyon ton (1,6 milyard barel) neft hasilatı nəzərdə tutulur.

Platformada illik olaraq ən çox neft hasilatı 2010-cu ildə qeydə alınıb (gündəlik orta hasilat 248,2 min barel və ya illik 12,24 milyon ton). 2025-ci ilin 9 ayının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 52 min barel təşkil edib. Bütövlükdə isə “Azəri” yatağının qərb və şərq hissələrinin istismara daxil edilməsi “Əsrin müqaviləsi” çərçivəsində illik neft hasilatının səviyyəsini 40 milyon tonadək artırmağa imkan yaradıb.

Göründüyü kimi, “Əsrin müqaviləsi” çərçivəsində 1997-ci ildə “Çıraq” yatağından ilk neftin hasil olması ilə başlayan Azərbaycanın yeni neft erası sonralar “Azəri” yatağının mərkəzi, qərb və şərq hissələrinin istismara daxil edilməsi ilə sürətli inkişaf mərhələsinə qədəm qoyub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 11 ayda ölkə iqtisadiyyatına yatırım – 31,4 milyard manat

**Bu il dekabrın 1-nə Azərbaycan iqtisadiyyatına cəmi kredit qoyuluşunun (bank və qeyri-bank birlikdə) həcmi 31 milyard 451 milyon manat təşkil edib. Mərkəzi Bankın məlumatına əsasən, hesabat dövründə banklar və qeyri-banklar tərəfindən ölkə iqtisadiyyatına kredit qoyuluşunun həcmi bir ay əvvələ nisbətən 281,7 milyon manat və ya 0,9 faiz, 2024-cü ilin dekabrın 1-nə nisbətən isə 2,4 milyard manat və ya 8,2 faiz artıb.**

Cari ilin 11 ayında kredit qoyuluşunun 7 milyard 635 milyon manatı dövlət banklarının payına düşüb ki, bu da aylıq müqayisədə 73,7 milyon manat və ya 1 faiz, illik müqayisədə isə 563,2 milyon manat və ya 8 faiz artım deməkdir.

Yanvar-noyabr aylarında iqtisadiyyata kredit qoyuluşlarının 22 milyard 50 milyon manatı özəl bankların payına düşüb. Bu isə cari ilin noyabrın 1-nə olan göstərici ilə müqayisədə 207,9 milyon manat və ya 0,9 faiz, ötən il dekabrın 1-nə olan göstəriciyə nisbətən isə 1,7 milyard manat və ya 8,6 faiz çoxdur.

Bundan əlavə, cari il dekabrın 1-nə ölkə iqtisadiyyatına kredit qoyuluşlarının qeyri-bank kredit təşkilatlarına düşən payı 1 milyard 765 milyon manat olub ki, bu da aylıq müqayisədə eyni səviyyədə qalıb, ötən ilin eyni dövrü ilə müqayisədə isə 66,9 milyon manat və ya 3,9 faiz artıb.

Xatırladaq ki, hesabat dövründə dövlət bankları tərəfindən kredit qoyuluşu ümumi kredit qoyuluşunun 24,3 faizini, özəl banklar tərəfindən kredit qoyuluşu ümumi kredit qoyuluşunun 70,1 faizini, bank olmayan kredit təşkilatları tərəfindən qoyulan kredit qoyuluşu ümumi kredit qoyuluşunun 5,6 faizini təşkil edib.

***XQ***

bp

**bp, Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi-Dan Ulduzu-Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində Əşrəfi-Dan ulduzu-Aypara (ADUA) layihəsi üçün seysmik tədqiqat proqramına aid Ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı Podratçı Tərəflər adından hazırlanıb və dərc edilib.**

Sənəddə seysmik tədqiqat proqramı üzrə təklif edilmiş fəaliyyətlərin xülasəsi verilir, bu fəaliyyətlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri araşdırılır və tövsiyə edilən təsirazaltma və monitorinq tədbirləri təsvir edilir. ƏMTQ prosesi təklif edilmiş işlərin nəticəsində yaranan hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirlərin müəyyənləşdirilməsini, minimuma endirilməsini və mümkün olan hallarda, aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

ADUA layihəsi üzrə seysmik tədqiqat proqramına 2D yüksək dəqiqlikli (HR) seysmik tədqiqat daxildir. Qısa müddət üçün nəzərdə tutulmuş bu tədqiqatın 20 günədək davam edəcəyi planlaşdırılır. Tədqiqat ADUA sahəsinin şimal-qərb hissəsində kiçik bir ərazini əhatə edəcək. Proqramın 2026-cı ilin fevral və aprel ayları arasında suyun 20-40 metr dərinliyində aparılacağı planlaşdırılır. 2D HR seysmik tədqiqatda əsas məqsəd yerin təxminən 1 500 m dərinliyinədək qatları haqqında ətraflı məlumatlar əldə etməklə gələcək kəşfiyyat quyularının planlaşdırılmasına kömək etməkdir. Tədqiqat nəticəsində yeraltı qırılmalar, dayaz qatlara yığılmış qazlar və digər geoloji xüsusiyyətlər də daxil olmaqla, qazma əməliyyatları və quyu bütövlüyünə təsir göstərə biləcək yeraltı geoloji risklərin müəyyənləşdirilməsi nəzərdə tutulur.

Maraqlı tərəflərlə məsləhətləşmələrin aparılması ƏMTQ prosesinin mühüm hissəsidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi, əsas maraqlı tərəflərin ümumi fikirlərinin layihələndirmə işlərində və ƏMTQ sənədində əksini tapmasını təmin edir.

ƏMTQ sənədinin və qeyri-texniki xülasənin layihə variantları bütöv olaraq Azərbaycan və ingilis dillərində hazırlanıb və aşağıdakı keçid və ya QR kodu vasitəsilə bp-nin veb-səhifəsindən əldə edilə bilər:

| | |
|---|---|
| Azərbaycan dilində:<br><br>https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/Asrafi-Dan-ulduzu-Aypara.html | |
| İngilis dilində:<br><br>https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/Ashrafi-Dan-Ulduzu-Aypara.html | |

ADUA layihəsi üzrə seysmik tədqiqat proqramı üçün ƏMTQ sənədinin, həmçinin, qeyri-texniki xülasənin QR kodu və keçidi 26 dekabr 2025-ci il tarixindən həmin sənədləri ictimaiyyətin nəzərdən keçirməsi üçün aşağıdakı ünvanlarda yerləşdirilib:

- bp-nin Xəzər Mərkəzi Ofisinin qəbul şöbəsi, Neftçilər prospekti 153
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi 100a
- Bakı Ali Neft Məktəbinin Kitabxanası, Kampus, yeni Salyan şossesinin 3-cü kilometri.

ƏMTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:
- doldurulmuş rəy formaları ilə birlikdə elektron məktubla esiafeedback@bp.com ünvanına və ya
- doldurulmuş rəy formaları ilə birlikdə poçt ilə AZ1010, Neftçilər prospekti 153, Port Baku, bp Xəzər Mərkəzinə göndərə və yaxud
- doldurulmuş rəy formalarını yuxarıda sadalanan ictimai yerlərdən istənilən birinə təqdim edə bilərsiniz.

**ƏMTQ sənədinin açıqlanma müddəti 26 yanvar 2026-cı il tarixinədəkdir.**

ƏMTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.

# KOBİA kiçik və orta sahibkarlığın himayədarıdır

## *8 ildə bu qurumun 129 layihəsinə 2,2 milyon manat qrant ayrılıb*



**İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) yaranmasından 8 il ötür. Özəl sektora dəstək və xidmətlərin göstərilməsi üzrə ixtisaslaşmış qurum tərəfindən ötən müddət ərzində ölkədə kiçik və orta biznes subyektlərinin təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə 129 layihəsinə 2,2 milyon manat qrant ayrılıb. Bu və digər məlumatlar KOBİA-nın hesabatında yer alıb.**

Bildirilib ki, sahibkarların biznes sahəsində bilik və bacarıqlarının artırılmasına olan ehtiyacı nəzərə alınaraq bu istiqamət KOBİA-nın fəaliyyətində prioritet olub. Agentliyin KOB inkişaf mərkəzlərində indiyədək sahibkarlara ödənişsiz olaraq 10 minə qədər məsləhət xidməti göstərilib, 64 min 800 sahibkara 5 min 200 təlim keçirilib. Ənənəvi təlim mexanizmləri innovativ və rəqəmsal həllərlə tamamlanaraq sahibkarlara daha çevik və rahat imkanlar yaradılıb.

Azərbaycan Texniki Universitetində yaradılmış KOB Model Müəssisə praktik təlimləri ilə sahibkarlara səmərəli və qənaətli idarəetmə üsullarını öyrətməklə biznesin bilik və bacarıqlarını təkmilləşdirib. 180 təlim videosu, təlim materialları və özünüqiymətləndirmə testlərinin olduğu video təlim platformasından ötən müddətdə 2 min 200-dən artıq sahibkar faydalanıb.

Hazırda agentlik ölkənin 47 şəhər və rayonunda, o cümlədən işğaldan azad edilmiş Laçın, Zəngilan, Kəlbəcər və Füzulidə sahibkarlara yerində xidmət edən 48 KOB dostu fəaliyyət göstərir. Bu şəbəkə sahibkarların dövlət və özəl qurumlarla səmərəli əlaqələndirilməsinə, qarşılaşdıqları çətinliklərin operativ həllinə töhfə verərək zamanla onların ən etibarlı tərəfdaşına çevrilib.

KOB subyektlərinin ehtiyaclarının və çətinliklərinin öyrənilməsi və aidiyyəti üzrə çatdırılması üçün KOBİA tərəfindən bir sıra effektiv kommunikasiya kanalları yaradılıb. Ötən müddətdə 22 min 500-dən çox sahibkarın iştirakı ilə Bakı və regionlarda 700-dək sahəvi görüş keçirilib. KOBİA yanında İctimai Şura çərçivəsində 50-yə yaxın ictimai müzakirə təşkil edilib.

Bu görüşlərdə sahibkarların çətinlikləri öyrənilib, dövlət qurumları ilə birgə müzakirə edilib və həllinə dəstək göstərilib, onlar maarifləndirilib. 20 minədək sahibkarın iştirakı ilə sorğular keçirilib. Uğurlu fəaliyyətinə görə, KOBİA “Keyfiyyətin idarə edilməsi, Müştəri məmnuniyyəti, Təşkilatlarda şikayətlərə baxılması üzrə təlimatlar” üzrə beynəlxalq ISO sertifikatı əldə edib.

Ötən müddətdə KOB sektorunun rəqəmsallaşması sahəsində də mühüm addımlar atılıb. Biznesin inkişafının bütün mərhələlərində sahibkarlara geniş çeşidli elektron xidmətlər təmin edən e-KOB evi portalı beta versiyada istifadəyə verilib. Yeni ildən portal tam fəaliyyət göstərəcək.

Agentlik tərəfdaş qurumlar və özəl sektorla birgə ötən 8 ildə KOB-lar üçün bir sıra sosial layihə və proqramlar həyata keçirib. Sahibkarların uğurlarının cəmiyyətə daha geniş tanıdılması, biznes düşüncə tərzinin təşviqi və dövlət-özəl sektor arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi məqsədilə 2022-ci ildən etibarən biznes subyektlərinə KOBİA-nın təsis etdiyi “Dayaq” mükafatı təqdim edilir.

KOB-lara dəstək, yerli və xarici sahibkarlar arasında əlaqələrin genişləndirilməsi, birgə layihələrin icrası, təcrübə mübadiləsi və s. kimi istiqamətləri əhatə edən 34 ölkənin müvafiq qurumları və 27 yerli və beynəlxalq təşkilatlar ilə 122 Anlaşma Memorandumu və sənədlər imzalanıb. Qətər, Səudiyyə Ərəbistanı, Ukrayna, İraq, Vyetnam, Birləşmiş Ərəb Əmirlikləri ilə 6 birgə biznes şurası yaradılıb. KOBİA-nın təşkilatçılığı və iştirakı ilə indiyədək 15-dən artıq beynəlxalq tədbir keçirilib. COP29 çərçivəsində KOBİA-nın irəli sürdüyü "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Bəyannaməsi"nə artıq 30-a yaxın yerli və beynəlxalq tərəfdaş qoşulub.

Bu ardıcıl və sistemli fəaliyyət nəticəsində 2018-2024-cü illərdə KOB-ların sayı 74 faizə yaxın artaraq 424 mini ötüb. Hazırda ölkə üzrə qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin 99,7 faizini KOB subyektləri təşkil edir. 2018-2024-cü illərdə KOB-ların yaratdığı əlavə dəyərin həcmi 2 dəfədən çox artaraq 9,8 milyard manatdan 21,1 milyard manata çatıb. KOB-ların əlavə dəyərdə payı 13,4 faizdən 18,5 faizə yüksəlib. KOB subyektləri üzrə işçilərin sayı 47,6 faiz artaraq 417 min 800 nəfəri keçib. 2019-2024-cü illərdə KOB-ların dövriyyəsi 54,5 faiz artaraq 48 milyard manat olub ki, bu da ölkə üzrə qeyri-neft dövriyyəsinin 37,4 faizini təşkil edir.

Xatırladaq ki, ölkə Prezidentinin 28 dekabr 2017-ci il tarixli fərmanı ilə yaradılmış KOBİA ardıcıl və sistemli dövlət dəstəyinin mühüm göstəricilərindən olmaqla ölkədə sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafında institusional dayağa çevrilib.

***XQ***

# TAP Azərbaycanı Avropanın mötəbər enerji tərəfdaşına çevirib



**Regionda siyasi sabitlik və əməkdaşlıq meydanına çevrilmiş Azərbaycan Respublikası Avropa İttifaqının mötəbər enerji tərəfdaşı kimi öz mövqeyini getdikcə gücləndirir. Bu əməkdaşlığın təməli isə 12 il əvvəl Trans-Adriatik Qaz Boru Kəməri (TAP) layihəsinin həyata vəsiqə alması ilə qoyulub. Xəzər regionu ilə Avropa qitəsi arasında vacib enerji körpüsü rolunu oynayan Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP kəməri ötən müddətdə “köhnə qitə”nin enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verib. Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham ŞABAN dedi:**



– Artıq 5 ildir ki, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, həm də ölkəmizin iqtisadi həyatında mühüm yer tutan bir hadisənin ildönümü kimi qeyd edirik. Məhz təqvimin bu günündə Azərbaycan öz hüdudlarından kənarda yerləşən ölkələrlə yeni tərəfdaşlıq formatı yaratmaq imkanı əldə edib. 2020-ci ilin son günündə ölkəmizin ən böyük qaz-kondensat yatağı sayılan “Şahdəniz”dən hasil edilən “mavi yanacaq” Avropa İttifaqı bazarlarına axmağa başlayıb. Bununla da gələcək əlaqələrin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın yeni mərhələyə qədəm qoyması və uzunmüddətli tərəfdaşlıq platformasının formalaşdırılması istiqamətində mühüm addım atılıb...

**– İlham müəllim, Avropa bazarlarına çıxış Azərbaycana nə qazandırdı?**

– Avropa bazarlarına çıxış, ilk növbədə, Azərbaycanın qaz hasilatının sürətlə inkişaf etməsinə imkan yaratdı. Rəsmi statistik göstəricilər bu artımı açıq şəkildə nümayiş etdirir: 2017-ci ildə (“Şahdəniz-2” layihəsinin istismara verilməsindən əvvəl) 28,6 milyard kubmetr olan qaz hasilatı 2021-ci ildə 43,9 milyard kubmetrə, 2024-cü ildə isə 50,4 milyard kubmetrə yüksəldi. Analoji dövrdə qaz ixrac həcmləri də artaraq 8,5 milyard kubmetrdən 25,3 milyard kubmetrə çatdı.

Yəni Azərbaycan qazının böyük bazarlara uzunmüddətli çıxışına nail olunmasaydı, ölkəmizin Xəzərdəki böyük qaz həcmləri bəlkə indiyə qədər ehtiyat kimi qalmaqda davam edərdi. Həm də məsələ təkcə maddi kapitalla məhdudlaşmayacaqdı. Çünki məhz Azərbaycanın böyük qazının Avropa bazarlarına çıxarılması ilə ölkəmizin siyasi, iqtisadi və həmçinin mədəni əlaqələri də genişlənmək yoluna çıxdı. Bu isə ölkəmizin qarşısında yeni imkanlar açdı.

2013-cü ilin sentyabr ayında imzalanmış 25 illik uzunmüddətli qaz satış müqavilələri “Şahdəniz-2” layihəsinin kommersiya baxımından səmərəli olmasında önəmli rol oynayıb. Bu çərçivədə “Şahdəniz-2” üzrə ixrac olunan qazın 62,5 faizi və ya 10 milyard kubmetri məhz Avropa bazarları üçün nəzərdə tutulub. Avropa bazarının yüksək likvidliyi və əlverişli qiymət mühiti “Şahdəniz-2” kimi böyük sərmayə tələb edən layihənin iqtisadi səmərəsini artırmış və Xəzərin dərinsulu hissələrində yerləşən enerji ehtiyatlarının işlənməsinə əlverişli imkanı yaratmışdır.

Bu uğur dövlət başçısının məqsədyönlü və uzaqgörən siyasətinin, eyni zamanda, layihə iştirakçılarının birgə səylərinin nəticəsidir. Bu, həmçinin “Şahdəniz” kimi geoloji cəhətdən mürəkkəb dəniz yatağından hasil edilən qazın həm regionda enerji sabitliyinin təmin olunmasına, həm də beynəlxalq əməkdaşlığın inkişafına mühüm töhfə verdiyini göstərir. Beləliklə, Azərbaycan qabaqcıl beynəlxalq təcrübəni artan daxili imkanları ilə birləşdirərək təbii qaz dəyər zəncirinin mühüm həlqələrindən biri olan marketinq və kommersiya əməliyyatları sahəsində lider mövqeyini daha da möhkəmləndirdi.

**– Xəzər dənizini Avropa bazarı ilə bağlayan dəmir əlaqəyə ehtiyac var idimi?**

– Qapalı hövzə olan və açıq dənizlərə birbaşa çıxışı olmayan Xəzər hövzəsində hasil edilən təbii qazın dünyanın ən cəlbedici bazarlarından birinə çatdırılması hədsiz dərəcədə mürəkkəb məsələ olub və bəzən fantastik layihələr silsiləsində yer alıb. Nəyə görə? Çünki “Şahdəniz” yatağı kəşf edilməzdən əvvəl hələ 1997-ci ildə türkmən qazının Avropaya nəql edilməsi üçün Trans–Xəzər qaz kəməri layihəsi gündəmə gəlib. Bundan 5 il sonra isə daha genişmiqyaslı “Nabucco” layihəsi meydana çıxıb. Amma onların heç biri həyata vəsiqə qazanmayıb. Çünki qaz satan və alan ölkələr siyasi iradə nümayiş etdirə bilmədilər, hökumətlər layihəyə cəlb edilən ölkələrin maraqlarının qarşılıqlı qorunması yönümündə addım atmağa meyilli olmadılar və bütün ağırlığı şirkətlərin çiyinlərinə yüklədilər.

Buna görə də rəsmi Bakının Avropa qaz bazarına çıxışı sonda təkcə XXI əsrin genişmiqyaslı enerji infrastruktur layihəsi olmaqla yanaşı, həmçinin böyük əksəriyyətin heyrətlə qarşıladığı, Xəzəri Avropa ilə birləşdirən Cənub Qaz Dəhlizi kimi nəhəng bir layihənin reallaşdırılması ilə nəticələndi. Çünki Azərbaycan dövləti təbii qazı, sadəcə, bir əmtəə kimi deyil, uzunmüddətli regional və beynəlxalq əməkdaşlığın, həmçinin zamanında ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsində strateji vasitə kimi qiymətləndirməyi bacardı.

Bu baxımdan hesab edirəm ki, son 5 ildə Prezident İlham Əliyevin zamanında atdığı addımlar, müdrik rəhbərliyi ilə Azərbaycanın regionda və qlobal bazarda etibarlı enerji təchizatçısı kimi mövqeyi möhkəmləndirilib, layihə iştirakçıları və tranzit ölkələrlə nümunəvi əməkdaşlıq modeli qurulub, eyni zamanda, Avropa alıcıları ilə yüksək inam və etimad yaradılmasına nail olunub.

Ən önəmlisi isə Cənub Qaz Dəhlizi istehsalçıların, tranzit ölkələrin və alıcıların maraqlarının tənzimləndiyi, uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığa xidmət edən geniş platformaya çevrilib ki, bu da sonrakı onilliklllər boyu Azərbaycanın qlobal bazar iştirakçıları ilə əlaqələrinin davam etdirilməsinə imkan yaradıb.

Qlobal enerji bazarındakı dəyişikliklər, habelə uğurlu enerji diplomatiyası fonunda Azərbaycan ixrac coğrafiyasını sürətlə genişləndirməyə nail oldu. Türkiyə üzərindən tranzit əməliyyatlarına başlanılmasından sonra Şərqi Avropa və Balkan ölkələri, o cümlədən Rumıniya, Macarıstan, Slovakiya, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Ukrayna da Azərbaycan qazının alıcılarına çevrildi. Daha bir mühüm hadisə 2025-ci il avqustun 2-də Azərbaycanın Türkiyə üzərindən Suriyaya qaz ixracına başlaması və Yaxın Şərq bazarına daxil olması ilə baş verdi. Bununla da Azərbaycanın təbii qaz ixrac etdiyi ölkələrin sayı 14-ə çatdı.

**– Bəs “Şahdəniz” qazının satışını kim həyata keçirir?**

– Azərbaycanın qaz ixrac coğrafiyasının genişlənməsində əsas amillərdən biri səmərəli marketinqdir, yəni satışdır. Uğurlu kommersiya əməliyyatları yeni bazarlara açılmaqla yanaşı, mövcud tərəfdaşlıqların gücləndirilməsinə də möhkəm zəmin yaradır.

Bu əməliyyatlar “SOCAR Qaz Əməliyyat Şirkəti” tərəfindən idarə olunan “Azərbaycan Qaz Təchizatı Şirkəti” (AGSC) vasitəsilə həyata keçirilir. Qeyd edim ki, bu il SOCAR-ın AGSC şirkətinin operatorluğunu öz üzərinə götürməsinin 10 ili tamam olur. Ötən dövr göstərdi ki, SOCAR-ın AGSC-yə operatorluq etməsi Azərbaycanın milli şirkətinin dövlətin və beynəlxalq tərəfdaşların maraqları naminə olduqca mürəkkəb və strateji əhəmiyyətli tapşırıqları uğurla, sərfəli və yüksək səmərəliliklə yerinə yetirməsinin ilk nümunəsi oldu.

AGSC 2006-cı ilin dekabrında “Şahdəniz” yatağından ilk qaz hasilatı ilə eyni vaxtda satış fəaliyyətinə başlayıb. 2025-ci il dekabrın 1-dək ümumilikdə, təqribən, 260 milyard kubmetr “Şahdəniz” qazı satılıb ki, bunun da 51 milyard kubmetri Avropa bazarlarının, 140 milyard kubmetri isə Türkiyə və Gürcüstanın payına düşüb, yerdə qalan qaz həcmləri isə ölkəmizin daxili bazarlarının ehtiyacına yönəldilib.

2024-cü ilin nəticələrinə əsasən, “Şahdəniz” qazı bir sıra ölkələrdə daxili istehlakın əhəmiyyətli hissəsini təşkil edib: Gürcüstan – 49 faiz, Bolqarıstan – 35 faiz, Türkiyə – 18 faiz, Yunanıstan və İtaliya – müvafiq olaraq hər biri, təxminən, 17 faiz. Bu rəqəmlər AGSC-nin qaz bazarlarındakı güclü və etibarlı mövqeyini bariz şəkildə göstərir. Bununla da Azərbaycan yalnız etibarlı enerji təchizatçısı kimi deyil, həm də nəhəng regional layihələrin təşəbbüskarı və icraçısı kimi tanındı.

Yeri gəlmişkən, bu uğurlar təkcə enerji strategiyasının zəfərini deyil, həm də gələcəkdə daha böyük nailiyyətlərin başlanğıcını – Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin müasir dövrün çağırışlarına uyğun təkmilləşdirərək davam etdirdiyi strateji inkişaf konsepsiyasının uğurlu icrasını təsdiqləyir.

*Söhbəti yazdı:*
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Gələn ilin dövlət büdcəsi və davamlı inkişafın hədəfləri

**(əvvəli 1-ci səhifədə)**

2026-cı ilin dövlət büdcəsi gəlirlərinin 38 milyard 609 milyon manat səviyyəsində olacağı proqnozlaşdırılır. Bu göstərici 2025-ci il üçün təsdiq edilmiş büdcə proqnozu ilə müqayisədə təxminən 0,7 faiz artım deməkdir və dövlət maliyyəsinin nisbətən sabit dinamikada formalaşdığını göstərir. Büdcə gəlirlərinin strukturu isə hökumətin fiskal siyasətdə hansı mənbələrə daha çox söykəndiyini aydın şəkildə ortaya qoyur.

Gəlirlərin əsas hissəsi yerli vergi daxilolmaları hesabına təmin olunacaq. Dövlət Vergi Xidməti xətti ilə büdcəyə 16,91 milyard manat vəsait daxil olacaq ki, bu da ümumi gəlirlərin 43,8 faizini təşkil edir. Bu göstərici qeyri-neft sektorunun fiskal yükdə rolunun artmaqda davam etdiyini nümayiş etdirir.

Eyni zamanda, Dövlət Neft Fondundan büdcəyə transfertlər də mühüm yer tutur. 2026-cı ildə bu mənbədən 12,835 milyard manat vəsaitin yönəldilməsi nəzərdə tutulur ki, bu da büdcə gəlirlərinin 33,2 faizinə bərabərdir. Bu göstərici neft gəlirlərinin hələ də dövlət maliyyəsində əhəmiyyətli rol oynadığını göstərsə də, əvvəlki illərlə müqayisədə transferlərin payının tədricən azaldılması tendensiyası da müşahidə olunur. Gömrük rüsumları və yığımlar üzrə daxilolmaların həcmi 6,862 milyard manat proqnozlaşdırılır. Bu məbləğ büdcə gəlirlərinin 17,8 faizini təşkil edir və xarici ticarət dövriyyəsinin fiskal gəlirlərdəki payını əks etdirir.

Bununla yanaşı, büdcə təşkilatlarının ödənişli xidmətlərindən əldə olunan gəlirlər 1,021 milyard manat səviyyəsində gözlənilir. Bu mənbə ümumi gəlirlərin 2,6 faizini formalaşdırmaqla dövlət sektorunda xidmət əsaslı gəlirlərin də əhəmiyyətini ön plana çıxarır. Digər daxilolmalar isə 981 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da büdcə gəlirlərinin 2,6 faizinə bərabərdir.

2026-cı ildə dövlət büdcəsi xərclərinin 41 milyard 703,6 milyon manat olacağı nəzərdə tutulur ki, bu da 2025-ci ilin müvafiq proqnoz göstəricisindən təxminən 0,7 faiz yüksəkdir. Xərclərin gəlirləri üstələməsi nəticəsində 2026-cı il dövlət büdcəsində təxminən 3 milyard 94,6 milyon manat məbləğində kəsir (defisit) yaranacaq. Bu, əvvəlki ilin büdcə kəsiri ilə müqayisədə nominal ifadədə təxminən 1,4 faiz daha çoxdur.

2026-cı il dövlət büdcəsi hazırlanarkən xam neftin bir barelinin qiyməti 65 ABŞ dolları səviyyəsində götürülüb. Maliyyə Nazirliyinin məlumatına görə, bu, 2025-ci ilin büdcəsində nəzərdə tutulmuş neft qiymətindən 5 dollar aşağıdır. Neftin büdcədə baza qiymətinin 65 dollar olaraq müəyyən edilməsi hökumətin dünya bazarındakı mümkün dalğalanmalara qarşı ehtiyatlı mövqe tutduğunu göstərir.

Beləliklə, 2026-cı il dövlət büdcəsi əvvəlki illə müqayisədə bir qədər daha böyük həcmə malikdir və qeyri-neft gəlirlərinin payının artması, neft transfertlərinin isə azalması ilə seçilir. Büdcə xərclərində sosial və cari sahələrə ayrılan vəsaitlərin nisbi artımı, hökumətin vətəndaş rifahını və dayanıqlı inkişafı prioritet tutduğunu göstərir. Eyni zamanda, kəsirin məqbul səviyyədə saxlanılması və neftin qiymətinin konservativ proqnozlaşdırılması dövlət maliyyəsinin dayanıqlığını təmin etməyə yönəlib.

***Nurlan ABDALOV***
***XQ***




*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

Bu gün iqtisadi fəaliyyətin dəstəklənməsi üçün 7 milyard vəsaitin ayrılması hökumətin fiskal siyasətində, belə demək mümkündürsə, passiv xərc yanaşmasından aktiv iqtisadi stimullaşdırmaya keçidi nümayiş etdirir. Bu vəsait istiqaməti sırf cari istehlaka deyil, eyni zamanda, əsaslı kapital qoyuluşlarına, infrastrukturun inkişafına, istehsalın və real sektorun genişlənməsinə yönəldiləcəkdir.

İlk növbədə, bu, iqtisadi aktivliyin artırılmasına xidmət edəcək. Xüsusilə qeyri-neft sektorunda nəqliyyat bağlantılarının və logistika infrastrukturunun təkmilləşdirilməsi, sənaye parkları və aqroparkların fəaliyyətinin daha da genişləndirilməsi, eləcə də sosial-iqtisadi əhəmiyyət daşıyan enerji və kommunal şəbəkələrin inkişafı və regional inkişaf layihələrinin stimullaşdırılması bu xərc maddəsinin əsas istiqamətlərini təşkil edəcəkdir.

Digər mühüm məqam multiplikativ effektlə bağlıdır. Multiplikativ effekt dedikdə, büdcədən xərclənən hər 1 manat vəsaitin iqtisadiyyatda neçə manatlıq əlavə dəyər yaratması nəzərdə tutulur. Bu baxımdan, iqtisadiyyata yönəldilən hər 1 manatın 1 manat 30 qəpikdən 1 manat 60 qəpiyədək əlavə dəyər formalaşdırması gözlənilir. Bu isə bir tərəfdən özəl sektor üçün yeni investisiya imkanları yaradır, digər tərəfdən, məşğulluğun genişlənməsinə və vergi bazasının böyüməsinə səbəb olur.

Eyni zamanda, bu proses özəl sektor üçün müsbət siqnal xarakteri daşıyır. Dövlət bu həcmdə investisiya xərcləri həyata keçirdikdə faktiki olaraq, investisiya risklərinin müəyyən hissəsini öz üzərinə götürür. Nəticə etibarilə bu, özəl sektorun fəaliyyətinin daha da dinamikləşməsinə və genişlənməsinə şərait yaradır. Xüsusilə tikinti, logistika, emal sənayesi və xidmət sahələrində yeni imkanların formalaşması müşahidə olunur. Şübhəsiz ki, vəsaitlərin effektiv layihələrə yönəldilməsi fiskal dayanıqlılığın qorunmasına da xidmət edəcəkdir.

Vergi bazasının genişlənməsi büdcə gəlirlərinin artmasına zəmin yaradacaq, bu isə sosial xərclərin uzunmüddətli dayanıqlılığını təmin etməyə imkan verəcək. Digər tərəfdən, belə bir yanaşma perspektivdə neftdən asılılığın nisbi şəkildə azalmasına da töhfə verəcəkdir.

Nəticə etibarilə, 2026-cı il büdcəsində iqtisadi fəaliyyətə ayrılan 7 milyard vəsait təkcə xərclər maddəsi deyil. Bu, eyni zamanda, iqtisadi aktivliyin əsas hərəkətverici qüvvəsi, struktur islahatlarının maliyyə dayağı və uzunmüddətli inkişaf strategiyasının praktik icra mexanizmi kimi qiymətləndirilə bilər.




*Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

2026-cı ilin dövlət büdcəsi müstəqillik dövrünün ən böyük büdcəsi olacaq. Belə ki, 2026-cı ildə dövlət büdcəsindən 41 milyard manatdan artıq vəsaitin xərclənməsi nəzərdə tutulur. Bu isə eyni zamanda büdcə vəsaitlərinin prioritet istiqamətlər üzrə daha geniş həcmdə bölüşdürülməsinə imkan yaradacaq.

Növbəti ildə dövlət büdcəsindən sosial istiqamətlərə 17,1 milyard manat vəsaitin ayrılması planlaşdırılır. Bu məbləğ ümumi büdcə xərclərinin 41 faizini təşkil edir. Yəni 2026-cı ildə büdcədən xərclənən hər 100 manatın 41 manatı sosial sahələrə yönəldiləcək. Eyni zamanda, 2026-cı ildə iqtisadi fəaliyyətin dəstəklənməsi və işğaldan azad olunmuş ərazilərin bərpası da əsas prioritet istiqamətlər sırasında yer alır. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurun bərpa-quruculuq işlərinə 3,5 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur.

Bu isə o deməkdir ki, növbəti ilin xərcləri də nəzərə alındıqda, işğaldan azad olunmuş ərazilərin bərpasına ümumilikdə artıq 26 milyard manatdan çox vəsaitin ayrılması reallaşacaq. İqtisadi sahələrə ayrılan vəsaitin ümumi həcmi isə 7,6 milyard manat təşkil edir.

Bununla yanaşı, müdafiə və milli təhlükəsizliyin gücləndirilməsi istiqamətində ayrılan vəsaitin həcmində də artım müşahidə olunur. Müdafiə və təhlükəsizlik xərclərinin artırılması, təbii ki, yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsinə imkan verəcək.

Ümumilikdə, 2026-cı ilin dövlət büdcəsi növbəti ilin iqtisadi prioritetlərinə uyğun formalaşdırılmış, balanslaşdırılmış və məqsədyönlü bir sənəd kimi qiymətləndirilə bilər. Bu büdcə, eyni zamanda, 2026-cı ildə iqtisadiyyatda təxminən 3 faiz real artımın əldə olunmasına şərait yaradacaq.

*Tərəqqinin kardioqramı*

# Zəfərlər dövrünün iqtisadi yüksəlişi

## *Gözlənilən ÜDM 130 milyard manata çatır*

**Azərbaycan bu il bir daha sübut etdi ki, düşünülmüş iqtisadi siyasət, strateji ehtiyatların düzgün idarə olunması və struktur islahatlarının uğurla gerçəkləşdirilməsi ölkəmizi xarici mənfi təsirlərdən qorumağa qadirdir. Bu baxımdan Yeni il ərəfəsində 2025-ci ilin iqtisadi göstəricilərinə nəzər salmaq, əldə edilən nəticələrin təhlilini aparmaq və gələcək perspektivləri dəyərləndirmək zəruridir.**





Qeyd edək ki, qlobal iqtisadiyyat üçün mürəkkəb çağırışlarla müşayiət olunan hesabat ili respublikamızın iqtisadi həyatında sabitlik, davamlı inkişaf və struktur dəyişikliyi ilə yadda qaldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankının hesabatlarında dünya üzrə iqtisadi artım tempinin, təqribən, 2,9-3 faiz səviyyəsində qərarlaşdığı bir dövrdə Azərbaycan iqtisadiyyatı regional orta göstəricilərdən geri qalmadı, hətta bir sıra istiqamətlərdə üstün mövqe nümayiş etdirdi.

2025-ci ilin ilkin yekunlarına görə, Azərbaycanın Ümumi Daxili Məhsulunda (ÜDM), təxminən, 3,5-4 faizlik real artım qeydə alınıb. Müqayisə üçün qeyd edək ki, bu dövrdə Avropa İttifaqında (Aİ) orta iqtisadi artım 1 faizdən aşağı, Rusiya Federasiyasında 2–2,5 faiz, Türkiyədə isə inflyasiya təzyiqlərinə baxmayaraq, 3 faiz ətrafında qiymətləndirilib. Bu mənada, Azərbaycan Cənubi Qafqazda iqtisadi artım tempinə görə aparıcı mövqeyini qoruyub.

Cari il ölkəmizin iqtisadi həyatında diqqətçəkən əsas məqamlardan biri makroiqtisadi sabitliyin qorunub saxlanılması oldu. Qlobal inflyasiya dalğaları, enerji bazarlarındakı dəyişkənlik və müəyyən geosiyasi nəticələrə baxmayaraq, respublikada maliyyə sabitliyi gerçəkləşdirildi, dövlət borcunun idarəolunan səviyyədə saxlanılması istiqamətində siyasətin həyata keçirilməsinə xüsusi önəm verildi. Valyuta ehtiyatlarının yüksək səviyyədə qalması, milli valyutanın sabitliyinin qorunması ilə iqtisadi subyektlər üçün proqnozlaşdırıla bilən mühit formalaşdırıldı. Bununla da həm daxili investisiyaların artmasına, həm də xarici investorların Azərbaycan iqtisadiyyatına marağının qorunub saxlanmasına nail olundu.

### Valyuta ehtiyatları və dövlət borcu

2025-ci ilin sonunda Azərbaycanın strateji valyuta ehtiyatları 100 milyard ABŞ dollarına yaxın səviyyədə qiymətləndirildi ki, bu da ölkənin ÜDM-ni, təxminən, 2 dəfə üstələyir. Müqayisə üçün xatırladaq ki, bir çox inkişaf etməkdə olan ölkələrdə bu nisbət 30 – 50 faiz aralığında dəyişir. Eyni zamanda, dövlət borcunun ÜDM-ə nisbəti 10 faizdən aşağı saxlanıldı. Bu göstərici ilə Azərbaycan Aİ ölkələrinin orta göstəricisi olan 80–85 faiz, ABŞ-ın 120 faizdən yuxarı borc yükü fonunda olduqca əlverişli mövqe kimi qiymətləndirilir.

Bu dövrdə inflyasiya səviyyəsinin 5-6 faiz həddində saxlanılması mühüm uğurlardan biri oldu. Bu göstərici isə Avrozonada 4 faiz, Türkiyədə 50 faizdən yuxarı, bir sıra inkişaf etməkdə olan ölkələrdə isə ikirəqəmli səviyyədə qeydə alındı. Azərbaycan Mərkəzi Bankının balanslaşdırılmış pul-kredit siyasəti qiymət sabitliyinin qorunmasında həlledici rol oynadı. Milli valyutanın məzənnə sabitliyi daxili bazarda etimadı gücləndirdi və uzunmüddətli biznes planlaşdırmanı asanlaşdırdı.

Rəsmi statistikaya əsasən, 2025-ci ilin yanvar – noyabr aylarında respublikamızın strateji valyuta ehtiyatları 12,5 milyard ABŞ dolları və yaxud 17,6 faiz artaraq 83,5 milyard dollara (milli valyuta ifadəsi ilə 142 milyard manata) yüksəlib. Beləliklə, strateji valyuta ehtiyatları cari ildə gözlənilən Ümumi Daxili Məhsuldan (130 milyard manat) 8 milyard manat çox olub. Statistikada valyuta ehtiyatlarının xarici borcdan 17 dəfə çox qeydə alınması da önəmli uğur kimi qiymətləndirilib.

Bu məqamda, qeyd edək ki, Maliyyə Nazirliyinin məlumatına görə, oktyabrın 1-nə Azərbaycan Respublikasının dövlət borcu (daxili və xarici dövlət borcu) 25 milyard 365 milyon manat və ya 2025-ci il üzrə 129 milyard 866 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 19,5 faizini təşkil edib. Ümumi dövlət borcunun 8 milyard 318 milyon manatı (4 milyard 893 milyon dollar) və ya 32,8 faizi xarici dövlət borcunun, 17 milyard 47 milyon manatı və ya 67,2 faizi daxili dövlət borcunun payına düşüb.

Hesabat tarixinə Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsində müəyyənləşdirilən dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin 30 faizdən çox olmaması və xarici dövlət borcunun 10 milyard dolları üstələməməsi üzrə yuxarı hədlər gözlənilib.

Başa çatmaqda olan 2025-ci ildə manatın məzənnəsində də sabitlik diqqət çəkib. Bu dövrdə dünyada cərəyan edən gərgin münasibətlər fonunda neftin qiymətində müəyyən azalmalar müşahidə edilməsinə baxmayaraq, manatın məzənnəsi sabit qalıb. Ekspertlərin təhlillərində həm Mərkəzi Bankın, həm də Neft Fondunun ehtiyatlarının artması, depozitlərin strukturunda manatın payının yüksəlməsi nəticəsində 2026-cı ildə də valyutamızı ciddi bir sınaq gözləmədiyi bildirilib.



Bu dövrdə inflyasiya səviyyəsinin 5-6 faiz həddində saxlanılması da mühüm uğurlardan biri oldu. Bu göstərici isə Avrozonada 4 faiz, Türkiyədə 50 faizdən yuxarı, bir sıra inkişaf etməkdə olan ölkələrdə isə ikirəqəmli səviyyədə qeydə alındı. Azərbaycan Mərkəzi Bankının balanslaşdırılmış pul-kredit siyasəti qiymət sabitliyinin qorunmasında həlledici rol oynadı. Milli valyutanın məzənnə sabitliyi daxili bazarda etimadı gücləndirdi və uzunmüddətli biznes planlaşdırmanı asanlaşdırdı.

### Qeyri-neft sektoru – dayanıqlı inkişafın ön xətti

2025-ci ildə iqtisadi artımın keyfiyyət göstəricisi kimi qeyri-neft sektorunun payı xüsusi diqqət çəkdi. Rəsmi statistikaya əsasən, qeyri-neft sektorunda artım, təqribən, 6 faizdən yuxarı təşkil etdi. Sənaye parklarında istehsal həcmlərinin genişlənməsi, aqrar sektorda məhsuldarlığın yüksəlməsi və xidmət sahəsində canlanma bu artımı şərtləndirən əsas amillər oldu.

Qeyri-neft məhsullarının ixracı əvvəlki illə müqayisədə, təxminən, 10-12 faiz artaraq ölkənin ixrac strukturunun daha da şaxələndirilməsinə imkan verdi. Bu göstərici Azərbaycanı xammal asılılığından tədricən uzaqlaşdıran mühüm trend kimi qiymətləndirildi.

2025-ci ildə qeyri-neft sektorunun inkişafında nəzərəçarpan müsbət göstəricilər dövlət siyasətinin əsas prioritetlərindən biri olan iqtisadi diversifikasiyanın real nəticələrində özünü göstərib. Eyni zamanda, sənaye parkları və məhəllələrinin fəaliyyəti, aqrar sahədə məhsuldarlığın yüksəlməsi, logistika və nəqliyyat xidmətlərinin genişlənməsi qeyri-neft gəlirlərinin artımına əlverişli şərait yaradıb. Bütün bunların sayəsində qeyri-neft sektorunun makroiqtisadi göstəricilərdə payı xeyli artıb. Artıq qeyri-neft məhsullarının ixracının dəyəri 3,4 milyard dolları ötüb. ÜDM-də qeyri-neft sektorunun payı isə 70 faizə yaxınlaşıb.

Hesabat dövründə xüsusilə regionlarda yeni istehsal müəssisələrinin açılması, yerli xammala əsaslanan məhsulların daxili və xarici bazarlara çıxarılması məşğulluğun artmasına və sosial şəraitin yaxşılaşmasına müsbət təsir göstərib. Bu, eyni zamanda, paytaxtla bölgələr arasında iqtisadi balansın daha da möhkəmlənməsini şərtləndirib.

Azərbaycanda yaradılan əlverişli investisiya mühiti, bu istiqamətdə aparılan ardıcıl islahatlar qeyri-neft sektoruna yatırılan xarici və daxili sərmayələrin də artmasına səbəb olub. Düşməndən təmizlənən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı layihələrin həyata keçirilməsi, yeni sənaye parklarının, azad iqtisadi zonaların yaradılması, tranzit və infrastrukturun inkişaf etdirilməsi ilə bu coğrafiyada da qeyri-neft sektorunun inkişafı sürətlənib. Regionun təbii sərvətlərindən istifadəyə başlanıb. “Ağdam” və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında 50 rezident və 7 qeyri-rezident müəssisə qeydiyyata alınıb.

Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrasına 185 milyon manat investisiya yatırılıb və 1057 iş yeri yaradılıb. Sənaye parklarında fəaliyyətə başlamış rezidentlər tərəfindən 950 milyon manata yaxın məbləğdə məhsul istehsal olunub, Ağdam Sənaye Parkı rezidentləri tərəfindən istehsal olunmuş məhsulların 39,5 milyon manatlıq hissəsi ixrac olunub. Sahibkarlığa vergi və gömrük güzəştləri tətbiq olunub, kiçik və orta biznes subyektləri üçün hüquqi və maliyyə dəstəyi göstərilib.

### Qarabağın iqtisadi potensialı hərəkətə gətirilir

Vətən müharibəsində qazanılan tarixi Zəfərdən ötən 5 il ərzində Prezident İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərdə müxtəlif təyinatlı 177 layihənin təməli qoyulub, 170-ə yaxın müəssisənin açılışı gerçəkləşdirilib, 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib, 3 beynəlxalq hava limanı, 2 min 100 kilometrdən artıq avtomobil yolu, 392 körpü, 42 dəmir yolu körpüsü, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi istifadəyə verilib, 4 su anbarı istismara verilib, 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi və 1 universitet fəaliyyətə başlayıb, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə təbii qazın verilməsi reallaşdırılıb.

Zəngilan rayonunda “Dost Agropark”, Ağdam və Cəbrayıl rayonları ərazisində sənaye parkları yaradılıb, ümumilikdə, 454 milyon manatlıq layihə icra edilib, 185 milyon manat həcmində investisiya yatırılıb və 1057 yeni iş yeri yaradılıb. Hər iki sənaye parkında birlikdə 949,4 milyon manat məbləğində məhsul istehsal olunub ki, bunun da 39,5 milyon manatlığı ixraca yönəldilib.

Hesabat ilində Azərbaycanın enerji strategiyasının uğurla reallaşdırılması da özünü qabarıq büruzə verib. Neft-qaz sektorunun ölkə iqtisadiyyatında aparıcı rolunun saxlaması ilə yanaşı, bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində atılan addımlar diqqət çəkib. Günəş və külək enerjisi layihələrinin genişlənməsi, “yaşıl enerji” ixracı ilə bağlı regional təşəbbüslər Azərbaycanın enerji təhlükəsizliyini möhkəmləndirməklə bərabər, ölkəni etibarlı enerji tərəfdaşı kimi ön plana çıxarıb. Bu yanaşma uzunmüddətli perspektivdə iqtisadiyyatın ekoloji dayanıqlılığını gerçəkləşdirən əsas istiqamətlərdən birinə çevrilib.

Xatırladaq ki, işğaldan azad edilən ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpaolunan enerji potensialından səmərəli istifadə çərçivəsində sistemli layihələr həyata keçirilib. Prezident İlham Əliyevin bu istiqamətdə müəyyənləşdirdiyi iqtisadi inkişaf kursunda düşməndən təmizlənən ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi əsas istiqamətlərdən biri kimi önə çəkilib. Dövlətimizin başçısının Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq savaşdan ötən müddətdə 270 MVt gücündə 30-dan çox su elektrik stansiyası istismara buraxılıb. Növbəti illərdə isə əlavə olaraq 200 MVt-lıq su elektrik stansiyalarının tikilməsi nəzərdə tutulub.

Beləliklə, 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla ölkə üzrə bərpaolunan enerji sahəsində uğurlu nəticələr əldə olunub. Günəş və külək enerjisi layihələri ilə bağlı yeni təşəbbüslərin gerçəkləşdirilməsi hesabına “yaşıl enerji”nin ümumi enerji balansındakı payı 10 faizə yaxınlaşıb. Bu göstərici ilə Azərbaycan bir çox postsovet dövlətlərini qabaqlayaraq Avropanın “yaşıl gündəliyi”nə uyğunlaşan enerji siyasəti yürüdən ölkələr sırasına daxil olub.

2025-ci il Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma layihələri təkcə sosial deyil, eyni zamanda, iqtisadi baxımdan strateji əhəmiyyət daşıyır. Hazırda “ağıllı şəhər və kənd” konsepsiyalarının tətbiqi, alternativ enerji layihələrinin icrası, müasir nəqliyyat və logistika infrastrukturlarının yaradılması bu əraziləri ölkənin yeni iqtisadi inkişaf mərkəzlərindən birinə çevirir. Cari ildə bu bölgələrdə iqtisadi fəallığın artması ümumi daxili məhsula müsbət təsir göstərən əsas amillərdən biridir.

### Sosial göstəricilər və insan kapitalı

2025-ci ilin iqtisadi uğurları sosial göstəricilərin artımını da şərtləndirib. Bu, əhalinin gəlirlərinin artmasında, sosial proqramların genişlənməsində, əmək bazarında fəal siyasətin davam etməsində, iqtisadi artımın cəmiyyətə real təsirində özünü qabarıq büruzə verib. Başqa sözlə, iqtisadi artım nəticəsində, məsələn, təhsil və səhiyyə sahələrinə yönəldilən investisiyalar, peşə hazırlığı proqramları və rəqəmsal bacarıqların gücləndirilməsi insan kapitalına müsbət təsir göstərərək, uzunmüddətli sosial inkişaf üçün möhkəm baza formalaşdırıb.

2025-ci ildə əhalinin orta aylıq əməkhaqqında, təxminən, 8-10 faizlik artım, minimum əməkhaqqı və sosial ödənişlərdə mərhələli yüksəliş qeydə alınması, işsizlik və yoxsulluq səviyyəsinin 5 faiz həddində qərarlaşması da yuxarıda vurğulanan fikrin bariz ifadəsidir. Bu rəqəmlər inkişaf etməkdə olan ölkələr üçün kifayət qədər müsbət sosial-iqtisadi nəticə hesab olunur və iqtisadi artımın sosial rifaha transformasiyasını nümayiş etdirir.

***

2025-ci ilin statistik mənzərəsi göstərir ki, Azərbaycan iqtisadiyyatı yalnız artım nümayiş etdirməklə kifayətlənmir, eyni zamanda, bu artımı dayanıqlı, balanslaşdırılmış və sosialyönümlü model üzərində qurur. Qlobal qeyri-müəyyənliklər fonunda əldə olunan belə uğurlu nəticələr ölkənin iqtisadi təhlükəsizliyinin və strateji idarəetməsinin səmərəliyini təsdiqləyir. 2026-cı ilə qədəm qoyarkən bu rəqəmlər nikbinlik üçün əsas verir: Azərbaycan iqtisadiyyatı təkcə regional deyil, həm də daha geniş coğrafiyada rəqabətədavamlı mövqeyini qoruyur və möhkəmləndirir.

Sonda onu da deyək ki, dövlət başçısının 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan olunması qarşıdakı dövrdə tikinti-quruculuq işlərinin daha da genişlənəcəyini, erməni vandalizminə məruz qalmış memarlıq abidələrinin sistemli şəkildə bərpa ediləcəyini, turizmin müxtəlif növlərinin inkişafı üçün zəngin potensial imkanlara malik ölkəmizin, eləcə də Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişaf imkanlarının daha da genişlənəcəyini deməyə əsas verir.

*Vaqif BİNYATOĞLU*
*XQ*





*Yusif Məmmədəliyev – 120*

# Neft kimyasının Məmmədəliyev məktəbi

**Elə şəxsiyyətlər var ki, fəaliyyəti və bəşəriyyətin inkişafına verdikləri töhfələrə görə, milli və dini mənsubiyyətindən asılı olmayaraq bəşər övladı hesab olunurlar. Onlardan biri də görkəmli alim, akademik Yusif Məmmədəliyevdir. Dünyaca məşhur soydaşımızın dahiliyi kimya elminin bir sıra istiqamətlərində, o cümlədən aşqarlar kimyası istiqamətində öz təsdiqini tapmışdır.**

Keçən əsrin 30-cu illərinin axırlarında – 40-cı illərin əvvəllərində texnikanın inkişafı ilə əlaqədar yüksək keyfiyyətli sürtkü yağlarının yaradılması böyük problem kimi gündəmə gəlmişdi. Neft emalından alınan və o dövrün texnoloji üsulları ilə təmizlənən sürtkü yağları güclü mühərriklərin tələblərinə cavab verə bilmirdi. Bir sözlə, sürtkü yağlarının təbii xassələrinin səviyyəsi tələb olunan həddə deyildi. Akademik Yusif Məmmədəliyev problemi həll etmək üçün sürtkü yağlarının istismar xassələrini xüsusi kimyəvi maddələrlə – aşqarlarla yaxşılaşdırmağı təklif etdi.

Bu ideyanı həyata keçirmək üçün 1945-ci ildə Kuybışev adına Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutunda (indiki akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu) "Yağlar və aşqarlar" şöbəsi yaradıldı və Yusif Məmmədəliyevin tələbəsi akademik Əli Quliyev şöbə müdiri təyin edildi. Şöbənin səmərəli elmi fəaliyyəti nəticəsində qısa müddətdə aşqarlar kimyası sahəsində mühüm elmi və iqtisadiyyatın inkişafına dəyərli töhfələr verildi.



İlk tədqiqatlar neftdən alınan yağların donma temperaturunu aşağı salan aşqarın (depressator) alınmasına yönəldildi. Nəticə etibarilə SSRİ-nin ilk aşqarı – АзНИИ depressatoru yaradıldı və 1947-ci ildən onun sənaye istehsalına başlanıldı. Bu depressatorun tətbiqi, parafin əsaslı neftlərin emala cəlb edilməsi hesabına yağ xammalının ehtiyatını artırmağa imkan verdi. Bu aşqarın işlənib hazırlanması və sənayedə tətbiqinə görə Əli Quliyevin rəhbərliyi ilə bir qrup laboratoriya alimləri 1948-ci ildə SSRİ Dövlət mükafatına layiq görüldü. Sonra ölkədə ilk yuyucu-dispersləyici aşqar olan АзНИИ-4 aşqarı yaradıldı yenə də Əli Quliyev başda olmaqla, onun müəllif kollektivi də bu aşqarın işlənib hazırlanması və tətbiqinə görə 1950-ci ildə SSRİ Dövlət mükafatına layiq görüldü. Daha sonra yaradılmış və tətbiqini tapmış АзНИИ-5 və АзНИИ-6 aşqarları da SSRİ-də yaradılmış ilk aşqarlardandır.

Sənayedə alınan ilk aşqarlar sürtkü yağlarının yalnız bir xassəsini yaxşılaşdırırdı. Sonralar artıq sürtkü yağlarının eyni zamanda bir neçə vacib istismar xassəsini yaxşılaşdıran çoxfunksiyalı aşqarlar yaradıldı. SSRİ-də ilk çoxfunksiyalı aşqar 1960-cı illərin əvvəllərində işlənib hazırlanmış, yağların yuyucu, korroziyaya qarşı və depressiya xassələrini eyni zamanda yaxşılaşdıran АзНИИ-ЦИАТИМ-1 aşqarı olub. Elə bu dövrdə dizel mühərrikləri üçün yüksək keyfiyyətli yağların istehsalını təmin edən yüksək təsirli АзНИИ-7 aşqarı yaradıldı və istehsalata tətbiq olundu.

Problemin çox vacibliyini və bir sıra aşqarların yaradılması və tətbiqində qazanılmış nailiyyətləri, həmçinin aşqarlar kimyasının fundamental məsələləri üzrə əldə edilən mühüm elmi nəticələri nəzərə alan SSRİ Elmlər Akademiyasının təklifi ilə 1965-ci ildə Azərbaycan Elmlər Akademiyası Neft-Kimya Prosesləri İnstitutunun "Aşqarların sintezi və texnologiyası" laboratoriyasının əsasında SSRİ-də ilk ixtisaslaşmış institut – Aşqarlar Kimyası İnstitutu (AKİ) yaradıldı.

Bundan sonra motor, transmissiya və sənaye yağlarının istehsalını təmin edən və AKİ tərəfindən yaradılmış bir sıra aşqarların sənaye istehsalı mütəşəkkil qaydada və silsilə şəklində Azərbaycan (Bakı, Sumqayıt), Rusiya (Ufa, Perm, Yaroslavl, Novo-Kuybışevsk) Ukrayna (Şostkin, Xarkov) və Belorusiyada (Novopolotsk) təşkil edilmişdi. Ümumiyyətlə, SSRİ dövründə istehsal olunan aşqarların və sürtkü yağlarının 20 faizi AKİ-nin alimləri tərəfindən işlənilmişdir.

AKİ SSRİ Dövlət Standartlar Komitəsi nəzdində fəaliyyət göstərən "Yanacaqların, yağların, sürtkülərin və xüsusi mayelərin sınağı" komissiyanın sertifikasiya mərkəzi kimi də fəaliyyət göstərirdi.

Keçmiş İttifaqda istehsal edilən bəzi xüsusi təyinatlı mühərriklərin və transmissiya sistemlərinin normal işləməsini təmin edən sürtkü yağları (M-16ИХП-3, TAD-17ИХП) AKİ tərəfindən onun aşqarları əsasında yaradılmış və istehsalı təşkil edilmişdir.

Dizel mühərriklərinin işləməsi zamanı çıxan qazlarda tüstünün və kanserogen maddələrin miqdarını 50 faizdən çox azaldan, SSRİ-də dizel yanacağı üçün ilk aşqar – ИХП-706 aşqarı yaradılmış və tətbiq üçün vəsiqə almışdır.

Reaktiv təyyarələrin mühərrikləri üçün 240°C-də işləyən sintetik yağ kompozisiyası, reaktiv yanacaqların oksidləşməyə qarşı davamlılığını kəskin surətdə yaxşılaşdıran ИХП-712 aşqarı işlənilmişdir.

AKİ-də aparılan fundamental və tətbiqi tədqiqat işləri xalq təsərrüfatının bir sıra sahələri ilə, ilk növbədə, neftçıxarma, neft-kimya, neft emalı sənayesi, maşınqayırma və metal emalı ilə əlaqədardır.

Aparılan fundamental tədqiqatlar nəticəsində sürtkü yağlarının yuyucu-dispersləyici, özlülük-temperatur, oksidləşməyə, yeyilmə və siyrilməyə qarşı xassələrini yaxşılaşdıran çoxfunksiyalı yüksək keyfiyyətli aşqarların məqsədyönlü sintezinin elmi əsaslarının işlənilməsi, istehsal texnologiyasının yaradılması və istehsalata tətbiqi sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Siyrilməyə qarşı yüksək keyfiyyətli ИХП-14A aşqarı işlənilmiş, sənaye miqyasında istehsalı təşkil edilmiş və onun əsasında minik avtomobilləri üçün ТАД-17ИХП transmissiya yağı və neft-mədən avadanlıqları yelləncək dəzgahları reduktorlarının normal işini təmin etmək üçün BPM-1201 reduktor yağı yaradılmış və istifadə edilmək üçün vəsiqə almışdır.

1970-ci ildə akademik Əli Quliyev başda olmaqla İnstitutun bir qrup əməkdaşı "Bakı neftlərindən alınan motor yağlarına təsirli aşqarların alınma texnologiyasının işlənilməsi və sənayedə tətbiqinə görə" Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşlər.

Ölkəmizin müxtəlif maşınqayırma zavodlarında metal məmulatların almaz alətlərlə kəsilməsi, habelə cilalanmasında tətbiq tapan НСК-5у və «Азерол» seriyasından beş yağlayıcı-soyuducu maye və onları bioloji zədələnmədən qoruyan Азин-1 və Азин-2 antimikrob aşqarları işlənilmiş və sənaye istehsalı təşkil edilmişdir.

AKİ akademik institut olduğundan, burada aşqarlar kimyasının nəzəri problemləri də dərindən öyrənilir və tədqiq edilirdi. Fundamental tədqiqatlar sahəsində aparılan işlər nəticəsində müxtəlif funksiyalı aşqarların təsir mexanizmi öyrənilmiş, aşqarların tərkibi, quruluşu və funksional xassələri arasındakı asılılıq müəyyənləşdirilmişdir. Bu tədqiqatlar nəticəsində yüksək təsirə malik aşqarların optimal quruluşu proqnozlaşdırılmış və sintezi həyata keçirilmişdir. Fundamental tədqiqatlar yeni üzvi maddələrin, yeni nəsil aşqarların sintezi və onların sintezi üçün yeni üsulların işlənilməsi, istifadə olunan müxtəlif üzvi reaksiyaların kinetikası və mexanizminin öyrənilməsi istiqamətində də elmi-tədqiqat işləri aparılmışdır.

Qeyd olunan istiqamətdə işlərin nəticələri respublikada aşqarlar kimyası sahəsində məhsuldar işləyən böyük elmi məktəbin formalaşmasına imkan yaratdı. Onu da qeyd edək ki, keçmiş SSRİ-də ilk olaraq çoxfunksiyalı aşqarların yaradılması işinə, məhz postsovet məkanında 3 elmi mərkəzdən bu günə qalan yeganə AKİ-də başlanılmış və bu qəbildən olan yüksək keyfiyyətli aşqarlar yaradılmış və bu aşqarlardan istifadə etməklə Bakı və SSRİ-nin Şərq regionunun baza yağları əsasında bir sıra yüksək keyfiyyətli müxtəlif təyinatlı sürtkü yağları işlənilmişdir.

Ölkəmizin suverenliyinin ilk illərində respublikada aşqarlar və sürtkü materialları sahəsində vəziyyətin çox çətinləşdiyi bir şəraitdə respublikanın müxtəlif növ sürtkü yağlarına olan tələbatını ödəmək məqsədilə qısa bir müddətdə Bakı baza yağları, AKİ-də yaradılmış və istehsalı mövcud olan və həmçinin xaricdən gətirilən aşqarlar əsasında müxtəlif təyinatlı (o cümlədən xüsusi təyinatlı) motor yağları, müxtəlif növ nəqliyyat vasitələri üçün transmissiya yağları, konservasiya yağı yaradılmış və istehsalı sənaye və təcrübi-sənaye miqyasında təşkil edilmişdir.

AKİ yuxarıda qeyd edilən əsas prinsipləri rəhbər tutaraq yarandığı vaxtdan indiyə qədər fundamental tədqiqatlarla yanaşı tətbiqi işlərə də geniş yer verib. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, ölkə üzrə tətbiq olunan və olunmağa tövsiyə edilən elmi tədqiqatın nəticələri ilə bağlı ən çox patent alan elmi-tədqiqat müəssisəsi AKİ-dir. Təsəvvür edin, 2015-2024-cü illərdə institutda aparılan elmi tədqiqatların nəticələri üzrə 137 patent alınmışdır.

Aşqarlar Kimyası İnstitutu respublikamız müstəqillik qazandıqdan sonra ölkəmizin iqtisadi inkişafı və müdafiə qüdrətinin artırılması istiqamətində gördüyü ən vacib tətbiqi işləri aşağıdakı kimi ümumiləşdirmək olar. İnstitut alimlərinin son illər ən uğurlu tətbiqi işlərindən biri yüksək parafinli neftlərin donma temperaturu və dinamik özlülüyünü aşağı salmaqla onların boru kəmərləri ilə uzaq məsafələrə nəql edilməsini təmin edən aşqar – "Depressator AKİ" yaradılmasıdır ki, onun istehsalı "Aşqar" Elmi İstehsalat Birliyində təşkil edilmiş, bu günə qədər Bakı–Ceyhan neft kəmərində müvəffəqiyyətlə istifadə edilir.

Aşqarlar Kimyası İnstitutunun alimləri təkcə qlobal ekoloji problemlərinin həlli istiqamətində 6 mühüm innovativ tədqiqatlar yerinə yetirmişdir. İnstitut müxtəlif markalı motor yağının yeni analoqunu yaradıb, istehsalını təcrübə miqyasında təşkil edib və yüz tonlarla məhsul Azərbaycan Respublikası Müdafiə Nazirliyinə, Azərbaycan Dövlət Neft Şirkətinin Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinə və digər qurumlara verilib.

Azərbaycanda xüsusi təyinatlı sürtkü yağlarının stend sınaqlarını gerçəkləşdirmək üçün zəruri mühərriklər olmadığından, AKİ tərəfindən bu proses xarici ölkədə müvafiq strateji müəssisədə reallaşdırılıb və son nəsil xüsusi təyinatlı dizel mühərriklərində istifadəsi təklif edilib. Yaradılan xüsusi təyinatlı motor yağları Azərbaycan Respublikası Müdafiə Nazirliyinin müvafiq nazirliklərinin sınaq-təcrübə mərkəzlərində də real texnikada müsbət nəticələrlə sınaqdan keçirilib və xüsusi təyinatlı texnikanın mühərriklərində istifadəsi məqsədəuyğun sayılıb. Həmin yağ Birinci Qarabağ və Vətən Müharibəsində də istifadə olunub. Həmin motor yağına Pakistan, Banqladeş, Malayziya ölkələri də böyük maraq göstərirlər.

Bu yağların yaradılmasından bəhs edən "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" kompleks elmi-texniki işinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 27 may 2024-cü il sərəncamı ilə AKİ-nin bir qrup alimləri Azərbaycan Respublikasının Dövlət Mükafatı ilə təltif olunub.

Göründüyü kimi, Azərbaycanda elmin kommersiyalaşmasında iştirak edən Aşqarlar Kimyası İnstitutu ölkəmizdə elmtutumlu, rəqabətqabliyyətli və innovativ məhsulların istehsalının birbaşa elmi-texniki əsaslandırmasını həyata keçirir, yenilikçi bizneslərin yaradılmasına dəstək verir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2025 tarixli məlum sərəncamı ilə akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu və akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun əsasında Kimya İnstitutu yaradıldı.

Yeni yaranan institunun tərkibində də aşqarlar kimyası üzvi kimyanın ən vacib fundamental və tətbiqi elmi istiqaməti kimi qorunub saxlanılacaq və daha da irəliyə doğru inkişaf etdiriləcək. Bu, aşqarlar kimyası məktəbinin Azərbaycanda yaradıcılarından olan akademik Yusif Məmmədəliyevin və tələbəsi akademik Əli Quliyevin ruhunu şad edəcək.

***Vaqif FƏRZƏLİYEV,***
***Aşqarlar Kimyası İnstitutunun baş direktoru, akademik***

*Böyük Qayıdışın addımları*



# "Kərkicahan, biz də qayıtdıq!"

## *Xankəndinin bu qəsəbəsi həmrəylik təntənəsinə bürünüb*

**İşğaldan azad olunmuş torpaqlarımızın hər yerində bayram ab-havası yaşanır. Doğma ata-baba yurdlarına qayıtmış insanlar, bu yerlərdə yaşayıb, işləyənlər böyük coşqu ilə Yeni ili və Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qarşılamağa hazırlaşırlar. Cəmi bir neçə gün əvvəl Böyük Qayıdışın növbəti ünvanına çevrilmiş Xankəndi şəhərinin Kərkiçahan qəsəbəsinin sakinləri isə ikiqat sevinc içindədirlər.**

Bir vaxtlar evlərinin düşmənin zoru ilə bağlanmış qapıları yenidən onların üzünə açılıb, 34 ildən sonra yeni ilin gəlişini öz evlərində, üstəlik, daha məcburi köçkün kimi deyil, əzəli torpaqlarımızın sahibləri kimi qeyd edəcəklər. Qələbələrimizn memarı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin dekabrın 23-də qəsəbə sakinləri ilə görüşü isə onların ümid dolu, işıqlı sabahlarının unudulmaz, xoş xatirəsinə çevrilib.

Kərkicahanlıların bayram sevinclərinə biz də şərik olmaq üçün yeni təmir olunmuş, yaraşıqlı evlərin sıralandığı qəsəbəyə yollandıq. İlk qonağı olduğumuz evdə bizi qarşılayan sakinləri indi ölkəmizin hər yerində tanıyırlar. Çünki Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 23-də qəsəbənin ağbirçəyi, 85 yaşlı Yadigar Əsədovanın və nəticəsi, dünyaya yenicə göz açmış balaca Altayın yaşadığı evə şəxsən baş çəkib, ailə üzvləri ilə səmimi söhbət edib, onlar üçün yaradılmış şəraitlə maraqlanıb. Həmin görüşün təsirindən hələ də çıxa bilmədiklərini söyləyən Yadigar Əsədova yaşadıqlarının ona yuxu kimi gəldiyini dedi:

- Azərbaycanın hər guşəsi gözəldir, ancaq Qarabağ hər yerdən gözəldir. İllərlə Vətənimizə qayıdacağımız günə olan inamımıza sarılıb yaşamışıq. Mən ən çox Kərkicahanın suyu üçün darıxırdım. Allaha çox şükür, ömür vəfa etdi, yenidən doğma yurda qayıtdım, havasını uddum, suyunu içdim. Bütün bunlar Prezidentimiz sayəsində mümkün oldu. Bizim Prezidentimiz çox gözəl Prezidentdir, dünyanın ən gözəl Prezidentidir! Allah onu pənahında saxlasın!







Söhbətimizə Yadigar Əsədovanın qızı Gülnarə Qələndorava da qoşularaq bildirdi ki, anası həmişə Kərkicahanın aşağısında yerləşən, adı da elə "Aşağıbulaq" olan bulağın suyunu arzulayırdı:

- İndi o bulağa "Şəhidlər bulağı", ya da "Ehsan bulağı" deyirlər. İşğaldan əvvəl oradan səhənglə o qədər su daşımışam, suyundan gətirib o qədər paltar yumuşam ki... Bulağımıza, torpağımıza, evimizə qovuşduğumuz üçün çox xoşbəxtik. Həm də xoşbəxtik ki, yeni evimizin ilk qonağı Ali Baş Komandanımızın özü oldu!

Əlirza, Məhəmməd və Zəhra adlı üç nəvəsini başına yığıb yenidən Kərkicahanda yaşayan 76 yaşlı Əfiqə Hüseynquliyevanın da evinin qapısını döydük. Dedi ki, doğma yurda qayıtmaq, burada daimi məskunlaşmaq ən böyük arzusu olub:

- Vətənin hər yeri bizim üçün əzizdir, ancaq insanın doğulduğu torpaq bir başqa olur. Həsrət, əziyyət dolu günlər geridə qaldı. Çox şükür, Allah mənə bu yaşda Vətənimə dönməyi qismət etdi. İndi oğlumla, nəvələrimlə yenidən ata-baba yurdumda, uşaqlığımın, gəncliyimin keçdiyi gözəl Kərkicahanda yaşayacağım üçün çox şanslıyam. Hər şey çox gözəldir. Evlərimizdə də bütün şərait yaradılıb. Dövlətimiz var olsun!

Ə.Hüseynquliyevanın 5-ci, 6-cı və 7-ci sinifdə oxuyan nəvələri də sevinc içindədirlər. Şam ağacını bəzəyiblər, 2 balaca yataqxana otağından sonra rahat, beşotaqlı evlərində rahat-rahat bayrama hazırlaşırlar. Yeni məktəbləri ilə də tanış olublar, çox xoşlarına gəlib. Söz verdilər ki, burada daha yaxşı oxuyacaq, hər üçü ali məktəbə daxil olacaqlar.

Kərkicahanda vaxtilə Gəncədə həmsöhbət olduğumuz, yaşadığı acıları, doğma yurda qayıtmaq arzularını qəzetimiz vasitəsilə oxucularımızla bölüşmüş Təranə Şahmuradovanı görmək bizi çox sevindirdi. Xatırladaq ki, Təranə xanım Birinci Qarabağ müharibəsinin dəhşətlərini yaşayıb. 1992-ci il may ayının 8-də Şuşanın müdafiəsi zamanı qardaşı Natiq şəhid olub, digər qardaşı Namiq isə itkin düşüb. Elə həmin il noyabrın 8-də həyat yoldaşı Tahir Zeynalov Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. İndi şəhidlərinin uyuduğu torpağa qayıtmış Təranə Şahmuradova sevincinə şərik olduğumuz üçün "Xalq qəzeti"nin rəhbərliyinə və kollektivinə təşəkkür edərək təəssüratlarını bölüşdü:

- İllər boyu Qarabağımızın hər daşının, çınqılının, havasının-suyunun həsrətini çəkə-çəkə yaşamışıq. Ona görə də bugünkü günün sevincini ifadə etməyə heç bir sözün gücü çatmaz. Çox qürurluyuq, çox xoşbəxtik ki, 34 ildən sonra əbədi olaraq öz yurdumuza dönmüşük. Mən də daha məcburi köçkün deyiləm. Bilirəm ki, qayıdışımıza şahid olan şəhidlərimizin ruhları da əbədi dincliyə qovuşub. Kərkicahana dönməyimiz möhtərəm Prezidentimizin bizə ən gözəl, ən unudulmaz Yeni il hədiyyəsidir. Onunla görüş isə biz kərkicahanlılara sonsuz sevinc bəxş edib. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Allah müzəffər Ali Baş Komandanımızı qorusun! Bütün Azərbaycanın, bütöv, həmrəy Azərbaycanın bayramları mübarək olsun!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Kərkicahan**




*Qardaş ellərin sevinc sorağı*

# Şərqi Anadoluda buz əfsanəsi

## *Çıldır gölü üzərində Yeni il təntənəsi*

**Türkiyənin şərqində aramsız yağan qardan sonra ətrafdakı ərazilər bəyaz rəngə bürünərək ecazkar bir qış mənzərəsi yaradıb. Bu günlərdə Çıldır gölünün üzərində buzun səthi xeyli qalındır. Yerli turizm şirkətləri fürsəti fövtə verməyib hər vəchlə ərazidə qış turizmini canlandırırlar.**

Qeyd edək ki, Qars və Ərdahan vilayətləri arasında yerləşən Çıldır gölündə (qardaş ölkədə Van gölündən sonra ikinci ən böyük göldür) yerli və əcnəbi turistlər üçün qış turizmi mövsümü qızğın çağına qədəm qoyub. Xüsusilə uşaq və yeniyetmələr qar üstündə sürüşməkdən hədsiz zövq alırlar.

Çıldır gölünün erkən buz bağlaması ərazidə fəaliyyət göstərən atlı kirşə sahiblərinin ürəyincədir. Onlar sutkanın istənilən saatında yerli və əcnəbi turistlərə gölün donmuş səthində unikal “buz safari”si təşkil edirlər. Yerli sakinlər də, qonaqlar da buz üstündə gəzinti fürsətini qaçırmamağa çalışırlar.

...Çıldır gölünün səthində buzun qalınlığı hazırda 15 santimetrə çatır ki, bu da ziyarətçilərin təhlükəsiz şəkildə gölün səthinə çıxmalarına fürsət yaradır. 123 kvadratkilometrlik donmuş göldə əylənmək imkanları genişdir. Bir çox ailələr atlı kirşə gəzintisi ilə bərabər, buz üzərində təşkil edilən ənənəvi rəqslərə də həvəslə qatılırlar.

**Davud Daşdəmir yerli turizm şirkətlərindən birinin əməkdaşıdır. O, “Anadolu” müxbirinə bildirib:**

– Atları gölə gətirdik, kirşə yollarının xəritəsini çəkdik və heç bir problem olmadı. Qonaqlarımızı atlar qoşulmuş kirşələrdə sağ-salamat gəzdiririk. Mövsüm açıqdır və bütün ziyarətçiləri salamlayırıq. Bura bölgənin ən erkən donan yerlərindən biridir və biz göldə 3-4 ay ərzində xidmət göstəririk.



**İstanbuldan bura təşrif buyuran Ecrin Yüksel Çıldır gölünün üzərində rəqs etməkdən xüsusi həzz aldığını söyləyib:**

– Çıldır gölünə bu səfəri çoxdan planlaşdırırdım. Gördüklərim heyrətamiz gözəlliklər gözləntilərimin fövqündədir! Bu an burada olduğuma, ətrafdakı unudulmaz mənzərələri gördüyümə görə çox şadam.

**Düzcedən Burak və Necmi Yüksel Qara adlı vətəndaşlar da bu yerlərə səfəri çoxdan arzuladıqlarını söyləyiblər:**

– Yeri gəlmişkən, təkcə Çıldır gölü və onun ətrafında deyil, qonşu Ərzurum vilayətinin şərqindəki Palantökən Xizək Mərkəzində də turistlər çoxdur. Burada qarın qalınlığının 41 santimetrə çatdığı yamaclarda xizək sürənlərin sayı kəskin artıb. Şəhər mərkəzindən, təxminən, 4 və hava limanından 20 kilometr məsafədə yerləşən kurortu hər il minlərlə ailə ziyarət edir.

**Gümüşhanə vilayətindən gələn Görken Yıldırım Palantökəndəki şəraitdən razı qaldığını deyib:**

– 5 gündür ki, buradayam, vaxtım çox gözəl və əyləncəli keçir. Əvvəllər Ərciyes və Uludağda xizək sürmüşəm, amma buranı daha çox bəyənirəm.

Bu il Şərqi Anadoluda qış turizminin uğurlu təşkili ilə bağlı çox faktlar göstərmək olar. Türkiyə bu sahədə, həqiqətən, digər türk dövlətləri üçün faydalı təcrübə məktəbi sayıla bilər. Bir müddət əvvəl Murad Yeni adlı tanınmış türk jurnalisti “Xalq qəzeti”ndə dərc olunan eksklüziv məqaləsində bildirmişdi ki, Türkiyədən hər il Avropaya təxminən 3 milyona yaxın insan istirahət etməyə gedir. Onların bir qismi niyə can Azərbaycana, digər qardaş türk ölkələrinə getməsin?

**Murad bəy həmin söhbət zamanı demişdir:**

– Gəlin səmimi danışaq. Hansı türk, qazax, özbək şöhrəti və gözəlliyi dillər əzbəri olan Şuşanı şəxsən görmək, seyr etmək arzusundan vaz keçər? Heç kim! Amma bu istiqamətdə geniş reklam və təşkilatçılıq işləri görmək lazımdır. Xüsusilə, Türk Dövlətləri Təşkilatının (TDT) media qurumları bu məsələni daim diqqətdə saxlamalıdır.

Türkiyə bu gün dünyada turistlərin ən çox ziyarət etdikləri ölkələr arasında beşinci yerdədir. Ötən il qardaş ölkəyə 58 milyona yaxın insan səfər edib. Yaxşı haldır ki, TDT-yə üzv dövlətlərdən Türkiyəni ziyarət edənlərin sayı artmaqdadır. Eyni zamanda, əks istiqamətdə, yəni Türkiyədən Azərbaycana, Mərkəzi Asiyaya səfər edənlər çoxalır.

Azərbaycan da son illər qış turizmi sahəsində xeyli uğur qazanıb. Məsələn, ölkəmizin şimalında yerləşən Qusar rayonundakı Şahdağ Qış-Yay Turizm Kompleksi qış turizminin mərkəzidir. Bura gələn turistlər müxtəlif çətinlik dərəcəli 32 xizək enişindən (35,7 kilometr), müasir liftlərdən (20 ədəd) istifadə edirlər.

Bu yazının müəllifi dəfələrlə Qusar şəhərindən 29 kilometr aralıda, Şahdağın ətəyində yerləşən kompleksdə çox sayda ailələrin qış mövsümü boyu xizək sürməkdən necə böyük zövq aldıqlarının şahidi olub. Buralar, həqiqətən, ilboyu gözəldir. Amma buranın qışının ayrı bir füsunkarlığı var!

Bu günlərdə Şahdağın ətəkləri bəmbəyaz qara bürünüb. Qış tətili günlərində bu tərəflərə təşrif buyuranların sayı getdikcə artır. Qusarlı köhnə tanışım İbrahim Cəfərov dedi ki, əsl qış macəralarını yaşamaq arzusuna düşənlər bizim bu tərəflərə gəlir və əksər hallarda xidmət səviyyəsindən razılıq edirlər.

Bəli, turistlər, hətta soyuq qış aylarında belə Qusarda, Qubada, bir sözlə, ölkəmizin hər yerində arzuolunan qonaqlardır.

***Məsaim ABDULLAYEV***
***XQ***



# 1 səngərdə 3 qardaş





**Birinci Qarabağ müharibəsi döyüşlərində iştirak etmiş Aslan, Qurban və İlham Səfərovları cəbrayıllı Oruc kişinin Vətənə can-başla qulluq etmiş mərd oğulları kimi hamı yaxşı tanıyır. Onlar rayonun Kavdar kəndindəndirlər. "Nərimanov batalyonu" adlanan dəstədə vuruşublar.**

Redaksiyamızın qonağı olan Aslanın "barıt qoxulu" xatirələrini dinlədikcə, həmin dövrdə çalışdığım AzTV-nin çəkiliş qrupu ilə Cəbrayıla ezamiyyətə getməyimi yada saldım. Onda hələ torpaqlarımız uğrunda ilk ölüm-dirim savaşı gedirdi. Rayon polis şöbəsinin rəisi Vaqif Məhərrəmovun şəxsi heyəti də döyüşlərdə igidlik nümunələri göstərirdi. Əsir götürülmüş bir erməni yaraqlısı şöbənin təcridxanasına salınmışdı. Rəisin icazəsi ilə separatçını kamera qarşısında danışdırdım. Məzlum görkəm alaraq döyüşə getməyə məcbur edildiyini söylədi və azərbaycanlılara qarşı heç bir iddiada olmadığını bildirdi. Onda rəis dözməyib erməninin üstünə qışqırdı: "Əzəli torpaqlarımıza sahiblənmək istəyirsiniz, daha nə iddian olacaq?!"

Həmin erməninin sonrakı taleyindən xəbərsiz qalsam da, polislərimizin, könüllülərimizin igidlikləri haqqında çox məlumatlar aldım. Sən demə, o zaman Cəbrayılı qoruyanlar arasında Səfərov soyadlı üç qardaş – Aslangil də varmış.

Aslan 1963-cü il dekabrın 20-də anadan olub. Gənclik illərindən Sumqayıtda yaşamış və zavodda fəhlə işləmişdi. 3 il idi ki, rayona qayıtmışdı. Bu vaxt ara qarışdı və yol idarəsində çalışan Aslan döyüşlərə atıldı. Qardaşları Qurban və İlham da ona qoşuldular. Beləcə, 5–6 il mərd-mərdanə Vətən qulluğunda dayandılar. Hər əzaba qatlaşdılar, məhrumiyyətə dözdülər ki, əhaliyə xətər toxunmasın, düşmən yerini tanısın.

**İkinci qrup müharibə əlili olan Aslan Səfərovun dedikləri:**

– Cəbrayılın Horovlu, Quycaq, Mahmudlu və Maralyan kəndləri istiqamətində 3 qardaş birlikdə vuruşmuşuq. Gecələr öz qurduğumuz postlarda kəndlərə keşik çəkirdik, gündüzlər gözdə-qulaqda olurduq ki, hücumların qarşısını alaq. Komandirimiz rayonun Daşkəsən kəndindən olan kapitan Rafiq Bayramov idi. Erməni hücumlarına sinə gərir, imkan düşəndə qəfil başlarının üstünü kəsdirib qisas alırdıq. Doğrudur, silah-sursatımız az idi, amma Vətən eşqi bizi irəli aparır, qisas hissi gücümüzə güc qatırdı.

Bir dəfə komandir yaralanmışdı, Ay işığında yola çıxdıq ki, gedib onu gətirək. Susuzluqdan yanırdıq. Quycaq səmtində nar ağacına rast gələndə özümüzü saxlaya bilməyib susuzluğu yatırmaq üçün meyvələri dişimizə çəkdik. Ermənilər görməsin deyə, palçıqlı cığırlarla irəliləyirdik. Düşməni duyuq salmadan tapşırığı lazımınca icra etdik. Komandiri və daha bir zabiti xərəkdə 3 kilometrlik yol boyunca geri apardıq. Sonra təcili yardım maşını olmadığı üçün tank üstündə təxliyə etdirdik. Buna görə hərəmizə mükafat olaraq 1 qutu siqaret, 1 cüt corab verdilər...

Aslan onu da xatırlayır ki, 1993-cü ilin oktyabrında – Cəbrayılın işğalından 3 ay sonra bizdə qalan Arazboyu ərazilərdə ermənilərə əsir düşmüş və şəxsi maşını əlindən alınmış zəngilanlı mülki şəxs Dadaşın da ölümdən qurtardılar. Ümumiyyətlə, o illərdə belə olaylar çox baş verib. Hamısında da Aslan və qardaşları sanki bir aslan kimi davranıblar, xilaskarlıq missiyasını layiqincə yerinə yetiriblər.

Birinci Qarabağ müharibəsindən düz 17 il sonra Aslanın oğlu Montində yerləşən Cəbrayıl Hərbi Komissarlığından əsgərliyə yola salınanda o, kapitan Rafiq Bayramovla təsadüfən görüşdü. Quyucaqda yaralandığını eşidib ona yaxınlaşdı və kapitanı yaralı vaxtı döyüş bölgəsindən çıxaranlardan biri olduğunu söylədi. Həsrətlilər kimi görüşüb-öpüşdülər. İndi döyüş dostları teztez görüşür, sıx ünsiyyət saxlayırlar. Elə redaksiyamıza da Rafiq Bayramovla birlikdə gəlmişdilər.

**Xatirə cığırı ilə irəliləyən həmsöhbətim daha sonra dedi:**

– Rayonu tərk etməyə məcbur olan camaatımız 1993-cü ilin avqustunda oradan çıxandan sonra, sən demə, Mahmudluda gənc bir ana, 2 oğlu ilə qalmışdı. Bizi görüb kolluqda gizlənmək istədilər. Azərbaycanlı olduğumuzu bildirib dedim ki, qorxmayın, yaxın gəlin. Onları maşına götürüb hələ bizdə olan Maralyan kəndinə gətirdik. O zaman qaçqın düşən bir çox ailəni də Horadizdəki Aslandüz körpüsündən Arazın o tayına – cənuba keçirib hamısını xilas etdik.

1994-cü il yanvarın 27-də Füzulinin Qərvənd kəndi istiqamətində, Qaraqanlı təpəsi uğrunda döyüşdə Aslanın əsgər dostu Elxan Novruzov və daha 37 nəfər əsgərimiz şəhid oldu. O özü başından yaralandı. Həmin mövqeləri Aslangil hələ 1 il əvvəl azad etmişdilər. Bu döyüşlərdə 500-ə yaxın erməni məhv edilmişdi. 4 tank, 1 BMP-ni sıradan çıxarılmışdı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun sərt üzünü görən ermənilər tezliklə atəşkəs bağlamağa razı oldular. Sumqayıta qayıdan Aslangil aylar öncə bu şəhərə pənah gətirmiş ailələrinin yanına qayıdaraq, dinc əməklə məşğul oldular.

Atəşkəsdən sonra onların kiçik qardaşı Rafiqin də bəxtinə eyni batalyonda qulluq etmək düşüb və o, Aslanın pulemyotundan istifadə edib. Xidməti dövründə silahdaşlarına özünün böyük qardaşlarını danışanda heç nə deməsə də, tərxis sənədlərini alanda komandirləri bunu bilib və "Sənin belə igid qardaşların varmış" – deyiblər...

44 günlük Zəfər yürüşündə Silahlı Qüvvələrimizin dünyanı mat qoyan qəhrəmanlıqlarını, Qarabağ və Şərqi Zəngəzurdakı rayonlarımızın bir-birinin ardınca azad olunmasını Səfərovlar həm Tanrının iltifatı kimi qəbul edir, həm də Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəlik məharətinin qürurverici nəticəsi sayırlar.

Redaksiyamıza hərbi libasda gələn Aslan medal və döş nişanlarını da taxmışdı. Dedi ki, qardaşları – AVMVİB Cəbrayıl rayon şöbəsinin sədr müavini İlhamla, taksi sürücüsü olan Qurbanla tez-tez birgə xatirələrə dalırlar. İlham də Aslandan 1 gün sonra döyüşlərdə onun kimi başından yaralanıb, tam müalicə almadan cəbhəyə qayıdıb. Hər ikisi 2-ci qrup əlildir. Səfərov qardaşları səbirsizliklə doğma yurda qayıdışı gözləyirlər.

***Ə.NƏCƏFXANLI***
***XQ***

*Milli Qəhrəman Ələkbər Əliyev – 70*

# Dastana çevrilən qəhrəmanlıq

**Müharibələr dünyanın qəm pəncərəsinin bir gözünü bizim igid, qəhrəman oğullarımıza açdı. Haqq işimiz naminə neçə-neçə övladımız bu pəncərədən bircə baxışla keçib getdi. Azərbaycanın Milli Qəhrəmanı Ələkbər Əliyev kimi…**



Ələkbərlə ilk tanışlığım 1973-cü illərə təsadüf edir. Sumqayıt Kimya Zavodunun şəhərin 22-ci məhəlləsində yerləşən yataqxanasında qalırdım. Otaq yoldaşım Bəşir Behbudovun qohumu idi, politexnik texnikumunda oxuyurdu. Otağımıza gələndə tanış olmuşduq. Ələkbər ilk görüşdən ürəyimə yatmış, mənim üçün doğma və əziz bir adama çevrilmişdi. Mərd və cüssəli idi. Üz-gözündən nur tökülürdü. Sözündən, söhbətindən doymaq olmurdu. Zarafatından da qalmırdı. Doğma Qubadlı dağlarının əzəməti, gül-çiçəkli yamacların ətri, Həkəri və Bərgüşad çaylarına süzülən suların şirinliyi sanki onun vücuduna hopmuşdu. Hər adam onun qolunu əyə bilməzdi…

İllər ötdü, tale yollarımızı ayırdı. Yaxın qohumlarından öyrəndim ki, Ələkbər hərbi xidmətini başa vurduqdan sonra doğma elinə dönüb…

O, 22 dekabr 1955-ci ildə Qubadlı rayonunun İşıqlı kəndində doğulub. Orta təhsilini Muradxanlı kəndində alıb. 1972-ci ildə Sumqayıt Politexnik Texnikumuna daxil olub, 2 il ordu sıralarında xidmət edib. Vətənə döndükdən sonra Qubadlı rayon Kimya Birliyində çalışıb. Bir müddət sovxoz direktorunun müavini işləyib.

1990-cı illərdə xain qonşularımızın torpaqlarımıza göz dikməsi, havadarlarına arxalanıb sərhədboyu kəndlərimizə hücumlar təşkil etməsi Ələkbərə və onun kimi igid oğullarımıza rahatlıq vermirdi. Ələkbər erməni vəhşiliyinə qarşı mübarizə üçün özünümüdafiə dəstəsi yaradaraq ebanın müdafiəsinə qalxır. Döyüşlərdə əsl qəhrəman kimi vuruşurdu.

İşğala məruz qalan torpaqların azad edilməsi Ələkbərin ən böyük arzusu idi. O və silahdaşları Laçın rayonunun Türklər, Səfiyan, Suarası kəndlərində gedən döyüşlərdə onlarla erməni yaraqlısını məhv edirlər. 1992-ci ilin yay aylarında isə Suarası tərəflərdə hərbi əməliyyatlar aparılır. Avqustun 7-də Ələkbərgil ölüm-dirim mübarizəsinə atılırlar. O, burada mühasirəyə düşənlərin köməyinə çatır. Komandir öz əsgərlərini düşmən pəncəsindən xilas etmək üçün əlbəyaxa döyüşə girir. Neçə-neçə erməni quldurunu süngüdən keçirən cəsur döyüşçü qəhrəmanlıqla həlak olur. Şəhidlik məqamına ucalır. Bakıdakı Şəhidlər xiyabanında torpağa tapşırılır.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il dekabrın 7-də imzaladığı fərmanla Ələkbər Həsən oğlu Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhəri, Xətai rayonundakı 204 nömrəli tam orta məktəb indi onun adını daşıyır.

Bəli Ələkbər Vətən yolunda canından keçdi, şəhid oldu. Döyüş yoldaşlarının söylədikləri kimi, Vətənə bağlılıq, düşmənə nifrət, cəsurluq, qəhrəmanlıq sanki onun alnına yazılmışdı. Buna görə də Vətənin dar günündə silaha sarılaraq canını bu yolda qurban verdi.

Onun qəhrəmanlığı dastana çevrildi. Haqqında çoxsaylı məqalələr yazıldı, nəğmələr oxundu. Milli Qəhrəmanımızın həyat və döyüş yolunu əks etdirən "Qəhrəman ömrü" sənədli filmi isə sosial mediada və anım tədbirlərində geniş təqdim olunmaqdadır.

…Sağ qalsaydı, 70 yaşı tamam olacaqdı. Bu ərəfədə onunla bağlı gənclik illərinin xatirələri bir daha gözlərim qarşısında canlandı. Bizim ilk tanışlığımıza körpü salan Bəşir Behbudovla əlaqə saxladım. Dedi ki, Ələkbərin adı ilə fəxr edirik. Dörd uşağı yadigar qalıb. Hamısı ailə qurub, ev-eşik sahibi olub. Nəvələrinin birinin adını Ələkbər qoyublar. Həyat yoldaşı Reyhan Zeyniyeva qaçqınlıq həyatı yaşasa da, uşaqlarının korluq çəkməsinə imkan verməyib. Zəhmətə qatlaşaraq onları böyüdüb, ailə, oğul-uşaq sahibi eləyib.

Ruhun şad, 70 yaşın mübarək olsun, Qəhrəman şəhidim!

***Sübhan QULİYEV,***
***"Sumqayıt" qəzetinin baş redaktoru***

# "1 şəhid, 1 hekayə, 1 şeir"



**Sumqayıt Muğam Mərkəzində "1 şəhid, 1 hekayə, 1 şeir" kitabının 4-cü cildinin təqdimat mərasimi keçirilib.**




Xatırladaq ki, daha öncə Türkiyədə bu layihə üzrə kitabın 3 cildi nəşr olunub. Həmin cildlərdə qardaş ölkənin şəhidləri haqqında hekayələr və onlara ithaf edilən şeirlər yer alıb. İdeya müəllifinin yazıçı Harun Yıldırım olduğu layihənin Azərbaycan üzrə əlaqələndiriciləri İlhamə və Namiq Müslümovlardır. Birinci Qarabağ müharibəsi qazisi Anar Əliyevin maddi dəstəyi ilə çap olunan növbəti cilddə isə 59 müəllifin 62 şəhidin ömür yolundan bəhs edən yazıları öz əksini tapıb.

Təqdimat mərasimində Azərbaycan və Türkiyədən rəsmi şəxslər, yazarlar, mədəniyyət xadimləri və şəhid ailələrinin üzvləri iştirak ediblər. Əvvəlcə layihənin məqsədi açıqlanıb və şəhidlərin xatirəsinin ədəbiyyat vasitəsilə yaşadılmasının ictimai-mənəvi əhəmiyyəti vurğulanıb. Bildirilib ki, bundan əvvəl cildlər Bakıda, Naxçıvanda və Zaqatalada da təqdimatları keçirilib.

Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin və Sumqayıt Poeziya Evinin direktoru İbrahim İlyaslı çıxış edərək kitabın mənəvi və tarixi önəmindən danışıblar. Sumqayıt Şəhər İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Fərman Kazımov, Müdafiə Nazirliyinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər Baş İdarəsinin şöbə rəisi İlqar Qurbanov, Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin din xidmətləri üzrə müşaviri İhsan Açıq bəy, Sumqayıt Tibb Mərkəzinin ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Ramil Zeynallı və digər çıxışçılar ölməz qəhrəmanlara əbədi ehtiramın mənəvi borcumuz olduğunu qeyd edib, layihənin ərsəyə gəlməsində zəhməti olan hər kəsə təşəkkürlərini bildiriblər.

Sonra kitabda həyat hekayələri yer almış, Sumqayıt şəhəri, Abşeron və Xızı rayonlarının yetirmələri olan şəhidlərin ailə üzvləri və onların təhsil aldıqları orta məktəblərin direktorları səhnəyə dəvət olunublar və onlara kitabın nüsxələri təqdim edilib.

Tədbirin ədəbi-bədii hissəsində tanınmış müğənnilər vətənpərvər mahnılar ifa edib, qiraət ustaları isə kitabda yer alan şeirləri səsləndiriblər. Sonda kitabda gedən yazıların müəllifləri səhnəyə dəvət olunaraq alqışlanıblar.

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general Polad Həşimovun anası Səmayə Həşimovanın kitab haqqında dedikləri:

- Çox gözəl təqdimatlar oldu. İstərdik ki, bu cür layihələr daha sistemli davam etsin. Şəhidlərimiz unudulmasın, dünya durduqca yaşasınlar.

Qeyd edək ki, artıq "1 şəhid, 1 hekayə, 1 şeir" layihəsinin 5-ci cildinin hazırlanmasına başlanılıb.

***XQ***

# Masallı igidi – Şuşa şəhidi

**Kimin hansı bölgədə doğulmasından, yaşamasından asılı olmayaraq, söhbət Vətəndən düşəndə hamının bir yumruq kimi birləşməsinin şahidiyik. Bu, o zaman idi ki, 30 ildən bəri işğal altında qalan ərazilərini azad etmək fürsəti yaranmışdı. Həmin günlər sən, mən yox idi, haralı sözü keçmirdi. Hamı QARABAĞLI idi. Hamı birləşib BİZ olmuşdu. Və möhtəşəm Qələbə igid döyüşçülərimiz, qan tökən, can verən oğullarımız sayəsində qazanıldı. Bu gün belə oğullardan biri – şəhid Məmmədağa haqqında söz açmaq istədik…**



Məmmədağa Həsənağa oğlu Bağırov 1997-ci il dekabrın 2-də Masallı rayonunun Xoşçobanlı kəndində dünyaya göz açıb. 2004-cü ildə şəhid Rasim Əliyev adına Mollahəsənli kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 2015-ci ildə təhsilini başa vurub və çağırışçı kimi 2016-cı ilin yanvar ayında Masallı Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

2017-ci ilin iyul ayında həqiqi hərbi xidmətini Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində başa çatdırıb və doğulduğu rayona qayıdıb. Artıq "əsgərlik" həyatının dadını görən Məmmədağa böyük həsrətlə işğalda olan torpaqlarımızın azadlığı uğrunda savaşın başlanacağını gözləyib. Çünki hərbi xidmətdə olan müddətdə artıq silahla davranmağı mükəmməl öyrənmişdi.

Nəhayət, o gün yetişir. Ali Baş Komandanın əmri ilə Ermənistan ordusunun sərhədboyu törətdiyi təxribatlarına qarşı əks-hücum əməliyyatları başlayır. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Məmmədağa Bağırov da digər yaşıdları kimi 27 sentyabr 2020-ci ildə erməni işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsinə qatılır. Məmmədağa savaşa Füzuli istiqamətində gedən döyüşlərdən başlayıb və mərdliklə döyüşüb, verilən tapşırıqlara layiqincə əməl edib. Onun sonrakı döyüşləri Cəbrayılda olub. Hava şəraitinə baxmayaraq, onlar gecə-gündüz bilmədən daim işğaldan azad edilən ərazilərdə ayıq-sayıq dayanıb, addım-addım irəliləyiblər. Kəndlər, rayonlar bir-bir işğaldan azad edildikcə, Məmmədağanın da digər döyüşçü yoldaşları kimi qələbəyə inamı artıb. Xocavənddə gedən ağır döyüşlərdə yüngül xəsarət alsa da, bölük komandirinə dayanmadan irəli getmək arzusunda olduğunu bildirib. Nəhayət, rütbəsindən asılı olmayaraq Vətən müharibəsində iştirak edən hər kəs kimi, Məmmədağanın da Şuşanın azadlığı uğrunda döyüşmək arzusu həyata keçib. Amma o, Şuşanın işğaldan azad edildiyini görməyib. Şuşa ətrafında gedən döyüşlərdə noyabrın 6-da qəhrəmancasına şəhid olub. Xeyli vaxt sonra nəşi tapılıb və 24 noyabr 2020-ci il tarixində böyüyüb boy atdığı Masallı rayonunun Xoşçobanlı kəndində izdihamla torpağa tapşırılıb.

Şəhidin anası Nənəbacı Bağırova oğlunun humanistliyindən, yardımsevərliyindən, imanlı olmağından danışır. Deyir ki, "Məmmədağa qəfil tapılma övlad idi bizim üçün. Allah onu bizə gözləmədiyimiz bir vaxtda hədiyyə vermişdi, qəfil də əlimizdən alıb apardı. Balam o qədər vətənpərvər, sülhsevər, yumşaq təbiətli, dinə bağlı, yardımsevər övlad idi ki... Oğlum nişanlı idi. Hər ayda bir dəfə, əməkhaqqını alanda müəyyən qədər pul ayırıb nişanlısı ilə birlikdə uşaq evlərinə gedərdilər. Məmmədağa "oradakı uşaqları sevindirməkdən böyük savab yoxdur", – deyərdi".

Atası Həsənağa Bağırov deyir: "Məmmədağa kimi oğullar bizim əyilən qəddimizi dikəltdilər. Onlar qəhrəmanlıqları ilə bir ailənin yox, bütün xalqın övladı olduqlarını sübut etdilər. Bizə qələbə sevincini yaşadan şəhidlərimizin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Allah Məmmədağa ilə birlikdə bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Mən balamı digər şəhidlərdən ayırmıram. Onlar qısa ömür sürdülər, amma şərəflə yaşadılar. Qürurumuzu qaytarıb üzümüzü ağ, başımızı uca etdilər".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamlarına əsasən, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Məmmədağa Həsənağa oğlu Bağırov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***Zərifə HÜSEYNOVA***
***XQ***




## Yeni il hədiyyələrinə keyfiyyət nəzarəti



**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ticarət şəbəkələrində satışa çıxarılan Yeni il hədiyyə qutuları və məhsulları ilə bağlı monitorinqləri davam etdirir.**

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən XQ-yə verilən məlumata görə, dekabrın 11-27-də keçirilən monitorinqlər zamanı 347 sahibkarlıq subyektində 21 min 182 məhsula baxış keçirilib.

Belə ki, 86 obyektdə qutuların üzərində etiket məlumatlarının olmadığı və yaxud düzgün aparılmadığı müəyyən edilib.

Aşkarlanan uyğunsuzluqlarla əlaqədar mövcud tələblərə cavab verməyən 3 min 68 ədəd hədiyyə qutusu müvafiq qaydada aktlaşdırılaraq satışdan kənarlaşdırılıb.

Nəzarət tədbirləri davam etdirilir.

Xatırladırıq ki, qəzetimizin ötən nömrələrinin birində bu mövzu gündəmə gətirilmiş, Yeni ilin şirinliyini və yüksək dəyərini ifadə edən hədiyyələrin bəzən keyfiyyətsiz hazırlanmasından söhbət açılmışdı.

***XQ***

## Partlayıcı vasitələri satanlar kimlərdir?

**Polis əməkdaşları tərəfindən ölkə ərazisində pirotexniki vasitələrin satışını təşkil edən şəxslərə qarşı növbəti tədbirlər həyata keçirilib.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, ötən gün paytaxt və bölgələrdə keçirilən tədbirlərlə pirotexniki vasitələrin satışı ilə məşğul olan daha 12 nəfər müəyyən olunaraq saxlanılıb. Onlardan müxtəlif növ yüksək səs və işıq effekti yaradan pirotexniki vasitələr aşkarlanıb.

Polis əməkdaşları tərəfindən pirotexniki vasitələrin satışının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.

***XQ***

# Dövlət Neft Fondu – milli sərvətimizin baş xəzinəsi

## *Qurumun məramı bu günün qazancından gələcəyə ehtiyat yaratmaqdır*

**Milli Məclisin qərarına əsasən, Azərbaycanın 2026-cı il dövlət büdcəsi təsdiqlənib. Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) 2026-cı il büdcəsi ilə bağlı fərman imzalayıb. Fərmana əsasən, gələn il Fondun büdcə gəlirlərinin 13 milyard 32,3 milyon manat olması nəzərdə tutulur. ARDNF-in büdcə xərcləri isə 13 milyard 16 milyon manat səviyyəsində proqnozlaşdırılır və bu göstərici 11 faiz azalma deməkdir.**

***Ekspert rəyi***



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlərin məbləği məqsədli şəkildə tənzimlənir. Bu il fonddan, təxminən, 12–13 milyard manatlıq vəsait götürülməsi planlaşdırılıb ki, bu da keçən illə müqayisədə bir qədər azdır. Fondun xərclərinin azalmasının əsas məqsədi gələcək nəsillər üçün rezervlərin qorunmasıdır.

Fondun fəaliyyəti üç əsas prinsiplə idarə olunur: makroiqtisadi sabitliyin təmin olunması, vətəndaşların cari rifahının dəstəklənməsi və fondun vəsaitlərinin gələcək nəsillərə ötürülməsi. Məhz buna görə də bütün vəsaitin bir il ərzində istifadə olunması deyil, sabit şəkildə idarə olunması üstünlük təşkil edir.

Xərclərin azalmasında həmçinin iki iqtisadi amil rol oynayır: neft hasilatının azalması və neft qiymətlərinin proqnozlaşdırılan səviyyədən aşağı olması. Bu amillər nəzərə alınaraq Fondun gəlirləri də az proqnozlaşdırılıb.

Beləliklə, Dövlət Neft Fondu ölkənin həm cari sosial-iqtisadi inkişafına, həm də gələcək nəsillərin rifahına xidmət edən mühüm maliyyə mexanizmi olaraq fəaliyyətini davam etdirir.




Bundan başqa, 2026-cı il dövlət büdcəsində Dövlət Neft Fondundan transfertin məbləği 12 milyard 835 milyon manat müəyyən edilib. Bu rəqəm 2025-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 11,4 faiz azdır.

Qeyd edək ki, ARDNF ümummilli lider Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli Fərmanına əsasən yaradılıb. ARDNF ölkənin neft və qaz sektorundan əldə olunan gəlirlərin toplanması, səmərəli idarə olunması və gələcək nəsillər naminə qorunub saxlanılması məqsədilə fəaliyyət göstərir. Fond büdcədənkənar və müstəqil dövlət təsisatı statusuna malikdir. Fəaliyyət göstərdiyi müddət ərzində ARDNF nüfuzlu maliyyə qurumuna çevrilib.

Bu il sentyabrın 30-na olan göstəriciyə əsasən Fondda 70 milyard 161,7 milyon ABŞ dolları məbləğində vəsait mövcuddur. ARDNF həmin vəsaitləri səmərəli şəkildə idarə edir və ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm layihələrin maliyyələşdirilməsini təmin edir. Fond ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərinə asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təşviqi istiqamətində mühüm addımlar atır. Bu il fevralın 18-də Dövlət Neft Fondu ABŞ-ın "BlackRock" şirkətinə bağlı "Global Infrastructure Partners" investisiya fondu ilə əməkdaşlıq edərək, İtaliyanın aparıcı yüksəksürətli dəmir yolu operatoru "Italo – Nuovo Trasporto Viaggiatori S.p.A (Italo)" şirkətinə 34,5 milyon avro həcmində sərmayə qoyub.

Qeyd etmək lazımdır ki, son üç il ərzində, bu ilin üçüncü rübünün sonuna qədər, Fondun investisiya gəlirləri 10 milyard ABŞ dollarını keçib. Eyni müddətdə vəsaitlərin idarə olunması nəticəsində investisiya gəlirlərinə əlavə olaraq, qızıl qiymətlərindəki artım və valyuta məzənnələrindəki dəyişikliklər nəzərə alınaraq Fondun ümumi gəlirləri 21 milyard ABŞ dolları səviyyəsinə çatıb və nəticədə ARDNF-nin ehtiyatları 43 faiz artıb.

Cari ilin yanvar-sentyabr ayları ərzində Fondun büdcə gəlirləri 13 milyard 73,5 milyon manat, büdcə xərcləri isə 10 milyard 917,8 milyon manat təşkil edib. Eyni dövrdə Fondun neft və qaz sazişlərindən gəlirləri 7 milyard 837,7 milyon manat olub. Bunun 7 milyard 68,8 milyon manatı mənfəət nefti və qazın satışından, 765,3 milyon manatı bonus ödənişləri və tranzit gəlirlərdən, 3,6 milyon manatı isə akrhesabı ödənişlərdən formalaşıb.

Cari ilin yanvar-sentyabr aylarında ARDNF-nin idarəetmə gəlirləri 5 milyard 235,7 milyon manat, xərcləri isə 22,9 milyon manat səviyyəsində olub. Eyni dövrdə "Azəri-Çıraq-Günəşli" yatağından 6 milyard 183,9 milyon manat, "Şahdəniz" yatağından isə qaz və kondensat satışlarından 697 milyon manat gəlir əldə edilib.

***

ARDNF ölkənin sosial-iqtisadi inkişafına xidmət edən ən vacib layihələrin maliyyələşdirilməsində əsas rol oynayır. Fondun vəsaitləri hesabına qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması, strateji infrastruktur layihələrinin tikintisi və rekonstruksiyası, beynəlxalq enerji və nəqliyyat dəhlizlərinin inkişafı, həmçinin su təchizatı və suvarma sistemlərinin genişmiqyaslı layihələri uğurla həyata keçirilib.

Prezident İlham Əliyev neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinə, xüsusən qeyri-neft sektorunun inkişafına və insan kapitalının formalaşdırılmasına yönəldilməsini prioritet vəzifə kimi müəyyən etmişdir. Bu siyasət çərçivəsində Fondun maliyyə resursları istehsal sahibkarlığının dəstəklənməsi, yeni müəssisələrin yaradılması və işsizliklə mübarizə, eyni zamanda, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə istifadə olunur.

Qeyd edək ki, ARDNF investisiya portfelinin diversifikasiyası və gəlirliliyinin artırılması məqsədilə Prezident İlham Əliyevin 2011-ci il 27 oktyabr tarixli Fərmanına əsasən qəbul edilmiş investisiya siyasətinə uyğun, portfelin 10 faizə qədər hissəsi daşınmaz əmlaka yatırıla bilər. ARDNF ilk daşınmaz əmlak investisiyalarını 2012-ci ildən etibarən birbaşa investisiyalar şəklində həyata keçirməyə başlayıb.

Fond Avropanın London, Moskva, Paris, Milan kimi bir sıra önəmli şəhərlərində, eləcə də Asiyada Seul və Tokio şəhərlərində yerləşən ofis və ticarət komplekslərinə investisiyalar yatırıb. 2015-ci ildən etibarən isə ARDNF özəl daşınmaz əmlak fondlarına investisiyalar yatırmağa başlayıb. Fond investisiyaları daşınmaz əmlak portfelinin əhəmiyyətli hissəsini təşkil edir.

***Musa BAĞIRLI***
***XQ***




*Qərbi Azərbaycana qayıdış*

# İrəvanda xalq qalmadı...

*Amma Xankəndi kimi, bu şəhərə də qayıdacağıq*

**İrəvan… Bu ad təkcə bir şəhərin yox, bir xalqın yaddaşının, taleyinin və qırılmış tarixinin adıdır. İrəvan əsrlər boyu Qafqazın türk-müsəlman mədəniyyətinin əsas mərkəzlərindən biri olmuş, Azərbaycan tarixinin ayrılmaz parçası kimi formalaşmışdır. Lakin bu həqiqət zamanla məqsədli şəkildə unutdurulmuşdur.**

Tarix susanda yalan ayaq açır. İrəvanın taleyi də məhz bu susqunluğun qurbanı olub.

Tarixi mənbələr təsdiqləyir ki, İrəvan xanlığı XVIII əsrdə Azərbaycanın müstəqil siyasi qurumlarından biri olmuşdur. Şəhərin idarəetmə sistemi, əhali tərkibi, iqtisadi və mədəni həyatı bu torpağın türk-müsəlman kimliyini açıq şəkildə əks etdirirdi. İrəvan qalası, Göy məscid, Sərdar sarayı, karvansaralar və məhəllələr, sadəcə, memarlıq nümunələri deyildi, bu şəhərin kimliyini təsdiqləyən canlı tarix idi.

XIX əsrin əvvəllərindən etibarən regionda aparılan məqsədli siyasət İrəvanın taleyini dəyişdirdi. 1828-ci il Türkmənçay müqaviləsindən sonra bölgəyə kütləvi şəkildə ermənilərin köçürülməsi təsadüfi proses deyildi, planlı və mərhələli siyasətin nəticəsi idi.

### *Deportasiyalar və etnik təmizləmə*

XX əsr isə İrəvan türkləri üçün ən ağır mərhələ oldu. 1905–1906, 1918–1920 və xüsusilə də 1948–1953-cü illərdə həyata keçirilən deportasiyalar minlərlə azərbaycanlının doğma yurdundan zorla çıxarılması ilə nəticələndi. Ailələr parçalandı, evlər tərk edildi, məzarlar sahibsiz qaldı. İrəvanın türk kimliyi təkcə insanlardan deyil, izlərdən də təmizləndi. Məscidlər dağıdıldı və ya təyinatı dəyişdirildi, qəbiristanlıqlar məhv edildi, türk mənşəli toponimlər silindi. Şəhərin tarixi yaddaşı sistemli şəkildə yenidən yazıldı. Bu, sadəcə, urbanistik dəyişiklik deyildi, bir xalqın tarixdən çıxarılmaq cəhdi idi.

Bu adın çəkilməsi bu gün bəzilərini narahat edir. Çünki İrəvan, sadəcə, bir şəhər deyil, gizlədilmiş tarix, məqsədli şəkildə susdurulmuş yaddaşdır. Bu gün Ermənistanın paytaxtı kimi təqdim edilən İrəvan əsrlər boyu Azərbaycan xalqının siyasi, mədəni və mənəvi coğrafiyasının mərkəzlərindən biri olmuşdur. Bu faktı danmaq tarixi danmaqdır. Tarixi danmaq isə yalnız həqiqətdən qorxanların işidir.

### *İrəvanın itirilməsi nə demək idi?*

İrəvanın itirilməsi Qafqazda tarixi balansın pozulması, regionun mədəni xəritəsinin zorla dəyişdirilməsi, tarixi ədalətsizliyin legitimləşdirilməsi cəhdi idi. Tarixlə mübarizə aparmaq mümkün olmasa da, onu susdurmağa çalışdılar.

İrəvan bir zamanlar Qarsla, Naxçıvanla, Tiflis və Təbrizlə eyni mədəni coğrafiyanın tərkib hissəsi idi. Onun qoparılması yalnız bir xalqın yox, bütöv regionun tarixini yarımçıq qoydu.

Bu gün İrəvan haqqında danışmaq bəziləri üçün "keçmişə qayıdış" kimi görünə bilər, amma əslində bu, tarixi həqiqətin bərpasına çağırış, gələcəyə məsuliyyətlə baxmaqdır. Tarixlə üzləşmədən sağlam gələcək qurmaq mümkün deyil. İrəvan məsələsi təkcə siyasi mövzu deyil, mənəvi borc, bir xalqın yaddaşının silinməsinə etirazdı.

Bu, nəsillərin yaddaşı, didərgin salınmış ailələrin taleyi, viran qalmış qəbiristanlıqların sükutudur. Bir şəhərin tarixdən silinməsi mümkün deyil, onu yalnız müvəqqəti ört-basdır etmək olar.

### *Tarix faktlarla danışır*

İrəvan şəhəri XVIII əsrdə İrəvan xanlığının paytaxtı idi. Bu xanlıq Azərbaycan dövlətçilik tarixinin ayrılmaz hissəsidir. Bu, arxiv sənədlərində, səyyahların qeydlərində rəsmi statistik hesabatlarda açıq şəkildə görünür.

İrəvan qalası Azərbaycan xanlarının iqamətgahı, Göy məscid şəhərin mədəni-dini mərkəzi, Sərdar sarayı isə dövlətçilik simvolu idi. Bu faktlar nə mifdir, nə də emosional iddia. Bunlar tarixi sənədlərlə təsdiqlənmiş həqiqətlərdir.

Bəs bu həqiqətlər niyə bu gün unudulur, ya da bilərəkdən gizlədilir?

Cavab sadədir: çünki İrəvanın həqiqi tarixi bugünkü siyasi narrativə uyğun gəlmir.

İrəvanın taleyində dönüş nöqtəsi 1828-ci il Türkmənçay müqaviləsindən sonra başladı. Bu tarixdən etibarən regionda məqsədli etnodemoqrafik dəyişiklik həyata keçirildi. Minlərlə erməni İran və Osmanlı ərazilərindən köçürülərək İrəvan və ətraf ərazilərdə yerləşdirildi. Bu, humanitar köç deyil, siyasi layihə idi. Məqsəd bölgənin etnik balansını dəyişmək, gələcək iddialar üçün zəmin yaratmaqdı.

XX əsr isə bu siyasətin ən qəddar mərhələsi oldu.

1905–1906-cı illərdə baş verən hadisələr, 1918–1920-ci illərdə törədilən qırğınlar, 1948–1953-cü illərdə həyata keçirilən deportasiyalar bir xalqın izlərinin doğma yurdundan sistemli şəkildə silinməsi idi. Azərbaycanlılar İrəvandan tədricən yox edildi, şəhər türksüzləşdirildi.

Bu, spontan proses deyil, dövlət siyasəti idi.

### *Yaddaşın işğalı*

İrəvanda təkcə insanlar deportasiya olunmadı. İrəvanda tarix deportasiya edildi. Türk izləri silindi. Məscidlər dağıdıldı, qəbiristanlıqlar yerlə-yeksan edildi, toponimlər dəyişdirildi.

Bu, urbanizasiya yox, mədəni soyqırımı idi.

Bu gün İrəvanda bir zamanlar onlarla məscidin olduğu faktı niyə xatırladılmır? Niyə İrəvanın XIX əsrdə əsasən müsəlman şəhəri olduğu rəsmi diskursdan çıxarılıb? Niyə Qafqazın bu qədim şəhəri "əsrlər boyu erməni şəhəri" kimi təqdim edilir? Çünki yalan təkrarlandıqca, "normal" görünür. Amma bu, həqiqəti dəyişmir.

Bu gün dünyada tarixi ədalətdən danışanlar niyə İrəvan məsələsində susurlar? Məcburi köçkünlərin hüquqlarını müdafiə etdiyini deyən beynəlxalq qurumlar niyə İrəvandan deportasiya olunmuş yüz minlərlə türkü görməzdən gəlirlər? Əgər tarix selektiv yanaşma ilə oxunursa, bu artıq tarix deyil, siyasi manipulyasiyadır.

İrəvan məsələsi təkcə Azərbaycanla Ermənistan arasında problem deyil. Beynəlxalq hüququn, tarixi ədalətin və vicdanın problemidir.

Tarixlə üzləşməyən cəmiyyət sağlam gələcək qura bilməz.

### *Ümummilli cəbhə*

İrəvan nənələrin xatirələrində, ailə albomlarında, ata-babaların danışdığı hekayələrdə yaşayır. Bu yaddaşı nə xəritədən silmək, nə də rəsmi dərsliklərdən çıxarmaq mümkündür. Bu yaddaşı heç bir siyasi qərar, heç bir inzibati sərhəd silə bilməz. Çünki yaddaş torpaqdan güclüdür. Torpaq işğal oluna bilər, amma yaddaş işğal olunmur.

Tarix gec də olsa danışır. Amma yalnız onu xatırlayanlar olduqda danışa bilir. İrəvanı xatırlamaq bizim haqqımız, susmamaq isə borcumuzdur. Çünki susan xalqın tarixini başqaları yazır. Və o tarix adətən həqiqət olmur.

Bu gün dünyada tarixi ədalət anlayışı getdikcə daha çox müzakirə olunur. İnsan haqları, məcburi köçkünlərin taleyi, tarixi ədalətsizliklərin tanınması qlobal gündəmin əsas mövzularındandır. Bu kontekstdə İrəvan məsələsinin də unudulmaması, beynəlxalq ictimaiyyətə doğru şəkildə çatdırılması vacibdir.
Susmaqla həqiqət qorunmur.

İrəvan yaddaşımızda yaşadıqca, həqiqət də yaşayacaq. Həqiqət yaşadıqca isə tarix, gec də olsa, ədalət tələb edəcək.

**İrəvan itirildi, amma unudulmayacaq.**

***Gülgün Mübariz QULİYEVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# "Bakı Ağ Şəhər"in yenilikləri "Euronews" ekranında

**"Euronews" kanalı Bakı şəhərində həyata keçirilən urban yenidənqurma layihələrindən biri olan "Bakı Ağ Şəhər" barədə videoreportaj yayımlayıb.**

Telesüjetdə "Bakı Ağ Şəhər" genişmiqyaslı şəhərsalma transformasiyasının mühüm nümunəsindən biri kimi təqdim olunub. Bildirilib ki, "Bakı Ağ Şəhər" vaxtilə ciddi şəkildə çirklənmiş sənaye zonası olmuş ərazinin müasir, davamlı və piyadayönümlü yaşayış məkanına çevrilməsinin nümunəsidir. Layihə gündəlik şəhər həyatının rahat təşkili prinsipi əsasında planlaşdırılıb və yaşayış, ticarət və mədəni məkanları bir-birinə yaxın məsafədə birləşdirir.

Reportajda qeyd edilib ki, ərazinin planlaşdırılması avtomobillərdən asılılığın azaldılmasına, piyada hərəkətinin təşviqinə və rahat yaşayış mühitinin yaradılmasına xidmət edir. Davamlı memarlıq həlləri, yaşıl zonalar və ictimai incəsənət elementləri "Bakı Ağ Şəhər"də gündəlik həyatın əsas hissəsinə çevrilib.

Təqdim edilən kadrlarda yerli biznesin və sahibkarların məhəllə kimliyinin formalaşmasında mühüm rol oynadığı, sakinlər üçün bu ərazidə ailə həyatı, sosial ünsiyyət və ümumi rifah üçün əlverişli şərait yaradılmasından söhbət açılıb.



"Euronews"un Bakı reportajında şəhərdə insan mərkəzli şəhərsalma yanaşmasının uğurlarına da diqqət yetirilib.

***XQ***


## "AZƏR-ASİYA MÜŞTƏRƏK SIĞORTA ŞİRKƏTİ" ASC səhmdarlarının nəzərinə!

2026-cı il fevralın 2-si saat 11:00-da "AZƏR-ASİYA MÜŞTƏRƏK SIĞORTA ŞİRKƏTİ" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir (VÖEN-1400335181).

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin ləğv olunması və bundan irəli gələn məsələlərin həll edilməsi.

Gündəliyin məsələlərinə aid materiallarla ümumi yığıncağın keçirilməsinə 1 iş günü qalmış, hər iş günü saat 11:00-dan 13:00-dək cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Səhmdarlar şəxsiyyətini təsdiq edən sənəd, nümayəndələr isə müvafiq qaydada rəsmiləşdirilmiş etibarnamə təqdim etməlidirlər.

Ümumi yığıncaqda iştirak etmək üçün səhmdarların qeydiyyatı yığıncağın başlanmasına 30 dəqiqə qalmış aparılacaqdır.

**Əlaqə telefonu: +994 51-252-00-74.**

**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyov küçəsi 30.**

## "Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!

2 fevral 2026-cı il saat 11:00-da Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti 1965-ci məhəllə, "Çinar Park" Biznes Mərkəzi, bina 1, 413 nömrəli ünvanda yerləşən ofisdə "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Nizamnaməyə dəyişiklik edilməsi barədə müzakirə

**2.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı saat 12:00-dək tanış ola bilərlər.

**E-mail: info@finexkredit.az**

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Z.Bünyadov prospekti 1965-ci məhəllə, "Çinar Park" Biznes Mərkəzi, bina 1, 413 nömrəli ofis.**

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

## Bakı Slavyan Universiteti

*Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə elan edir*

**1. Məktəbəqədər və ibtidai təhsil kafedrası üzrə – 1 yer.**

**2. Tibbi biliklərin əsasları və mülki müdafiə kafedrası üzrə – 1 yer.**

**Qeyd:** müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər yalnız 1, 4, 5, 6, 7 və 8-ci bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):

**1.** Rektorun adına ərizə.
**2.** Kadrlar uçotunun şəxsi vərəqəsi.
**3.** Tərcümeyi-hal.
**4.** Ali təhsil haqqında diplomun surəti.
**5.** Elmi dərəcə haqqında diplomun surəti.
**6.** Elmi ad haqqında diplomun surəti.
**7.** Elmi və elmi metodiki işlərin siyahısı.
**8.** Kafedra müdirinin kafedranın inkişafı ilə bağlı platforması.

**Telefon: (012) 599-08-70, daxili nömrə 208.**
**Ünvan: AZ 1014, Bakı şəhəri, S.Rüstəm küçəsi 33.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 275 (30969) 31 dekabr 2025-ci il, çərşənbə

## İDMAN

### Boksçularımızın medalları ikiqat artıb

**2025-ci il Azərbaycan boksu üçün uğurlu olub və bu il boksçularımız yarışlarda ötən ilə nisbətən, təxminən, 50 faizdən çox olmaqla, ümumilikdə, 231 medal qazanıblar.**




Bunu Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayev federasiyanın bu ilin yekunları və gələnilki hədəflərə həsr olunmuş mərasimdə bildirib.

Federasiya prezidenti əldə olunan uğurlara görə idmançıları və əməyi olan hər kəsi təbrik edərək cari ildə müxtəlif yaş qrupları üzrə milli komandaların 47 yarışda əldə etdikləri 231 medalın 69-nun qızıl, 60-nın gümüş, 102-nin isə bürünc olduğunu diqqətə çatdırıb.

Sahil Babayev rəsmi yarışlarda da ciddi irəliləyişlərə nail olunduğunu qeyd edib. Bildirib ki, boksçularımız World Boxing, IBA təşkilatlarının Avropa və dünya çempionatlarında 60 medal qazanıblar. Bu da ötənilki göstəricidən 3,5 dəfə çoxdur. 19 yaşlı Sübhan Mamedov isə həm U-23 Avropa çempionu, həm də dünya çempionu tituluna yiyələnib. Cari ildə qazanılan qızıl medalların sayı da 57 faiz artaraq 69-a yüksəlib. Qadın boksçularımız isə bu il əvvəlki ilə nisbətən medal sayını 2 dəfəyə yaxın artıraraq 55-ə çatdırıblar.

### AIPS: İlin ən yaxşı idmançıları...



**Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AIPS) 2025-ci ilin ən yaxşı idmançılarının adlarını açıqlayıb. Səsvermədə 121 ölkədən, ümumilikdə, 836 jurnalist iştirak edib.**

Kişi idmançılar arasında mükafata 1182 xalla isveçli atlet, şüvüllə tullanma üzrə ikiqat Olimpiya çempionu Armand Düplantis layiq görülüb. O, bu il Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanmaqla yanaşı, karyerasında 14-cü dəfə yeni dünya rekordu müəyyənləşdirib. İkinci yeri dünyanın bir nömrəli tennisçisi, ispaniyalı Karlos Alkaras (784 xal) tutub. İlk "üçlüy"ü Fransanın PSJ klubunun futbolçusu, "Qızıl Top" mükafatının son qalibi Usman Dembele (713 xal) tamamlayıb.

İspaniya millisinin futbolçusu Aytana Bonmati (824 xal) qadın idmançılar arasında ilin ən yaxşısı seçilib. Keniyalı atlet Beatris Çebet (453 xal) ikinci, qadın tennisçilər arasında dünyanın bir nömrəli raketka ustası belaruslu Arina Sabalenka (446 xal) isə üçüncü olub.

### "Misli"nin lider hakimi

**Misli Premyer Liqasının 2025/2026 mövsümünün ilk yarısında FIFA referisi Əliyar Ağayev ən çox oyun idarə edən hakim olub. 38 yaşlı ədalət təmsilçisi 16 turun 10-da nəzarət edib.**



Fərid Hacıyev və Cavid Cəlilov (hər ikisi 9) növbəti sıralarda yer alıblar.

Mövsümün ilk yarısında gerçəkləşən 95 matçı 14 referi idarə edib.

XIV turun "Qəbələ" – "Turan Tovuz" qarşılaşması qatı duman səbəbindən təxirə salınıb. Həmin görüş yeni oyun kimi keçiriləcəyinə görə siyahıya daxil edilməyib. Qeyd edək ki, Qəbələdə yarımçıq dayandırılan görüşə Tural Qurbanov təyinat almışdı.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 1998-ci il yanvarın 9-da Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 1012 nömrə ilə qeydiyyata alınmış "Kamillik" cəmiyyətinin nizamnaməsi itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin direktor-baş redaktoru Əflatun Amaşov və müavini Tahir Aydınoğlu Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Pirallahı rayonundan Vasif İmanov Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Respublikası Milli Məclisinin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*Yeni ilə gülə-gülə...*

# İlqovuşanın təbəssüm sovqatı

**Xeyrəddin QOCA**

### Yuxu

Yeni ilqabağı qəribə bir yuxu görmüşəm, ərz eləyim qulluğunuza, görüm bu yuxunu necə yozursunuz.

Yuxuda görürəm ki, yüz il əvvəl dünyaya göz açmışam. Görürəm "Molla Nəsrəddin" adında bir jurnal çıxır, səs-sorağı aləmə yayılıb. Fikirləşirəm ayə, bu jurnal niyə belə məşhuri-cahan olub? Götürüb vərəqləyirəm, görürəm paho, burada nələr yazılmayıb?!

Daha millətin əyər-əskiyi qalmayıb, hamısı aləmə faş olub. Molla, tacir, it boğuşduran, xoruz döyüşdürən, quşbaz, fala baxan, rəml atan, yalançı, yaltaq, fırıldaqçı, əliəyri, rüşvətxor, ağılsız, axmaq, bir sözlə, "şəngülüm", "şüngülüm" hamısı ələ salınıb. Camaat da oxuyub gülür. Camaata nə var ey, onlara gülmək olsun…

Sonra yuxuda görürəm ki, yaşaya-yaşaya gəlib çatmışam indiki zamanlara. Qəzet-jurnal o qədər çoxdur ki, oxuyub qurtarmaq olmur. Qələm əhli "Molla Nəsrəddin" kimi yaza bilməsə də, millətin çatışmazlıqlarından ağına-bozuna baxmadan, o ki var, yazır.

Keçmişdə pis əməllərlə məşğul olanların çoxu indi molla olub, it boğuşduranlar yenə it boğuşdururlar, xoruz döyüşdürənlər yenə xoruz döyüşdürürlər, quşbazlar quşbazlıqlarıynan məşğul olurlar, fala baxanlar kompüterdə fala baxırlar, rəml atanlar ekstrasenslik edirlər, yalançılar yalanlarının doğru olduğunu sübuta yetirmək üçün dəridən-qabıqdan çıxırlar, fırıldaqçılar təzə üsullar tapıblar, əliəyrilər, rüşvətxorlar böyük-böyük vəzifələr tutublar, "şəngülüm", "şüngülüm"lər əməlli-başlı adam olublar.

O bunu söyür, bu da onu. Qalmışam mat-məəttəl. Yüz ildə nə dəyişildi ki?

Görəsən, bu yuxunu yozan tapılacaqmı?



### Qəmiş qoyma…

Peşman oluram ağzımı açıb bir kəlmə söz deyirəm, yaxud əlimə qələm alıb eyiblərdən yazıram, o saat deyirlər: "sən qəmiş qoyma".

Yazıram ki, müxalifət qoymur sakit yaşamağa, bir müxalifətçi çıxır qarşıma, deyir: "sən qəmiş qoyma".

Deyirəm ki, bəzi vəzifəlilərə heç dana otarmaq da tapşırmaq olmaz, həmin vəzifəlilərin qohumları qabağımı kəsir deyirlər ki, "sən qəmiş qoyma".

Yazıram ki, balaca bir ölkəyə bu qədər partiya lazım deyil, başqanlardan biri mənə zəng vurub salam-kəlamsız deyir: "sən qəmiş qoyma, özümüz bilərik".

Deyirəm ki, bu qədər qəzet buraxmazlar, heç camaatın pulu da çatmır bu qəzetləri almağa, qəzetçilərdən biri öz qəzetində məni "yıxıb-sürüyür", ağzına gələni yazır, başlığını da qoyur: "Sən qəmiş qoyma".

Yazıram ki, haqsızlıq, ədalətsizlik baş alıb gedir, deyirlər: "sən qəmiş qoyma, qoy işimizi görək. Haqsızlıq, ədalətsizlik insan cəmiyyəti yaranandan var".

Soruşuram, ata-babalarınız Mirzə Cəlilə, Sabirə, Əbdürrəhim bəyə o zamanlar çox "qəmiş qoydular", indi onları tərifləyirsiniz, niyə? Cavab verirlər: "ata-babalarımız bilər, biz bilərik, sən qəmiş qoyma".

Mən isə deyirəm, yazıram ki, sizləri özbaşına buraxmaq olmaz! Qəmiş də qoyacağam, hələ o tərəfə də keçəcəyəm! Sizin də balalarınız gələcəkdə məndən danışarlar, bəsimdir!

### Səbir et!

***("Molla Nəsrəddin" jurnalında dərc olunmuş "Nəsihəti-hukəma"ya nəzirə)***

Ey mənim ağıllı, qanacaqlı, oturub-duruşunu bilən, böyük-kiçik tanıyan qardaşım, sən gərək biləsən ki, alimlər deyiblər: Səbir elmin başıdır. Yəni hər hansı bir hadisə baş versə, cürbəcür bədbəxtliklərə düçar olsan, məsələn, evin yansa, ailən-uşağın məhv olsa, dünya başına fırlansa, gündə bir haqsızlıqla, ədalətsizliklə qarşılaşsan, gərək səbir edəsən.

Dünyada elə işlər olur ki, onlara heç bir çarə tapılmır. Nə edəsən? Özünü öldürəcəksən? Gərək səbir edəsən. Səbir et.

Ey mənim əzizim, hər nə olsa cəhənnəmə, gora olsun, səbir et. Səni söysələr də, döysələr də, dünya-aləm bərbad olsa da, səbir et. Müsəlman ki var, aciz bəndədir, səbir etməkdən başqa çarəsi yoxdur. Səbir et.

Gözümün nuru, qoy demokratiya pərdəsi altında kim nə edir-etsin, cəhənnəmə, gora etsin, sən səbir et.

Qoy müdirlər, rəislər alsınlar-versinlər, özləri bilərlər, cəhənnəmə alsınlar, gora versinlər, sən qarışma. Səbir et. Ondan ötrü ki, biz yazıq bəndələrin əlindən səbir etməkdən başqa bir şey gəlməz.

Kimsə rüşvət alır, qoy alsın, cəhənnəmə alsın, gora alsın. Düşünmə ki, sənə niyə vermirlər? Deməli, o o yerin adamıdır, sən də bu yerin. Səbir etməkdən başqa çarən qalmır. Səbir et bala, səbir et.

Dadaş, başımıza nə bəla gəlsə, deməli, Allah tərəfindən gəlir, sən aciz bəndənin gücü nəyə çatır? Ancaq səbir etməyə! Səbir et.

Vəzifələrin çoxunu başdan boş, cibdən dolu adamlar tutur, sən ki, tuta bilmirsən. Heç tutmalı da deyilsən. Hamı vəzifədə ola bilməz ki! Çarən nəyə çatır? Səbir etməyə. Səbir et.

Yer haqqı, göy haqqı səbir etməkdən başqa çarəmiz yoxdur.

Ticarətçilər, biznesmenlər gündə yetmiş iki min hiylə işlədir, xalqı soyur, talan edirlər. Cəhənnəmə soyurlar, gora talan edirlər. Əlindən nə gəlir? Səbir et.

Adam var ailəsinə bir qəpik qıymır, arvadı, uşaqları cır-cındır içində gəzir, amma toylarda camaatın başına pul səpir, özünü göstərir. Sənə nə var onun ailəsi, uşaqları cır-cındır içində gəzir? Cəhənnəmə gəzir, gora gəzir. Sən səbir et.

Yaşamaq üçün o bunu aldadır, bu onu. O buna kələk gəlir, bu ona. Yəni oyunbazlıq edirlər. Bizim kimi dilsiz-ağızsız, qoyun-quzuya bənzəyən bəndələr nə edə bilərlər? Səbir etməkdən başqa çarəmiz varmı? Səbir et qardaşım, səbir et.

Vallah, billah, səbir etməkdən başqa əlimizdən heç nə gəlmir. Qoy kim nə edir-etsin, cəhənnəmə etsin, gora etsin. Sən səbir et qardaşım, səbir et, səbir et...

### Reklam

Başınız sağ olsun, qalanlara Allah ömür versin, bir nəfər ölür, gedir o dünyaya. Uzaqdan musiqi, çal-çağır səsi eşidilir. Yaxınlaşır, görür burada kefdir. Musiqi bir tərəfdə, huri-qılmanlar bir tərəfdə, yemək-içmək bir tərəfdə. Quşlar cəh-cəh vurur. Gül bülbülü çağırır, bülbül də gülü. Xülasə, adam baxanda hayıl-mayıl olur.

Soruşur ki, bura haradır, deyirlər cəhənnəmdir. Ömrünü bizlərə bağışlayıb gedən də fikirləşir ki, bu dünyada çox fırıldaq işlər görüb, onsuz da cənnətə gedə bilməyəcək, elə cəhənnəm də pis deyil. Odur ki, dillənir:

– Məni göndərin cəhənnəmə.

Arxasından bir təpik vurub atırlar cəhənnəmə. Görür paho, burada nə musiqi var, nə huri-qılmanlar,




nə yemək-içmək, nə də quşların cəh-cəhi. Baxır ki, bədheybət inkir-minkirlər mizan-tərəzi qurublar, özlərinin də əllərində yekə-yekə toppuzlar kəsdiriblər bunun başının üstünü, haqq-hesab soruşurlar. Yalan danışsa, toppuzlar dəyəcək başına. Qorxa-qorxa heyvərə bir inkür-minkirdən soruşur:

– Bəs bura cəhənnəm deyil?

İnkir-minkir cavab verir:

– Özüdür ki, var!

Rəhmətlik soruşur ki, bəs haradadır o gördüyüm kef, huri-qılmanlar?..

İnkir-minkirlər daha qoymur kişi sözünü bitirsin, toppuzu təpəsinə ilişdirib, cavab verir:

– Ay bədbəxt, sənin gördüklərin reklam idi…

### Gərək xeyrini biləsən…

Hamı bilir, bir işə başlayıb axıra çıxanda oturub götür-qoy edərlər ki, görək bu işin xeyri nə olub, ziyanı nə. Görülən işlərin uzun çəkəni də olur, gündəliyi də. Uzun çəkən işlərdən biri partiya yaradıb demokratiya pərdəsi altında vəzifə tutmaq eşqidir. Gündəlik işlər də ki, cürbəcürdür.

Məsələn, mağazada mal satıb gecənin yarısına qədər qazandığın pulları hesablamaq. Və yaxud birindən şikayət yazıb yoxlamanın nəticəsini gözləmək. Ya da birinə badalaq vurub necə yıxıldığını görmək. Birini vəzifədən salıb ləzzət almaq. Rüşvət alıb yerbəyer eləmək. Onu-bunu gözdən salmaq üçün min cür hiyləgərlik etmək. Və sair və ilaxır. Saymaqla başa gələn deyil.

Partiya qurub vəzifə eşqi ilə yanıb-yaxılmaq, qeyd etdiyim kimi, "şərəfli" işlərdən biridir. Gərək bu işə girişənlər bərkdən-boşdan çəkinməsinlər. Necə deyərlər, "Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu".

Əvvəla, gərək sübut edəsən ki, sən dünyanın ən demokratik adamısan. İkincisi, göstərməlisən ki, səndən başqa yer üzündə siyasətçi yoxdur. Üçüncü də ki, qəzetlərdə, televiziyalarda tez-tez görünməlisən, göz qabağında olmalısan. Hələ bunlar nədir ki?! Gərək "ağı qara", "qaranı ağ" kimi qələmə verməyi bacarasan ki, desinlər kişinin başı hər şeydən çıxır.

Həm də abır-həya, qorxu-zad bilməməlisən, cəsarətli olduğunu göstərməlisən. Bu qəzetlər ki, var, belə şeyləri buraxmazlar, pis oldu, yaxşı oldu, hər şeyi yerli-yataqlı yazıb aləmə car çəkərlər. Bir də görürsən qabiliyyətsizin, bacarıqsızın birindən o qədər yazırlar ki, həmin adam Baş nazir vəzifəsini iddia edir, düşünür ki, deməli, bunda nəsə var.

Bəlkə yadınıza düşər, əvvəllər lotereya alanların hamısı maşın udmaq fikrinə düşürdülər. Lotereya alanların bircəciyi fikirləşmirdi ki, velosiped uda bilər, soyuducu uda bilər, fotoaparat uda bilər. Axırda da nə udsalar yaxşıdır? Bircə manat! Sevinirdilər ki, yaxşıdır bir manatı udublar, o da olmaya bilərdi…

Xülasə, partiya qurub siyasətlə "məşğul olanlar"ın bəziləri nazirdən-zaddan ola bilməsələr də, axırı millət vəkili olurlar. Necə deyərlər, "o olmasın, bu olsun". Xeyrini ki, görürlər!

Millət vəkili olmaq isə hələ azdır, gərək məclisdə azdan-çoxdan danışa biləsən. Yeri gələndə kimi isə "yıxıb-sürüyəsən". Üç düymədən hansını basmaq haqqında düşünəsən. Gərək düyməni basanda xeyrini-şərini fikirləşəsən. Bir adam haqqında lazım gələndə tərif söyləməyi bacarasan, lazım gələndə onu rüsvay edə biləsən.

Dünya gör-götür dünyasıdır, səndən əvvəlkilər necə ediblərsə, sən də elə edəsən. "Adamın bir sifəti olar" ifadəsinə çox da fikir verməyəsən. Belə etsən, tarixdə qalacaqsan. Dəxli yoxdur, tarixdə pis adam kimi qalacaqsan, yoxsa yaxşı adam kimi. Onu buraxmaq olar xalqın öhdəsinə. Əsas odur ki, tarixdə qalasan…

## HAVA

# İlin son günü: dağlarda yağış və qar, aranda yağmursuz...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyinin arabir güclənəcəyi proqnozlaşdırılır.**

Havanın temperaturu gecə 3-5, gündüz 9-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecəyə doğru bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 10-15 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

Gecə bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2643
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00